ISSN 2410-4108
e-İSSN 2411-4109

**AZƏRBAYCAN HƏMKARLAR İTTİFAQLARI KONFEDERASİYASI**
**AZƏRBAYCAN ƏMƏK VƏ SOSİAL MÜNASİBƏTLƏR AKADEMİYASI**

# ƏMƏK və SOSİAL MÜNASİBƏTLƏR

## Elmi-praktik jurnal

# № 1 (21)

*Azərbaycan Respublikası, Bakı şəhəri, Azadlıq pr. 181*
*Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası*
*Tel.: (050) 631-57-90; e-mail:* ***jurnal@aesma.edu.az***
*Jurnal Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının*
*Elmi Şurasının qərarı ilə çap olunur (protokol №5, 29.12 2012)*
*Jurnal Ədliyyə Nazirliyində qeydiyyatdan keçmişdir. Qeydiyyat № 3883. 07.05.2014*
*Jurnal Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının*
***fəlsəfə, sosiologiya və iqtisadiyyat*** *elmləri üzrə tövsiyə etdiyi elmi nəşrlər sırasındadır.*

**BAKI – 2024**

*ƏMƏK VƏ SOSİAL MÜNASİBƏTLƏR JURNALI (JLSR)*
**Elmi, rəyə göndərilən, ildə iki (Elmi Şuranın qərarı ilə 2024-cü ildən 3 dəfə) dəfə nəşr edilən jurnal**
**Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası (AALSR)**

**Fəxri redaktor**
**Səttar S. Möhbalıyev,**
Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri
AHİK, Azərbaycan

**Baş redaktor**
**Hüseyn T. Qaraşov**
AƏSMA, Azərbaycan

**Baş redaktorun müavini**
**Fəhrad F. Möhbalıyev**
AƏSMA, Azərbaycan

**İqtisadiyyat və idarəetmə hissəsinin məsul redaktoru**
**Vilayət İ. İsmayılov**
AƏSMA, Azərbaycan

**Humanitar və Sosial elmlər hissəsinin məsul redaktoru**
**Zeynəddin M. Şabanov**
AƏSMA, Azərbaycan

**Redaksiya heyətinin üzvləri:**

**Qənimət Ə. Səfərov**
AƏSMA, Azərbaycan

**Nurəngiz Y. Mikayılova**
AƏSMA, **Azərbaycan**

**Hicran A. Mirzəyeva**
AƏSMA, **Azərbaycan**

**Azərbaycandan (15 mart 2023-25 oktyabr 2023) və xarici ölkələrdən** dəvət olunmuş alimlər: **Prof. Dr.Ikrom I. Abdullayev, Xorazm Mamuna Akademiyası, vitse-prezident, Urgenç Dövlət Universiteti**, Özbəkistan; **Prof. Dr. Həsən Hüseyn Akkaş,** ABŞ-ın siyasi elmlər bölümü, rəhbər, **Karamanoğlu Mehmetbey Universiteti,** Türkiyə; **Prof. Dr. Rudenko Marina N., Perm Dövlət Milli Tədqiqat Universiteti,** kafedra müdiri, Rusiya; **Prof. Dr. Andrey V. Karpenko, Zaporizhzhya Politexnik Milli İnstitutu,** kafedra müdiri, Ukrayna**; Prof. Dr. Bazar A. Babajanov, Urgenç Dövlət Universiteti,** kafedra müdiri, Özbəkistan**; Prof. Dr. Taner Güney, Karamanoğlu Mehmetbey Universiteti,**kafedra müdiri, Türkiyə; **Prof. Dr. Hacıyev V.İ., Vernadski adına Rusiya Dövlət Xalq Təsərrüfatı Universiteti,** dekan, Rusiya; **Prof. Dr. Karpenko E. Mixaylovna, Belorus Dövlət Universiteti,** kafedra müdiri, Belorus; **Prof. Dr. Arif H. İbrahimov, K.A.Timiryazev adına KTA,** Rusiya; **Prof. Dr. İlham R. Məmmədzadə, AMEA Fəlsəfə və Sosiologiya İnstitutu,** direktor, Azərbaycan; **Prof. Dr. Rafael M. Həsənov, Bakı Dövlət Universiteti,** kafedra müdiri, Azərbaycan; **Prof. Dr. Vəkil Həsənov, Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC),** kafedra müdiri, Azərbaycan; **Prof. Dr. Ramiz K. İsgəndərov, Azərbaycan Texniki Universiteti,** Azərbaycan; **Prof. Dr. Tərbiz Əliyev, Azərbaycan Elm və Təhsil Nazirliyi, İqtisadiyyat İnstitutu,** bölmə müdiri, Azərbaycan.

**JOURNAL OF LABOR AND SOCIAL RELATIONS (JLSR)**
**Scientific, peer-reviewed journal, published twice a year**
**(from 2024 by decision of the Academic Council 3 times)**
**Azerbaijan Academy of Labor and Social Relations (AALSR)**

**Honorary Editor**
**Sattar S.Mehbaliyev,**
ACTU, **Azerbaijan**

**Editor-in-Chief**
**Husein T. Garashov**
AALSR, **Azerbaijan**

**Deputy editor-in-chief**
**Fahrad F.Mehbaliyev**
AALSR, **Azerbaijan**

**Responsible editor for the economic and management part**
**Vilayat I.Ismailov**
AALSR, **Azerbaijan**

**Responsible editor for the humanitarian and social sciences part**
**Zeynaddin M.Shabanov**
AALSR, **Azerbaijan**

**Members of the Editorial Board:**

**Ganimat A.Safarov**
AALSR, **Azerbaijan**

**Nurangiz Y. Mikailova**
AALSR, **Azerbaijan**

**Hijran A.Mirzayeva**
AALSR, **Azerbaijan**

Invited scientists from Azerbaijan (from March 15, 2023 to October 25, 2023) and foreign countries:
**Prof. Dr.Ikram I. Abdullayev, Vice president of Khorezm academy of Mamun, Urgench State University**, Uzbekistan; **Prof. Dr. Hasan Hüseyin Akkaş,** U.S. Department of political science, President, **Karamanoglu Mehmetbey University,** Turkey; **Prof. Dr. Rudenko Marina N.** Head of the Department of Entrepreneurship and Economic Security, **Perm State National Research University,** Russia**; Prof. Dr. Andrii V. Karpenko,** Head of the Department of Economics and Customs, **National University Zaporizhzhia Polytechnic,** Ukraina; **Prof. Dr. Bazar A. Babajanov, Urgench State University, Head of Department,** Uzbekistan; **Prof. Dr. Taner Güney, Karamanoglu Mehmetbey University,** Head of the Department of Economics, Turkey; **Prof. Dr. Parviz İ. Hajiyev,** Dean of the Faculty of Economics, **Vernadsky Russian State University of National Economy,** Russia**; Prof. Dr. Karpenko E. Mikhailovna,** Head of the Department of International Management, **Belarusian State University,** Belarus; **Prof. Dr. Arif H.Ibragimov,** Department of Management, **Institute of Economics and Management of the Agro-Industrial Complex of the Russian State Agrarian University - K.A.Timiryazev Agricultural Academy**, Russia; **Prof. Dr. Ilham Mammadzade, Director of the Institute of Philosophy and Sociology ANAS,** Azerbaijan ; **Prof. Dr. Rafael.M. Hasanov,** Head of the Department of Sociology, **Baku State University,** Azerbaijan; **Prof. Dr. Vakil Hasanov,** Head of the Department, General Humanities, Azerbaijan State University of Economics (UNEC), Azerbaijan; **Prof. Dr. Ramiz K. Isgandarov, Azerbaijan Technical University,** Azerbaijan; **Prof. Dr. Tarbiz Aliyev, Ministry of Science and Education of Azerbaijan, Institute of Economics,** Azerbaijan.

## MÜNDƏRİCAT

## HUMANİTAR VƏ SOSİAL ELMLƏR

**Zeynəddin Şabanov**
**İLHAM MƏMMƏDZADƏ – 70.**
Dünyanın rasional dərkində filosof mövqeyi........................................................... 5
**Faiq Ələkbərli**
Abdulla Surun dünyagörüşündə türkçülük və islamçılıq........................................ 11
**Südabə Haşımova**
Gənclərin peşə müqəddəratını müəyyənləşdirməsinə təsir göstərən
əsas amillər.............................................................................................................. 23
**Muxtar Nəbili**
İdentiklik və diskurs................................................................................................ 32

## İQTİSADİYYAT VƏ İDARƏETMƏ

**Vilayat İsmayilov, Sandur İsmayıl**
Methodology for evaluating an innovative logistics system.............................................. 40
**Emin Əlirzayev**
Sosial müdafiənin təşkilinin prinsipləri və Azərbaycanın sosial müdafiə
sistemində tətbiqi xüsusiyyətləri.............................................................................. 52
**Muminov Fazliddin**
The objective necessity of modeling the neighborhood work system……………. 76
**Hikmat Hasanov**
Event tourism as a catalyst for employment growth in Azerbaijan………………. 85
**Fərid Abbaszadə**
Yeni sahibkarlıq modeli kimi "Yaşıl iqtisadiyyat"................................................ 94
**Fəqan Abbaszadə**
Qida sənayesinin inkişafının əsas prioritetləri....................................................... 100
**Murad Teymurov**
Dövlət və özəl sektorun sosial layihələrdə işbirliyi:
inkişaf üçün bir perspektiv...................................................................................... 107
**Aytəkin Məmmədova, İnam Şirəli**
Beynəlxalq turist axının dayanıqlı iqtisadi inkişafda rolu..................................... 116
**Nəzrin Kərimova**
**Elmi rəhbər: Vüsalə Babayeva**
Gəlir vergi sisteminin təşkilinin nəzəri əsasları..................................................... 126
**Nazənin Mustafayeva**
Xarici ölkələrin vergi sistemləri.............................................................................. 133
**Rövşən Xuduyev, Ramiz Isgandarov**
Ölkələr arasında beynəlxalq münasibətlərin genişlənməsinin
turist aktivliyi, məşğulluq və əhalinin həyat səviyyəsinə təsiri............................. 140
**Pünhan Hüseynov**
Azərbaycanda dayanıqlı inkişafa neft gəlirlərinin təsiri və qeyri-neft
sahələrinin diversifikasiyası.................................................................................... 154
**Sərxan Şirinov**
Vergitutma sferasında dövlətin iqtisadi maraqlarının pozulması
hallarının aşkar edilməsi metodları......................................................................... 165

doi.org/10.61764/lasr.1.2024.5-10

# HUMANİTAR VƏ SOSİAL ELMLƏR

## İLHAM MƏMMƏDZADƏ – 70
## DÜNYANIN RASİONAL DƏRKİNDƏ FİLOSOF MÖVQEYİ

**Zeynəddin Şabanov**
*fəlsəfə üzrə fəlsəfə doktoru, dosent*
*AMEA Fəlsəfə və Sosiologiya İnstitutu, aparıcı elmi işçi,* ***Azərbaycan***
zeynaddin.shabanov@gmail.com
https://orcid.orq/0000-0003-4102-6250

Azərbaycan fəlsəfə elminin görkəmli nümayəndəsi, cəmiyyətdə baş verən sosial hadisə və prosesləri dərin rasional düşüncələri əsasında analiz edən dəyərli ziyalı, maraqlı fəlsəfi mühakimələri ilə tanınmış alim, bacarıqlı təşkilatçı, təcrübəli pedaqoq, AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun direktoru, fəlsəfə elmləri doktoru, professor İlham Məmmədzadə 70 illik həyat yolunda şərəflə addımlamaqdadır. İndiyədək 155-dən çox sanballı məqalə, 9 dərslik və monoqrafiyanı ərsəyə gətirən filosof yaradıcılığında həyatın, elmin, təbiətin, vətəndaş cəmiyyəti və hüquqi dövlətin, insanlığın, etikanın, multikulturalizmin, tolerantlığın, siyasi etikanın, bioetikanın, fəlsəfə tarixinin, kulturologiyanın, politologiyanın, qloballaşmanın, müasir fəlsəfənin aktual problemlərinə dair araşdırmalar aparmış, öz münasibətini bildirmiş, fərqli baxışlar sərgiləmişdir.O, Türkiyə, Rusiya, Ukrayna, Çin, Yunanıstan, Slovakiya, Fransa, Polşa, İtaliya, Macarıstan, İsveçrə, Belarus və s. ölkələrdə keçirilən simpozium,konfrans, konqreslərdə etika, fəlsəfə, politologiya və mədəniyyət problemləri üzrə elmi məruzələrlə çıxış etmiş və dünyanın aparıcı Elmi Mərkəzlərində mühazirələr oxumuşdur.

Filosof öz yaradıcılığında dəfələrlə Qərb fəlsəfəsi və etikasının təhlilinə müraciət etmişdir. Onun N.Makiavelliyə həsr olunmuş əsərləri Rusiyanın və İtaliyanın elmi mərkəzlərində yüksək qiymətləndirilib, müasir italyan və fransız fəlsəfəsi haqqında məqalə və kitabları elm ictimaiyyəti tərəfindən maraqla qarşılanıb. Burada spesifik cəhət ondan ibarətdir ki, qeyri-Avropa mədəniyyəti, o cümlədən Azərbaycan filosoflarının istifadə etdikləri bir çox konseptlər Qərb filosofları tərəfindən əsaslandırılmışdır.

Filosof qloballaşma, informasiya texnologiyalarının hökmranlığı dövründə fəlsəfənin aktuallığının xüsusi əhəmiyyət kəsb etdiyini yazır. İ.Məmmədzadə bununla bağlı məsələləri geniş diapazonda şərh edir. Fəlsəfənin aktuallığını onun necə dərk olunmasında, ona olan tələbatın necə izah edilməsində, onun özünün müasir dövrü nə dərəcədə düzgün təfsir etməsində görür. Filosoflar üçün fəlsəfə, ilk növbədə, ona görə aktualdır ki, o, qədim tarixə malik elm kimi başa düşülür və bir çoxları digər elmlərin ondan qopub ayrılaraq meydana çıxdığını xatırlayır. Fəlsəfənin digər elmlərlə qarşılıqlı əlaqələri aktual məsələlərdən biridir, bu problemin qoyuluşu fəlsəfənin elm üçün aktual olduğunu təsdiq edir, fəlsəfənin elmlərlə qarşılıqlı münasibətlərinin təhlili isə həm digər elmlərlə məşğul olan alimlərə, həm də filosoflara mühakimə yürütmək üçün geniş imkanlar yaradır.

Filosof fəlsəfəni elm adlandıraraq qeyd edir ki, fəlsəfə dünyaya özünəməxsus idraki, tarixi və şəxsi münasibəti ilə fərqlənən spesifik elmdir. İ.Məmmmədzadə fəlsəfənin müəyyən qədər təbiət elmləri ilə bağlı olduğunu söyləsə də, ictimai elmlər içərisində fəlsəfənin əhəmiyyətini xüsusi vurğulayır. Fəlsəfə dünyanın rasional dərkinə, insan azadlığının rasional azadlığına can atır.

Alim Hegelə istinad edərək fəlsəfəni yüksək mədəniyyətin bir hissəsi adlandırır. Belə ki, Hegel də fəlsəfəyə yüksək qiymət verərək onu mədəniyyətin qanı adlandırır. Mədəniyyət insanların fövqəlbioloji fəaliyyət, davranış və ünsiyyət proqramlarının mürəkkəb sistemi kimi anlaşıla bilər. Bu proqramlar biliklə, ideallarla, etik normalarla, davranış modelləri ilə əlaqəlidirlər. Fəlsəfə həm də mədəniyyətin elə bir hissəsidir ki, o yeni ideallar, dünyagörüşü mənalarını, davranış standartları və modellərini generasiya etməklə mədəniyyəti dəyişdirmək imkanlarına malikdir. Fəlsəfə mədəniyyətin özünüdərk məqamıdır. Fəlsəfə anlayışlara yeni mənalar, yeni anlamlar yükləməklə mədəniyyətin bir bütövlük və sistem kimi dərkini modelləşdirmiş olur.

Alim fəlsəfənin ictimai və humanitar elmlərlə qarşılıqlı əlaqələri məsələsinin öyrənilməsini həm fəlsəfənin özü, həm də cəmiyyət üçün faydalı hesab edir. Azərbaycan dünyaya açıqlıq şəraitində transformasiya, müasirləşmə, vətəndaş cəmiyyətinin milli təşəkkülü vəziyyətindədir. Gerçəkliyin mürəkkəbləşməsi prosesinin baş verməsini, bu isə həmişə idrak, şüur, yaradıcılıq, filosofluq etməyin növləri, əxlaq, siyasət və elmdə müxtəlif differensiasiyalar (ayrılmalar, fərqlənmələr) və əlaqələr nəinki mütəxəssislər üçün, hətta idarəetmə ilə məşğul olanlar, fəal mövqeyə malik vətəndaşlar üçün maraqlı olduğunu söyləyir.

Alim fəlsəfə tarixinin millətin mədəniyyəti üçün, milli özünüdərkin inkişaf etdirilməsi üçün lazım olduğunu bildirir. Fəqət fəlsəfə yalnız fəlsəfə tarixindən ibarət deyil və bundan başqa, müasirliyi müəyyən dərəcədə anladan keçmişin dərindən dərk edilməsinə nail olmaq mümkün deyil. R.Rorti də belə hesab edirdi ki, filosoflar keçmişin obrazlarına yalnız ədəbiyyəti dərk etmək ümidləri kəsildikdən sonra müraciət ediblər. Gələcək və keçmiş yalnız indiki zamanın başa düşülməsinin tamamlayıcısıdır. Bu günün fəlsəfəsinə yiyələnmək fəlsəfə tarixinə də yeni aktuallıq keyfiyyəti verir.

İ.Məmmədzadə qeyd edir ki, fəlsəfə təkcə fəlsəfə tarixi demək deyildir, müasirliyin müəyyən anlamına yiyələnmədən keçmişin dərkində dərinləşmək mümkün deyildir. Filosoflar gələcəyin obrazlarına yalnız əbədiyyətin dərkinə olan ümidlərini itirdikdən sonra müraciət etdlər.Gələcək və keçmiş yalnız indinin anlamının istiqamətini müəyyən edir. İndinin fəlsəfəsinə yiyələnmək fəlsəfənin tarixinə və aktuallığına yeni keyfiyyət gətirmiş olur. Bəzi klassiklərimizdən imtina etməyimizə baxmayaraq keçmiş hələ də xətti təsəvvür olunur. Keçmiş barədə təsəvvürlərin tamlığı alternativ yanaşmalara, o cümlədən bəzi klassiklərin mətnlərinin yenidən nəzərdən keçirilməsinə ehtiyac hiss olunur. Bu mədəni və tarixi kontekstin əhəmiyyətinin daha geniş aşkarlanmasına, dövrlərin dəyişməsi konseptlərini, biliklə hakimiyyətin qarşılıqlı əlaqəsinin və s. aydın təsəvvürünə xidmət edəcək. Belə ki, keçmişin indi üçün əhəmiyyəti barədə fəlsəfədə çoxlu maraqlı məsələlər yazılıb, lakin bizə keçmişin dərki baxımından indinin əhəmiyyətini də anlamaq gərək olur.

Müasirliyi anlamadan, biliklərin necə qavranılmasına tənqidi yanaşmadan inkişaf edən fəlsəfəyə, fəlsəfə tarixinə nail ola bilməyəcəyik, yəni o, ehkamalar toplusuna cevriləcəkdir. Fəlsəfə o zaman müasir və aktual olur ki, öz mühakimələrini yoxlayır, keçmişin mətnlərinin interpretasiyasının və yenidən oxunmasının bizim həm indi, həm keçmiş və həm də gələcəklə bağlı anlamlarımızı dəyişdirdiyinin fərqində olur.

Alim bildirir ki, filosof fəlsəfənin universal xarakterinə, XX əsr Qərb fəlsəfəsinin özünün ən yaxşı nümunələrində dərk etdiyi və bizim hələ yaxın düşmədiyimiz, lakin anlamalı olduğumuz məsələlərə etinasız yanaşmamalıdır.Çağdaş dövr dərk olunmadan, biliklərin necə əldə olunduğuna tənqidi münasibət göstərilmədən inkişaf edən fəlsəfə, fəlsəfə tarixi mövcud ola bilməz, o, ehkamlar yığınına çevrilə bilər. İ.Məmmədzadə vurğulayır ki, fəlsəfə öz müddəalarını yoxlayan zaman, keçmişin mətnlərinin təfsir və təkrar təfsirinin həm indinin, həm keçmişin və hətta gələcəyimizin tərəfimizdən dərk olunmasını dəyişdirdiyi başa düşülən zaman müasir və aktual olur. Belə ki, məsələn, bizim ictimai şüurumuz üçün ideallarin böyük əhəmiyyəti var, amma bu gün aydın olur ki, onlar

doi.org/10.61764/lasr.1.2024.5-10

dəyişkən, müvəqqəti və keçicidir. Bu halı filosof olduqca çətin, mürəkkəb və hətta ağrılı məsələ adlandırır.

Etika və dinin qarşılıqlı əlaqələrinə münasibət bildirən alimin fikrincə, bir zamanlar etika və dini əxlaq hökm sürürdü, buna görə də filosoflar Kainat və Mütləq olanın əbədi ədaləti barəsində fikirlərə üstünlük verirdilər, sonra fizika, biologiya, iqtisadiyyat yüksəldi, elə buna görə də «pozitiv fəlsəfə» üstünlük təşkil etməyə başladı və biliyin prioritet təşkil etdiyi dövr başladı. Əsas odur ki, heç də hər bir bilik hər hansı iyerarxiyanın dəyişkənliyini müəyyən və izah edə bilmir. Beləliklə, özün tənqidi yanaşmağa qadir olan xüsusi biliyə, bilik və elm, bilik və hakimiyyət arasında xüsusi münasibətlərin yaradılmasına ehtiyac formalaşır. Burada söhbət həm də ayrı-ayrı biliklərin, nailiyyətlərin əsl dəyərini əks etdirən fəlsəfi bilikdən gedir.

Filosof əmindir ki, əxlaq cəmiyyət üçün olduqca vacibdir. Konkret hallarda isə əxlaqın tələb və normalarının pozulmzası baş verir. İnsanların bəzən etik mühakimələrə etibar etməməsinin səbəbləri üzərində düşünərkən bildirmək lazımdır ki, fəlsəfi etika keçmişdə həmişə real praktikada, mənəvi tərbiyə sahəsində iştirak edirdi. Təəssüflə qeyd etmək olar ki, hazırda o etibarını və mövqelərini itirməkdədir.

Filosof əxlaq və şüurun fəaliyyətinin konkret nəticələrə çevrildiyini söyləyir. Lakin bu onların roluna əhəmiyyət verməmək, onların cəmiyyətə təsir mexanizmləri barəsində düşünməmək üçün səbəb deyil. Fəlsəfə tarixi, elə fəlsəfənin özü də, insanların nə haqda düşündüklərini, nəyə can atdıqlarını və onların düşüncələrinin maddi olanların yaradılmasına necə gətirib çıxardaraq yenidən bərpa etməsini lazım bilir. Platonun, Aristotelin, Nizaminin və b. əsərlərini oxuya bilərik, lakin onları təfsir edənləri də başa düşmək, öz dövrlərinin anlamı kontekstində onların ideyalarına fikir vermək lazım olduğunu söyləyir.

Alim tanınmış politoloq S.Hantinqtonun geniş əks-səda doğurmuş «Sivilizasiyaların toqquşması» əsərinə münasibət bildirərək söyləyir ki, əsər mümkün olan toqquşmadan xilas olmaq yollarının nədən ibarət olduğunu dərk etmək cəhdini göstərdi. Filosofun fikrincə, bu kitab qlobal siyasət fəlsəfəsindən, qarşılıqlı əlaqələrdən bəhs edir və onların risklərini dərk etməyə çağırır, bu əsər dünyanın üzləşə biləcəyi təhlükələrdən xəbər verir. Buna görə də filosof fəlsəfə tarixi ilə yanaşı sosial fəlsəfənin də böyük əhəmiyyətə malik olduğunu qeyd edir. Bütün fəlsəfə sosial fəlsəfəyə müncər olunur, çünki bütün risklər müasir dövrdən qaynaqlanır, buna görə də fəlsəfənin bütün qalan digər istiqamətləri, cərəyanları, sahələri ona tabe olmalıdır.

Bu gün cəmiyyəti sosial fəlsəfədən başqa sosiologiya, siyasi elmlər və s. öyrənir. Bunu müsbət hal hesab edən alimin fikrincə, onlar cəmiyyət haqqında informasiya təqdim edir, lakin təcrübədən alınan məlumatları təhlil etmək üçün həmin bu işə fəlsəfə cəlb edilməlidir. Anlamaq lazımdır ki, təcrübəyə dair məlumatlar natamam bilikdir, onları keyfiyyətli surətdə yenidən dərk etməyə, müxtəlif məlumatları və Fukonun ifadəsini başqa cür desək, «söz və şeyləri» müqayisə etməyə yalnız fəlsəfə qadirdir. Filosof məlumatları kəmiyyətcə müqayisə edərək bu fikrə gəlir ki, müxtəlif elmlərin verdiyi məlumatlardan faydalanmaq lazımdır, bunu işi isə, yəni fənlərarası tədqiqatlar dili olmağı, yalnız fəlsəfə bacara bilər. Xüsusi bir dil kimi o, həm politoloqlar, həm kulturoloqlar və s. tərəfindən anlaşılan ola bilər və anlaşılmalıdır.

Bir halda ki, sosial fəlsəfə və daha geniş götürsək, fəlsəfə ictimai elmlər arasında əlaqələndirici bənd kimi çıxış edə bilir, o, qloballaşma, müasirləşmə, milli inkişaf ilə bağlı olan bütün məsələlərin «yoxlanılabilən» olmasına imkan yaratmalıdır. Mürəkkəb gerçəklik sosial fəlsəfədən fərdiyyət mühitinə nüfuz etməyi, onu anlamağı, bundan başqa, müasir qloballaşma və modernləşmə əsrinin xüsusiyyətlərini daha dərindən dərk etməyi, milli və fərdi identiklik, metafızika və s. bu kimi anlayışları yenidən mənalandırmağı tələb edir. Və bu mənada o, həm digər fəlsəfi, ictimai və humanitar elmlər üçün, həm də cəmiyyətin özü

üçün aktual olaraq qalır. Əlbəttə, sosial fəlsəfə haqqında düşüncələr bizi fərdi, tək olanın yeni rollarının axtarışına, bu işdə etika, estetika, aksiologiya və fəlsəfi antropologiya və genderin faydalı ola biləcəyinin dərk olunmasına gətirib çıxarır.

Filosof bildirir ki, əgər sosial fəlsəfə cəmiyyətin ideoloji problemlərinə laqeyd yanaşırsa, onda onun özü artıq inkişaf etmir, cəmiyyət ictimai ilə əlaqəni itirir, əvəzində isə təbii, ictimai şüurun arxaikləşməsi prosesi güclənir. Bundan başqa, söhbət təkcə həmin biliklərin yayılmasından yox, həm də biliklərin alınması və dərk edilməsindən, onların yoxlanılmasından gedir və yalnız bu mənada şüura təsir məsələsi aktuallaşır.

Milli dövlət, milli identiklik hazırda dövrün çağırışlarına universal cavab kimi çıxış etməkdədir. Bildirək ki, postsovet ölkələrinin xalqları Avropaya nisbətən öz identikliklərinin axtarışlarına daha çox vaxt ayırırlar. Əslində isə Avropadan kənar dünyada milli identikliyin formalaşması və inkişafı onunla bağlıdır ki, milli identiklik, fundamentə dövlətin müstəqilliyin qoyur və bu səbəbdən də müasirliyin çağırışlarına cavab verməklə, vəhdətləşən dünyada millətin gələcəyinin modern layihələndirilməsini həyata keçirə bilir. İ.Məmmədzadənin fikrincə,etnik və dini identiklik milli identikliyin bir hissəsidir. Millli identikiliyin mərkəzində müstəqil dövlət,vətəndaşların öz dövlətçiliyini yaratmaq, möhkəmləndirmək və inkişaf etdirmək bacarığı və qabiliyyəti durur. Xalqın tarixi onun vətəndaşları üçün yalnız o halda əhəmiyyətlidir ki, orada dövlətçiliyin və milli müstəqilliyin təşəkkülü yollarının vurğuları doğru yerləşdirilmişdir. Filosof bildirir ki, Azərbaycan xalqının milli identikliyinin, milli ideyanın və müvafiq milli ideoloji bazisin formalaşması və inkişafı, tarixə yeni baxış qismində fəlsəfənin köməyilə milli-mədəni kontekstdə anlaşılmalıdır.

Öz növbəsində Azərbaycan xalqının milli identikliyinin, müvafiq milli özünü dərkinin inkişafı etnik və konfessional komplementarlığı əsaslanmaqdadır.

Hər bir ideologiyanın nə zamansa tükənəcəyini bildirən filosof, hansısa bir ideologiyanın tükənməsini mədəniyyətə zərbə adlandırmayaraq XX əsrdə bu məsələlərin mahiyyətinin M.Fuko, Y.Habermas, S.Hantinqton, F.Fukuyama tərəfindən ətraflı tədqiq edildiyini vurğulayır. Diskurs və hakimiyyətin qarşılıqlı münasibətləri problemlərini, diskursiv təcrübələrin mümkün transformasiya tiplərinin təhlilini, müasirləşmə və milli özünüdərk, qloballaşma və liberal şüur və s. arasında qarşılıqlı əlaqə məsələlərini daha dərindən araşdırıldığını söyləyir. Belə məsələlərin hazırda Azərbaycanda, Avropa ölkələrində, Türkiyədə, Rusiyada və ABŞ-da da müzakirə edilməsini zəruri hal hesab edir. Onun fikrincə, S.Hantinqtonun «Biz kimik?» Amerikalı milli identikliyinin çağırışları adlı əsəri həmin məsələlərin dərk olunmasına həsr edilib. Bu sahədə yerli fəlsəfi ədəbiyyatda milli ideologiya, fəlsəfə və ictimai elmlərin qloballaşma şəraitindəki problemlərinə həsr edilmiş və cəmiyyətdə qızğın müzakirə və mübahisələrə səbəb olmuş əsərlər özgünlüyü ilə seçilməlidir.

Filosof tanınmış ABŞ alimi F.Fukuyamanın məşhur «Tarixin sonu» əsərinin liberal ideologiyanın təşəkkülü xüsusiyyətlərinə, liberal demokratiya prinsiplərinin izahına, onun bugünkü dünyada üstünlük təşkil etməsinin səbəblərinə həsr olunduğunu, amma onun «Amerika yol ayrıcında», «Böyük uyğunsuzluq» adlı əsərlərinin liberal ideologiyanın zəif cəhətlərinin üzə çıxarılması ilə bağlı olduğunu söyləyir. O, Fukuyamanın ideologiya məsələlərinə yanaşmasındakı bu fərqləri ona görə qeyd edir ki, ictimai, siyasi, mədəni və iqtisadi inkişafın mürəkkəbləşməsi və sürətlənməsi prosesləri ideologiya, ictimai reallıq, cəmiyyət, insanın gələcəyinin qarşılıqlı münasibətləri xüsusunda təhlil və düşüncələrin əhəmiyyətinin dərk olunmasına gətirib çıxarır.

Sosial münasibətlər müxtəlif insanlar tərəfindən onların bunu dərk edib-etmədiklərindən asılı olmayaraq yaradıldığını bildirən filosof qeyri-müəyyənliyin, riskin artdığını, lakin yeni imkanların da yarandığını bildirir. Yeri gəlmişkən, həmin proses bu və ya digər dərəcədə bütün ölkələrdə gedir, amma bəziləri imkanlardan istifadə edir, elmə, ideologiyaya səmtləşmənin

doi.org/10.61764/lasr.1.2024.5-10

köməyi ilə riskləri azaldır, başqaları isə qloballaşma və modernləşmənin müxtəlif variantlarına qarşı mübarizə apararaq ictimai həyat prosesinin fərdiləşməsini dayandırmağa çalışırlar. Məhz fərdiyyət müxtəlifliyi həm ideologiyanın, həm də müasir fəlsəfənin qarşısında daha ciddi tələblərin qoyulmasına səbəb olur. Onlar müxtəlif fərdiyyət tiplərinə səmtləşməli, müraciət etməli olaraq sonunculara müxtəlif davranış modelləri təklif etməlidir. Buna görə də sosial fəlsəfədən, bütün sosial elmlər blokundan söz gedən zaman hakimiyyət və cəmiyyət, fəlsəfə və ideologiya, ənənəvilik və innovasiyalar, yeniliklər arasında əlaqələrin yeni metod və formalarını tapmaq tələb olunur ki, fərd və onun daxil olduğu müxtəlif birliklər cəmiyyət bilik, elm və etibara, inama əsaslanmış olsun.

Bu kontekstdə İ.Məmmədzadə etiraf edir ki, çox vaxt «azad» fəlsəfə, politologiya, sosiologiya professorlarının köməyi ilə müxtəlif ideologiya modelləri yaradan Qərbin vətəndaş cəmiyyəti dövləti həddindən artıq ağır ideoloji yükdən azad edir, onun ideoloji və digər əsaslarına təhlükə yaratmır. Vətəndaş cəmiyyətinin yenicə təşəkkül tapmağa başladığı ölkəmizdə isə bu vəzifə dövlət-vətəndaş cəmiyyətinin hazırlığına universal institusional siyasi və mədəni cavabdır.

Filosofun fikrincə, XX əsrin ən tanınmış filosoflarının həqiqətin nisbi olduğuna, bir-birini istisna edən fikirlərin plüralizminə yönəlikliyi klassik fəlsəfənin yalnız bəzi baza kateqoriyalarnın (mütləq subyekt) inkarına gətirib çıxarır, amma, məsələn, fənlərarası tədqiqatların, linqvistik məkanın, mətnlərin və s. müqayisəli araşdırmalarının inkişafına kömək edir. Hələ də insan və cəmiyyət arasında mütləq vəhdəti axtarıb tapmaq üçün indiki insan artıq seçim azadlığı şəraitində yaşayır, o, bir çox məsələlərdə müstəqildir, lakin müxtəliflikdə, fərqlərdə birliyin, ümumiliyin əleyhinə deyil. Hər bir mədəniyyət təhlükələrdən ehtiyat edir, onun qorxuları təzələnir və ya fərdlərə sirayət edir. Buna görə də filosof, bir tərəfdən, fərd kimi onlardan çəkinir, digər tərəfdən, onların səbəblərini üzə çıxarmalı, onların aradan qaldırılması yollarını göstərməlidir. Bunun üçün o, özünün və cəmiyyətin qarşısında sualların verilməsi və onlara cavab tapılmasının metodologiya və metodlarını göstərir. Həm də ki, söz fərdiyyətdən getdikdə filosof psixologiya, sosial psixologiya və sosiologiyanın, söhbət cəmiyyətdən getdikdə isə kulturologiya, politologiya və sosiologiyanın köməyindən faydalanır.

Filosofun fikrincə, institusional yenidənqurmanın deyil, həm də alimlərin dünyanın elmi mərkəzləri ilə əlaqələrinin genişləndirilməsi, inkişaf etdirilməsi, yeni elmi yanaşma və tendensiyaların axtarışlarını da ehtiva etməlidir. Elm inkişaf etdikcə yeni prioritetlər üzə çıxır. Filosof qeyd edir ki, prioritetlər həmişəlik, dəyişməz olmur, onları dəqiqləşdirmək, təshih etmək, genişləndirmək yaxud məhdudlaşdırmaq lazım gəlir. Belə ki, elmdə ənənəvilikdən uzaqlaşmaq çətindir, ondan imtina etmək ağırdır, lakin inkişaf yenilik, novatorluq tələb edir. Prioritetlərin əvəzlənməsi ciddi problemlər doğurur. Dissiplinar tədqiqatlardan multidissiplinar araşdırmalara necə keçmək, bu zaman hansı metoddan istifadə etməyin lazım olduğunu bilmək zərurət kəsb edir.

Hazırda süni intellekt problemi ilə bir sıra elmlər dərindən maraqlanır, onun öyrənilməsini öz predmetinə daxil edir. Qeyd edək ki, tədqiqatçı və mütəxəssislər süni intellektə bağlı 350 minə yaxın layihə üzərində işləyiblər. Son illər bu istiqamətdə işlər daha da intensivləşərək daha da genişlənib. Süni intellekt indi fərdi və sosial həyatın əsasında dayanır desək, yəqin ki yanılmarıq. Belə ki, artıq süni intellekt insan həyatının dərinliklərinə baş vurur, onun həyat tərzinin, dəyərlərinin, dünyagörüşünün, strateji məqsədlərinin, düşüncəsinin, maraqlarının dəyişilməsinə səbəb olur.

Filosofları da süni intellektin mahiyyəti, onun şüur və təfəkkürlə münasibəti, intellekt və süni intellekt arasındakı fərq məsələləri düşündürür. Ondan istifadənin fəlsəfəni necə dəyişdirdiyi, hansı problemləri aktuallaşdırdığı və bunun nəticəsində fəlsəfənin də dəyişməsinin şahidi oluruq. Süni intellekt bir kompüter sistemləri və

doi.org/10.61764/lasr.1.2024.5-10

proqramlarına, qeyri-səlis və qeyri-konkret məlumatlar əsasında işləmə və nəticələrə, biliklərdən istifadə və onların toplanmasına aid ideyalara, rəqəmsal texnologiyalara, tədrisə, yəni insan intellektinin funksiyalarının əvəzlənməsi deyilən proseslərə aid olan bütün məsələlərdir. Filosofların bəziləri, rəqəmsallaşmanın, kompüterləşmənin və internetin mənəvi dəyərlərə vurduğu zərərlərdən də çox danışırlar. Doğrudur, belə hallar vardır. Amma hər məsələ ölçü daxilində gözəldir. Ölçüyə əməl edilsə problemlər intişar etməz. Belə məsələlərin təhlili bizə fəlsəfənin və digər elmlərin hansı istiqamətdə inkişaf edəcəyini və onların hansı funksiyalarına diqqət yetirməyin zəruri olduğunu müəyyən-ləşdirməyə və proqnozlaşdırmağa imkan verəcəkdir.

Süni intellekt məsələsi İ.Məmmədzadənin də son dövrlər çox müraciət etdiyi sahələrdəndir. O, öz tədqiqatlarında süni intellektin problem kimi bariz surətdə ifadə olunmuş fəlsəfi və etik aspektinin olduğu, onun və o cümlədən Lütfizadənin qeyri-səlis məntiqinin elm fəlsəfəsi üzrə araşdırmaları dərinləşdirməyə, onun mənti-qindən, ideyaları, materialları məcmusundan elm fəlsəfəsi və tarixində, o cümlədən fəlsəfə tarixində, fəlsəfənin digər sahələrində istifadə edilməsi ilə məşğul olmağa imkan verəcəyi dərk edilir. Bu problemə fəlsəfi yanaşma onun yalnız aşkar olunmasının deyil, həm də tətbiq edilməsini və bunun nəticələrinin başa düşülməsini, həmçinin bunun fəlsəfənin özünü necə dəyişdirəcəyi barədə düşünməyi nəzərdə tutur. Filosof bildirir ki, süni intellektin ictimai və humanitar fənlərdə yaratdığı imkanlar, onların təkmilləşdirilməsi, fənlərarası araşdırmaların inkişafı və nəticələrin yoxlanılması üçün yaratdığı şərait barədə düşünmək lazımdır. Bununla belə, alim qeyd edir ki, daha çox məntiq və epistemologiya ilə məşğul olan filosoflar süni intellekt məsələsinə diqqət yetirməyin üstünlüyünü önə çəkməklə fəlsəfənin obyektinin hüdudlarının genişləndirirlər.

Dövlətimiz tərəfindən filosofun əməyi qiymətləndirilmiş, fəxri fərmanlarla təltif edilmiş, mükafatlandırılmışdır. Rusiya Elmlər Akademiyasının nüfuzlu nəşrlərinin redak-siya heyətinin üzvlüyünə qəbul edilmiş filosof həm də "Dünya alimləri sülh uğrunda" beynəlxalq hərəkatının fəal üzvlərindən biridir.

İnstitutun beynəlxalq əlaqələrinin genişlənməsinə də xüsusi diqqət yetirir. Belə ki, İlham Məmmədzadənin peşəkar rəhbərliyi altında institutun Türkiyə, Rusiya, Özbəkistan, Çin, İtaliya, Fransa, Bolqarıstan, İran, Belarus kimi ölkələrin elmi mərkəzləri ilə sıx əməkdaşlığı yaranıb.

İ. Məmmədzadənin təşəbbüsü ilə hər il Bakıda və Moskvada "Əliyev qiraətləri" təşkil olunur, burada nüfuzlu alimlər fikir mübadiləsi aparır, ideyalarını irəli sürür, sosial-siyasi və ictimai-mədəni hadisə və proseslərə münasibət bildirirlər. Rusiyanın fərqli ensiklopediyalarında məqalələrin müəllifi kimi də postsovet respublikaları üçün tanınmış ziyalıdır.Müxtəlif ölkələrdə keçirilən Dünya Fəlsəfə Konqreslərində Azərbaycan elmini yüksək səviyyədə təmsil etmiş, maraqlı və aktual mövzulara alimlərin diqqətini yönəldə bilmişdir.

İlham Məmmədzadə onlarla fəlsəfə doktoru və elmlər doktorunun yetişməsində səyini əsirgəməmiş, onlara Azərbaycan elmini ləyaqətlə təmsil etməsi üçün zəruri təkliflərini vermiş, yol göstərmişdir. İnanırıq ki, filosof öz zəngin yaradıcılığını daha da dərinləşdirəcək, yeni fəlsəfi fikir və ideyalarını bölüşərək elmimizin sonrakı inkişafına töhfələrini verəcəkdir.

***ƏMƏK VƏ SOSİAL MÜNASİBƏTLƏR JURNALININ REDAKSİYA HEYƏTİ PROFESSOR İLHAM MƏMƏDZADƏNİ 70 İLLİK YUBİLEYİ MÜNASİBƏTİLƏ ÜRƏKDƏN TƏBRİK EDİR. YUBİLYARA SAĞLAM ÖMÜR, GÖZƏL HƏYAT TƏRZİ VƏ ELMİ FƏALİYYƏTİNDƏ UĞURLAR ARZULAYIR.***

doi.org/10.61764/lasr.1.2024.11-22

**UOT 1.091**

**Faiq Ələkbərli**
*Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası, **Azərbaycan***
*fəl.f.d., dosent*
*faikalekperov@mail.ru*
*http://orcid.org/0000-0002-8865-568x*

# ABDULLA SURUN DÜNYAGÖRÜŞÜNDƏ TÜRKÇÜLÜK VƏ İSLAMÇILIQ

*Məqalədə qeyd olunur ki, Abdulla Sur yaradıcılığında soydaşlarını, dindaşlarını tərəqqiyə, maariflənməyə səsləməklə yanaşı, islamlıqla türklüyün dirilişi və inkişaf yollarını da göstərmişdir. O, bir tərəfdən hazırda cəhalət, geriçilik dövrünü yaşayan türk-müsəlman xalqlarının problemlərinin əsas mahiyyətini göstərməyə çalışmış, digər tərəfdən Qərbə nisbətdə geridə qalan Şərq xalqlarının, o cümlədən türk-müsəlman millətlərinin çıxış yollarını aramışdır. Azərbaycan türklərinin tərəqqisi uğrunda mübarizə aparan Abdulla Sur hesab edirdi ki, artıq bütün millətlər kimi türk-müsəlman xalqlarının da milli cəmiyyətlər yaratması, milli-dini birliyə nail olması vaxtıdır. Xüsusilə də, milli birlik, yəni Türk xalqlarının birliyi yolunda o, ortaq Türk dilinin olmasını vacib hesab etmişdir. Bizcə, onun dünyagörüşündə Türk-İslam aləminin vəziyyəti və çıxış yolları ilə bağlı irəli sürdüyü bir çox mülahizələr günümüzdə də aktuallığını qoruyub saxlamaqdadır. Məqalədə o da göstərilir ki, Abdulla Surun dünyagörüşündə islamlıq və türklük mühüm yer tutmuşdur. O, islamlığı nəinki müasirləşməyə zidd saymış, əksinə çağdaşlığın, yenilikçiliyin əsasını təşkil etdiyini bəyan etmişdir. Sura görə, bunu iddia edənlər ya islamiyyətin əsil mahiyyətindən xəbərsizdirlər, ya da bilərəkdən cəmiyyətin şüurunu qarışdırırlar. Onun fikrincə,həqiqi mədəniyyət islamiyyət deməkdir, əsl mədəniyyət nə isə islamiyyət də odur. Sur Türkiyə türkləri və Azərbaycan türklərinin həm dillərinin, həm də soyköklərinin bir olduğunu bəyan edirdi. Onun fikrincə, sadəcə Osmanlı türkcəsi Azərbaycan türkcəsinə nisbətən bir qədər çətin anlaşılır. Buna səbəb də Osmanlı türkcəsinin ərəb-fars dillərinin təsirinə daha çox məruz qalmasıdır. Bu baxımdan da o, yazı üslubunda Azərbaycan ədəbi türkcəsinin Osmanlı ədəbi dilinə oxşadılmasının əleyinə olmuşdur. Sur hesab edirdi ki, ortaq türkcə Osmanlı və Türkiyə türklərinin mümkün olduğu qədər, ərəb-fars dillərindən kənarda formalaşmalı və inkişaf etməlidir.Sur məqalələrində 20-ci əsrin əvvəllərində aş vermiş erməni-müsəlman münaqişələrinin mahiyyətini, o cümlədən "erməni xisləti"nin fəlsəfəsini açıb göstərməyə çalışmışdır. Buradan aydın olunur ki, "Türkyə hüdudunda Qars oblastı ilə İrəvan vilayəti"nin türklərdən təmizlənməsi təsadüfi olmamış, gələcəkdə bu torpaqların hesabına "erməni dövləti"nin yaranmasına zəminlər yaradılmışdır.*

***Məqsəd*** – A.Surun maarifçilik və ictimai-siyasi görüşlərini, o cümlədən türkçülük, islamlıq ideyalarını təhlil etmək.

***Metodologiya*** – müqayisəli təhlil, varislik, ideyaların ötürülməsi, analiz.

***Tədiqatın nəticələri*** – A.Surun ideyaları ilə çağdaş dövrün ictimai-siyasi və ideoloji tələbləri arasında uzlaşdırmaların axtarılması

***Açar sözlər*:** *islamçılıq, Türk-İslam birliyi, türkçülük, ruslaşdırma, farslaşdırma, turançılıq, maarifçilik*

## Giriş

Azərbaycan Türk mütəfəkkiri Abdula Sur (Abdulla Məhəmmədzadə Tofiq) 23 iyul 1883-cü ildə Gəncədə anadan olub. Bunu, Surun çağdaşlarından olan Hüseyn bəy

Mirzəcamalov irəli sürmüşdür. O, yazırdı ki, Sur Tiflis xəstəxanasında olarkən onunla görüşmüş və tərcümeyi-halını da əldə etmişdir. H.Mirzəcamalov Sur vəfat etdikdən sonra onun tərcümey-halını "İqbal", "Təzə xəbər" qəzetlərində nəşr etdirmişdir. Sur həmin tərcümeyi-halında hicri tarixi ilə 21 ramazan 1299-cu ildə, miladi təqvimə görə isə 23 iyul 1883-cü ildə Gəncədə dünyaya gəlməsini yazmışdır(Mircamalov 1912, "Təzə xəbər" qəzeti, № 31). Tədqiqatçı Əbülfəz İbadoğluna görə isə, Sur 3 avqust 1883-cü ildə Gəncədə anadan olmuşdur (İbadoğlu 1968, "Azərbaycan" jurnalı, №1). Ancaq digər tədqiqatçı-alim Cəlal Qasımova görə burada A.Sur kiçik qüsura yol vermişdir, çünki hicri miladi tarixlə 1883 deyil, 1882-ci ildir (Qasımov 2004, 15).Akademik Kamal Talıbzadə isə Surun doğum tarixi kimi əvvəlcə 23 iyul 1883-cü ili doğru görsə də, sonunda hesab etmişdir ki, Surun anadan olduğu tarix 23 iyul 1882-ci ildir (Talıbzadə 2014, 225).A.Surla bağlı ən son arşadırma aparanlardan tədqiqatçı-alim Mehdi Gəncəli onun doğum tarixi kimi 6 avqust 1882-ci ili qeyd etmişdir (Genceli 2021, 19).

O, ilk təhsilini məhəllə məktəbində alıb burada şəriətlə, ərəb və fars dilləri ilə tanışlığı başlayıb. Sonra təhsilini şəhərin ən nüfuzlu təhsil ocaqlarından sayılan Gəncə Məktəbi-xeyriyyəsində davam etdirən A.Sur dini və dünyəvi elmləri, o cümlədən fars və ərəb dillərini öyrənmişdir. Məktəbi-xeyriyyədə dünyəvi elmlər kimi riyaziyyat, həndəsə, coğrafiya, kimya fənləri tədris edilirdi. O, 1898-ci ildə təhsilini bitirərək Məktəbi-xeyriyyədə müəllimlik etməyə başlamışdır. Akademik K.Talıbzadə yazırdı: "Abdulla Sur hərtərəfli savada malik, məlumatlı gənc müəllim və maarif xadimi idi. 1903-cü ildə "Şərqi-Rus" qəzetinin nəşri onun mühərrirlik yaradıcılığına başlaması üçün ilk imkan yaradır. Həmin ildə maarif və mədəniyyət məsələlərinə dair məqalələr çap edən Sur doqquz il fasiləsiz mətbuatda çalışır. "A.Sur", "Məhəmmədzadə", "Qafqasiyalı", "A. Tofiq", "Abdulla Məhəmmədzadə", "Gəncəli", "Bir adam" və sair imzaları ilə müxtəlif mövzularda məqalələr yazır, dərsliklər tərtib edir" (Talıbzadə 1978, 262).

O, "Şərqi-Rus" qəzetinin baş redaktoru Məhəmməd Ağa Şahtaxtlının dəvəti ilə Tifliisə gedərək qəzetdə müsəhhih (hərf düzən) sifəti ilə çalışmışdır. 1905-ci ilin yanvarında həmin qəzet bağlandıqdan sonra Sur Gəncəyə qayıdaraq Bakıda nəşr olunan "Həyat", "İrşad", Bağçasaraydakı "Tərcüman" qəzetlərinə məqalələr göndərmişdir.

1906-cı ilin martında təhsilini davam etdirmək üçün İstanbula gedən Sur üç ilə yaxın burada oxumuşdur. 1906-cı il martın 6-da İstanbula gedən Abdulla Surun İstanbul Darülfu-nunun (Universitetinin) Ədəbiyyat-Tarix fakültəsinə daxil olduğu iddia olunur (Fərəcova 2017, 6).Ancaq A.Surun İstanbul Darülfununun Ədəbiyyat-Tarix fakültəsinə daxil olması və həmin universiteti bitirməsi ilə bağlı hələlik, rəsmi bir sənəd aşkarlanmayıb. A.Surun araşdırmaçılarından tədqiqatçı-alim Mehdi Gəncəli yazır ki, A.Tofiq tərcümeyi-halında İstanbuldakı təhsil ilə bağlı sadəcə "xüsusi oxudum" yazmış, İstanbul Darülfunundan bəhs etməmişdir. M.Gəncəli yazır: "Bu dönəmdəQafqasyadan gələn öyrəncilərin İstanbulda bir sıra bürokratik əngəllərləqarşılaşdığı bilinməkdədir. Qafqasyada verilən məktəb diplomları, Darülfununa başlamaq üçün yetərli görülmədiyindən bu tələbələr İstanbulda bir idadi (lisey) proqramı tamamladıqdan sonra Darülfünuna qeydolabilmişlərdir. Abdulla Tofiqləeyni tarixdəİstanbula gələn Hüseyn Cavid, Naxçıvana göndərdiyi məktublarında bu durumu təfsilatıyla anlatmışdır. Cavid, idadi diplomunu aldıqdan sonra universitetə başlamış, Tofiq isə möhtəmələn özəl təhsil almaqla yetinmişdir" (Genceli 2021, 19-20).

Bütün hallarda vaxtının çoxunu kitabxanalarda keçirərək, Türk ədəbiyyatına dair materialları oxuyan Surun yaradıcılığına İstanbul mühiti böyük təsir göstərmiş o, daha çox ədəbiyyatşünaslıqla bağlı məqalələr yazmağa başlamışdı.Sur İstanbulda yaşadığı dövrdə qələmə aldığı "Türk ədəbiyyatına bir nəzər" əsərini isə 1908-ci ilin payızında tamamlamışdır.

1908-ci ilin noyabrında yenidən Quzey Azərbaycana-Gəncəyə qayıdan Sur, Gəncənin

Ruhani seminariyasında türk dili və tarix müəllimi kimi pedaqoji fəaliyyət göstərmişdir. Azərbaycan Türk aydınlarından biri olan Nağı Şeyxzamanlı (Keykurum) yazırdı ki, Abdulla Surun İstanbulda təhsil almasında mühüm rol oynayan Məhəmməd Hüseyn Rəfiyev onun Mədrəsə-i Ruhaniyədə qalıb müəllim kimi fəaliyyətinə davam etməsində də əsas rol oynamışdır (Keykurum 1958, 57).

Həmin dövrdə müəllim-pedaqoji fəaliyyət göstərməklə yanaşı A.Sur ədəbi tənqidlə də məşğul olaraq fikir mübadiləsini ədəbiyyatın inkişafına istiqamət verən amillərdən biri saymışdır. Bu baxımdan o, Gəncənin ədəbiyyat dərnəkləri və cəmiyyətlərində də fəal iştirak etmişdir. Məsələn, onun başçılıq etdiyi "Ədəbiyyat və sənayeyi-nəfisə cəmiyyəti"ndə ədəbiyyat və incəsənət əsərlərinin müzakirəsi keçirlimişdi.

Ömrünün gənc çağlarında "kor bağarsaq"xəstəliyinə tutulan A.Sur 1912-ci ilin mayın 8-də Tiflis xəstəxanasında vəfat etmiş, bir neçə gün sonra da nəşi Gəncəyəgətirilərək buradakı şəhər məzarlığnda dəfn olunmuşdur. Onun vəfatı ilə bağlı Gəncədə böyük matəm mitinqi keçirilmişdir. Surun dəfn mərasimində Nəsib bəy Yisifbəyli, şeyxülislam Məhəmmədəli Pişnamazadə, Ələkbər bəy Rəfibəyov, Xudat bəy Rəfibəyov, Həsən bəy Ağayev,Cavd bəy Cuvarlinski və başqaları iştirak etmiş, vida nitqləri söyləmişlər (Qasımov 2004, 30).

Tanınmış yazıçı-mütəfəkkir Abdulla Şaiq xatirələrində Abdulla Suru milli və vətənpərvər ruhlu ziyalı kimi xarakterizə etmişdir. Şaiq yazırdı: "Azərbaycanın ən qiymətli müəllimlərindən Abdulla Tofiq ilə arabir məktublaşırdıq. Türkiyədə təhsil görmüş olan bu gənc müəllim, "Abdulla Sur" imzası ilə bir çox tənqidi əsərlər yazan bu gənc münəqqid Hamid və Tofiq lisanının böyük düşməni idi. Yazdığı məktublarında Məhəmməd Hadi və Əlabbas Müznibin lisanından bəhs edərək: "Bunlar bizi nəreyə götürür?" – deyə şikayətlənirdi. Məktublarından birində Əhməd Cavaddan bəhs edərək yazırdı: "Tələbələrimin içində Cavad adlı gənc bir şair var. Mənə oxuduğu ilk mənzumələri gələcəyə böyük ümidlər verir. Lisanı sadə və gözəldir. Sonra mənim nəzm və nəsr lisanımdan bəhs edərək bu yolda davam etməmi tövsiyyə edirdi" (Şaiq 1978, 384-385).

Türk dünyasının tanınmış şair-mütəfkkiri Hüseyn Cavid də Abdulla Surun vəfatı ilə bağlı "Mirzə Abdulla Məhəmmədzadə, yaxud A.Sur – Abdulla Tofiq" başlıqlı məqaləsində qeyd edirdi ki, onun gənc yaşda ölümü Türk milləti, Azərbaycan türkləri üçün ikiqat böyük bir itki olmuşdur. Onun fikrincə, Mirzə Ələkbər Sabir və Molla Ruhullanın vəfatları nə qədər acı olsa da, Surun ölümü daha da acı, amansız olmuşdur. Cavid yazırdı: "Üçüncüsü isə bu iki mərhumun (Sabir və Molla Ruhulla nəzərdə tululur – F.Ə.) heç biri ilə qəbul qiyas olmaz. Çünki onlar kamilən olmasa belə yenə az-çox yaşayıb və istədikləri qədər millət və vətənlərinə ifai-xidmət edə bilmişlərdir.Bu isə (yəni A.Sur – F.Ə.), hənuz yeni-yeni qol-qanad açıb, təşəbbüsatda bulunub vətən yavruları üçün, onların tərəqqiyatı üçün çalışıb-çabalamaqda ikən, ölüm, o acı həqiqət, o müdhiş qüvvət fürsət vermədi" (Hüseyn 1984, 217-218).

H.Cavid daha sonra qeyd edirdi ki, A.Sur millətini düşünən, onu sevən və uzaqgörən bir mütəfəkkir idi. O, yazırdı: "Əvət, mərhum Abdulla Sur pək çalışqan, pək sahibi-məslək, pək himmətli bir müəllim idi. Həm də pək durbin (uzaqgörən), pək münəqqid bir ədib idi. Qafqas torpağı bir dəpək güc öylə cavanlar yetişdirə bilər.Onun haqqında beş-üç sətir deyil, tərcümeyi-hal olmaq üzrə yüzlərcə səhifə yazıb doldurmaq icab edər.Abdulla Tofiq ölmədi, öləməz. O yaşar, tarixin ağuşi-səmimiyyətində, millətin qəlbində yaşar" (Hüseyn 1984, 218).

Azərbaycan Türk ədəbiyyatı taixinin banisi, mütəfəkkir Firudin bəy Köçərli də Abdulla Sura böyük dəyər verməklə yanaşı müəllifi olduğu "Azərbaycan türklərinin ədəbiyyatı tarixi" əsərinin Gəncə şair və yazıçıları bölümünün hazırlanmasında onun əməyini etiraf etmişdir (Firidun Bəy Köçərlinin şəxsi arxivi, 2006, 184).

Həmin dövrdə Bakıda nəşr olunan qəzet-jurnallarda məqalələri yayınlanan Sənətulla İbrahimov isə Abdulla Surun vəfatı ilə yazırdı: "Yüksəl, ey böyük Türk, böyük könül!

Yüksək duyğu sahibi, böyük könül!. Yüksək duyğu sahibi, böyük ruhpərvər əməl… Millət yaşadıqca, millət yüksəldikcə millətin ruhu ilə, amalı ilə sən də yüksələcəksən!.. Və biz də sənin məzarının üzərində baş əyərək, yaş tökərək yalnız – Yüksəl, ey kokəb əməlpaş! – deyərək ədəbiyyata vida edəcəgiz”(İbrahimov 1912, №59).

Qeyd edək ki, A.Surun vəfatı ilə bağlı Əli Nəzmi, Əli Razi Şəmçizadə, Hüseyn bəy Mirzəcamalov və başqaları da nekroloq səciyyəli məqalələr yazmışlar.

Onun ən məşhur əsərləri“Türk ədəbiyyatına bir nəzər”, “Elm-i iqtisad”dir. “Türk ədəbiyyatına bir nəzər”kitabının tərkib hissəsi kimi Surun“Füzuliyə bir nəzər”, “Nəfiyə bir nəzər”, “Sinan paşaya bir nəzər”, “Bir Türk şairəsi Nigar xanım”, “İbrahim Şinasi”,“Namiq Kamal”, “Nədim”və başqa dəyərli əsərləri mühüm yer tutur.

**Surun yaradıcılığında ortaq Türk dili məsələsi**

Sur Türkiyə türkləri və Azərbaycan türklərinin həm dillərinin, həm də soyköklərinin bir olduğunu bəyan edirdi. Onun fikrincə, sadəcə Osmanlı türkcəsi Azərbaycan türkcəsinə nisbətən bir qədər çətin anlaşılır. Buna səbəb də Osmanlı türkcəsinin ərəb-fars dillərinin təsirinə daha çox məruz qalmasıdır. Bu baxımdan da o, yazı üslubunda Azərbaycan ədəbi türkcəsinin Osmanlı ədəbi dilinə oxşadılmasının əleyinə olmuşdur. Sur hesab edirdi ki, ortaq türkcə Osmanlı və Türkiyə türklərinin mümkün olduğu qədər, ərəb-fars dillərindən kənarda formalaşmalı və inkişaf etməlidir.

Ancaq Surun fikrincə, bütövlükdə Türkiyə və Azərbaycan türklər vahid Türk millətinin övladları və vahid türk dilinin təmsilçiləridir. Bu mənada, Sur da M.Ə.Sabir kimi, “osmanlı dilindən türk dilinə tərcümə” anlayışını qətiyyən qəbul etməmişdir. O, “Tərcüməmi, təbdil və yaxud təhvilmi?” məqaləsində əvvəlcə yazırdı: “Osmanlı milləti-nəcibəsinin xalis “türk” olduğunu heç bir tarix, binaəleyhi heç bir fərd inkar edə bilməz! Əvət, osmanlılar türk, dilləri də türk dilidir. Bu milləti-aliyyə biz Qafqaz müsəlmanları dində olduğu kimi, lisanca da qardaşdırlar. Yəni onlar da türk, bizlər də türküz. Aramızda bir fərq var isə, o da ləhcə və şivəmizdə, bir də osmanlı üdəbasının ərəb və fars ədəbiyyatlarına tüğl edərək əlfazi qəribə-qəribə istemal istəmələrindədir. Odur ki, bunların yazdıqlarını oxuyub anlamaq bizcə güc olur. Zira osmanlılar bu halları ilə türklükdən çıxmazlar” (Sur 1910, “Günəş” qəzeti, № 102).

Sur yalnız dövrünü deyil eyni zamanda, bu günümüzü də görərək Türk birliyi baxımından dil birliyinin vacibliyini əsaslandrmağa çalışmışdır. Bu baxımdan o, daha sonra yazırdı: “İndi baxalım: “Osmanlı şivəsində, Osmanlı ləhcəsində yazılmış bir türk kitabını Azərbaycan türkcəsinə tərcümə etmək” demək səhihmidir, yoxsa qələtmidir? Binaəleyh, əvvəlcə tərcümənin nə olduğunu anlayalım. Budur, önümdə duran Şəmsəddin Sami bəy həzrətlərinin “Qamusu-ləfzi”sini açıb baxıram: tərcümə - bir lisandan digər lisana döndərmə. Anlaşıldımı? Osmanlıllar ilə azərbaycanlılar bir millət və bir lisanda olduqları üçün,Osmanlı türkcəsindən Azərbaycan türkcəsinə tərcümə etmək demək qələt, həm qələti-fəhşdir”(Sur 1910, “Günəş” qəzeti, № 102).

Çox təəssüflər olsun ki, Surun təbrincə desək, bu gün də Türkiyə türkcəsindən Azərbaycan türkcəsinə “tərcümə” edənlər vardır. Şübhəsiz, bunun adı da “qələt, həm qələti-fəhşdir”, yəni kökündən yanlışdır.

A.Sur hesab edirdi ki, tatar türklərinin dili ilə Türkiyə türklərinin şivələrində müəyyən fərqlərdən bəhs edildiyi halda, bunu Türkiyə türkləri ilə Azərbaycan türklərinə aid etmək mümkün deyildir. O, yazırdı: “...Tatarca ilə İstanbulcanın arasında tərkibat, tələffüz və ləhcəyə xeyli fərq vardır. Bizdə isə o qədər uzaqlıq yoxdur. Lisanımızın təqsimatı da bunu göstəriyor. Turani əqsamindən olan “türkcə” qərbi, şərqi, şimali adları ilə üçə bölünüyor. Qərbi olan şöbə osmanlıca, türkcə və İranda müsəməl şivələrdən ibarətdir. Türkcə bizimkidir. İkinci qism olan şərqi şöbəsi isə tatar, qırğız, türkman, cığatay, kaşfər və altayı dillərindən və və şimali sinfi isə şimalda yakut və sairədən ibarətdir” (Sur 1906, “İrşad”

qəzeti, № 264).

"Türk tarixi" adlı məqaləsində də Sur, bir millətin varlığında və inkişafında milli dilin, milli kültürün önəminin nə qədər böyük olduğunu vurğulamışdır. O, yazırdı: "Filhəqiqə başqa qüvvətli bir millətin içində əriyib yox olmaq istəməyən millətlər öz dillərinə, öz ədəbiyyatlarına, milli adətlərinə dörd əlləriylə sarılmalıdırlar, fəqət mühafizəkarlıqla deyil, tərəqqi etməkləyaşamalıdırlar" (Sur 1910, "Həqiqət" qəzeti, № 152, 153).

Gördüyümüz kimi, A.Surun Türk dilinə və türklüyə münasibəti dəqiq və aydın olmuşdur. O, birmənalı şəkildə Azərbaycan və Türkiyə türklərinin ortaq türk dilinə, ortaq soykökünə sahib olmasını vurğulamışdır. Eyni zamanda, o, bir qədər fərqli şivələrdə danışan, ancaq soy kökü bir olan Türk xalqlarının Turan məfkurəsi altında birliyini də mümkün görmüşdür.

**Surun yaradıcılığında "erməni separatizmi"nin ifşası**

A.Surun yaradıcılığında 1905-1906-cı illərdə Çar Rusiyasının imperiya maraqları çərçivəsində gerçəkləşdirdiyi erməni-müsəlman münaqişəsinə də müəyyən qədər yer verilmişdir. O, bu münaqişəyə həsr etdiyi məqalələrində ermənilərin maşa kimi imperiya tərəfindən istifadə edilməsinin səbəblərini və Azərbaycan türklərinin hədəf seçilməsinin təsadüfi olmamasını göstərməyə çalışmışdır. Məsələn, o, "Kiş deyirsən getməyir, vurursan ölür" məqaləsində erməni-müsəlman münaqişəsinin əsil mahiyyətini, xüsusilə də erməni daşnakçılarının türklüyə qarşı nifrətinibu yöndən izah etmişdir. O, yazırdı: "Quru ədalardan, yalanlardan bir şey çıxmaz, saxta mətah kimi qaytarılar. Yox, əgər cəmi mülkədarlar və sərmayədarlar "nüfuzlu" sayılır isə, o surətdə daşnakstüyonların iki gözü, sağ qanadı milyonçu Əliyar bəyimizdən də daha "nüfuzlu"dur. Buna görə də bu qədər erməni təcavüzlərinin başını o vücudlar bir barmaq işarəsi ilə millətçi daşnaksütyonları dayandıra bilər" (Sur 1906, "İrşad" qəzeti, № 31).

Sura görə, erməni-müsəlman münaqişəsini türklərin-müsəlmanların üzərinə yıxmaq da planlı şəkildə düşünülmüşdür. O, yazırdı: "Məqalə sahibi kirvəni sözlərindən çıxan budur ki, bu qədər qanlı hadisata Gəncə müsəlmanları səbəb olmuşlar. Gəncə şəhərini və qəzasını (uyezd) müsəlmanlar cəhənnəmə döndərmişlər. Zatən erməni millətçilərinin işi böylədir. Mərd özündən görər, namərd yoldaşından!.. Bunu da ki, biz yazmadıq. İnşallah, gələcək məqaləmizdə də bu barədə yazarız. Həqiqət o vaxt ortaya çıxar, doğru ilə yalan o zaman aşkar olar. Ancaq bu qədər deyirəm ki, sülhdən sonra ermənilər yaşayan kəndlərə gedən müsəlmanları əsir tutub, axırda da öldürən hankı tərəfdir? Gəncə qəzasında bir neçə para xırda müsəlman kəndlərini zir və zəbər edib dağıdanlar hankı tərəfdir? Şimdi, Gəncə şəhərini və qəzasını cəhənnəmə döndərənlər kimlər olduğu məlummu ya?" (Sur 1906, "İrşad" qəzeti, № 31).

Sur başqa bir məqaləsində isə ermənilərin "separatizm" ideyasının mahiyyətini ifşa etmişdir. Separatizmin humanizmə zidd olduğunu irəli sürən Sur yazırdı ki, erməni daşnakçılarının Qafqazda bu çür çirkin oyunlar oynaması təsadüfi deyil. Burada əsas məqsəd bəzi bölgələrdə iç-içə yaşayan erməniləri türkləri qarşı qoymaq və türkləri öz doğma yurd-yuvalarından didərgin salmaqdır. O, yazırdı: "Bilməm, bəlkə "separatizm" (ayrılıq) istəyir-siniz? Böylə isə bu başqa məsələ.Əfəndim bunda da yanlış gediyorsunuz. Bu heç mümkün deyil!.. Qafqasiyamızda sizin üçün separatizm əsla mümkün deyil. Qafqasiyada bu fikrə səfsətəpərdaz daşnaksütyun yazıçılarından başqa heç kim düşməz. Bu fikrə qoyun laməhalə gürcülər ilə dağıstanlılar düşsünlər ki, onlar başqa millətlərlə qarışıq deyil, deyiləcək dərəcədə top yaşyırlar. Məvərayi-Qafqasiyada isə müsəlmanlar ilə ermənilər qarışıqdırlar. Nə müsəlmanlar ermənilərin içindən çıxıb torpaqlarını ermənilərə verib bir tərəfə çəkilməzlər, nə də ermənilər eylə yapmazlar" (Sur 1906, "İrşad" qəzeti, № 50).

Cəlal Qasımova görə Surun bu mülahizəsi öz dövrü üçün prinsipcə doğru mülahizə idi.

C.Qasımov yazır: “Nəzəri baxımdan burada elə bir yanlışlıq yoxdur. Hətta maraqlıdır ki, dünya təcrübəsi də bu amilin doğruluğunu sübut edir. A.Sur da lazımi dəlillər gətirir. Yazır ki, İsveçrə də nemeslər ilə firənglər, macarlar ilə də nemeslər çox yaxşı, rahat yaşayırlar. Lakin açınacaqlı olsa da, son illərin hadisələri dünya təcrübəsinin əleyhinə olan faktları da ortaya çıxardı. Eyni zamanda, A.Surun millətlərin qarışıq halda yaşamaları barədəki elmi nəticəsi, təəssüf ki, zərbə altında qaldı. İndi Ermənistan ərazisində bir nəfər də olsun azərbaycanlı qalmamışdır” (Qasımov 2004, 60-61).

Erməni millətçilərinin separatizm ideyasının arxasında gizlənən niyyətlərini ustalıqla ifşa edən A.Sur yazırdı ki, türklərin bəlli ərazilərdən, xüsusilə də İrəvan və ətrafdakı yurd-yuvalarından köç etdirilməsi əvvəlcədən planlaşdırlmışdır. O, yazırdı: “Daşnaksütyunçular! Çox bildiyinizdən özünüzü itirmişsiniz. Bir azca özünüzə gəlin!Separatizm Qafqasiyada sizin üçün müyəssərmi? Xoruzun quyruğu görünməyə başladı. Siz daşnaksütyunçular “separatizm”ə çalışyor imiş! Bəli! Zənnimcə, erməni qövmi ilə müsəlman qövmi bir bəhanə ilə çırpışdırıb erməniləri “Qars” oblastı ilə “İrəvan” vilayətinə toplarsız. Oradakı müsəlmanları da Gəncə, Bakı vilayətlərinə qaçmağa məcbur edərsiz. O vəqt erməni qövmünü Türkyə hüdudunda Qars oblastı ilə İrəvan vilayətinə toplarsınız. Sonra da hökumət ilə çırpışıb separatizmə nail olarsınız. Digər tərəfdən də Samsun, Zeytun, Muş, Van, Səlmas erməniləri də sizə iltihaq edərlər, məramnıza çatarsınız. “Böyük Ermənistan” dövlətini təşkil etmiş olarsınız. Katalikosunuz da məşhur arzusuna çatar: “Ermənistan padşahına dualar oxuyar, onun başına öz əli ilə tac qoyar!”.Xeyir olsun, yaxşı yuxudur! Dadlı umaşdır! Əfsus ki, qaşığı yanında deyil!”(Sur 1906, “İrşad” qəzeti, № 50).

Sur bu məqalələrində 20-ci əsrin əvvəllərində aş vermiş erməni-müsəlman münaqişələrinin mahiyyətini, o cümlədən “erməni xisləti”nin fəlsəfəsini açıb göstərməyə çalışmışdır. Buradan aydın olunur ki, “Türkyə hüdudunda Qars oblastı ilə İrəvan vilayəti”nin türklərdən təmizlənməsi təsadüfi olmamış, gələcəkdə bu torpaqların hesabına “erməni dövləti”nin yaranmasına zəminlər yaradılmışdır.

**A.Surun “Türk ədəbiyyatına bir nəzər” fundamental əsəri və ədəbi-tənqidi görüşləri**

Abdulla Surun ədəbi-tənqidi görüşlərini öyrənmək də çox vacibdir. Onun ədəbi-tənqidi görüşlərini araşdıranlar arasında Əbülfəz İbadoğlu, Kamran Əliyev, Kamal Talıbzadə, Cəlal Qasımov, Mehdi Gəncəli və başqaları olmuşdur.

Akademik Kamal Talıbzadə hesab edir ki, Abdulla Surun ədəbiyyat tarixinə həsr olunmuş məqalələrinin o zaman üçün müasir əhəmiyyəti böyük idi: “O, klassik irsi təbliğ və təhlil etmək yolu ilə, eyni zamanda ədəbi inkişafa kömək edirdi. Ədəbiyyatda ideyalılıq, elm ilə sənətin əlaqəsi, novatorluq, təqlidçilik və onun ziyanları, həyatı doğru əks etdirmək və s. kimi məsələlər onun bu məqalələrində yeri gəldikcə izah olunurdu” (Talıbzadə 1984, 222).

Akademik İsa Həbibbəyli “Ədəbiyyatşünaslıq elminin formalaşması prosesləri” məqaləsində yazır ki, XX əsrin əvvəllərində ədəbiyyat tarixçiliyi istiqamətində araşdırmaların genişləndirilməsi Azərbaycan cəmiyyətində xalqın milli-mənəvi özünüdərk proseslərinin genişlənməkdə olması ilə əlaqədar idi: “Yazıçı və şairlərin milli-mənəvi özünüdərk və oyanış sahəsində ədəbiyyatda həyata keçirdikləri böyük işi tənqidçi və ədəbiyyatşünaslar elmi-nəzəri və ədəbi-tarixi əsərlərin yazılması ilə yerinə yetirirdilər. Bu dövrdə yazıçıların da həmin proseslərə qoşulması ilə elmi-ədəbi mühitdə yazıçı-ədəbiyyatşünas, şair-tənqidçi formatında yaradıcı qüvvələr formalaşmışdır. Şair - ədəbiyyatşünas kimi çıxış edən Abdulla Surun bədii yaradıcılıqla eyni səviyyədə ədəbiyyatşünaslıq fəaliyyəti ilə də ardıcıl məşğul olması və araşdırmalarında ədəbiyyat tarixçiliyinə üstünlük verməsi onun cəmiyyətdə və ədəbiyyatda getməkdə olan milli-mənəvi özünüdərk proseslərində daha geniş miqyasda iştirak etməsinin nəticəsi idi. Bu baxımdan Abdulla Surun “Füyuzat” jurnalında 1907-ci ildə

çap olunmuş "Füzuliyə bir nəzər" adlı məqaləsi "Azərbaycanda Füzuli araşdırmalarının təməli"hesab olunur. Bundan başqa, Abdulla Surun "Türk ədəbiyyatına bir nəzər", "Ədəbiyyati Osmaniyyə" kitabları da ədəbiyyat tarixi istiqamətində yazılmış elmi araşdırmalardan ibarət olub, ayrı-ayrı dövrlərdə yaşayıb-yaratmış yazıçı və şairlərimizi yeni nəsillərə tanıtmağa xidmət edir"(Həbibbəyli 2022, "525-ci qəzet" qəzeti, 2022, s.14,15,19).

Surun İstanbulda yaşadığı dövrdə qələmə aldığı "Türk ədəbiyyatına bir nəzər" əsərinin ümumTürk ədəbiyyatında, o cümlədən Azərbaycan ədəbiyyatında və ədəbi-tənqidi sahədə özünəməxsus yeri vardır. Bununla bağlı tədqiqatçı Cəlal Qasımov yazır: "Gənc alim "Türk ədəbiyyatına bir nəzər" adlı 1000 səhifəlik əsərini də İstanbulda tamamlayır. Həmin il (1908-ci il – F.Ə.) A.Sur əsəri "Molla Nəsrəddin" jurnalına təqdim edir" (Qasımov 2004, 20). Bununla bağlı doğrudan da, 1908-ci ilin sonlarında "Tərcüman" qəzetində və "Molla Nəsrəddin" jurnalında xəbərlər getmişdir.

"Molla Nəsrəddin" jurnalının14 dekabr 1908-ci ildə işıq üzü görən 50-ci sayısında Surun "Türk ədəbiyyatına bir nəzər"əsərinin nəşr olunacağı müjdəsi ilə bağlı məlumat getmişdir: "Gəncəli Məhəmmədzadə Abdulla Tofiq əfəndinin "Türk ədəbiyyatına bir nəzər" nam əsəri 1909-cu il fevralın ibtidasından etibarən hər ay başında bir risalə şəklində nəşrə başlanacaq. 25 risalədən ibraət olan bu əsər üç cild üzrə min səhifəlik ədəbi bir əsərdir. Türk ədəbiyyatının dövri-ətiq, dövri-təcəddüd və dövri-cədidinə dair tarixi, ictimai, ədəbi məlumatlar verəcək" ("Molla Nəsrəddin" jurnalı, 1908-ci il, № 50).

Krımda-Bağçasarayda nəşr olunan "Tərcüman" qəzetində bu ədəbi hadisəni "Ədəbiyyat-ı Osmaniyyə"(Yeri gəlmişkən, bu başlıqdan dolayı A.Surun "Türk ədəbiyyatına bir nəzər" əsəri ilə yanaşı, "Ədəbiyyat-ı Osmaniyyə" adlı başqa bir kitabının olduğunu iddia edənlər də var. Halbuki burada söhbət eyni bir əsərdən gedir- F.Ə.) adlı başlıqda xəbər verən tanınmış dövlət xadimi, mütəfəkkir Nəsib bəy Yusifbəyli hesab edirdi ki, naşiri olacağı bu kitab Türk aləmi üçün çox dəyərli bir əsərdir. N.Yusifbəyli yazırdı: "İstanbulda üdəbayi-məşhurədən Əhməd Hikmət və filosof doktor Rza Tofiq bəylərin xüsusi şagirdlərindən gəncəli Məhəmmədzadə Abdulla Tofiq əfəndinin "Türk ədəbiyyatına bir nəzər" əsəri-cəsimini bu ünvan altında böyüklü-küçüklü yigirmi beş risalə şəklində gələcək 1909 sənəsi fevralın ibtidasından etibarən nəşrə başlayacağam. Risalənin hər biri böyücək qitədə 40-200 səhifədən mütəşəkkil olub nəfis kağız üzərində gözəl hürufat ilə basılacaqdır. Sıra ilə ayda bir olaraq şu risalələr nəşr ediləcəkdir: 1) Səttar paşa, 2) Füzuli, 3) Baqi, 4) Nəfi, 5) Səbri, 6) Nabi, 7) Nədim, 8) Rağib paşa, 9) Şeyx Qalib, 10) Akif paşa, 11) Şinasi, 12) Ziya paşa, 13) Kamal bəy ilə Əbüzziya, 14) Hamid bəy ilə Mehrənisə xanım və Əbdühəlim Məmduh bəy, 15) Əkrəm bəy ilə Tahir bəy, 16) Müəllim Naci ilə Əhməd Midhət, 17) Tofiq Fikrət, 18) Nigar xanım ilə Fatma Əleyh və Məqbulə Ləman xanımlar, 19) Səfa bəy, 20) Üşşaqizadə Xalid Ziya, 21) Hüseyn Rəhmi ilə Səfvət və Nəzihi bəylər, 22) Əhməd Hikmət bəy, Məhəmməd Əmin Yurdaqul bəy, 24) Rza Tofiq ilə Fuad bəy və Ehsan xanım, 25) Abdullah Zöhti bəy... "Türk ədəbiyyatına bir nəzər" həman üç min bir qədər səhifəlik əsər olub, isimləri zikr olunan üdəba və şüəra ilə (bir kaçından maəda) daha bir çok səlatini-Osmaniyyənin rəsimləri ilə bəzədiləcəkdir" ("Tərcüman" qəzeti, 1908, № 81).

Ancaq çox təəssüf ki, Surun həmin əsərinin nəşri nəzərdə tutulan tarxdə baş tutmamışdır. Sur özü bununla bağlı yazırdı ki, kitabın nəşr olunmamasına səbəb Əhməd Hikmətin əsərə yazacağı girişin gecikməsi, lazımlı bəzi kitabların İstanbuldan cəlbi və digər əlavələrlə bağlı olmuşdur. O ümid etsə də ki, bu məsələlərin həllindən sonra kitab nəşr olunacaq, lakin onun bu arzusu gerçəkləşməmişdir (Məhəmmədzadə 1909, № 55).

Bütün hallarda o, Türk ədəbiyyatı, o cümlədən Qafqaz Türk ədəbiyyatı tarixi ilə müntəzəm məşğul olmuşdur. Bu baxımdan çağdaşlarından Əli Nəzmi onu "Qafqaz ədəbiyyatının anası" adlandırmışdır (Nəzmi 1912, "İqbal" qəzeti. №93).

Kamal Talıbzadə isə Surun "Türk ədəbiyyatına bir nəzər" kitabı ilə bağlı yazırdı:

"1000 səhifədən və üç cilddən ibarət olan bu əsərin əldə qalmış bəzi fraqmentləri təsdiq edir ki, bir ədəbiyyat tarixi kimi o, həmin dövrdə yazılmş ədəbiyyat tarixlərindən elmi-nəzəri cəhətdən daha üstün imiş" (Talıbzadə 1978, 270).

Onun "Türk ədəbiyyatına bir nəzər" kitabında yer alması nəzərdə tutulan vəədəbi-tənqidi məqalələri arasında yer alan "Füzuliyə bir nəzər"dir. Sur yazırdı ki, Füzulinin şeirlərinin dilində azərbaycanlılığın-türklüyün hiss olunması, əcdadımızın Azərbaycan türklərindən olması haqqında əsaslı zənn vermişdir (Araslı 1998, 320).Kamal Talıbzadə hesab edir ki, ""Füzuliyə bir nəzər" məqaləsində Sur öz qarşısına böyük Azərbayca şairinin bədii yaradıcılığını təhlil etmək məqsədini qoymuşdu: "Müəllif özünəməxsus ümumiləşdirmə yolu ilə şairin həyat və yaradıcılığı haqqında maraqlı, yeni fikirlər söyləmiş, ədəbi irsə qiymət verməyin müasir yolunu göstərmişdir" (Talıbzadə 1978, 278).

Sur həmin məqaləsində hər şeydən öncə hesab etmişdir ki, "Füzuli lisanında məfulibihlər ilə bəzi siqeyi-feliyyələrdə azərbaycançılığın hiss olunması əcdadının Azərbaycan türklərindən olması haqqında bir zənn veriyor" (Sur 1907, "Füyuzat" jurnalı, № 31). Sura görə, Türk ədəbiyyatının nəsr müəssisi Sinan paşa olduğu kimi, nəzmcə müəssisi də Məhəmməd Füzulidir (Sur 1907, "Füyuzat" jurnalı, № 30).

"Türk dili üzrə ilk dəfə mərsiyə yazan Füzulidir"(Sur 1907, "Füyuzat" jurnalı, № 30) mülahizəsini də irəli sürən Sura görə, alim Füzuli ilə şair Füzuliyə vəhdətdə baxmaq lazımdır. Sur yazırdı: "Füzuli şeirə intixab etmədən ikmali-təhsilə çalışdı. Elində, günündə mövcud əqli, nəqli ülum və fünunu təlim elədi. Həm alim, həm şair oldu. Çünki o, "elmsiz şeir əsası yaş divar olur, əsassız duvar qayətdə bietibar olur" qanununu kəndinə düsturi-məşrəb edən şairlərdən olmaq istəyirdi" (Sur 1907, "Füyuzat" jurnalı, № 30).

Sur, Füzulinin "Leyli və Məcnun" əsəri haqqında yazırdı: "Sənətpərdazənə yazılan bu əsər sənət və səlasət nöqteyi-nəzərindən qeyd oluna bilər. Ruhşünasanə bir rəz ilə bundan bir çox gizli-gizli eşq pərdələri rəngin-rəngin sevda səhifələri nəşr edilmişdir" (Sur 1907, "Füyuzat" jurnalı, № 31).

O, Füzulinin həcvdən uzaq olmasını yüksək dəyərləndirmişdir. Sur yazırdı: ""Füzuli, istəməm əşarü mədhü zəmm. Mən aşiqəm, həmi. Sözüm aşiqanədir" - deyir. Füzuli qəsdən mədh və zəmmə göz ilişəcək dərəcədə yaxınlaşmadı. Hələ həcvə heç-heç yaxın durmadı, demək ki, ədəbsiz ədibin dəfinə üzərində yatan yatağana (əfi ilana) bənzədiyini biliyormuş da hissi-əxlaq şairlər kimi bu münasibətsizlikdən qaçıyormuş" (Sur 1907, "Füyuzat" jurnalı, № 31).

Ümumiyyətlə, A.Sur istər "Füzuliyə bir nəzər", istərsə də digər əsərlərində sənətkarın, mütəfəkkirin yüksək əxlaqa sahib olmasına mühüm əhəmiyyət vermişdir. A.Surun fikrincə, bədii əsərin dəyəri bəlağətli, parıltılı, qulaq oxşayan dili ilə deyil, dərin məzmunu, həyat həqiqətlərini düzgünmüşahidə və tədqim ilə ölçülür. Sura görə, sənətkar, mütəfəkkir xalqın adət və ənənələrini qorumağa çalışmalı, eyni zamanda, oxucunun və dinləyicinin hissinə, şüuruna, əxlaqına təsir etməlidir. Sənətkar nəinki ayrı-ayrı fərdlərin, sosial qrupların, bütövlükdə toplumun əxlaqına müsbət təsir göstərməlidir. Yalnız bunlara nail olan sənətkar həmişəyaşar, ölməz sənətkara çevrilə bilər (Qasımov 2004, 105). O, "Nəfiyə bir nəzər" məqaləsində yazırdı: "Şair mənsub olduğu qövmün ruhudur, dilidir. Ona hədyan düşünmək, yalan söyləmək heç yakışarmı? Həqiqətpuş məhalannəvis nazim və mühərrirlərə də şairi-müqtədir, ədibi-kamil ünvanlarının verilməsinə cavab verəlim. Kamillər o bəxtiyarlardır ki, əxlaqın tənqid və müvaxizə təzyiqləri arasından purusuz (həmvar) çıxdılar, sağlam qurtuldular. Əsərləri münəqqidanə mütaliyə olunmayanları kor-koranə təqdir etmək, gəlin olacaq qızı görmədən almağa bənzər ki bu xüsusda qayət ehtiyatkaranə davranılmalıdır" (Sur 1909, "Həqiqət" qəzeti, 1909, №3).

Surun fikrincə, əgər sənətkarın əsil-nəcabətinə, həyat və yaradıcılığına dərindən bələd olmasaq, onun doğru, obyektiv dəyərini də verə bilmərik. Bu zaman da, dəyərli bir insanı

dəyərsizləşdirə, ya da əksinə dəyərsiz birini dəyərə mindirə bilərik. O, yazırdı: "Ulu şəxs həqiqətdə fənaların fənası olsun. Biləks bəslədiklərini o adamdan görməzlər isə surəti-hal tərsinə çevrilir, zavallının rəzil, alçaq bir kimsə olduğuna qol qoyarlar. Vəli o zat eyilərin eyisi olsun"(Sur 1909, "Həqiqət" qəzeti, 1909, №2).

Bu baxımdan o, "Sinan paşaya bir nəzər" məqaləsində Sinan paşanın tibbi, riyazi biliklərlə yanaşı, təsəvvüf fəlsəfəsinə bələd olmasını xüsusilə vurğulamışdır. O, yazırdı: "Sinan paşa həm həkim idi, həm riyaziyyatı bilirdi, həm də təsəvvüfü. Bunun üçündür ki, asarında bir mətanəti-fikriyyə, əfkarında bir ələviyyəti-məniyyə qoxusu duyulmaqda və bir təriqəti-sufiyyə, bir taəti-həqaniyə ruhu uçunmaqdadır" (Sur 1907, "Füyuzat" jurnalı, № 28). Bu məqalədən də anlaşılır ki, A.Sur hər hansı mütəfəkkirin istedadlı olması ilə yanaşı, heç də bundan az olmayaraq ali dəyərlərə sahib olmasını vacib hesab etmişdir. Məsələn, Sinan paşanın riyazi, tibbi biliklərlə yanaşı təsəvvüfə bələd olması onun xeyli dərəcədə kamilliyə yaxınlşamasına işarədir. Bu baxımdan o, Sinan paşanın sənət aləmindəki əsas xidmətini "əxlaqiyyət ilə ədəbiyyatı" birləşdirməsində görmüş, onun "Nəsihətnamə", "Tərznamə" və digər əsərlərini yüksək dəyərləndirmişdir (Sur 1907, "Füyuzat" jurnalı, № 28).

Sur haqlı olaraq hesab edirdi ki, hər bir mütəfəkkir, ədib eyni zamanda, öz dövrünün həqiqətlərini olduğu kimi xalqa çatdırmalıdır. Başqa sözlə, cəmiyyətin sosial-siyasi, iqtisadi, mədəni problemlərini obyektiv şəkildə işıqlandırmağı bacarmalıdır. Bu baxımdan o, Nədimə həsr etdiyi məqaləsində yazırdı: "Binaənəleyh Nədimin bu xüsusdakı müvəffəqiyyəti kəndi zamanının halına tərcüman olmuş olması ilə tərif etmək müvəffəq olur... Əsərləri bu gün blə bizə yabançı görünməz və kəmali-zövq ilə mütalib oluna bilər" (Sur Abdulla. "Türk ədəbiyyatına bir nəzər". AMEA Əlyazmalar İnstitutu, 3577$^{FR\ 544}$).

Bu anlamda Türk ədəbiyyatının yeniləşməsində mühüm rol oynayan İbrahim Şinasiyə böyük dəyər verən Sur, sözügedən əsərində onu belə xarakterizə etmişdir: "Şinasinin şöhrəti-şaiyəsi ilə asari-ədəbiyyəsi müqayisə edilir də, qiyməti şeiriyyə etibarı ilə o əsərləri nəzəri mühakiməyə alacaq olursa, insan bu zatın ehraz etməli olduğuşöhrəti mübalidəli bulmağa meyyal bulunur. Halbuki Şinasinin böyüklüyü şairliyində deyil, bir kaç əsrlərdən bəri təhəkküm etmiş olan tərzi-şeiri qətiyyən hökmdən isqat edərək əski məbnayi-ədəbiyyatı kökündən sarsıtmış olmasındadır. Əski cəryani-ədəbiyi Avropa zövqünə və şeiri təbiilik vadisinə çevirmiş olmaq kimi himməti-məşkurə ibraz etməsindədir" (Sur Abdulla. "Türk ədəbiyyatına bir nəzər". AMEA Əlyazmalar İnstitutu, 3577$^{FR\ 544}$). Sura görə Şinasinin yaradıcılığında üç cəhət: söz, məna və "hikməti-bədaye"dir ki, o, bunların arasında ən çox üstünlüyü sonuncuya vermişdir. Deməli, Şinasinin əsas yeniliyi nəzmdə yeni bir yol açması, yəni şeirdə Qərbdə-Avropada olduğu kimi, sosial-siyasi həyatın tənqidini ifadə etməsi olmuşdur. O, belə bir dövrdə Şinasinin meydana çıxmasının təsadüfi hesab etməmişdir: "...Artıq böylə bir məcburiyyət və bu qədər də hazırlıq olunca, hər kim olursa-olsun bir Şinasinin doğması zəruri idi. İştə Şinasi bu təmayilati-mütəfərriqəyi toplayıb kəndisində mənən bir fikir və niyyət, felən də bir xətti-hərəkət ittixaz edə bilmiş olduğu üçün böyükdür. Şinasinin sağ əli istiqbala uzadılmış oldğuğu halda, sol əli mazidən ayrılmamışdır, demişdim. Fəqət, bundan dolayı Şinasini iki nöqteyi-nəzərdən məzur görmək lazım gəlir. Bir,insan nə qədər mücəddid olursa olsun, içində yetişdiyi cəmaətin, sinəsində böyüdüyü adatın büsbütün mafövqünə çıxamaz və az-çoxonunla əlaqədar bulunur. İkinci məzuriyyət başqa cinsdəndir. Məlumdur ki, ədəbiyyati-ətiqəmizin əski tərz və üslubu kimi mürəttib və cəli bir əsəri-sənət vücudə gətirmək üçün istedadati-fitriyyədən başqa bir şey istər. O hoqqabazlığın yolunu bilməli!.. Bu da bir xeyli zəmanə və br növi-təhsil və tərbiyəyə möhtacdır" (Sur Abdulla. "Türk ədəbiyyatına bir nəzər". AMEA Əlyazmalar İnstitutu, 3577$^{FR\ 544}$).

Ancaq Sur onun böyüklüyünü yalnız Qərb mədəniyyətinin yeniliklərindən təsirlənən əsərlər yazmaqda görmür, eyni zamanda, Şinasinin Türk dilinin saflaşmasındakı əməyini də yüksək qiymətləndirmişdir. O, yazırdı: "Zira, bütün-bütün lisanı türkcələşdirmək və bizi

doi.org/10.61764/lasr.1.2024.11-22

İranla və ərəbə iləläbəd əsir buraxan bu meylin önünü almaq üçün türk sərmayeyi-əlfaz ilə türk qəvaşdi-nəzmiyyəsi ilə şeir yazmaq lüzumunu ima etmiş və belə bir müvəffəqiyyətin bu dərəcəyə qədər möhtəməlolduğunu da göstərmişdir. Sırf türk kəlmələrindən mürəkkəb bir ifadə ilə şeiri vardır" (Sur Abdulla. "Türk ədəbiyyatına bir nəzər". AMEA Əlyazmalar İnstitutu, 3577[FR 544]).

**Nəticə**

Beləliklə, Abdulla Surun dünyagörüşünün əsasında soydaşlarını, dindaşlarını tərəqqiyə, maariflənməyə səsləməklə yanaşı, islamlıqla türklüyün dirilişi və inkişaf yollarını da göstəmişdir. O, bir tərəfdən hazırda cəhalət, geriçilik dövrünü yaşayan türk-müsəlman xalqlarının problemlərinin əsas mahiyyətini göstərməyə çalışmış, digər tərəfdən Qərbə nisbətdə geridə qalan Şərq xalqlarının, o cümlədən türk-müsəlman millətlərinin çıxış yollarını aramışdır. Azərbaycan türklərinin tərəqqisi uğrunda mübarizə aparan AbdullaSur hesab edirdi ki, artıq bütün millətlər kimi türk-müsəlman xalqlarının da milli cəmiyyətlər yaratması, milli-dini birliyə nail olması vaxtıdır. Xüsusilə də, milli birlik, yəni Türk xalqlarının birliyi yolunda o, ortaq Türk dilinin olmasını vacib hesab etmişdir. Bizcə, onun dünyagörüşündə Türk-İslam aləminin vəziyyəti və çıxış yolları ilə bağlı irəli sürdüyü bir çox mülahizələr günümüzdə də aktuallığını qoruyub saxlamaqdadır.

## Ədəbiyyat


Araslı Həmid. Azərbaycan ədəbiyyatı: tarixi və problemləri. Bakı, Gənclik, 1998

Cavad Əhməd. Seçilmiş əsərləri. Bakı, Şərq-Qərb, 2005

Cavid Hüseyn. Əsərləri. 4-cü cild. Bakı, "Yazıçı", 1985

Cəfər Məmməd. Seçilmiş əsərləri. I cild. Bakı, Azərnəşr, 1974

"Ədəbiyyat maraqlılarına müjdə". "Molla Nəsrəddin" jurnalı, Bakı, 14 dekabr 1908, № 50

"Ədəbiyyat-Osmaniyyə". "Tərcüman" qəzeti, Krım-Bağçasaray, 28 dekabr 1908, № 81

Fərəcova Zöhrə. "O, qəlblərdə yaşayır". "Azərbaycan" qəzeti, Bakı, 23 iyul 2017-ci il

Firidun Bəy Köçərlinin şəxsi arxivi. Bakı, Nurlan, 2006

Genceli Mehdi. Hür fikirli Abdullah Sur. İstanbul, Ötüken, 2021

Gəncəvi Abdulla Məhəmmədzadə. "Ay müsəlman qardaşlar". "Şərq-i Rus" qəzeti, Bakı, 22 iyun1903, № 35

Hadi Məhəmməd. Seçilmiş əsərləri. Bakı, "Şərq-Qərb", 2005

Həbibbəyli İsa. "Ədəbiyyatşünaslıq elminin formalaşması prosesləri". "525-ci qəzet" qəzeti, Bakı, 21 may 2022

İbadoğlu Əbülfəz. Abdulla Surun ədəbi-tənqidi görüşləri. "Azərbaycan" jurnalı, 1968, №1

İbrahimov Sənətulla. "Bir məşəl yenə söndü". "İqbal" qəzeti. Bakı, 1912, №59

Keykurum Naki. "Mekteb-i Ruhani". İstanbul. "Azerbaycan" dergisi, yıl 7, sayı 10 (70), ocak 1958

Qasımov Cəlal. Abdulla Surun həyat və yaradıcılığı. Bakı, "Təhsil", 2004

Mirzəcamalov Hüseyn. "Abdulla Tofiq kim idi?". "Təzə xəbər" qəzeti, Bakı, 22 iyun 1912, № 31

Məhəmmədzadə Abdulla Tofiq. "Gəncədən". "Tərəqqi" qəzeti, Bakı, 16 mart 1909, № 55

Nəzmi Əli. Abdulla Tofiq (A.Sur)un ruhuna ithaf. "İqbal" qəzeti. Bakı, 1912, №93

Sur Abdulla. "Elm-i iqtisad". Azərbaycan Respublikası Milli Elmlər Akademiyası Əlyazmalar İnstitutu, 3576[FR 544]

Sur Abdulla. "Türk ədəbiyyatına bir nəzər". Azərbaycan Respublikası Milli Elmlər Akademiyası Əlyazmalar İnstitutu, 3577[FR 544]

Sur Abdulla. "Füzuliyə bir nəzər". "Füyuzat" jurnalı, Bakı, 1907, № 30

Sur Abdulla. "Füzuliyə bir nəzər". "Füyuzat" jurnalı, Bakı, 1907, № 31

Sur Abdulla. "Nəfiyə bir nəzər". "Həqiqət" qəzeti, Bakı, 1909, №3

Sur Abdulla. "Xoruzun quyruğu görünməyə başladı". "İrşad" qəzeti, Bakı, 1906, № 50

Sur Abdulla. "Əkinçilərə aid". "İrşad" qəzeti, Bakı, 19, 22 may 1906, №117, 119

Sur Abdulla. "İrana məxsus bir mülahizə". "İrşad" qəzeti, Bakı, 7 sentyabr 1906, № 210

doi.org/10.61764/lasr.1.2024.11-22

Sur Abdulla. “Türkiyədə məktəblər məramnaməsi”. “İrşad” qəzeti, Bakı, 15 may 1906, №114
Şaiq Abdulla. Əsərləri. 5 cilddə, 5-c cild. Bakı, “Yazıçı”, 1978
Talıbzadə Kamal. Azərbaycan ədəbi tənqidinin tarixi (1800-1920-ci illər). Bakı, “Şərq-Qərb”, 2015
Talıbzadə Kamal. Sənətkarın şəxsiyyəti. Bakı, “Yazıçı”, 1978
Talıbzadə Kamal. Azərbaycan ədəbi tənqidinin tarixi. Bakı, “Maarif”, 1984
Tofiq Abdulla. “Məktəblərdə xəyal-i fənər yaxud sinematoqraf”. “Həqiqət” qəzeti, Bakı, 1 iyul 1910, № 149
Vəliyev Şamil. “Naməlum məktublar”. “Azərbaycan” jurnalı, №1-2, Bakı, 1993

**Фаик Алекперов**

## ТУРЕЦКОСТЬ И ИСЛАМ В МИРОВОЗЗРЕНИИ АБДУЛЛЫ СУР

***Резюме***

*На основе мировоззрения Абдуллы Сура он призвал своих соотечественников и верующих людей к прогрессу и просвещению, а также показал пути возрождения и развития тюркизма с исламом. С одной стороны, он пытался показать основную суть проблем тюрко-мусульманских народов, живущих в настоящее время в период невежества и отсталости, а с другой стороны, искал выходы для восточных народов, в том числе и тюрко-мусульманские народы, отстающие по сравнению с Западом. Абдулла Сур, боровшийся за прогресс азербайджанских тюрков, считал, что тюрко-мусульманским народам пора создавать национальные общества и достигать национально-религиозного единства, как и все другие народы. В частности, он считал важным наличие общего тюркского языка на пути национального единства, то есть единства тюркских народов. На наш взгляд, многие из высказанных им соображений относительно состояния тюркско-исламского мира и выхода из него актуальны и сегодня.*

*Ислам и турецкость занимали важное место в мировоззрении Абдуллы Сура. Он не только считал ислам против модернизации, но и заявлял, что он является основой современности и инноваций. Согласно Суре, те, кто утверждает это, либо не знают истинной природы ислама, либо намеренно вводят общественность в заблуждение. По его словам, истинная культура – это ислам, а ислам – это то, чем является истинная культура. Сур заявил, что турки-тюрки и турки-азербайджанцы имеют один и тот же язык и корни. По его словам, только османский турецкий труднее понять, чем азербайджанский турецкий. Причина этого в том, что османский турецкий язык находится под большим влиянием арабо-персидских языков. С этой точки зрения он выступал за симуляцию азербайджанского литературного турецкого османскому литературному языку. Сур считал, что общий тюркский язык должен формироваться и развиваться вне арабо-персидских языков, насколько это возможно между турками-османами и турками. В своих статьях Сур пытался раскрыть суть армяно-мусульманских конфликтов, разгоревшихся в начале XX века, в том числе философию «армянского характера». Отсюда ясно, что очищение от турок «Карсской области и Ireванской губернии на границе с Турцией» не было случайным, и за счет этих земель в будущем были созданы основания для создания «Армянского государства».*

***Цель*** – анализировать взгляды А.Сура на просвещение и общество, в том числе идеи тюркизма и исламизма.

***Методология*** – сравнительный анализ, наследование, передача идей, анализ.

***Результаты исследования*** – Поиски согласования идей А.Сура с общественно-политическими и идеологическими требованиями современной эпохи

***Ключевые слова:*** *исламизм, тюркско-исламский союз, тюркизм, русификация, персианизация, туранизм, просвещение*

doi.org/10.61764/lasr.1.2024.11-22

**Faiq Alekberli**

## TURKISHNESS AND ISLAM IN THE WORLD VIEW OF ABDULLA SUR

***Summary***

*On the basis of Abdulla Sur's worldview, he called his compatriots and religious people to progress and enlightenment, and also showed the ways of revival and development of Turkishness with Islam. On the one hand, he tried to show the main essence of the problems of the Turkic-Muslim peoples, who are currently living in the period of ignorance and backwardness, and on the other hand, he looked for ways out for the Eastern peoples, including the Turkic-Muslim nations, who are lagging behind compared to the West. Abdulla Sur, who fought for the progress of Azerbaijani Turks, believed that it is time for Turkish-Muslim peoples to create national societies and achieve national-religious unity, like all other nations. In particular, he considered it important to have a common Turkish language in the path of national unity, that is, the unity of the Turkic peoples. In our opinion, many of the considerations put forward by him regarding the state of the Turkish-Islamic world and the way out are still relevant today.*

*Islam and Turkishness occupied an important place in Abdulla Sur's worldview. He not only considered Islam against modernization, but declared that it is the basis of modernity and innovation. According to Sura, those who claim this are either ignorant of the true nature of Islam, or they deliberately confuse the public. According to him, true culture means Islam, and Islam is what true culture is. Sur declared that Turkish Turks and Azerbaijani Turks have the same language and roots. According to him, only Ottoman Turkish is more difficult to understand than Azerbaijani Turkish. The reason for this is that Ottoman Turkish is more influenced by Arabic-Persian languages. From this point of view, he was in favor of simulating Azerbaijani literary Turkish to the Ottoman literary language. Sur believed that a common Turkish should be formed and developed outside the Arabic-Persian languages as much as possible between Ottoman and Turkish Turks. In his articles, Sur tried to reveal the essence of the Armenian-Muslim conflicts that erupted at the beginning of the 20th century, including the philosophy of "Armenian character". It is clear from this that the cleansing of "Kars region and Iravan province on the border of Turkey" from Turks was not accidental, and the grounds for the creation of the "Armenian state" were created at the expense of these lands in the future.*

***Purpose*** - To analyze A.Sur's views on enlightenment and society, including the ideas of Turkism and Islamism.

***Methodology*** – comparative analysis, inheritance, transmission of ideas, analysis.

***The results of the study*** – Searching for reconciliations between the ideas of A. Sur and the socio-political and ideological requirements of the contemporary era

***Keywords:*** *Islamism, Turkish-Islamic union, Turkism, Russification, Persianization, Turanism, Enlightenment*

doi.org/10.61764/lasr.1.2024.23-31

**UOT- 316.42**

**Südabə Haşımova**
*Bakı Dövlət Universiteti, s.f.d.,*
***Azərbaycan***
*hashimova.sudaba@bk.ru*
*http://orcid.org/0009-0003-9354-0152*

# GƏNCLƏRİN PEŞƏ MÜQƏDDƏRATINI MÜƏYYƏNLƏŞDİRMƏSİNƏ TƏSİR GÖSTƏRƏN ƏSAS AMİLLƏR

***Xülasə***

*Məqalədə göstərilir ki, müasir cəmiyyətdə gənclərin peşə seçiminə bir çox amillər təsir edir və bu proses uşaqlıqdan başlayır. Peşə yönümünün ümumi qəbul edilmiş subyektlərindən hər birinin məqsədi düzgün həyat və peşə yolunun seçimində gənc nəslə kömək etməkdir. Valideynlərin, qohumların, tanışların, dostların, müəllimlərin, müəyyən peşə nümayəndələrinin daxil olduğu gəncin yaxın ətrafı əsas amillər qrupuna aiddir. Fərdə münasibətdə əsasən xarici olan ikinci qrup amillər gənclərin baxışlarına və ustanovkalarına sosial institutlar - orta ümumi və peşə təhsili sistemi, KİV-lər vasitəsilə təsir edir. Bazar şəraitində ailə gənclərin peşə oriyentasiyasında mərkəzi yer tutur və şəxsiyyətin tələbatlarını standart formada ifadə edir. Gəncin peşə müqəddəratını müəyyənləşdirməsinin mühüm aspektini həmçinin başqa birisinin deyil, fərdin özünün peşə seçimi haqqında qərar qəbul etməsinin dəqiq dərk olunması təşkil edir. Dövlətin sosial-iqtisadi vəziyyəti obyektiv amil olaraq, gənclərin peşə planlarına bilavasitə təsir göstərir.*

***Məqsəd:*** Tədqiqatın əsas məqsədi müasir formal və qeyri-formal institutların gənclərin peşə müqəddəratının müəyyənləşdirilməsi prosesinə təsirini öyrənməkdir.

***Metodologiya:*** Tədqiqatın metodoloji əsası kimi elmilik və obyektivlik, sosial-peşə sferasında hadisə və proseslərin dialektik əlaqəsi metodu və prinsipləri çıxış edir. Qarşıya qoyulmuş məqsədə çatmaq üçün tədqiqat işində struktur-funksional, amil və müqayisəli təhlil metodlarından istifadə edilmişdir.

***Tədqiqatın nəticələri:*** Gənclərin sosial-peşə müqəddəratının formalaşması amillərinin təhlili bu qənaətə gəlməyə əsas verir ki, onlar hamısı məşğulluq institutu ilə birgə peşə seçimi işini məqsədyönlü şəkildə həyata keçirən vahid şəbəkəni yaratmalıdırlar. Bu gənclərə daha düşünülmüş və real peşə planlarını qurmağa imkan verəcəkdir.

***Açar sözlər:*** *gənclərin peşə müqəddəratı, peşə seçimi, peşə təhsili, peşə oriyentasiyası, peşə planları*

## Giriş

Peşə müqəddəratını müəyyənləşdirmə insanın cəmiyyətdə özünütəsdiq etməsi vasitəsi olaraq, bu gün hər bir gəncin həyatında əsas qərarlardan birinə çevrilir. Bazar şəraitində peşənin düzgün seçilməsi gəncə sosial statusun əldə edilməsində perspektivlər yaradır [12]. Sosial-iqtisadi dəyişikliklərin baş verdiyi cəmiyyətdə gənc peşə seçimi ilə bağlı bir sıra çətinliklərlə qarşılaşır. Əvvəla, istənilən tarixi transformasiya prosesində sistem dəyişikliklərinin əsas ifadələrindən biri məşğulluq və peşə strukturunun dəyişməsidir. Cəmiyyətin əvvəlki iqtisadiyyata yönəlmiş peşələrə tələbatı azalır, bununla yanaşı yeni peşələr yaranır, yeni sosial strukturun formalaşması baş verir. Bütün bunlar ictimai şüurda peşələrin nüfuzunun iyerarxiyasının dəyişməsinə səbəb olur. Gənclərdə peşələrin və

doi.org/10.61764/lasr.1.2024.23-31

peşə nəaliyyətlərinin insan həyatında yeri və rolu, peşə fəaliyyətinin məqsədləri və onun əldə edilməsi üsulları haqqında yeni təsəvvür formalaşır. Peşə təhsili bu gün yalnız idraki ehtiyacların, mənəvi tələbatların formalaşması və ödənilməsinin əsas şərtlərindən biri deyil, həm də gənclərin şəxsiyyətinin sabitliyini, öz gələcəyinə inamı təmin edən vərdişlər, bacarıqlar və biliklər formasında maddi dəyərlərin ötürülməsi vasitəsini ifadə edir.

Cəmiyyətin və dövlətin qarşısında duran vəzifə düşünülmüş, elmi əsaslandırılmış təhsil siyasətini həyata keçirməklə gənclərin potensialından istifadə edilməsi və öz sosial-peşə maraqlarını, tələbatlarını, həyat perspektivlərini müəyyənləşdirmək və reallaşdırmaq üçün əlverişli şəraitin təmin edilməsidir. Son illərdə aparılan islahatlar prosesində dövlətin peşə təhsili siyasətinin məqsədləri köklü şəkildə dəyişmişdir. Mövcud peşə təhsili qanunvericiliyi təhsil sferasında gəncin intellektual, mədəni - mənəvi inkişaf ehtiyaclarının ödənilməsini ön plana çıxarır.

## 1. Gənclərin peşə müqəddəratı problemi və onun formalaşmasına təsir göstərən amillər

Müasir cəmiyyətdə gənclərin peşə seçiminə bir çox amillər təsir edir və bu proses uşaqlıqdan başlayır. Peşə yönümünün ümumi qəbul edilmiş subyektlərindən hər birinin - ailə, dostlar, məktəb, peşə təhsili müəssisələri, kütləvi informasiya vasitələri, dövlət orqanları, həmçinin müəssisələrin məqsədi düzgün həyat və peşə yolunun seçimində gənc nəslə kömək etməkdir [6]. Əgər əvvəllər peşə müqəddəratı məsələsinin həllində müxtəlif formal və qeyri-formal strukturlar ilə gənclərin qarşılıqlı əlaqəsi prosesi dövlətin ciddi nəzarəti altında idisə, bu gün onlar arasında əlaqələr xeyli zəifləyib. Bu gün şəxsiyyətlərarası ünsiyyət prosesinə təsir göstərən valideynlərin, qohumların, tanışların, dostların, müəllimlərin, müəyyən peşə nümayəndələrinin daxil olduğu gəncin yaxın ətrafı əsas amillər qrupuna aiddir. Fərdə münasibətdə əsasən xarici olan ikinci qrup amillər gənclərin baxışlarına və ustanovkalarına sosial institutlar – orta ümumi və peşə təhsili sistemi, KİV-lər vasitəsilə təsir edir [11, s.101-102]. Bu institutlar qarşıya qoyulmuş vəzifələrin öhdəsindən keyfiyyətlə gələ bilmir. Məhz fərdi və ictimai tələbatları maksimum dərəcədə birləşdirən gənclərin effektiv peşə müqəddəratını müəyyənləşdirməsini təşviq edə bilmirlər. Birinci qrup amillərin əhəmiyyətini azaltmadan qeyd edə bilərik ki, onlar həmişə peşə kadrlarına olan tələbatın sürətlə dəyişməsi haqqında kifayət qədər informasiyaya malik olmurlar. Bu da çox vaxt səhv və əsassız peşə seçiminə səbəb olur. Bu meyllərin dəyişdirilməsi və gənclərin peşə müqəddəratını müəyyənləşdirməsinin effektivliyinin yüksəldilməsi üçün cəmiyyət və dövlət səriştəli sosial strukturların – məşğulluq xidmətlərinin - təşkilati, tənzimləyici və nəzarətedici funksiyaları vasitəsilə peşə seçimi işinə daha məqsədyönlü xarakter verməlidir [5].

Beləliklə, gənclərin peşə müqəddəratını müəyyənləşdirməsinə təsir göstərən amilləri - subyektiv və obyektiv amillərə bölmək olar. Subyektiv amillərə: fərdi-şəxsi keyfiyyətlər, sağlamlıq vəziyyəti, hazırlıq səviyyəsi, ictimaiyyət tərəfindən tanınmağa iddialı olma, peşə fəaliyyəti haqqında məlumatlılıq, yaş və peşə böhranları, optantın şəxsi peşə planları aiddir. Obyektiv amillərə isə: ailə, cəmiyyətin müəyyən bir sosial təbəqə və qrupuna (sosial mühit və referent qruplar) mənsubiyyət, həmçinin gender fərqləri [9, s. 57], kollektivdə şəxsiyyətlərarası münasibətlər, həmçinin müəssisənin özündə vəziyyət, təhsil sistemi müəssisələri, KİV, hökumətin iqtisadi və siyasi qərarları, ölkədəki sosial-iqtisadi şərait, dövlət hakimiyyət orqanları (məsələn, məşğulluq mərkəzləri), əmək bazarı daxildir.

Gənclərin peşə müqəddəratının müəyyənləşdirilməsinə həmçinin sosial qruplar və sosial institutlar təsir göstərir. Onların təsiri mikro və makrosəviyyələrdə baş verir. Ailə, həmyaşıdlar, peşə daşıyıcıları və s. kimi sosial qruplar gənclərin peşə müqəddəratını müəyyənləşdirməsinə mikrosəviyyədə təsir göstərirlər. Sosial qruplar həmçinin sosial

institutların təsirinin ötürücüsü kimi çıxış edirlər. Makrosəviyyədə gənclərin öz peşə müqəddəratını müəyyənləşdirməsi təhsil, peşə və əmək bazarı kimi sosial institutların qarşılıqlı təsirilə nizamlanırlar. Sosial institutlar gənclərin (daha çox yuxarı sinif şagird-lərinin) peşə müqəddəratının müəyyənləşdirilməsinə bilvasitə: mövcud normalar, ənənələr və stereotiplər, eləcə də müəssisələr [6, s. 13-14] vasitəsilə təsir göstərirlər.

## 2. Gənclərin peşə müqəddəratını müəyyənləşdirməsinə təsir göstərən obyektiv və subyektiv amillər

Bu amillərdən bəzilərinin gənclərin peşə müqəddəratının müəyyənləşməsində rolunu nəzərdən keçirək.

Ailəni gənclərin peşə müqəddəratının müəyyənləşdirilməsinə ümumən çox güclü təsir göstərən sistem kimi müəyyənləşdirmək olar [9, s. 34]. Bu təsir iki cür baş verir: bilavasitə, valideynlərin və ya onları əvəz edən şəxslərin tələblərinin birbaşa təsiri forma-sında və bilvasitə, uşaqların ideallarının, meyllərinin, dəyərlər oriyentasiyasının müəyyən-ləşdirilməsi formasında.

Bazar şəraitində ailə gənclərin peşə oriyentasiyasında mərkəzi yer tutur və şəxsiyyətin tələbatlarını standart formada ifadə edir. Bununla yanaşı cəmiyyətdə baş verən sürətli dəyişikliklər cəmiyyətin sosial və peşə strukturunun dərin transformasiyasının nəticəsi kimi, həyat və peşə yoluna ənənəvi baxışlarda əsaslı dəyişikliklər fərd tərəfindən dəyərlərin və əmək fəaliyyəti normalarının tez bir şəkildə dərk olunması zərurətini ortalığa qoyur [3].

Ailədə peşə müqəddəratının müəyyənləşdirilməsi məsələsi, bir qayda olaraq, uşaq-ların yeniyetmə dövründə ciddi müzakirələr mövzusuna çevrilir, baxmayaraq ki, bəzi hal-larda valideynlər bu problemə öz uşaqlarının daha kiçik yaşlarında müraciət edə bilirlər [9, s. 34].

Gənclərin peşə müqəddəratının müəyyənləşdirilməsi problemi çərçivəsində ailənin böyük və kiçik üzvləri arasında qarşılıqlı münasibətlərin mümkün müxtəlifliyinə dair nümunəyə nəzər yetitirək:

1. Böyüklər yeniyetmənin qərarına hörmətlə yanaşmaqla ona seçim azadlığı verir.
2. Böyüklər yeniyetmənin gələcəyi məsələsinə olduqca həssas yanaşırlar.
3. Böyüklər yeniyetmənin seçimindən narazıdırlar.
4. Böyüklər yeniyetməyə bu və ya digər dərəcədə təhrif olunmuş istiqamət verirlər.

Qeyd edək ki, böyüklərin mövqelərinə dair bu variantlardan heç biri gənclər tərəfindən düzgün peşə seçimi edilməsinə gətirib çıxarmır. Təcrübəyə arxalanaraq, sintez əsasında aşağıdakı, beşinci variantı təklif etmək olar:

5. Böyüklər gənclər üçün həyati və peşə cəhətdən düzgün, mənəvi cəhətdən əsaslandırılmış cavablarının sərbəst və fəal şəkildə axtarılması üçün şərait yaradır. Bu variant həyatda az-az hallarda baş verdiyindən, onu idealizə olunmuş hesab etmək olar. Onun reallaşdırılmasına yalnız “ailə-məktəb-peşə təhsili- əmək sferası” sistemində nail olmaq mümkündür [9, s. 35-36].

İnsanın peşə müqəddəratını müəyyənləşdirməsi uşağın oyun vaxtı müxtəlif peşə rollarını və davranış nümunələrini görüb götürdüyü erkən uşaqlıq dövründən başlayır və gəncin bütün sonrakı həyatına təsir edəcək məsuliyyətli qərarın qəbul edilməsinin zəruri olduğu yetkinlik dövründə intensiv davam edir [8, s. 3-7].

Potensial əmək subyekti nöqteyi-nəzərindən gənc şəxsiyyətinin məktəbəqədər və məktəb yaşında inkişafı ilk növbədə böyüklərin məsuliyyət daşıdığı onun ünsiyyət dairəsindən, şəxsiyyətlərarası münasibətlərdən birbaşa asılıdır. Əgər böyüklər məktəb yaşına çatmamış uşağı onun üçün mümkün olan əmək növlərində iştiraka təşviq edirlərsə, onda əmək əlamətləri ilə fəaliyyət artıq məktəbəqədər dövrdə mümkündür.

doi.org/10.61764/lasr.1.2024.23-31

Böyüklər həmçinin uşağın ümumi işlərdə iştirakını elə təşkil edə bilər ki, əmək fəaliyyəti bu hadisələrin mühüm aspektinə çevrilmiş olsun. Bu halda gənclərdə müxtəlif əmək növlərinə dair nizama salınmış və çoxplanlı təsəvvür formalaşa bilər.

Peşə seçiminin hər bir şəxs tərəfindən fərdi şəkildə həyata keçirilməsinə baxmayaraq, o, ümumi struktura malikdir. Məsələn, gəncin şəxsi peşə planını Y.A. Klimov belə təsəvvür edir:

- gələcək üçün planları, hazırki inkişaf anı üçün həyat ideallarını və fəaliyyətini əhatə edən əsas məqsəd;
- ən yaxın həyat məqsədlərinə çatmaq üçün yollar və vasitələr haqqında təsəvvürlər: mütəxəssislərlə söhbətlər, öz təhsilini artırma və s.;
- nəzərdə tutulmuş məqsədlərə çatmağın xarici şəraiti haqqında təsəvvürlər: çətinliklər, bu və ya digər şəxslərin mümkün müqaviməti;
- qarşıdakı məqsədlərə çatmağın daxili şərtləri haqqında təsəvvürlər: təhsil almaq üçün imkan və bacarıqlar, sağlamlıq vəziyyəti. Məqsədlərə çatmaq şəxsiyyətdən məqsəd-yönlülük, dözüm, nəzəri və praktiki hazırlıq və digər keyfiyyətlər tələb edir;
- öncədən bilinməyən maneələr yarandığı halda əsas variantların reallaşdırılmasında məqsədlərin və onlara çatmağın alternativ variantları [9, s. 231-232].

Gənclərin həyat planlarına dair daha iki məsələyə diqqət yetirmək lazımdır. Belə ki, gənclərdə çox vaxt yalnız bir həyat planı mövcud olur ki, bu planın həyata keçməməsindən onlar (deyək ki, iqtisadi, ailə səbəblərindən) həyat faciəsi kimi dərindən mütəəssir olurlar. Bununla əlaqədar olaraq, onlara həyatda gözlənilməz hadisələrin nəzərə alınmasının başa salınması mühüm əhəmiyyətə malikdir. İkinci məsələ onunla bağlıdır ki, gənclər bəzən özləri üçün ən əziz olan həyat planlarını gizli saxlayırlar. Buna görə də, böyüklər onlara ehtiyatla, başa düşərəkdən və həssaslıqla yanaşmalıdırlar.

Gəncin peşə müqəddəratının müəyyənləşdirilməsinin mühüm aspektini həmçinin başqa birisinin deyil, fərdin özünün peşə seçimi haqqında qərar qəbul etməsinin dəqiq dərk olunması təşkil edir. Bu amilin olmadığı təqdirdə peşə müqəddəratının müəyyənləşdiril-məsi haqqında danışmağa da dəyməz [9, s. 27-28]. Peşə seçimi eləcə də rasional və ya emosional əsasda həyata keçirilə bilər. Burada ən əsası gəncin (optantın) öz seçimindən razılığı, öz seçimini dərk etməsidir [7].

## 3. Gənclərin peşə müqəddəratını müəyyənləşdirməsində obyektiv amillərin rolu

Gənclərin peşə müqəddəratının müəyənləşməsində peşə oriyentasiyası mühüm yer tutur. Peşə oriyentasiyası dedikdə insanın bacarıqları və maraqlarına görə ictimai tələbatı və “ölkə təsərrüfatının maraqları naminə əmək resurslarının tamqiymətli bölüşdürül-məsinin zəruriliyi” [4, s.39] nəzərə alınmaqla peşə seçiminə hazırlığı prosesi nəzərdə tu-tulur. Peşə oriyentasiyası, sistem olaraq, ümumi məqsədlər və vəzifələr, funksiyaların vahidliyi ilə birləşmiş qarşılıqlı əlaqədə olan aşağıdakı altsistemlərdən ibarətdir:

1. Gənclərin peşə hazırlığı üçün məsuliyyət daşıyan və öz işini əlaqəli şəkildə həyata keçirən təşkilati yarımsistem;
2. Peşə maarifləndirilməsi, məsləhət, məktəblilərin seçilməsi və adaptasiyasının da daxil olduğu məntiqi yarımsistem;
3. Gənclərin peşə müqəddəratını müəyyənləşdirmənin subyekti kimi götürüldüyü, aktiv mövqe, müəyyən məqsədə yönəldilmə, mədəni səviyyə, özü haqqında təsəvvür kimi keyfiyyətlərlə xarakterizə olunan şəxsi yarımsistem.
4. Ölkədə peşə oriyentasiyası sistemi haqqında informasiyaya malik olma və idarə etməni əhatə edən idarəetmə yarımsistemi [8, s. 3-8].

Peşə oriyentasiyası bütün yaşlar üçün aktual olan fasiləsiz və məqsədyönlü prosesdir. Gənclərin peşə oriyentasiyasının məqsəd və vəzifələri ictimai tələbatla müəyyənləşir. Bu

prosesdə əsas məqsəd gənclərin şüurlu peşə seçiminə nəzəri və praktiki cəhətdən hazırlanmasıdır. Bu nöqteyi-nəzərdən gənc elə peşəni seçməlidir ki, orada irəli sürülən tələblər onun şəxsi keyfiyyət və imkanları ilə üst-üstə düşsün.

Bəzi hallarda gənclərin peşə müqəddəratını müəyyənləşdirmə problemi başlanğıc mövqelərinin bərabərsizliyi məsələsi ilə bağlı ola bilər. Gənclər üçün bu işdə əsas rolu təhsil səviyyəsi oynaya bilər: təhsil onlara peşə inkişafı və ambisiyalarını təmin etmək üçün impuls verə bilər [2, s. 101].

Dövlətin sosial-iqtisadi vəziyyəti obyektiv amil olaraq, gənclərin peşə planlarına bilavasitə təsir göstərir. Yuxarı sinif şagirdləri hər halda məhdud seçim imkanlarına malik insanlardır, baxmayaraq ki, ölkəmizdə geniş "təhsil" xidmətləri spektri və müxtəlif təhsil müəssisələri formaları mövcuddur. Bu məhdudiyyət əmək bazarındakı, yaşayış yerindəki vəziyyətin, gənclərdə peşə dünyası haqqında əhəmiyyətli təsəvvürlərin olmamasının nəticəsidir. Zənnimizcə, gənclərin cəmiyyətin peşə strukturuna inteqrasiyası üçün onların ixtisas üzrə işlə təmin olunması zəruridir. Məhz ixtisasın yerinə yetirilən işin xarakter və məzmununa uyğunluğu gənclərin istehsal prosesinə, peşə münasibətləri sisteminə və əlbəttə, şəxsiyyətin yüksək sosial-peşə statusuna pozitiv daxil olmasının göstəricisi ola bilər [2, s. 102].

Beləliklə, peşə müqəddəratını müəyyənləşdirmə problemi bütün gənclərdə müəyyən vaxtda yaranır: bəzilərinə planlarını natamam, digərlərinə tam orta məktəbi qurtarmaq ərəfəsində, başqalarına isə ali təhsil müəssisəni bitirəndən sonra dəyişmək lazım gəlir. Planların bu cür müxtəlifliyi prinsipcə dövlətə baha başa gəlir.

Son illər bir sıra ölkələrin tədqiqatçıları əmək bazarının intensiv idarə olunması problemlərinə və dövlətin peşə potensialının formalaşdırılması prosesinə diqqəti gücləndirmişlər.

Belə ki, məsələn, qonşu Rusiyada müvafiq xidmətlər tərəfindən ümumtəhsil məktəblərinin məzunlarının planları, peşə seçiminin motivləri, seçdikləri ixtisas sahəsində təhsili davam etdirmək bacarıqları və gələcəkdə iş tapmaq şansları haqqında informasiya bazası formalaşdırılır. Azərbaycan ümumtəhsil məktəblərində də bu praktika ilə yanaşı, peşələr haqqında informasiyanı geniş yaymaq lazımdır. Bunun üçün, məsələn, peşələr və peşə təhsili müəssisələri (şəhər və regionlarda) haqqında kompüter texnologiyaları vasitəsilə məlumat bazasının yaradılması məqsədyönlü olardı. Əlbəttə ki, Respublika Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyinin yaradılması və fəaliyyətinin təmin edilməsi, peşə təhsili və təlimi sistemində strateji hədəfləri müəyyən edən "Azərbaycan Respublikasında peşə təhsili və təliminin inkişafına dair Strateji Yol Xəritəsi" [15], Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti tərəfindən ölkənin bir çox şəhər və regionlarında yuxarı sinif şagirdləri üçün peşə yönümü ilə bağlı mütəmadi treninqlərin keçirilməsi və s. kimi zəruri tədbirlər bu sahədə atılan əməli addımlar kimi qiymətləndirilə bilər.

Öz sosiallaşdırma funksiyası ilə məktəb böyüməkdə olan gənc nəslə məxsusi normaları, dəyərləri və davranış münasibətləri olan istehsal, iqtisadi və siyasi münasibətlərə daxil olmağa yardım göstərir.

Lakin hazırkı şəraitdə bu sahədə müəyyən problemlər mövcuddur ki, onlar da gənclərin sosial - peşə inteqrasiyasında müəyyən çətinliklər yaradırlar, məsələn, gənclərin sosial strukturun müxtəlif elementlərinə cəlb olunması, onlarla özünüidentikləşdirmə məsələləri [13, s.51-52]. Məlumdur ki, hökumətin iqtisadi və siyasi qərarları gənclərin peşə müqəddəratının müəyyənləşdirilməsi prosesinə təsir göstərir: ölkə iqtisadiyyatının bazar təsərrüfatına keçməsi və qərb həyat tərzinə pərəstiş gənclərin müəyyən hissəsinin təkcə peşə deyil, həm də hansı ölkəyə getmək və s. haqqında düşünməsinə səbəb oldu.

Bu gün ölkəmizdə savadlı, məsuliyyətli, peşə cəhətdən yüksək dərəcədə mobil,

özlərini dəyişmiş sosial-iqtisadi şəraitdə müvəffəqiyyətlə və effektiv reallaşdırmağı bacaran gənclərə daha çox tələbat var.

Qeyd edək ki, gənclərin peşə müqəddəratını müəyyənləşdirməsi daha çox ali məktəb şəraitində həyata keçirilir. Onun rəqabətədavamlılığının əsasını "vətəndaşların, cəmiyyətin və əmək bazarının keyfiyyətli təhsilə olan tələbatlarının ödənilməsi üçün şəraitin təmin olunması" təşkil edir [3, s. 25-27].

Ali məktəb gənclərə peşə trayektoriyasını müəyyənləşdirməyə, gələcək karyerasını və öz peşə təşəkkülünün müxtəlif mərhələlərində peşə fəaliyyətini proqnozlaşdırmağa imkan verir. Eyni zamanda peşə təhsilinin özündə və xüsusən ali təhsil sferasında müəyyən problemlər hələ də qalmaqdadır ki, onlar da mütəxəssislərin hazırlanmasında əmək bazarının deyil, təhsil xidmətləri bazarının əsas olaraq götürülməsindən ibarətdir. Buradan da əmək bazarının tələblərindən bəzi geriləmələr irəli gəlir. Əmək bazarının və təhsil xidmətləri bazarının bu muxtariyyəti bir çox hallarda müasir əmək bazarında gənc mütəxəssislərin tələb olunmamasına səbəb olur. Buradan nəticə çıxarmaq olar ki, müasir şəraitdə peşə ali məktəb məzunları üçün ixtisas üzrə işə düzəlməyə zəmanət verə bilməz.

Gənclərin peşə müqəddəratının müəyyənləşdirilməsindən irəli gələn problemlər eyni zamanda aşağıdakı şərtlər daxilində həll edilə bilər: a) mövcud metodların effektivliyinin yaxşılaşdırılması və məktəb və ali məktəb məzunlarının peşə müqəddəratını müəyyənləşdirməsi üçün daha yeni, effektiv yardım formalarının təşkili [5, s. 15-17]; b) əmək bazarında real subyektə çevrilmək üçün öz həyat və peşə yolu üzərində düşünən gənclərin fəallığının və təşəbbüsünün artırılması; c) ali məktəbdə təhsilin daha da differensiasiyaya uğraması və onun müəssisə və əmək bazarının bu günkü tələbləri səviyyəsinə qaldırılması; ç) gənclərin peşə fəaliyyətinə dair Azərbaycan iqtisadiyyatının və əmək bazarının inkişafının kadrlara olan tələbatının meylləri nəzərə alınmaqla şüurlu və sərbəst qərar qəbul edilməsinə istiqamətləndirilməsindən ibarət olan ixtisaslaşdırılmış strukturların - əhalinin məşğulluq xidmətlərinin rolunun artırılması. Bununla əlaqədar olaraq, məktəb, ali məktəb və əhalinin məşğulluq xidmətlərinin vəzifəli gənclərin peşə fəaliyyəti sisteminə onların bütünlükdə respublikanın peşə strukturunun meyllərinə dair tam məlumatlandırılması yolu ilə daha erkən və əsaslı şəkildə daxil edilməsi ola bilər.

Beləliklə, təhsil sistemi - müəssisə - məşğulluq xidmətləri üçbucağının möhkəmləndirilməsinin zəruriliyi və onlar arasındakı münasibətlərin daha sıx və daha az formal qarşılıqlı münasibətlərə çevrilməsi məsələsi aktuallıq kəsb etməyə başlayır.

Bu günkü Azərbaycanın sosial-əmək reallığında gənclərin aldıqları ixtisasa uyğun olaraq əmək bazarında peşə müqəddəratəını müəyyənləşdirməsinin dəqiq sisteminin olmaması ən aktual problemlərdən olaraq qalmaqdadır. Nəticədə ölkədə gənclərin böyük əksəriyyəti peşə cəhətdən müəyyənləşərək öz əmək tələbatlarını ali məktəbdə aldıqları ixtisas əsasında deyil, əsasən mütəxəssislərin əməyinin az və ya çox dərəcədə adekvat ödənildiyi dövlət sektorunda təmin edir. Aşağı əmək haqqı, lazımi təcrübə və iş bacarıqlarının olmaması və əmək bazarında təklifin defisitliyi - gənclərin ixtisas üzrə işdən imtina etməsinin əsas səbəblərindən biridir ki, bunlar da gənclərimizdə işə düzəlmə üçün alternativ variantların tərbiyə edilməsinə səbəb olur. Lakin bu variant ali məktəbdə əldə olunmuş nəzəri və praktiki biliklərin tələb olunmaması, peşə bacarıqlarının itirilməsi, gənc mütəxəssislərdə seçdikləri peşə çərçivəsində peşə müqəddəratının müəyyənləşdirilməsi prosesinin qırılması kimi problemlərlə müşayiət olunur.

**Nəticə**

Gənclərin peşə müqəddəratının müəyyənləşdirilməsinin mürəkkəb, dinamik ikitərəfli proses kimi başa düşülməsi ona təsir edən bir sıra amilləri müəyyən etməyə və onun səmərəliliyinin artırılması üçün bir sıra təkliflər irəli sürməyə imkan verir.

doi.org/10.61764/lasr.1.2024.23-31

Elmi ədəbiyyatın təhlili bizə gənclərin peşə müqəddəratını müəyyənləşdirməsini insanın peşə və bütövlükdə sosial inkişafının ən əhəmiyyətli ünsürü kimi müəyyən etməyə imkan verir. Çünki gəncin cəmiyyətdə özünü təsdiq etməsinin əsası olan peşə seçimi kim olmaq, harada və kiminlə işləmək, hansı sosial qrupa mənsub olmaq, hansı həyat tərzini seçmək kimi insanın vacib sosial-əhəmiyyətli xarakteristikalarını müəyyənləşdirir. Düzgün peşə seçimi əsasən gəncin sosial fəallığını, praktiki hazırlığını, məlumatlılığını və bütövlükdə həyat mövqeyini müəyyən edir. Cəmiyyətin nöqteyi nəzərindən hər bir gəncin düzgün peşə seçimindən xalq təsərrüfatında əməyin məhsuldarlığı, onun intellektual potensialından istifadənin səmərəliliyi, miqrasiyanın və kadr axıcılığının miqyasları və bir çox başqa məsələlər asılıdır [5].

Beləliklə, gənclərin peşə müqəddəratını müəyyənləşdirən subyektiv və obyektiv amillərin effektivliyinin artırılması belə hesab etməyə əsas verir ki, peşə seçimi gənclərin subyektiv olaraq üstünlük verdiklərilə ona kənar yanaşma olan bu üstünlüklərin reallaşdırılması imkanlarını müəyyənləşdirən sosial-peşə situasiyası arasında ziddiyətin həllinə yönəldilməlidir.

## Ədəbiyyat


1. Арендачук, И.В. Теоретические основы дисциплины «Самоопределение и профессиональная ориентация учащихся»: Учебное пособие для студентов педагогических и психологических специальностей. – Саратов: Изд-во Наука, 2013. – 51 с.
2. Выборнова, В.В. Актуализация проблем профессионального самоопределения молодежи / В.В. Выборнова, Е.А. Дунаева // Социологические исследования, – Москва: – 2006. № 4, – С. 99-105.
3. Вербицкий, А.А. Активное обучение в высшей школе: контекстный подход / А.А. Вербицкий. – Москва: Высшая школа, – 1991. – 207 с.
4. Гудкова, Е.В. Основы профориентации и профессионального консультирования. Учебное пособие. / Е.В. Гудкова. – Челябинск: ЮУрГУ, – 2004. – 127 с.
5. Дьякова, М. А. Профессиональное самоопределение учащейся молодежи в условиях трансформации современного общества: / автореферат диссертации доктора философии по социологии. / – Хабаровск, 2002. – 22 с.
6. Лобова, Е.В. Процесс первичного профессионального самоопределения учащихся: социологический анализ: / автореферат диссертации доктора философии по социологии. / – Екатеринбург, 2006. – 23 с.
7. Магомедова, М.Г. Профессиональное самоопределение личности // Научно-методический электронный журнал «Концепт», – 2016. – Т. 15. – с. 26–30.
8. Никулин, А.Ю. Профессиональное самоопределение старшеклассников / А.Ю. Никулин – Братск: БрГТУ, – 2001. – 73 с.
9. Климов, Е.А. Психология профессионального самоопределения: Учебное пособие для студентов вузов. / Е.А. Климов. – Москва: Академия, – 2004. – 304 с.
10. Кутугина В.И. Факторы профессионального самоопределения личности в современных условиях // Современные проблемы науки и образования. – 2007. – № 1. С.51-53.
11. Пряжников Н.С. Профессиональное самоопределение: теория и практика / Н.С. Пряжников. – Москва: Академия, – 2007. – 503 с.
12. Смирнова, Ю. Е. Психологические предпосылки профессионального самоопределения старшеклассников профильной школы: / автореферат диссертации доктора философии по психологии. / – Санкт-Петербург, 2013. – 26 с.
13. Шарова, Е.Н., Мулина, Т.В. Профессиональное самоопределение молодежи в условиях социокультурной трансформации российского общества (региональный аспект) // Журнал социологии и социальной антропологии. Социологические науки. – 2023. – №1. Том. 26. С.50-67.

14. Шавир, П.А. Психология профессионального самоопределения в ранней юности / П.А.Шавир. – Москва: Педагогика, –1981. – 96 с.
15. Peşə təhsili və təliminin inkişafına dair Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir. https://edu.gov.az/upload/file/serencama-elave/2016/peshe-tehsil-yol-xeritesi.pdf (müraciət tarixi: 05.05.2023)

**Судаба Гашимова**

# ОСНОВНЫЕ ФАКТОРЫ, ВЛИЯЮЩИЕ НА ПРОФЕССИОНАЛЬНОЕ САМООПРЕДЕЛЕНИЕ МОЛОДЕЖИ

***Резюме***

*В статье отмечается, что на выбор профессии молодыми людьми в современном обществе влияет множество факторов и этот процесс начинается с детства. Целью каждого из общепринятых субъектов профессиональной ориентации является помощь подрастающему поколению в выборе правильного жизненного и профессионального пути. К группе основных факторов относится ближайшее окружение молодого человека, к которому относятся родители, родственники, знакомые, друзья, учителя, представители определенных профессий. Вторая группа факторов, преимущественно внешних по отношению к личности, влияет на взгляды и решения молодежи через социальные институты - систему общесреднего и профессионального образования, средства массовой информации. В рыночных условиях семья занимает центральное место в профессиональной ориентации молодежи и выражает потребности личности в стандартной форме. Важным аспектом профессионального самоопределения молодого человека является также четкое понимание того, что решение о выборе профессии принимает сам человек, а не кто-то другой. Социально-экономическое положение государства, в качестве объективного фактора, напрямую влияет на профессиональные планы молодежи.*

***Цель:*** Основная цель исследования – изучить влияние современных формальных и неформальных институтов на процесс профессионального самоопределения молодежи.

***Методология:*** Методологической основой исследования выступают метод и принциры научности и объективности, диалектическая связь событий и процессов социально-профессиональной сферы. Для достижения поставленной цели в исследовании были использованы методы структурно-функционального, факторного и сравнительного анализа.

***Результаты исследования:*** Анализ факторов формирования социального и профессионального самоопределения молодежи приводит к выводу о том, что им необходимо создать единую сеть, целенаправленно реализующую деятельность по выбору профессии совместно с институтом занятости. Это позволит молодым людям строить более продуманные и реалистичные профессиональные планы.

***Ключевые слова:*** *профессиональное самоопределение молодежи, профессиональный выбор, профессиональная подготовка, профессиональная ориентация, профессиональные планы*

doi.org/10.61764/lasr.1.2024.23-31

**Sudaba Hashimova**

## MAIN FACTORS AFFECTING THE PROFESSIONAL SELF-DETERMINATION OF YOUTH

***Summary***

*The article notes that the choice of profession by young people in modern society is influenced by many factors and this process begins in childhood. The goal of each of the generally accepted subjects of professional guidance is to help the younger generation choose the right life and professional path. The group of main factors includes the young person's immediate environment, which includes parents, relatives, acquaintances, friends, teachers, and representatives of certain professions. The second group of factors, mainly external to the individual, influences the views and decisions of young people through social institutions - the system of general secondary and vocational education, and the media. In market conditions, the family occupies a central place in the professional guidance of young people and expresses the needs of the individual in a standart form. An important aspect of a young person's professional self-determination is also a clear understanding that the decision to choose a profession is made by the person himself, and not someone else. The socio-economic situation of the state, as an objective factor, directly affects the professional plans of young people.*

***Purpose:*** The main goal of the study is to study the influence of modern formal and informal institutions on the process of professional self-determination of young people.

***Methodology:*** The methodological basis of the research is the method and principles of scientificity and objectivity, the dialectical connection of events and processes in the social and professional sphere. To achieve this goal, the research used methods of structural-functional, factorial and comparative analysis.

***Research results:*** An analysis of the factors in the formation of social and professional self-determination of young people leads to the conclusion that they need to create a unified network that purposefully implements activities to choose a profession together with the employment institution.

***Keywords**: professional self-determination of youth, professional choice, professional education, professional orientation, professional plans*

doi.org/10.61764/lasr.1.2024.32-39

**Muxtar Nəbili**
AMEA Fəlsəfə və
Sosiologiya İnstitutu, ***Azərbaycan***
doktorant
*muxtar.nebili@mail.ru*
*http://orcid.org/0009-0003-4435-9085*

# İDENTİKLİK VƏ DİSKURS

***Xülasə***

*Məqalədə identikliklə diskurs arasındakı münasibətlər və bu baxımdan poliidentiklik, identikliyə poststrukturalist yanaşma, daim qarşılaşdığımız və ilk baxışdan sadə görünən təsadüfi söhbətlə identiklik arasındakı əlaqə, identikliyin müəyyən bir kontekstdə qurulub və qəbul edilməsi, onun sosial konstruksiya kimi əhəmiyyəti, identikliyi ifadə və müzakirə etmək üçün ən vacib simvol sistemi kimi dilin rolu tək məsələlər araşdırılır. Göstərilir ki, müasir dünyada sosial-iqtisadi və siyasi problemlərin kəskinləşdiyi, insan məninin dərin böhran içində olduğu bir vaxtda kimlik anlayışı akademik tədqiqat və müzakirələrdə ön plana çıxmışdır və onun müasir dünyada və eləcə də Azərbaycanda baş verən sosial-iqtisadi və mədəni-siyasi proseslərin dərk edilməsində rolu danılmazdır.*

***Məqsəd:*** Kimlik və diskurs anlayışlarının aydınlaşdırılması və onların qarşılıqlı münasibətlərininin müxtəlif aspektlərinin öyrənilməsidir.

***Metodologiya:*** Məqalədə induktiv və deduktiv, analiz və sintez kimi ümumelmi tədqiqat metodlarından, eləcə də sistemli yanaşmadan istifadə etməklə identiklik və diskurs problemlərinin öyrənilməsinin hazırki vəziyyətinin müəyyən aspektləri öyrənilir, bu sahədə yeni biliklər əldə etmək üçün imkanlar müəyyənləşdirilir.

***Elmi yenilik:*** İnsanın hər biri müxtəlif vaxtlarda daha vacib ola bilən bir neçə identikliyi ola bilər. İdentiklik fərdin səciyyəsi və ya sosial qarşılıqlı təsir nəticəsində yaranan, şüurda və ya xüsusi sosial davranışda təzahür edən, bir şəxsə və ya qrupa bağlı bir fenomen kimi nəzərdən keçirilə bilər. Kim olduğumuzu, başqaları ilə necə münasibət qurduğumuzu və dünya haqqında nə düşündüyümüzü davamlı olaraq araşdırmaq üçün təsadüfi söhbət sosial identikliyimizin müxtəlif aspektlərini müzakirə etmək üçün mühüm linqvistik vasitədir. İdentiklik müəyyən bir kontekstdə qurulur və qəbul edilir.

***Açar sözlər:*** *identiklik, sosial identiklik, diskurs, dil, kontekst*

## Giriş

Son onilliklərdə sosial elmlərdə identiklik və ya kimlik probleminə diqqət əhəmiyyətli dərəcədə artmışdır. Diskurs təhlili bu tendensiyanı nəzərdən qaçırmayıb. İdentikliklə əlaqəli müxtəlif məsələlərlə bağlı təfərrüata varmazdan əvvəl biz ilk öncə anlayışın tərifinə nəzər salaq. Əsas lüğət tərifini axtararkən biz Oksford İngilis dili lüğətinin onlayn versiyasında aşağıdakıları tapırıq: "Hər zaman və hər şəraitdə bir insanın və ya əşyanın eyniliyi; şəxsin və ya əşyanın başqa bir şey deyil, özü olması şərti və ya faktı; fərdilik, kimlik" (23). Paulin Djite identikliyin "insanların kim olduqlarını hiss etmək üçün gündəlik bir söz olduğunu" göstərir və məhz bunun "onların kim olduqları hissi"ni dəqiqləşdirmək üçün başlanğıc nöqtəsi kimi götürülməsinin vacibliyini qeyd edir (10, 6). Baggioni və Kasbarian kimliyin iki - şəxsi və kollektiv növlərini fərqləndirir, onları bir-birilə əlaqələndirən prosesi "identiklik" adlandırır

(2). Əksər diskurs analitik tədqiqatlarda bu kollektiv eynilik əsasən "sosial identiklik" kimi tanınır. Sosial identiklik isə, Duşak tərəfindən müəyyən edildiyi kimi, "insanın sosial qrupa mənsubluğu haqqında bilikdən irəli gələn özünəhörmətinin bir hissəsi və ona əlavə olunan emosional mənadır" (11, 2). Krotskriti qrup üzvlüyünü "...kimliyi bir və ya bir neçə sosial qrupa və ya kateqoriyaya üzvlüyün linqvistik quruluşu kimi müəyyən edir" (18, 111). Geşir və Meyer isə iddia edirlər ki, kimlik anlayışının sosial elmlərdə qəfil populyarlaşması, sadəcə olaraq, kapitalist diskursunun xüsusi mülkiyyəti vurğuladığı Qərb tədqiqatçılarının maraqlarının əksidir və beləliklə, hər bir fərd bir kimlik "sahibi olmalıdır" (15). Beləliklə, identiklik sosial elmlərdə insanların özlərini və başqalarını müəyyən etmək ehtiyacını əks etdirən spesifik mənsubiyyət hissini təsvir etmək üçün istifadə olunan bir anlayışdır.

**Poliidentiklik**

İnsanın hər biri müxtəlif vaxtlarda daha vacib ola bilən bir neçə identikliyi ola bilər. Məsələn, qadın kimliyi, ana kimliyi, kiminsə partnyoru, ofis işçisi və s. (1) İnsanların öz identikliklərini ifadə etmə üsullarına onların dildən necə istifadə etmələri və insanlarla münasibəti daxildir. Bununla belə, identikliklər təbii deyil. Onlar əsasən diskursun istifadəsi ilə yaradılır. Üstəlik, identiklik sabit bir şey deyil və insanın həyatı boyu dəyişməz qalmır. Bu, insanların bir-biri ilə qarşılıqlı əlaqəsi zamanı daim qurulan və yenidən qurulan bir şeydir. Müəyyən identikliyin bir hissəsi də onun digər insanlar tərəfindən tanınması, qəbul edilməsidir. Beləliklə, identiklik ikitərəfli bir konstruksiyadır.

**İdentikliyə poststrukturalist yanaşma**

Diskurs anlayışna fransız filosofu Mişel Fukonun əsərləri dərindən təsir göstərmişdir. Fuko iqtisadi münasibətləri hər hansı bir formasiya üçün ilkin hesab edən marksizm təliminə cavab olaraq öz "diskurs" nəzəriyyəsini inkişaf etdirdi. Ortodoksal marksist nöqteyi-nəzərindən istismara söykənən və bununla da ədalətsiz sayılan iqtisadi münasibətlər ("bazis") onları doğuran şərtləri qoruyub saxlamağa kömək edən ideoloji etiqad sistemini ("üstqurum") yaradır. Fuko dualist marksist ideologiyaya gizli "həqiqət"lə ziddiyyət təşkil edə bilən "yanlış şüur" kimi baxışı rədd etdi və ona Jan Fransua Liotard (19) və Jak Derrida (9) kimi digər poststrukturalist yazıçılar kimi baxdı. Onun fikrincə, "həqiqət" anlayışının özü yanlışdır, çünki "həqiqət" dolayısı ilə əslində sadəcə ifadə olan şeyi universallıq səviyyəsinə gətirir. Üstəlik, bu cür iddiaların universallaşdırıcı iddiaları alternativ iddiaları rədd etmək baxımından potensial təzyiq kimi görünür (5). Bunun əvəzinə, Fuko (14) həqiqətin müntəzəm və sistematik şəkildə təşkil edilmiş bəyanatlar və sosial təcrübələr məcmusu kimi başa düşdüyü diskursla əlaqəli olduğu fikrini müdafiə etdi. Bu diskursiv formasiyalar öz daxili qaydaları ilə idarə olunur və sosial fərqləri üstələyir. Onlar mürəkkəbdir və obyektlər (yəni psixi xəstəxanalar kimi xüsusi müəssisələr üçün binalar), əlaqələr (yəni "dəli" və "normal" və ya "rasional" arasında bölünmə) və mətnlər (yəni, inzibati formalar və qaydalar) arasında paylanır; onlar həmçinin identiklikdə yazılmış "mövzu mövqeləri"ni tutan agentlər tərəfindən təcəssüm olunur və qüvvəyə minir. Bu nöqteyi-nəzərdən insanlar heç vaxt iqtisadi istismar və onu müşayiət edən özgələşdirici ideologiya tərəfindən tamamilə "hakimiyyət" və ya "istismar" altında olmurlar. Bunun əvəzinə, onlar diskursun obyekti və agentləridirlər, çünki diskurs onların varlıq, qiymətləndirmə və fəaliyyət formaları vasitəsilə fəaliyyət göstərir. Bu proses Fuko (14) tərəfindən "subyektivləşmə" adlandırılır. Nəticə etibarı ilə, "hakimiyyətdən" qaçmaq mümkün deyil, çünki "o, həmişə artıq mövcuddur və insanın ona qarşı çıxmağa çalışdığını tam şəkildə təmsil edir" (14, 82). Konseptual olaraq bu o deməkdir ki, "diskurs" termini ideologiya anlayışından daha üstündür, çünki bu cür təhlil hakimiyyətin faktiki mübarizə meydanı kimi diskursda necə həyata keçirildiyindən daha çox diskursun özü vasitəsilə necə həyata keçirildiyi ilə maraqlanır.

İdentikliyin konseptuallaşdırılması və onun spesifik təzahürlərinin öyrənilməsi tədqiqatçıların alternativ baxışlarına məruz qalmışdır. Belə ki, identiklik fərdin səciyyəsi və ya

sosial qarşılıqlı təsir nəticəsində yaranan, şüurda və ya xüsusi sosial davranışda təzahür edən, bir şəxsə və ya qrupa bağlı bir fenomen kimi nəzərdən keçirilə bilər.

Tarixən identiklik mənlik anlayışı ilə güclü şəkildə əlaqələndirilib ki, bu hal psixologiyada özünü daha aydın göstərir. Məsələn, identikliyin inkişafı ilə bağlı mühüm araşdırmaların müəllifi psixoloq Erik Erikson onu "həm öz daxilindəki sabit eynilik (özünüidentiklik), həm də bəzi əsas xarakterin başqaları ilə daimi paylaşılması" kimi müəyyən edir (13, 109).

Fərdlə cəmiyyət arasındakı bu dualizmi və fərdin sosial mühitdən mahiyyətləndirilməsi və mücərrədləşməsi fikrini simvolik interaksionist Corc H. Mid də müdafiə edirdi. Bununla belə, identiklik anlayışının tənqidi yalnız son onilliklərdə xüsusilə geniş vüsət almışdır. Belə ki, Antoni Giddens (16) və Ziqmunt Baumanın (4) fikrincə, postmodern həyat qeyri-müəyyənlik, qırılma, fiziki və sosial yerdəyişmə, axın və parçalanma təcrübələri ilə xarakterizə olunur.

Poststrukruralist yanaşmada identikliyə "daimi prosesdə olan bir şey kimi" baxılır (1), bunun dil, daha doğrusu, diskurs vasitəsilə baş verdiyi və ya formalaşması iddia edilir. Burada həmçinin göstərilir ki, insanın özü, kimliyi haqqında "verdiyi" məlumat, əsasən, söhbətin kontekstindən, səbəbindən, məqsədindən və məkanından asılıdır (6). Məsələn, işə düzələrkən sizin insan resursları şöbəsində rəislə görüşünüz məkan, özünüzü təqdim edərək işə yararlı olduğunuzu göstrəmək səyiniz isə səbəb və məqsədi, eləcə də intervünün kontekstini ifadə edir. Bəzi hallarda identiklik yalnız müvəqqəti ola bilər və eyni şəkildə diapazon və ya miqyasına, zaman və fiziki məkana görə fərqli ola bilər. *Məsələn, ofis işçisi yeni təyinat olaraq daha yüksək vəzifəyə keçərsə, bu halda yuxarıda sadaladığımız vahidlərdə də həmin şəxslə bağlı zəruri dəyişikliklər baş verəcəkdir.*

Bundan əlavə, identikliyin heç bir aspekti (cinsi, irqi və ya etnik mənsubiyyət) onun digər aspektlərindən (məsələn, sinfi, peşə və s.) azad deyildir. Başqa sözlə, hər bir şəxs müəyyən cinsə, irqə və ya etnosa aid olduğu kimi eyni zamanda müəyyən bir sinfə, peşəyə də mənsubdur.

Bəzi hallarda insanlar müəyyən məqsədlərə nail olmaq üçün aid olduqlarından fərqli identiklik yarada bilərlər. Belə ki, insanların onlayn olaraq yaratdıqları kimlik bəzi hallarda onların oflayn kimliyindən ayrı və fərqli ola bilən dildən və ya vizual cihazlardan istifadə etməklə təqdim edilə bilər. *Məsələn, birisi sosial şəbəkədə yalançı hesab yaratmaqla özünü fərqli birisi kimi təqdim edə və bununla da öz məqsədlərinə çata bilər.* Belə ki, onlayn ünsiyyət quran bəzi insanlar ünsiyyət qurmaqdan istədikləri auditoriya üçün daha cəlbedici olan onlayn identiklik təqdim etmək üçün özlərinin mühüm xüsusiyyətlərini (yaş, etnik, irqi, evlilik statusu, cinsi mənsubiyyət, xarici görünüşü və s.) dəyişə bilər. Bu kimliklərin hər biri kim olduğunu və kim olmaq istədiyini (ən azı müəyyən vaxt çərçivəsində) müəyyən etmək üçün davam edən prosesin bir hissəsidir. Məhz bu səbəbdən Terlou, Lengel və Tomiç kimi tədqiqatçılar "identiklik onlaynı" haqqında danışmağa üstünlük verirlər.

**İdentiklik və təsadüfi söhbət**

Bəzən məqsədsiz və mənasız görünməsinə baxmayaraq, təsadüfi söhbət əslində yüksək strukturlaşdırılmış, funksional motivasiyalı semantik fəaliyyətdir. Kim olduğumuzu, başqaları ilə necə münasibət qurduğumuzu və dünya haqqında nə düşündüyümüzü davamlı olaraq araşdırmaq üçün təsadüfi söhbət sosial identikliyimizin cinsi, nəsil, sinfi, etnik, irqi, submədəni və qrup mənsubiyyəti kimi aspektlərini müzakirə etmək üçün mühüm linqvistik vasitədir.

Eggins və Sleyd (20) iddia edirlər ki, insanlar təsadüfi söhbətlərdən sadəcə "vaxt öldürmək" üçün deyil, daha çox sosial kimlik haqqında danışıqlar aparmaq və şəxslərlərarası münasibətləri müzakirə etmək, aydınlaşdırmaq və genişləndirmək üçün istifadə edirlər (17). *Məsələn, siz nahar etməyə və ya çay içməyə dəvət etdiyiniz çoxdan görmədiyiniz bir tanışınızla onu son dəfə gördüyünüzdən bu günədək həyatınızda nələr baş verdiyini, bundan sonra münasibətlərin nə cür qorunub saxlanılması haqqında söhbət apara bilirsiniz. Başqa bir misal. Çoxdan təqaüdə çıxmış yaşlı birisi mövcud kimliyini digər özü kimi birisi ilə müzakirə edə,*

doi.org/10.61764/lasr.1.2024.32-39

*həmin şəxs və ya şəxslər qrupu ilə aralarındakı münasibətləri davam etdirə bilər.*

Adları çəkilən müəlliflərin sözü ilə desək, təsadüfi söhbətin görünən mənasızlığının arxasında onun təmin etdiyi əhəmiyyətli şəxsiyyətlərarası iş gizlənir ki, bu vaxt qarşılıqlı əlaqədə olan şəxslər öz sosial identikliklərini və münasibətlərini həyata keçirir və təsdiqləyirlər. Onların fikrincə, təsadüfi söhbət insanların özünü ən rahat, ən kortəbii və özünə güvənən hiss etdiyi söhbət növüdür. Beləliklə, təsadüfi söhbət Eggins və Sleydə görə "oxşarlıqların təsdiqi ilə" həmrəylik yaradır və "fərqlərin araşdırılması yolu ilə" müstəqilliyi təsdiq edir (20). *Lakin zənnimizcə, müəlliflər problemə birtərəfli yanaşaraq təsadüfi söhbətin yalnız pozitiv cəhətlərinə diqqət yetirirlər. Məsələ ondadır ki, bu vaxt hər iki tərəf bir-biri üçün naməlum olduqlarından özləri haqqında gerçəklikdən uzaq məlumatlar verə bilər və eləcə də məsuliyyətin azlığından bu məlumatların ciddiliyinə varmaya bilərlər. Bu identiklik formasının müddəti tərəflərin şəxslərarası münasibətlərdə qarşılıqlı etimaddan və söhbətin gələcəkdə davam etdirmə istəyindən asılı olacaqdır. Amma istənilən təsadüfi söhbət təkcə sosial reallığı yenidən qurmur, həm də onu tərəflərin öz istədikləri şəkildə təqdimatına söykənir.*

Başqa sözlə, bütün nitq qarşılıqlı əlaqələrində olduğu kimi, gündəlik söhbətdə də dilin necə istifadə olunması hər iki tərəf arasındakı münasibətdən, onların bir-biri ilə təmasda olma tezliyindən, bir-biri ilə qarşılıqlı əlaqənin dərəcəsindən və onların bir-birinə aidiyyət hissindən asılıdır. Biz şifahi və ya yazılı şəkildə ünsiyyət qurarkən başqa insanlara özümüz haqqında nə isə bir şey deyir və onlarla müəyyən şəkildə rəftar edirik. Buradan aydın olur ki, kimlik birgə, ikitərəfli istehsaldır. Başqa sözlə, o, insanların ineraksiyası zamanı daim qurduqları və yenidən qurduqları sosial bir mənlikdir.

Nəhayət, təsadüfi söhbətdən bəhs edərkən son olaraq onu göstərə bilərik ki, identiklik "danışıqlar əsasında qurulmuş bir təcrübədir" və burada "kim olduğumuzu həm özümüzü necə hiss etməyimiz, həm də özümüzün başqalarının qavrayışında təcəssümü üsulu ilə müəyyən edirik". (21, 149)

Deməli, identikliklər həmçinin şifahi və yazılı nitqdən istifadə etməyimizin əsasını təşkil edən ortaq dəyərlər toplusuna, razılaşdırılmış mədəni anlayışlara və hətta ideologiyalara əsaslanır.

**İdentiklik və kontekst**

K.Zotzmann və J.Oreqanın fikrincə, identiklik fərdi cəmiyyətlə əlaqələndirir və beləliklə, insanların müəyyən icmalara qoşulma və onlardan uzaqlaşma proseslərini, özləri haqqında hansı məlumatları ötürməyə çalışdıqlarını və bu məlumatın öz növbəsində necə rezonans doğurduğunu anlamağa imkan verir (22).

Daha sonra onlar əsaslandırmağa çalışırlar ki, identiklik diskursiv bir hadisə olaraq dil və digər semiotik resurslar vasitəsilə qurulur. O, həm də müəyyən zaman və məkanda, real şəraitdə (onlayn da daxil olmaqla) gerçək hadisələrin nəticəsi kimi çıxış edən maddi bir fenomendir. Başqa sözlə, identiklik müəyyən bir kontekstdə qurulur və qəbul edilir. Bu, insanların fərdiliyini nümayiş etdirdiyi təcəssüm aktlarını (məsələn, moda, kosmetika, yeni avtomobil, avatar vasitələrini və s.) əhatə edir. Lakin fərdlər bu subyektivliyə şəxsi keyfiyyətlərindəki, sosial mövqeləri və müxtəlif dərəcədə tanınmalalrını təmin edən dil, mədəni, sosial, iqtisadi və d. resurslarla və onlara çıxış imkanlarındakı fərqlərlə gəlirlər. Bu kontekstlərə eyni zamanda media, təhsil, siyasət və cəmiyyətin müxtəlif səviyyələrində və müxtəlif sosial sferalarda istehsal olunan və təkrar istehsal olunan sosial qruplar haqqında diskurslar təsir edir. Onlar da, öz növbəsində, müxtəlif yollarla sosial strukturlardan və bölgələrdən təsirlənir və onlara təsir göstərirlər.

**İdentiklik sosial konstruksiya kimi**

Qərb feminist tədqiqatçısı Cudit Batler (8) belə maraqlı bir fikir irəli sürür ki, gender kimliyi digər identikliklərdən fərqli olaraq daha çevik konstruksiyadır və sabit, ortaq xüsusiyyətlər əsasında müəyyən edilə bilməz. O, hesab edir ki, identiklik insanın "malik

olduğu"ndan daha çox onun "etdiyi" və ya "ifa etdiyi" və insanlar arasında xüsusi mübadilələr, diskurslar və qarşılıqlı əlaqələr vasitəsilə yenidən yaradılan bir şeydir. Deyilənlərdən belə bir nəticə çıxarmaq olur ki, sosial reallıq müstəqil bir varlıq kimi mövcud deyil və o, sosial şəkildə qurulur. Deməli, identiklik bir atribut və ya atributlar silsiləsi deyil, proses kimi nəzərdən keçirilməlidir.

**Dil və identiklik**

Əgər qarşılıqlı əlaqə hər yerdə mövcuddursa, eyni şeyi dil haqqında da demək olar. İnsanların öz identikliklərini geyim, davranış və ya müəyyən obyektlərin istifadəsi kimi bir çox simvol vasitəsilə çatdıra bildikləri doğru olsa da, identikliyi ifadə etmək və müzakirə etmək üçün yeganə ən vacib simvol sistemi dildir (1).

Kimlik insanların cəlb olunduğu sosial vəziyyətlərin növləri və diskursiv praktikaları ilə əlaqəli olduğundan çoxsaylıdır. Dil istifadəçiləri təkcə digər insanlarla konkret və ya virtual qarşılıqlı əlaqəni əhatə edən linqvistik fəaliyyətlər vasitəsilə öz kimliklərini ifadə etmirlər. Burada diskurslar polifonik kimi görünə və müxtəlif kimlikləri təmsil edən çoxsaylı səs qatlarını özündə ehtiva edə bilər.

İnsanların bir-biri ilə ünsiyyəti məlumat mübadiləsi, tapşırıqların yerinə yetirilməsi, hiss və emosiyaların ifadə edilməsi və d. göstəricilər üzərində qurulur (məsələn, bir-birimizə necə insanlar olduğumuz haqqında məlumatı çatdırmaq, etik və əxlaqi məsələlərlə bağlı mövqeyimizi bildirmək və s.). Dilimizdən öz obrazlarımızı çatdırmaq üçün istifadə etdiyimiz kimi, başqalarını tanımaq, insanları kateqoriyalara ayırmaq və mühakimə etmək, oxşar cəhətlərimizi bildirərək onlarla uyğunlaşmaq və ya fərqliliklərimizi vurğulayaraq onlardan uzaqlaşmaq üçün də istifadə edirik. Bu və bir çox başqa aspektlərdə dil və diskurs kimliklərin qurulmasında mərkəzi rol oynayır.

Sosiolinqvistlər Ekert, Rikford, Auer və b. (12) nitq üslublarının diskursda müxtəlif mənliklərin və səslərin təqdimatı üçün strategiyalar təmin etdiyini vurğulayırlar. *Məsələn, onlar ABŞ-ın respublikaçılar partiyasının üzvü, Alyaska ştatının qubernatoru Sara Peylinin çıxışları zamanı onun dil seçimlərini təhlil edərkən belə bir nəticə çıxarırlar ki, onun nitq üslubu və danışıq tərzində sosial kateqoriyalar və kontestlər arasında ardıcıl assosiasiyalar yaradılır. Deməli, bunlardan istifadə etməklə insanlar fərqli kimliklər təqdim edə bilərlər.*

Beləliklə, sosioloinqvistik hadisələrin öyrənilməsi üçün vacib bir yer kimi qarşılıqlı əlaqəyə diqqət yetirən tədqiqatçılar insanların identikliyini müəyyən etmək üçün hansı kateqoriyalardan istifadə edildiyini, hansı kontekstlərdə onların necə müzakirə edildiyini və insanlar üçün bunların nə demək olduğunu başa düşməyin vacibliyini vurğulayırlar.

Ziqmunt Bauman dil və identiklik haqqında danışarkən göstərir ki, identiklik – bir linqvistik konstruksiyadır. O, insanın aktivliyini göstərməyə çalışır və "performans" anlayışından istifadə edir. Onun fikrincə, linqvistik hərəkətlər identikliyin formalaşdırılması üçün lokus (yer, məkan) olaraq mühüm əhəmiyyət daşıyırlar. Bununla belə, Bauman "performativ nümayiş" haqqında danışmağa davam edir və bununla da yalnız "görünən" və ya performans vasitəsilə təmsil olunan xarici reallığı qeyd edir. (Bauman 4,3) Onun istifadə etdiyi başqa bir anlayış, şəxsiyyətin tamamilə konstruksiya olunduğuna dair fərziyyəni bir daha alt-üst edən "indeks" ('indexical') terminidir. Digər nümunələrə baxsaq görərik ki, hətta Devis və Harredə (7) də bu çaşdırıcı terminlərdən bəziləri təqdim edilir. Onlar şəxsiyyətin konstruksiyası prosesinin ardıcıl mərhələlərini təsvir edərək aşağıdakıları göstərirlər:

1. Bəzi insanları əhatə edən və digərlərini istisna edən kateqoriyaların öyrənilməsi, məsələn: kişi/qadın, ata/qız;

2. Mənaların müxtəlif kateqoriyalara bölündüyü müxtəlif diskursiv təcrübələrdə iştirak. Bunlara müxtəlif süjet nöqtələrinin inkişaf etdirildiyi hekayə xətləri də daxildir (7,47).

Buradan belə çıxır ki, kimlik konstruksiyasının əvvəlcədən mövcud olan kateqoriyalara mənalar verməsi müəyyən mənada çaşqınlıq yaradır, kateqoriyaların əvvəlcədən mövcudluğu

yalnız fərdin nöqteyi-nəzərindən doğrudur və kateqoriyalar hələ də kollektiv baxımdan əvvəlki diskursiv təcrübələrlə qurulur.

Beləliklə, yuxarıda qeyd olunan bir sıra ziddiyyətli fikirlər göstərir ki, elmi ədəbiyyatda kimliklə bağlı hansı və nə qədər sosial reallıqların dəqiq qurulduğu və diskursdan kənarda müstəqil olaraq mövcud olan kateqoriya növlərinin mövcud olub-olmaması ilə bağlı hələ də əhəmiyyətli dərəcədə qarışıqlıq qalmaqdadır.

**Nəticə**

Beləliklə, identiklik sosial elmlərdə insanların özlərini və başqalarını müəyyən etmək ehtiyacını əks etdirən spesifik mənsubiyyət hissini təsvir etmək üçün istifadə olunan bir anlayışdır.

İnsanın hər biri müxtəlif vaxtlarda daha vacib ola bilən bir neçə identikliyi ola bilər. İnsanların öz identikliklərini ifadə etmə üsullarına onların dildən necə istifadə etmələri və insanlarla münasibəti daxildir. Bununla belə, identikliklər təbii olmayıb əsasən diskursun istifadəsi ilə yaradılır.

Poststrukturalist yanaşmaya görə, identiklik fərdin səciyyəsi və ya sosial qarşılıqlı təsir nəticəsində yaranan, şüurda və ya xüsusi sosial davranışda təzahür edən, bir şəxsə və ya qrupa bağlı fenomen kimi nəzərdən keçirilə bilər. Burada identikliyə bir proses kimi baxılır onun dil, daha doğrusu, diskurs vasitəsilə baş verdiyi və ya formalaşması iddia edilir.

Bəzən məqsədsiz və mənasız görünməsinə baxmayaraq, təsadüfi söhbət əslində yüksək strukturlaşdırılmış, funksional motivasiyalı semantik fəaliyyətdir. Kim olduğumuzu, başqaları ilə necə münasibət qurduğumuzu və dünya haqqında nə düşündüyümüzü davamlı olaraq araşdırmaq üçün təsadüfi söhbət sosial identikliyimizin müxtəlif aspektlərini müzakirə etmək üçün mühüm linqvistik vasitədir. Buradan aydın olur ki, kimlik birgə, ikitərəfli istehsaldır. Başqa sözlə, o, insanların ineraksiyası zamanı daim qurduqları və yenidən qurduqları sosial bir mənlikdir.

İdentiklik müəyyən bir kontekstdə qurulur və qəbul edilir. Bu kontekstlərə eyni zamanda media, təhsil, siyasət və cəmiyyətin müxtəlif səviyyələrində və müxtəlif sosial sferalarda istehsal olunan və təkrar istehsal olunan sosial qruplar haqqında diskurslar təsir edir. Onlar da, öz növbəsində, müxtəlif yollarla sosial strukturlardan və bölgələrdən təsirlənir və onlara təsir göstərirlər.

Əgər qarşılıqlı əlaqə hər yerdə mövcuddursa, eyni şeyi dil haqqında da demək olar. İnsanların öz identikliklərini geyim, davranış və ya müəyyən obyektlərin istifadəsi kimi bir çox simvol vasitəsilə çatdıra bildikləri doğru olsa da, identikliyi ifadə etmək və müzakirə etmək üçün yeganə ən vacib simvol sistemi dildir.

## Ədəbiyyat

1. Anna de Fina. Discourse and identity construction. February 2011. In book: handbook of identity theory and research (pp.177-199), p. 265.
2. Baggioni, Daniel & J.-M. Kasbarian. (1996). La production de l'identité dans les situations de francophonie en contact. In: D. de Robillard & M. Beniamino (eds.), Le français dans l'espace francophone. Paris: Honoré Champion Editeur, pp. 855-869.
3. Bauman, R. and Sherzer, J. (1974). Explorations in the ethnography of speaking. Cambridge: Cambridge University Press
4. Bauman, Z. (2005) Work, Consumerism and the New Poor. London: Open University Press.
5. Baxter, J. (in Karin Zotzmann and John P. O'Regan. Critical Discourse Analysis and Identity). (2016). Positioning language and identity: poststructuralist perspectives, in S. Preece (ed.) The Routledge handbook of language and identity. Abingdon: Routledge.

doi.org/10.61764/lasr.1.2024.32-39

6. Blommaert, J., (2007) 'Orders of Indexicality and Policentricity', in Sociolinguistics and discourse analysis. Orders of indexicality and policentricity, Journal of Multicultural Discourse 2: 115-130
7. Bronwyn, Davies & Harré, Rom. 1990. Positioning: The discursive production of selves. Journal for the Theory of Social Behaviour 20(1).43- 63.
8. Butler, J. (1999). Gender Trouble: Feminism and the Subversion of Identity. New York and London: Routledge
9. Derrida, J. (1978). Writing and Difference. Chicago: University of Chicago.
10. Djité, Paulin G. (2006). Shifts in linguistic identities in a global world. Language Problems & Language Planning 30(1).1-20.
11. Duszak, Anna. (2002). Us and others: an introduction. In: A. Duszak (ed.), Us and Others. Social identities across languages, discourses, and cultures. Amsterdam: Benjamins, pp. 1-28.
12. Eckert, P. and Rickford, J. R. (eds.) (2001). Style and Sociolinguistic Variation. Cambridge: Cambridge University Press
13. Erikson, E. (1980) Identity and the Life Cycle. New York/London: Norton.
14. Foucault, M. (1977) Discipline and Punish: The Birth of the Prison. Trans. Alan Sheridan, London: Allen Lane
15. Geschiere, Peter & Birgit Meyer. (1998). Globalization and Identity: dialectics of flow and closure. Introduction. Development and change 29.601-615.
16. Giddens, Anthony. (1991). Modernity and Self-Identity. Self and Society in late modern age. Cambridge: Polity Press.
17. Introduction to Systemic Functional Linguistics: 2nd Edition. Suzanne Eggins - 2004 M01 1 - 404 pages.
18. Kroskrity, Paul V. (1999). Identity. Journal of Linguistic Anthropology 9(1-2).111- 114.
19. Lyotard, J.-F. (1984). The postmodern condition: a report on knowledge. Manchester: Manchester University Press.
20. Suzanne Eggins, Diana Slade. (2004). Equinox Publishing Ltd. 333 pages.
21. Wenger, Etienne (1998) Communities of practice: learning, meaning, and identity. Cambridge University Press.
22. Zotzmann Karin, O'Regan John. Critical Discourse Analysis and Identity. February 2016. In book: The Routledge Handbook of Language and IdentityPublisher: Routledge Editors: Preece.
23. https://www.oxfordlearnersdictionaries.com/definition/english/identity?q=identity

**Мухтар Набили**

## ИДЕНТИЧНОСТЬ И ДИСКУРС

***Резюме***

*В статье рассматривается соотношение идентичности и дискурса, изучаются вопросы полиидентичности, постструктуралистского подхода к идентичности, связи между идентичностью и случайным разговором, с которым мы всегда сталкиваемся и который на первый взгляд кажется простым, установление и принятие идентичности в определенном контексте, его значение как социальной конструкции, наиболее важное для выражения и обсуждения идентичности, а также роль языка как символической системы. Показано, что понятие идентичности вышло на первый план в академических исследованиях и дискуссиях в тот момент, когда в современном мире обострились социально-экономические и политические проблемы, а человек находится в глубоком кризисе, и это важно для понимания социально-экономических и культурно-политических процессов, происходящих как в современном мире, так и в Азербайджане.*

***Цель:*** Уточнить понятия идентичности и дискурса и изучить различные аспекты их взаимоотношений.

doi.org/10.61764/lasr.1.2024.32-39

***Методология:*** В статье изучаются отдельные аспекты современного состояния изучения проблем идентичности и дискурса с использованием таких общенаучных методов исследования, как индуктивный и дедуктивный, анализ и синтез, а также системного подхода, включая возможности приобретения новых знаний в этом направлении.

***Научная новизна:*** У человека может быть несколько идентичностей, каждая из которых может быть более важной в разное время. Идентичность можно рассматривать как явление, связанное с человеком или группой, проявляющееся в сознании или конкретном социальном поведении, возникающее в результате характера человека или социального взаимодействия. Непринужденная беседа является важным лингвистическим инструментом для обсуждения различных аспектов нашей социальной идентичности. Идентичность конструируется и воспринимается в определенном контексте.

***Ключевые слова:*** *идентичность, социальная идентичность, дискурс, язык, контекст*

**Mukhtar Nabili**

## IDENTITY AND DISCOURSE

### *Summary*

*This article examines the relationship between identity and discourse, exploring the issues of polyidentity, the poststructuralist approach to identity, the relationship between identity and the casual conversation we always encounter and which at first glance seems straightforward, the establishment and acceptance of identity in a particular context, its significance as a social construct that is most important for expressing and discussing identity, and the role of language as a symbolic system. It is shown that the concept of identity has come to the forefront of academic research and discussions at a time when socio-economic and political problems have become more acute in the modern world and the human being is in deep crisis, and this is important for understanding the socio-economic and cultural-political processes taking place both in the modern world and in Azerbaijan.*

***Purpose:*** To clarify the concepts of identity and discourse and to study various aspects of their relationship.

***Methodology:*** The article studies some aspects of the current state of the art of studying the problems of identity and discourse using such general scientific research methods as inductive and deductive, analysis and synthesis, as well as the systemic approach, including the possibilities of acquiring new knowledge in this direction.

***Scientific novelty:*** A person may have several identities, each of which may be more important at different times. Identity can be seen as a phenomenon associated with a person or group, manifested in consciousness or specific social behavior, resulting from a person's character or social interaction. Casual conversation is an important linguistic tool for discussing various aspects of our social identity. Identity is constructed and perceived in a particular context.

***Keywords:*** *identity, social identity, discourse, language, context*

doi.org/10.61764/lasr.1.2024.40-51

# İQTİSADİYYAT VƏ İDARƏETMƏ

**JEL CODE Q5, Q55**

**Vilayat Ismayilov**
*Azerbaijan Academy of Labor and Social Relations, **Azerbaijan***
*Doctor of Economics, Professor*
*ismaylov1953@mail.ru*
*ORCİD:0000-0003-0892-0365*
**Sandur İsmayıl**
*ADA Universiteti, **Azerbaijan***
*magistrant*
*sandurismayil07@gmail.com*

## METHODOLOGY FOR EVALUATING AN INNOVATIVE LOGISTICS SYSTEM

***Summary***

*Innovations in any field characterize the process of obtaining a technological innovation based on scientifically based knowledge. Since innovation processes are cyclical in nature. And the innovation process proceeds in stages, not directly. The research paper deals with seven stages of the implementation of the innovation process. It is shown that in modern Azerbaijan there is a need to switch to an innovative logistics development strategy. And the transition to this strategy is becoming a global problem in this area. The development of innovative logistics technologies makes it possible to process large amounts of data and expand the prospects for using information and analytical centers of logistics providers.*

***This study presents** the classification features and types of logistics innovations, as well as a generalization of basic and innovative logistics. It is revealed that fundamental and innovative logistics complement each other, but at the same time, there is a contradiction between them. Only the optimal solution of the entire complex of mutual management tasks allows you to achieve your goals. Since only the logistics system is able to recoup all logistical costs and ensure the highest efficiency. The issues related to the expediency of using innovative logistics are noted.*

*The World Bank regularly calculates and presents the sequence of countries in the world in a ranking reflecting the effectiveness of the logistics system. The Logistics Efficiency Index, which is determined by this organization, is a unique comparative analysis tool that measures the flexibility of logistics systems with data for 140 countries in 2023. The index consists of six components - customs assessment, infrastructure assessment, ease of transportation assessment, quality assessment of logistics services, timeliness assessment and tracking.*

*The creation of a national innovation system is considered a strategic indicator of innovative development in market conditions for the countries of the former Soviet Union, including Transcaucasia. The national innovation system will ensure the identification of innovation priorities, the formation and implementation of state programs for the development of innovative logistics and the stimulation of innovation activities.*

***Keywords:** innovative logistics, types, logistics efficiency index, development of innovative logistics*

doi.org/10.61764/lasr.1.2024.40-51

**Introduction**

Logistics activities include a set of indicator systems that are associated with the establishment of balanced ratios of material, information and fiscal costs in the company. Logistics activities proceed through a multi-stage stage of circulation from an external source to the end user. Logistics services are expanding under the influence of transformations in the field of informatization. They form the processes that determine the needs of market participants, Also filtering out those who will not be able to adapt to them. In connection with these problems, the concept of Logistics 4.0 was born in the context of the formation and development of «Industry 4.0" [8, pp.53-58].

In logistics innovation, the most optimal technologies are:

- Enterprise Resource Planning;
- Warehouse Management System;
- Transport Management System;
- Customer Relationship Management;
- Radio Frequency Identification system.

The task of digitalization processes in the field of logistics innovation is to accelerate logistics processes, ensure their maximum continuity, and the process of converting data into digital forms using new methods of transportation and robotization is changing the logistics market today.Information and communication technology (ICT) has become an indispensable tool for logistics service providers (Internet Service Providers Lsps). Lsps have benefited from the use of ICT in their business processes mainly in terms of reducing costs and improving customer service [25, pp.1-9].

The innovation process is the process of consistently turning new ideas into new products or services, which is characterized by an innovative process - the transformation of academic knowledge into innovations. Accordingly, innovation activity has a cyclical nature. For example, the innovation process is implemented in stages (of 7 stages). [28, pp.763-769].

It should be noted that the company's profit begins with the fourth stage of the innovation process. Existing systems are basic for an innovative economy, an innovative economy encompasses systems that include information, production technologies and computerized systems. Implementing information systems radically transform production systems, technologies and various means in the field of information production and increase human intellectual activity [9, pp.42-45]. Scientific and technical novelty is considered one of the main characteristics or properties of innovations. Since scientific novelty, in turn, is evaluated according to technological parameters, as well as with a market position [24]. In the field of innovation and various innovations, there is not only the development of something new, but also in the field of management, finance, logistics, marketing, information, which confirms the all-encompassing nature of innovation.

In modern Azerbaijan today, there is a need to switch to a strategy of innovative development of all sectors, including logistics, which is becoming a global problem in this area. The country's accession to the World Trade Organization and the development of international and economic standards lead to an increase in the need for high-quality logistics services. Currently, various logistics methods require an integrated innovative approach in the field of information storage and processing. The Azerbaijani economy is going through a difficult period and requires a way out of the current economic situation.

**Literature review**

An analysis of the economic literature proves that the work of many scientists is devoted to the problems of conducting research on the development and implementation of

innovations in the transport system and logistics, and in recent years foreign scientists have also shown interest in this process. However, the topics of "logistic innovations" are devoted to a small number of theoretical studies. While the prerequisites and results of logistics innovations have been identified in leading logistics journals, very few empirical trials have been conducted. The spread of logistical innovations has also been given attention in the logistics literature [13, pp.360-377]. The purpose of this article is to determine the effectiveness of investment in innovative technology and logistics process.

Some researchers describe innovative logistics as a set of scientific knowledge, methods and skills for the study and rational optimal organization of any flow processes in order to increase the effectiveness of their results by identifying and using additional, usually hidden management reserves [12, pp. 75-82]. The development of logistics technologies has become possible due to the active introduction of information technologies that allow processing large amounts of data and open up prospects for the use of information and analytical centers of logistics providers. Investments in logistics technologies have become the main factor in the development of supply chains.

Such investments provide not only economic benefits from the use of various modes of transport, but they can also add a serious boost to the country's economy. A large dose of investment in the development of notification technologies or innovations in the field of improving supply chains corresponds to the global trend:

-investments in the field of information systems and technologies are growing;

-information systems and technologies are used in logistics and supply chain management [15, pp.266-271].

The development of innovative logistics technologies has become possible due to the active introduction of the latest information and their technologies, which allow processing large amounts of data and expand the prospects for using information and analytical centers of logistics providers. Logistics automation and cloud technologies allow you to reduce the costs associated with attracting labor resources, optimize delivery processes, look for partners and customers, participate in electronic auctions and monitor cargo levels online [1, pp.97-105].

It is permissible to assume that in the future the volume of investments in improving information technology in logistics will increase [6, pp. 65-69]. According to industry experts, Germany is a leading country in the development and implementation of logistics technologies. Currently, the country's main logistics centers are located in 6 cities: Berlin Hamburg; Berlin, Dusseldorf Frankfurt, Stuttgart, Munich and Nuremberg. All of them are mainly located in the western part of the country and 11 large logistics operators carry out transport activities are. For example, Maneuverability logistics, Concept Logistics, CS4 Logistics, Inter global Shipping, etc. [18, pp. 17-21; 27, pp.49-53].

The PwC Central and Eastern Europe report on this area highlights five main factors influencing the development of the transport and logistics industry:

- digitalization of the sphere;
- changes in logistics processes due to the introduction of new software;
- changing market dynamics;
- changes in international trade;
- changes in technological processes due to the introduction of new equipment [11, pp.127-138; 26, pp.116-127].

Innovative logistics can be considered as a set of scientific knowledge, methods and skills for the study and rational necessary organization of any flow processes in order to increase the effectiveness of their final results by identifying and using additional [7, pp.11-22].

**Research methods**

Bəzi hallarda sosial müdafiənin təşkili ilə bağlı *bərabərlik* və ya *sosial bərabərlik* prinsipindən də bəhs edilməsinə rast gəlinir. Lakin hesab etmək olar ki, ədalətlilik prinsipi daha geniş anlayış olmaqla həmçinin özündə sosial bərabərlik prinsipini də ehtiva edir. Bu baxımdan bərabərlik prinsipini ədalətlilik prinsipinin törəməsi olaraq qəbul edilməsinin daha məqsədəmüvafiq olduğu fikrindəyik. Bu prinsip sosial müdafiədə maddi-texniki və maliyyə imkanlarının regional yerləşmə, etnik, gender, irqi, dini, mədəni və didər xüsusiyyətlərindən asılı olmayaraq sosial müdafiə zəmanətləri və təminat formaları ilə əhatə olunmada əmək fəaliyyətinə münasibətin nəzərə alınmasına, diskriminasiyaya yol verilməsini, sosial ehtiyacların həssaslığı və təxirəsalınmazlığına (gəlir, fiziki sağlamlıq və s. aspektlərdən) görə rasional istifadə edilməsinin gözlənilməsini ifadə edir.

Sosial müdafiədə sosial ədalət prinsipinin təmin olunması xüsusilə getdikcə dah çox əhəmiyyət qazanan - sığorta prinsipinin gözlənilməsi ilə sıx əlaqəlidir. Sosial müdafiənin təşkilinin müasir mahiyyətinə uyğun olaraq isə onun fərdlərdən və ya müxtəlif sosial qruplardan maddi itki, yaxud fiziki sağlamlığa xətər yetirilməsi ilə müşayiət olunan və qazanc əldə edilməsi imkanlarını məhdudlaşdıran müxtəlif sosial əhəmiyyətli hadisələr zamanı ödəniş əsaslı sığorta təminatı kimi çıxış etməsi sığorta prinsipinin xüsusi və ayrıca prinsip olaraq formalaşmasını da təmin etmişdir. Sosial müdafiədə sosial sığorta prinsipinin təmin olunması isə dövlət sosial sığorta sistemləri çərçivəsində olmaqla daha çox icbari əsaslarla baş verdiyindən bəzən törəmə prinsip olaraq sosial müdafiənin təşkilində *icbarilik* prinsipini də müəyyən mənada ayırd etmək mümkündür (məsələn, məcburi əsasda ödənilən sosial sığorta haqları hesabına formalaşan fondlar hesabına pensiya və sosial müavinətlərlə təminat sistemləri (sığorta-pensiya sistemi) icbarilik prinsiplərinə əsaslanır). Sosial müdafiədə icbarilik prinsipinin tətbiqinin əhəmiyyəti özünü sosial müdafiənin baza və ya ən azından minimal səviyyədə təmin olunması, xüsusən əhalinin həyat səviyyəsinin yoxsulluq həddinə düşməsi, eyni zamanda iqtisadi proses olan gəlir yaradılması nəticəsində formalaşan gəlir bərabərsizliyi, əhalinin gəlir qütbləşməsi kimi başlıca iqtisadi əsaslı sosial problemlərlə mübarizənin təminatçısı kimi çıxış etməsində açır.

Analoji olaraq müasir şəraitdə sosial müdafiə sistemi çərçivəsində sığorta prinsiplərilə idarə olunan müdafiə mexanizmlərinin həmçinin könüllü əsaslarla da fəaliyyət elementlərini özündə birləşdirdiyini nəzərə alsaq, onda törəmə mahiyyətində həmçinin *könüllülük* prinsipini də sosial müdafiənin təşkili prinsipi olaraq qəbul edə bilərik (məsələn, əlavə pensiya təminatını nəzərdə tutan könüllü sosial sığortanın tətbiqi istiqamətində). Eyni zamanda sosial müdafiənin dövlət tənzimlənməsi aləti olaraq daha çox əhəmiyyət qazandığı hazırkı inkişafı mərhələsində cəmiyyətdə sosial rifah halının ümumilikdə tarazlaşdırılması və yaxşılaşdırılması məqsədinə uyğun olaraq fəaliyyətin qurulması, demək olar ki, həmrəylik məsələsinin də xarakterik prinsip olaraq formalaşmasına gətirib çıxamışdır. Belə ki, xüsusilə sığortalama mahiyyətinə əsaslanan sosial zəmanət (müdafiə) təsisatlarının fəaliyyət fəlsəfəsi, o cümlədən pensiya təminatı sisteminin məcburi dövlət sosial sığortasına əsaslanan birinci pilləsinin (beynəlxalq ədəbiyyatlarda bəzən "pensiya sığortası" da adlandırıla bilir), işsizlikdən sığorta, icbari tibbi sığorta və digər sistemlərin fəaliyyətinin əsası *həmrəylik* (çox vaxt beynəlxalq səviyyədə "pay as you go" adlandırılır) prinsipinə riayət olunması üzərində qurulur. Bu prinsipi sığorta prinsipinin, bir növ, zidd qarşılığı olaraq qəbul etmək olar, belə ki, həmrəylik prinsipi dedikdə, sığortaolunan tərəfdən sığorta haqlarının sığortaçıya ödənilməsi qarşılığında

formalaşdırılan vahid fondlar hesabına üçüncü tərəflərin (sığortaolunanların) sosial müdafiə ehtiyaclarının qarşılıqlı şəkildə ödənilməsi nəzərdə tutulur, başqa sözlə, investisiya mexanizmlərindən hesabına yaradılan fondlardan istifadə edilmədən vahid şərti yığım mahiyyətli fondlara ödənilən cari sığorta haqları hesabına həmin fondlardan nəzərdə tutulan istiqamətlər üzrə xərclərin maliyyələşdirilməsi aparılır.

Sosial müdafiənin təşkilində işlənilən islahat və proqramların icrası zamanı konket əhali qruplarının təsir dairəsinə alınmasının hədəflənməsi meyar olaraq sosial müdafiədə **ünvanlılıq prinsipini** formalaşdırır. Sosial müdafiə islahatlarının elmi-nəzəri əsasda işlənilməsi, reallaşdırılması imkanları və səmərəsi, qeyd edə bilərik ki, böyük ölçüdə tərtibat zamanı ünvanlılıq prinsipinin gözlənilməsindən bilavasitə asılıdır. Belə ki, sosial müdafiənin təşkilində qarşıya qoyulan hədəfə uyğun olaraq konkret sosial qruplara istiqamətlənilmiş məqsədlərə nail olunması üçün bütün texniki-təşkilati, maddi-maliyyə-resurs imkanlarının və ayrılacaq çərçivənin qabaqcadan müəyyən edilməsi, nəticələrin müəyyənləşdirilməsi, nəticə indikatorlarının proqnozlaşdırılması ünvanlılığın gözlənilməsindən birbaşa asılıdır.

Müasir şəraitdə sosial müdafiənin təşkilində müxtəlif mexanizmlərin ümumi təsvirdə - dövlət büdcəsi və sığorta prinsipinə əsaslanılmaqla formalaşdırılan büdcədənkənar məqsədli fondları vəsaitlərindən istifadə hesabına tətbiq edildiyini nəzərə aldıqda sosial müdafiənin təşkilində daha çox sığorta və ünvanlılıq prinsiplərinin daha qabarıq özünü göstərdiyini qeyd etmək olur. Belə ki, tətbiq edilən sosial müdafiə mexanizmlərini müxtəlif sosial qrupların ehtiyaclarının ödənilməsindəki miqyasına və əhəmiyyətinə görə daha çox önə çıxan əsas iki istiqamətdə - sosial sığorta sistemi və ünvanlı dövlət sosial yardım sistemləri şəklində ayırmaq mümkündür. Qlobal tendensiya olaraq əhali uzunömürlülüyünün artdığı, müxtəlif mənşəli təsirlərin çoxalması ilə cəmiyyətdə sosial, iqtisasdi, psixoloji, məişət, sağlamlıq və s. aspektlərdən həyat şəraiti ilə bağlı problemlərin təbii olaraq artıdığı bir dövrdə sosial müdafiənin digər bir qolu olan sosial xidmətlərin təşkili də ünvanlılıq prinsipinin əsas tutulmalı olan üçünçü bir istiqaməti olaraq getdikcə əhəmiyyət qazanmaqdadır.

Sosial müdafiənin təşkilində işlənilən proqramların, siyasətin, xidmət təklifinin, həmçinin mövcud zəmanət mexanizmlərinin cəmiyyət, əhali, sosial qruplar və fərdlərin sosial müdafiə ehtiyaclarına yönəlməsini nəzərdə tutan və rasional olaraq qarşılanmasına imkan verəcək şəkildə təşkili meyarlarına uyğunluğu ifadə edən adekvatlıq prinsipini də ayırmaq olar. Məna etibarilə adekvatlıq prinsipinin ünvanlılıq prinsipi ilə yaxınlığı da sezilən məqamlardan hesab edilə bilsə də, ünvanlılıq sosial qruplara, yaxud fərdlərə yönəlmənin, adekvatlıq prinsipi isə ümumən təklif edilən zəmanətlərin təşkili keyfiyyəti və səmərəliliyinin önə çıxması ilə özünü daha çox göstərir.

Sosial müdafiə proqramlarının hədəflənən nəticəyə istiqamətlənmiş olaraq arzuolunan nəticəni verməsi üçün bütün hallarda həmin proqramların sosial müdafiəni əhatə edən və ona təsir edən amillər, proseslər, tendensiyalar və meyllər, sistemdaxili faktorlar, proseslər və xüsusiyyətlər ciddi şəkildə nəzərə alınmaqla hazırlanması tələb olunmaqdadıdır ki, bu cəhətlər sosial müdafiənin təşkili ilə bağlı adaptivlik prinsipinin gözlənilməsi əhəmiyyətini və əsas mahiyyətini təşkil edir. Sahə üzrə qanunvericilik aktlarının, islahat tədbirlərinin, dövlət proqramlarının, bütövlükdə bütün tədbir və qərarların baş verən və sosial müdafiəyə təsirli sosial-iqtisadi dəyişmələrə həssas yanaşmada işlənilməsi tələb olunur. Bu mənada, məsələn, minimal əməkhaqqı, yaşayış minimumu, minimum pensiya, ehtiyac meyarı kimi minimal həyat səviyyəsinə təsirli indikatorlara istehlak qiymətləri indeksinin artımı nəzərə alınaraq yenidən baxılması zəruri məsələlərdəndir.

Sosial müdafiənin təşkili zamanı dövlət-əhali (vətəndaş) - müəssisə və təşkilatlar (o cümlədən sahibkarlıq subyektləri) kimi sosial tərəfdaşlar arasında onların məqsəd, funksiya

və məramlarından irəli gələrək qarşılıqlı şəkildə münasibətlərinin çərçivə hüdudlarını, əsaslarını və qarşılıqlı öhdəlikləri nəzərdə tutan meyar olaraq sosial məsuliyyətlilik prinsipi də əhəmiyyətli hesab olunur. Bu prinsipin gözlənilməsi sosial müdafiənin təmin olunmasına məsul dövlət orqanları və qurumları işin qurulmasının, əldə olan maddi-texniki və maliyyə resurslarının sosial qrupların ehtiyaclarının rasional olaraq qarşılanmasına yönəldilməsinə, bir növ, vadar edir, eyni zamanda mövcud normativ baza və təşviqat işləri vasitəsilə əmək münasibətlərində olan və olmayan əhalinin və fərdlərin sosial müdafiə sisteminin iştirakçısı qismində vəzifə, hüquq və məsuliyyətlərini dərk etməyə imkan verməklə sosial müdafiənin həyata keçirilməsi üçün infrasruktur imkanlarının yaxşılaşmasına müsbət təsir göstərir.

Sadalanan prinsiplərlə qarşılıqlı məzmun əlaqəsində olan və son ədəbiyyatlarda və qanunvericiliklərdə getdikcə daha çox nəzərə alınmağa başlanılan digər bir prinsip olaraq – sosial inkluzivlik prinsipinin tətbiqi də diqqəti cəlb edir. Bu prinsipin gözlənilməsi hazırlanan sosial müdafiə proqramlarının cəmiyyətin bütün fərdlərinin, xüsusən sağlamlıq imkanları məhdud olan, sosial dezaptasiya və ya deprivasiyaya vəziyyətində olan şəxslərin də müxtəlif sosial, reabilitasiya, sosial-iqtisadi və maliyyə əhəmiyyətli dəstək tədbirləri ilə əhatə olunması vacibliyinin nəzərdə saxlanılması ilə bağlıdır. Bu prinsipin mahiyyətinin xüsusi cəhəti – eyni zamanda qeyri-formal iqtisadiyyatda iştirakçı olan qrupların da preventiv tədbirlər sayəsində sosial müdafiə ilə əhatə olunması meyarını ifadə etməsindədir. Sosial inkluzivlik prinsipi sosial müdafiənin həyata keçirilməsinin bilavasitə məqsəd və vəzifələrinə yaxın məna kəsb edir. Sosial inkluzivlik prinsipi sosial cəhətdən xüsusilə həssas sosial qrupların (fərdlərin) də işlənilən sosial müdafiə proqramlarından kənarda saxlanılmaması, onların maraqlarının nəzərə alınmması meyarını ifadə edir. Qeyd edilən aspektlərdən sosial inkluzivlik prinsipinin gözlənilməsi eyni vaxtda sosial ədalət və ya sosial bərabərlik prinsipinin gözlənilməsi çərçivəsində baş verməklə aradakı qarşılıqlı əlaqəni ifadə etməyə də imkan verir.

Qlobal meyllər də nəzərə alınmaqla sosial müdafiə sistemlərinin inkişafının hazırkı mərhələsində sosial müdafiəyə baxışlardakı reformasiya prosesləri yeni prinsiplərin formalaşmasını da şərtləndirməkdədir. Bu qəbildən olmaqla, informasiya dövrü hesab edilən, məlumatların (informasiyaların) müasir kommunikasiya vasitələrinin köməyilə asan əldə olunduğu, informasiya əlçatanlığının yüksək səviyyədə olduğu hazırkı mərhələdə sosial müdafiənin təşkili ilə bağlı önəm verilən və artan aktuallıq kəsb edən meyarlardan biri olaraq şəffaflıq məsələlərinin də ayrıca bir prinsip olaraq formalaşmaqda olduğunu deməyə əsas verir. Sosial müdafiədə şəffaflıq prinisipi sosial qruplara yönəldiyi kimi, həmçinin idarəetmə səviyyəsinə də yönəlməklə idarəetmə qərarlarının verilməsi və hesabatlılıq məsələlərinin də mümkün hədlərdə (konfidensiallıq və korporativ maraqlar gözlənilməklə) müxtəlif vasitələrlə açıq şəkildə ictimaiyyətə əlçatanlığının təmin olunmasının əhəmiyyətliliyi məqamını da nəzərdə tutur. Sosial müdafiənin səmərəli təşkili baxımından şəffaflıq prinsipinə vətəndaşa istiqamətlənmə ilə bərabər, effektiv büdcə planlaşdırılması və maliyyə vəsaitlərinin xərclənməsi ilə də bağlı şəffaflığın, məlumat açıqlılığının təmin olunması istiqamətində şaxələndirilməsi şəklində yanaşılması mühüm əhəmiyyətlidir.

Şəffaflıq prinsipdən törəmə olaraq əlçatanlıq prinsipinin də sosial müdafiədə mahiyyətcə əhəmiyyət kəsb etdiyini qeyd etmək olar. Sosial müdafiədə zəmanət mexanizmlərinin şəffaflıq şəraitində təqdim edilməsi sosial məsuliyyətlilik prinsipinin də gücləndirilməsinə təsir etməklə sosial müdafiədə monitorinq, xidmət keyfiyyətinin yüksəldilməsinin qiymətləndirilməsinə çalışılması təşəbbüslərini atırır.

Sosial müdafiədə şəffaflıq prinsipinin gücləndirilməsi, o cümlədən sosial müdafiədə əlçatanlığın artırılması üçün sosial müdafiənin təşkili və idarə olunmasının informasiya-kommunikasiya və rəqəmsal texnologiyaların tətbiqi platformasında genişləndirilməsi

doi.org/10.61764/lasr.1.2024.52-75

imkanlarının dəyərləndirilməsi müasir şəraitdə xərctutumluq, operativlik, rahatlıq, asanlıq baxımından da sosial müdafiə sistemləri üçün əlverişlidir.

Eyni vaxtda müasir şəraitdə sosial müdafiənin təşkilində yuxarıda sadalanan qarşılıqlı əlaqəli olan prinsiplərlə eyni vaxtda qarşılıqlı əlaqədə inkişaf edən yeni bir prinsipin – vətəndaş məmnunluğu prinsipinin formalaşmasını da qeyd etmək olar. Müasir dünyada öz hüquqlarını, o cümlədən sosial müdafiə hüquqlarını və faydalanılması mümkün imtiyazları bilən və sosial müdafiə ilə bağlı yetəri məlumatlılıq (savadlılıq) səviyyəsinə malik vətəndaş obrazının günbəgün daha çox formalaşması baxımından fərdin ehtiyaclarının qarşılanması üçün sosial müdafiə sistemlərindən sosial müdafiənin təşkilinin vətəndaşa xidmət müstəvisində aparılması daha çox tələb olunmaqda və sosial müdafiənin həyata keçirilməsinin əslində aktual vəziyyətdə son hədəfi olan - vətəndaş məmnunluğunun əldə olunması üçün sosial müdafiənin bundan əvvəl sadaladığımız bütün – ümumilik, ədalətlilik, ünvanlılıq və onlardan törəmə kimi qiymətləndirdiyimiz digər prinsiplərinin yerinə yetirilmiş olması mütləq əhəmiyyət qazanmaqdadır. Bir növ, bu baxımdan, hesab edilir ki, sosial müdafiənin təşkilində vətəndaş məmnunluğuna nail olunmuşdursa, deməli əhalininin və ya fərdin sosial müdafiə ehtiyacları və problemləri daha yaxşı səviyyədə qarşılanmış və sosial müdafiənin təşkili ilə bağlı bütün prinsiplər müəyən mənada gözlənilmişdir.

Beləliklə, sosial müdafiənin təşkili prinsiplərini sosial müdafiənin məqsədlərinə, qarşıya qoyulan hədəflərə nail olunması üçün qərar qəbulunda gözlənilməsi şərt hesab edilən əsas meyarlar məcmusu kimi ümumiləşdirmək mümkündür və sosial müdafiənin təşkilində müəyyən edilən prinsiplər sosial müdafiə mexanizmləri olaraq təklif edilən zəmanət mexanizmlərinin səmərəliliyini qiymətləndirməyə, eyni zamanda islahat ehtiyaclarını müəyyənləşdirməyə imkan verir (şəkil 1).




**Şəkil 1. Sosial müdafiənin təmin olunması çərçivəsində onun təşkili prinsiplərinin nəzəri-metodoloji mahiyyəti**

*Mənbə:* müəllif tərtib etmişdir.

Sosial müdafiədə onun təşkili prinsiplərinin iqtisadi fəlsəfəsini açmağa imkan verən yuxarıdakı şəkildəki təsvirdən də başa düşmək mümkündür ki, sosial müdafiədə prinsiplərin müəyyən olunması sosial müdafiədə qarşıya qoyulmuş məqsədlər və hədəflərdən asılı olaraq sosial müdafiənin idarə olunmasında əhəmiyyət verilən istiqamətlər və gözlənilməsi daha vacib hesab edilən meyarların dəyişkən amillər nəzərə alınmaqla davamlı olaraq aydınlaşdırılması prosesidir.

**3. Azərbaycan Respublikasında sosial müdafiənin təşkilinin prinsipial məqsədlərə nail olunması baxımından sahəvi dəyərləndirilməsi, sosial müdafiənin prinsiplərinin tətbiqi xüsusiyyətləri və problemləri**

**Ümumilik prinsipi baxımından dəyərləndirilmə**

Azərbaycan nümunəsində sosial müdafiənin sahələri üzrə statistik göstəricilərdən və müxtəlif nəticə indikatorlarınının nəzərə alınması ilə ölkə timsalında əsas götürülən sosial müdafiə prinsiplərinin, onlar arasında prioritetlik verilən istiqamətlərin müəyyənləşdirilməsi, eyni zamanda konkret müddət aralıqlarında sosial müdafiə ilə bağlı məqsədlərə nail olunmasının çoxaspektli qiymətləndirilməsi aparıla bilər.

Bu mənada sosial müdafiə prinsipləri qismində tərəfimizdən verilən başlıca istiqamətlər nəzərə alınmaqla Azərbaycanda retrospektiv baxımından sosial müdafiənin təşkilində onun prinsiplərinin tətbiqinin əsas xüsusiyyətlərini aşağıdakı başlıca istiqamətlərdə icmallaşdıra bilərik:

Azərbaycanda sosial müdafiədə ümumilik prinsipinin təmin olunması ilk növbədə konstitusion əsaslardan irəli gəlir: Ədalətli iqtisadi və sosial qaydalara uyğun olaraq hamının layiqli həyat səviyyəsinin təmin edilməsi başlıca niyyət istiqamətlərindən biri olaraq Azərbaycan Respublikasının 1995-ci ildə ümumxalq səsverməsində qəbul edilmiş Konstitusiya aktında qəbul olunmuşdur. Azərbaycanda dövlətin xalqın və hər bir vətəndaşın rifahının yüksəldilməsi, onun sosial müdafiəsi və layiqli həyat səviyyəsinin qayğısına qalması, Azərbaycan dövlətinin mədəniyyətin, təhsilin, səhiyyənin, elmin, incəsənətin inkişafına yardım göstərməsi, ölkənin təbiətini, xalqın tarixi, maddi və mənəvi irsini qoruması sosial inkişaf və dövlətçilik fəlsəfəsi kimi müəyən olunmuşdur.

Sosial təminat hüququ olaraq, hər kəsin sosial təminat hüququnün olmasının, yardıma möhtac olanlara kömək edilməsinin ilk növbədə onların ailə üzvlərinin borcu olmasının, hər kəsin qanunla müəyyən edilmiş yaş həddinə çatdıqda, xəstəliyinə, əlilliyinə, ailə başçısını itirdiyinə, əmək qabiliyyətini itirdiyinə, işsizliyə görə və qanunla nəzərdə tutulmuş digər hallarda sosial təminat hüququna malik olmasının, təqaüdlərin və sosial müavinətlərin minimum məbləğinin qanunla müəyyən edilməsinin, dövlətin xeyriyyəçilik fəaliyyətinin, könüllü sosial sığortanın və sosial təminatın başqa növlərinin inkişafı üçün imkanlar yaratmasının ölkənin ana normativ sənədində ilkin (baza) sosial-iqtisadi hüquqlar olaraq müəyyənləşdirilməsi sosial müdafiənin ümumən təşkilinin də yönümünün əsas istiqamətlərini, ilkin prioritetləri müəyyənləşdirmişdir ki, bu sadalananlar ilk növbədə ümumilik prinsipinin (eyni zamanda ondan törəmə prinsiplərinin) təmin olunması ilə bağlıdır. Həmçinin nikah hüququ (nikah və ailə dövlətin himayəsində olması, analıq, atalıq, uşaqlığın qanunla mühafizə edilməsi, dövlətin çoxuşaqlı ailələrə yardım göstərməsi, ər ilə arvadın hüquqlarının bərabərliyi, uşaqlara qayğı göstərilməsinin, onların tərbiyə edilməsinin valideynlərin həm hüququ, həm də borcu olması, valideynlərə hörmət edilməsi, onların qayğısına qalmağın uşaqların borcu olması, 18 yaşına çatmış əmək qabiliyyətli uşaqların əmək qabiliyyəti olmayan valideynlərini saxlamağa borclu olması), əmək hüququ (əməyin fərdi və ictimai rifahın əsası kimi qəbul edilməsi, hər kəsin əməyə olan qabiliyyəti əsasında sərbəst surətdə özünə fəaliyyət növü, peşə, məşğuliyyət və iş yeri seçmək hüququnun olması, heç kəsin zorla işlədilməsinin, əmək müqaviləsinin məcbur bağlanılmasının yolverilməzliyi, əmək müqavilələrinin sərbəst bağlanılması, hər kəsin təhlükəsiz və sağlam şəraitdə işləmək, heç bir ayrı-seçkilik qoyulmadan öz işinə görə dövlətin müəyyənləşdirdiyi minimum əmək haqqı miqdarından az olmayan haqq almaq, işsizlərin dövlətdən sosial müavinət almaq hüquqlarının olması, dövlətin işsizliyin aradan qaldırılması üçün bütün imkanlarından istifadə etməsi), tətil hüququ (hər kəsin təkbaşına və ya başqaları ilə birlikdə tətil etmək hüququnun olması, əmək müqaviləsi əsasında işləyənlərin tətil etmək

hüququnun yalnız qanunla nəzərdə tutulmuş hallarda məhdudlaşdırıla bilməsi, fərdi və kollektiv əmək mübahisələrinin qanunla müəyyənləşdirilmiş qaydada həll edilməsi), istirahət hüququ (hər kəsin istirahət hüququnun olması, əmək müqaviləsi ilə işləyənlərə qanunla müəyyən edilmiş, lakin gündə 8 saatdan artıq olmayan iş gününün, istirahət və bayram günlərinin, ildə azı bir dəfə 21 təqvim günündən az olmayan ödənişli məzuniyyətin verilməsinin təmin edilməsi), vergilər və başqa dövlət ödənişlərinin (bu çərçivədə o cümlədən məcburi dövlət sosial sığorta haqları da əhatə olunmaqla) ödənilməsi vəzifəsi (qanunla müəyyən edilmiş vergiləri və başqa dövlət ödənişlərinin tam həcmdə və vaxtında ödənilməsinin hər bir kəsin borcu olması) və s. kimi sosial əhəmiyyətli və insanın (fərdin) həyat səviyyəsinin təminatı üçün baza əhəmiyyət kəsb edən təsisatların mövcudluğu Azərbaycanda ümumilik prinsipinin bərqərar olmasını ilk növbədə təmin etmişdir. Eyni zamanda sosial müdafiənin həyata keçirilməsinin son hədəfi olan - bilavasitə iqtisadi əhəmiyyətli olmamaqla fərdin layiqli həyat səviyyəsinin təmin olunmasında əlavə amillər olan  - hər kəsin sağlam ətraf mühitdə yaşamaq hüququnun təmin olunmasının, ekoloji mühitin qorunmasının, mədəni həyatda iştirak etmək, mədəniyyət təsisatlarından və mədəni sərvətlərdən istifadə hüquqlarının və qoruma vəzifələrinin, sağlamlığın qorunması hüququnun təmin olunmasının, sağlamlığın qorunması və tibbi yardım almaq hüququnun təmin olunmasının, dövlətin müxtəlif mülkiyyət növləri əsasında fəaliyyət göstərən səhiyyənin bütün növlərinin inkişafı üçün zəruri tədbirlər görməsinin, sanitariya-epidemiologiya salamatlığına təminat verməsinin, tibbi sığortanın müxtəlif növləri üçün imkanlar yaratmasının, təhsil hüququnun təmin olunmasının, mənzil hüququnun təmin olunmasının konstitusion səviyyədə təmin edilməsinə zəmanət verilməsi sosial müdafiədə ümumilik prinsipinin gözlənilməsi və gücləndirilməsini təmin etməkdədir.

Bununla belə, icra olunan sosial müdafiə proqramlarının əhatə dairəsinə prospektiv baxış ötən dövr ərzində sosial müdafiədə islahatlılığın pensiya təminatı sahəsinə daha çox ayrıldığını və real dinamikanın daha qabarıq göründüyünü, buna münasibətdə ünvanlı dövlət sosial yardım, sosial müavinətlərlə təminat kimi sahələrin bir qədər geridə inkişafını deməyə əsas verir ki, bu da sosial müdafiədə ümumilik prinsipindən törəmə olaraq universallıq prinsipinin gözlənilməsi ilə bağlı axsaqlığı önə çıxdığını hesab etməyə imkan yaradır. Təbiidir ki, bu, müstəqillik əldə edildikdən sonrakı illərdə ölkə qarşısında yaranmış sosial yükün, yoxsulluq probleminin həllinin ən optimal mexanizmi olaraq seçilməsi yanaşması ilə əlaqələndirilə bilər.

2015-ci ilin sentyabr ayında keçirilmiş BMT-nin Dayanıqlı İnkişaf Sammitində Azərbaycanın da iştirak etdiyi BMT-nin üzvü olan dövlətlər tərəfindən "2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik" qəbul edilmiş, həmin gündəlikdə irəli sürülən Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq üçün bütün imkanları səfərbər etməklə, "heç kəsi kənarda qoymamaq" prinsipinə əsaslanaraq insan həyatının və fəaliyyətinin bütün istiqamətlərində, o cümlədən yoxsulluğun azaldılması və sosial təminat sahəsində mövcud olan problemlərin aradan qaldırılması üçün birgə səylərin göstərilməsi barədə razılıq əldə edilmişdir [8].

Bu məqam də özülüyündə Azərbaycanda da sosial müdafiənin təşkilində xüsusən ümumilik, ədalətlilik, sosial bərabərlik, inkluzivlik, əlçatanlıq kimi prinsip istiqamətlərinin nəzərə alınmasının əhəmiyyətini önə çıxarır.

Ümumilik prinsipindən törəmə olaraq müəyyən etdiyimiz – çoxsubyektlilik prinsipinin gözlənilməsi göründüyü kimi, Azərbaycanda ilk növbədə konstitusion əsaslarda baş verməkdədir, belə ki, sosial müdafiənin təmin olunması tərəfi kimi təkcə dövlət deyil, özəl tərəfdaşların, qeyri-hökumət təşkilatlarının, həmkarlar ittifaqlarının, həmçinin xeyriyyə təşkilatlarının, yaxın sosial çevrənin qəbul edilməsi Azərbaycanda sosial müdafiənin təşkilində çoxsubyektliliyin nəzərə alınmasının göstəricisidir. Həmçinin sahibkarlığın

inkişafına yaradılan əsaslar əmək münasibətlərinin tərəfi kimi sosial müdafiənin təşkili baxımından iştirakçılığı təmin etməklə çoxsubyektlilik prinsipinin əsaslığını formalaşdırmaqdadır.

Azərbaycanda sosial sığorta sahəsində münasibətləri tənzimləyən, sosial sığortanın hüquqi, iqtisadi və təşkilati əsaslarını müəyyən edən "Sosial sığorta haqqında" 1997-ci ildə qəbul edilmiş Qanunla sosial dövlət modelinə uyğun olaraq ölkədə sosial müdafiənin əsası kimi çıxış edən sığorta-pensiya sisteminin quruculuğunda sosial sığortanın müntəzəmliyinə dövlət təminatının, sosial sığortanın ümumiliyinin, sosial sığortanın işçilərə əmək qabiliyyətinin itirildiyi hər bir halda təminat verməsinin, sosial sığorta subyektlərinin hüquq bərabərliyinin, dövlət sosial sığortasının məcburiliyinin, məcburi dövlət sosial sığortasının idarə edilməsində ictimai təşkilatların iştirakının təmin olunmasının sosial sığortanın prinsipləri olaraq müəyyən edilməsi Azərbaycanda sosial müdafiənin təşkilində yuxarıda təhlili yanaşma əsasında izah etdiyimiz – ümumilik və ya universallıq prinsiplərinin ilk növbədə prioritet olaraq müəyyən edildiyini, eyni zamanda həmin prinsipdən törəmə olaraq qeyd etdiyimiz icbarilik, çoxsubyektlilik kimi prinsiplərin də nəzərə alındığını deməyə əsas verir.

2017-ci ildə əmək bazarında riskin ötürülməsinə əsaslanan münasibətlərin və yeni maliyyələşmə mexanizmlərinin yaradılması, sığortaolunanların itirilmiş əməkhaqlarının kompensasiya olunması və işsizliyin yaranması hallarının qarşısının alınması üçün qabaqlayıcı tədbirlərin görülməsi yolu ilə əhalinin sosial müdafiəsinin gücləndirilməsinə təminat verilməsi məqsədilə "İşsizlikdən sığorta haqqında" Qanunun qəbul edilməsilə Azərbaycanda sosial müdafiənin təkmilləşdirilməsi istiqamətində mühüm addım atılmış oldu. İşsizlikdən sığortalanmanın sistemli idarəedilməsini nəzərdə tutan bu normativ baza çərçivəsində əsas prinsiplər olaraq, işsizlikdən sığortanın məcburiliyi, işsizlikdən sığortanın subyektlərinin (sığortaçı, sığortaolunanlar və sığortaedənlər) hüquq bərabərliyi, sığorta hadisələrinə səbəb olan halların yaranmaması üçün tədbirlərin görülməsi, bu Qanunla müəyyən olunmuş qaydada işsizlikdən sığortanın müntəzəmliyinə dövlət təminatı, sığorta stajından və işsizliyin davamlılığından asılı olaraq sığorta ödənişinin məbləğinin diferensiallaşdırılması, işsizlikdən sığortanın idarə edilməsində ictimai təşkilatların iştirakının təmin olunması seçilmişdir. Bu sosial müdafiə mexanizminin 2018-ci ildən etibarən tətbiqinə başlanıdığı vaxtdan keçən müddətdə onun təşkili ilə bağlı sosial müdafiə prinsiplərinin gözlənilməsinə münasibətdə dəyərləndirmə aparsaq, işsizlikdən sığortanın məqsədi və əhatə dairəsi olaraq müəyyən edilmiş müddəalarının sığorta ödənişlərinin əmək münasibətlərinə bütün xitam verilməsi hallarında deyil, AR Əmək Məcəlləsinin yalnız konkret maddələrinə müvafiq olaraq xitam hallarında sığortaolunanlara nəzərdə tutulan sığorta ödənişlərini almaq hüququ verdiyini görmək olar ki, bu da qeyd edilən qanunun özünə münasibətdə onun tərkibində müəyyən edilmiş - sığorta stajından və işsizliyin davamlılığından asılı olaraq sığorta ödənişinin məbləğinin diferensiallaşdırılması prinsipinin, həmçinin sosial müdafiənin ümumiliyi və ya universallığı, eləcə də müəyyən mənada sosial ədalət prinsiplərinin mahiyyəti ilə uzlaşmama göstərməkdədir.

Sosial müdafiənin inkişafının qlobal əhali yaşlanması, iqtisadi qeyri-bərabərsizlik, sosial deprivasiya, eləcə də digər müxtəlif sosial və demoqrafik mənşəli çətinliklərin daha da çoxaldığı müasir mərhələsində Azərbaycanda sosial müdafiənin təmin olunmasındakı əhəmiyyəti getdikcə artan - sosial xidmətin sistemli təşkilinin əsasının 2011-ci ildə "Sosial xidmət haqqında" Qanunun qəbul edilməsilə və sosial müdafiə sistemini digər qolları ilə müqayisədə daha gec qoyulduğunu qeyd etmək mümkündür. Bu istiqamətdə ötən dövr ərzində tərtibat baxımından aparılmış işlərdə əhatəlilik təmin olunsa da, qarşıda duran problemlər dövlət idarəetməsi səviyyəsində də qəbul edilməkdədir ki, hesab etmək olar ki, 2023-cü ildə qəbul edilməklə mövcud problemlərin həllinə istiqamətlənmiş müvafiq

sərəncamla təsdiq edilmiş "Azərbaycan Respublikasında sosial xidmətin inkişafına dair 2023–2026-cı illər üçün Dövlət Proqramı" ilə həlli hədəflənən məsələlərdə əsas meyar olaraq ünvanlılıq və əlçatanlıq prinsipinin müəyyən edilməsi yerinədüşən addım olaraq qiymətləndirilməklə, sosial xidmətin tətbiqinin effektivliyi imkanlarını artırmaqdadır.

2023-cü ilin avqust ayında Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən internet resurslarda açıqlanan məlumata əsasən, 2026-cı ilin sonunadək hamı üçün bərabər iştirak imkanını təmin edən sosial xidmətlər sisteminin və bu sahədə ixtisaslı kadr potensialının formalaşması, sosial xidmətlərin əhatəsinin genişlən-məsi, ünvanlılığının və keyfiyyətli xidmətlərə əlçatanlığın təmin edilməsi və əhalinin göstərilən xidmətlərdən məmnunluq səviyyəsinin artması - yeni Dövlət Proqramının əsas hədəf göstəriciləri olmaqla, Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi nəticəsində 2026-cı ilin sonunadək sosial xidmət sistemi ilə bağlı qanun-vericilik bazasının təkmilləşəcəyi, həssas əhali qruplarına göstərilən xidmətlərin kəmiyyət və keyfiyyətinin artacağının gözlənildiyi, eləcə də müntəzəm həyata keçirilən profilaktik abilitasiya və reabilitasiya tədbirlərinin stasionar sosial xidmətə ehtiyacı olan şəxslərin sayının azalmasına imkan verəcəyi, həmçinin Proqram üzrə görüləcək tədbirlərin xidmət təklifinin artması ilə rəqabət mühitinin güclənməsinə səbəb olacağı, bunun da öz növbəsində sosial xidmətlərin keyfiyyətinə müsbət təsir göstərəcəyi, dövlət sifarişi ilə sosial xidmət sahəsində həyata keçirilən layihələrin sayının ildən-ilə artırılmasının, innovativ texnologiyaların tətbiqi ilə sosial xidmət sahəsində vahid informasiya məkanının yaradılmasının, Yeni Dövlət Proqramı ilə sosial xidmət sahəsində elektron xidmətlərin təkmilləşməsinin və yeni e-xidmətlərin tətbiqinin, sosial xidmət infrastrukturunun müasir beynəlxalq təcrübəyə uyğunlaşdırılmasının, sosial xidmətlərin təşkilində vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlığın davam etdirilməsinin, bu sahədə dövlət–özəl tərəfdaşlığının genişləndirilməsinin və s. nəzərdə tutulduğu qeyd olunur [9].

Bununla belə, dövlət proqramının icrası üçün tədbirlər planı üzrə müəyyən edilmiş tədbir istiqamətlərinin olduqca geniş spektrli olması, əlaqədar müvafiq qurumlar arasında qarşılıqlı koordinasiyanın qurulması və s. müxtəlif amillərdən asılı olması və proqramın qısa müddətdə icrasını hədəflənməsi onun nəticəliyinin təkcə görüləcək işlərin bu prinsiplərə söykənilməklə aparılmasının kifayət edəcəyinə də zəmanət verməməkdədir.

Azərbaycanın müstəqillik əldə etməsindən ötən və islahatlar baxımından uzun-müddətli hesab edilməyən bir müddət ərzində əhalinin sosial müdafiəsinin təmin olun-masında, digər bir ifadədə, dövlətin sosial yükünün azaldılmasında mühüm mexanizm kimi kifayət qədər müsbət nəticələrlə həyata keçirilmiş sığorta-pensiya sistemi və onun inkişafı sosial müdafiədə həmrəylik prinsipinin tətbiqi təcrübəsi ilə bağlı əyani nümunə kimi qəbul edilə bilər. Belə ki, iqtisadi artım fonunda, nəzarət və yığım mexanizmlərinin inkişafının gücləndirilməsi bazasında birpilləli pensiya təminatı sistemi çərçivəsində məcburi dövlət sosial sığorta haqlarının toplanılması və həmrəylik prinsipi əsasında (işləyənlərdən və işəgötürənlərdən) tutulmaqla ödənilən sığorta haqları hesabına formalaşan dövlət sosial müdafiə fondu vasitəsilə sosial sığorta hadisələri ilə bağlı pensiya və müəyyən sosial müavinət xərclərinin maliyyələşdirilməsi yolu ilə əmək pensiyalarının dinamik artımına nail olunmuşdur. AR Dövlət Statistika Komitəsinin rəsmi statistik məlumatlarından da müşahidə edildiyi kimi, təsadüfi hesab edilə bilməz ki, 1995-2023-cü illərdə təyin olunmuş əmək pensiyalarının orta məbləği göstəricisi davamlı olaraq 1,7 manatdan 372,1 manata (ilin əvvəlinə olan göstəricilərlə) yüksəlmişdir. "Sosial sığorta haqqında" AR Qanunu ilə baza çərçivəsi müəyyən olunmuş sosial sığortanın məcburi dövlət sığortası və könüllü (əlavə) sığorta formalarında olmasının təsbit olunması sosial müdafiənin inkişafı baxımından ümumlik prinsipi çərçivəsində könüllülük prinsipinin tətbiqinin əhəmiyyətini göstərməkdədir. Bu mənada Azərbaycanda mövcud iqtisadi imkanlar, o cümlədən

əməkhaqqı fondu səviyyəsində pensiya təminatının yaxşılaşdırılması üçün əlavə potensial imkanlar qismində könüllü pensiya təminatının institutunun formalaşdırılması sosial müdafiənin perspektivi baxımından mühüm əhəmiyyət kəsb edir.

Sosial müdafiədə ədalətlilik və bu prinsipdən törəmə olaraq irəli gələn - bərabərlik və sosial ədalət prinsiplərinin gözlənilməsinə münasibətdə isə qeyd etmək olar ki, ölkədə sosial müdafiə ilə bağlı hüquqların aydın olması, mövcud təminat formaları və ya məhsulları ilə bağlı məlumatlılığı mövcud şəraitdə qənaətbəxş səviyyədə qiymətləndirmək mümkün olmasına baxmayaraq, keçirilən islahatların müxtəlif sosial qruplara münasibətdə əhatəli olaraq genişləndirilməsi ilə bağlı problemlər hiss edilə bilər. Məsələn, pensiya sistemində pensiyaların indeksləşdirilməsinin bütün pensiyaçılara münasibətdə həyata keçirilməsini sistemdə ədalət prinsipini gücləndirməsi əlaməti olaraq qəbul etmək olarsa da, qanunvericilik müstəvisində pensiya qanunvericiliyi ilə bağlı aparılan dəyişikliklər heç də bütün hallarda bütün sığortaolunanlara uyğun differensiallaşdırılmış yanaşmada onların ayrılıqda sosial vəziyyətlərinin yaxşılaşdırılmasını təmin etməməkdədir. Bu qəbildən Azərbaycanda 2006-cı ildə fundamental əsasda yaradılmış pensiya qanunvericiliyinə 2017-ci ilin mart ayında aparılmış və həmin ilin 1 iyulundan qüvvəyə minən növbəti əsaslı dəyişikliklərin tərkib elementi olaraq olaraq, həmin vaxt sığorta prinsipinə əsaslanmayan baza və sığorta komponentlərindən ibarət olmaqla hesablanan pensiyanın baza hissəsi anlayışının ləğv edilməsi və qanunvericilik qaydasında təyin olunan minimum pensiya anlayışının təbiqinə başlanılması və bütün təyin edilmiş pensiyaların yalnız sığorta hissəsindən ibarət olmaqla sığortaolunanların fərdi hesablarında həmin vaxta toplanılmış pensiya kapitalı əsasında hesablanmasına və ya yenidən hesablanmasına keçid bir çox hallarda formalaşmış pensiya kapitallarının minimum pensiya məbləğini əmələ gətirməməsinə baxmayaraq, həmin şəxslərin pensiyalarının minimum pensiya kapitalına qədər artırılması ilə müşayiət olundu ki, bu hal pensiya sistemində pensiyaların ümumi səviyyəsinin qalxmasını təmin etməsinə baxmayaraq, həmçinin bəzi minimum pensiya məbləği ətrafında əvvəlcədən pensiya alan şəxslərin pensiyalarında dəyişiklik olmaması müqabilində sığorta stajı və ödənilmiş sığorta haqları hesabına fərdi hesablarında toplanmış pensiya kapitalı az olan bəzi yeni pensiyaçılara münasibətdə pensiya kapitalının həcmindən asılı olmadan pensiya təyinatlarına rəvac vermişdir ki, bu da sosial müdafiədə ədalətlilik prinsipinin təmin olunması nöqteyi-nəzərdən nəzərəçarpan xüsusiyyət kəsb edir.

Qeyd edək ki, həmin vaxt dəyişikliklərin əsas məzmunu etibarilə, əmək pensiyasının sığorta hissəsinin 1992-ci il yanvarın 1-dək qazanılmış pensiya kapitalı hesabına formalaşmış hissəsinin, həmçinin bəzi kateqoriyalı sığortaolunanların pensiyalarına bu qanunla müəyyən edilmiş bir sıra nəzərdə tutulmuş əlavələrin dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşdirilməsi, bütün digər məbləğlərin məcburi dövlət sosial ayırmaları və sosial sığorta ehtiyatı hesabına maliyyələşdirilməsi və hər iki mənbədən hər hansı birində vəsait olmadığı halda müvafiq xərclərin digər mənbə hesabına maliyyələşdiriləcəyi müəyyən olundu. 2017-ci il iyulun 1-dək təyin edilmiş əmək pensiyasının yenidən hesablanması məqsədilə 2017-ci il iyulun 1-dək təyin edilmiş əmək pensiyasının baza və sığorta hissəsinin cəmi məbləği dəyişdirilmədən əmək pensiyasının sığorta hissəsinə şərti çevrilməsi aparılaraq, yaşa görə əmək pensiyasının baza hissəsi yanaşmasından əmək pensiyasının minimum məbləği yanaşmasına keçid edildi. Bu qanunun məqsədləri üçün 1 yanvar 2017-ci il tarixindən etibarən 110 manat məbləğində müəyyən edilmiş əmək pensiyasının minimum məbləğinin yeni əsaslarla indeksləşdirilməsinə keçildi (2019-cu ilin martın 1-dən isə aparılmış qanunvericilik dəyişikliklərinə əsasən əmək pensiyasının minimum məbləğin inzibati əsasda artırılması tətbiq olundu), əmək pensiyasının sığorta hissəsi və sığorta hissəsində qeydə alınan pensiya kapitalının müvafiq dövlət orqanının (AR Dövlət Statistika Komitəsi) qərarı ilə respublika üzrə müəyyən edilmiş orta aylıq

nominal əməkhaqqının illik artım tempinə mütənasib olaraq hər il indeksləşdirilməsi müəyyən olundu, kişilər üçün pensiya yaşı həddinin 2017-ci il iyulun 1-dən başlayaraq 2021-ci il iyulun 1-dək, qadınların yaş həddinin isə 2017-ci il iyulun 1-dən başlayaraq 2027-ci il iyulun 1-dək hər il 6 ay artırılmasına keçildi, eyni zamanda pensiya yaşına çatmış şəxslərin fərdi hesablarına yığılmış pensiya kapitalı minimum pensiya məbləğindən az olmamaq şərtilə onlara pensiya təyin edilməsinə şərait yaratdıqda, sosial sığorta stajından asılı olmayaraq, əks halda isə 25 il sosial sığorta stajı tələb olunmaqla pensiyaya çıxma hüququ formalaşdırıldı (1 yanvar 2017-ci il tarixinədək yaşa görə əmək pensiyası təyin edilmiş şəxslər istisna olmaqla (lakin həmin şəxslər üzrə yeni əsaslarla pensiyanın kapital əsaslı yenidən hesablanması və minimum pensiya məbləğinə çatdırılması aparılmaqla)).

Həmin vaxt dəyişikliklərin maliyyə aspekti olaraq, əsasən qeyri-sığorta xarakterli pensiya xərclərinin məhdudlaşdırılması istiqamətində müəyyən kateqoriyalardan olan şəxslər üçün (məsələn, dövlət qulluqçuları, ədliyyə işçiləri, miqrasiya işçiləri və xüsusi rütbəli digər şəxslər) üçün bir çox imtiyazlar ya onların pensiyaya çıxması üçün xidmət stajı tələbinin artırılması, ya da bütün kateqoriyalar üçün imtiyazların və əlavələrin minimuma endirilməsi yolu ilə təkmilləşdirilməyə gedilməsi yolu seçildi. Qazanılmış əmək hüquqlarının nəzərə alınmasının yeni əsaslarla həyata keçirilməsi nəzərdə tutulurdu: Artıq pensiya təyin edilmiş şəxslər istisna olmaqla, bütün sığortaolunanlar üçün fərdi şəxsi hesablarda şərti şəkildə qeydə alınan - 1 yanvar 2006-cı il tarixinədək başa çatmış hər bir il iş stajına görə hesablanan şərti 170 manat pensiya kapitalı 2017-ci ilin 1 iyul tarixinə 306 manat məbləğində şərti pensiya kapitalı olaraq hesablandı və sığortaolunanların, o cümlədən işləyən əmək pensiyaçılarının 2006-cı il 1 yanvar tarixindən 1 iyul tarixinədək olan dövr üzrə fərdi hesabının sığorta hissəsində toplanan və istifadə olunmamış (əmək pensiyasının sığorta hissəsinin hesablanmasında nəzərə alınmamış) pensiya kapitalı 80% artırılmaqla, 2017-ci il 1 iyul tarixinə fərdi hesabın sığorta hissəsində qeydə alındı.

Ümumiyyətlə qeyd etməliyik ki, bu və bundan sonrakı mərhələdə pensiya qanunvericiliyinə çoxsaylı dəyişikliklər aparılması müşahidə olunur ki, bu da bir çox hallarda daha çox nəticə etibarilə konkret sosial qruplara münasibətdə təminatın yaxşılaşdırılması olaraq təzahür edir ki, bunun da ədalət, sosial bərabərlik prinsiplərinin mahiyyəti ilə uyğunsuzluq elementləri də ehtiva etməkdə olduğu hesab edilə bilər. Xüsusən xüsusi şərtlətlə pensiya təyinatının aparıldığı kontingentlərə münasibətdə təyin edilən pensiyaların təyinatının müəyyən edilmiş müvafiq qanunvericilik əsaslarından da irəli gələrək sığorta prinsipi əsas götürülməməklə (sığorta kapitalına əsaslanmadan) xidmət illərinə nəzərə alınmaqla alınan əməkhaqlarına və digər gəlirlərə (təminat xərcliyi və s.) nisbətdə müəyyən edilərək aparılması həmin kateqoriyadan şəxslərin (əsasən hüquq-mühafizə orqanları) pensiyalarının büdcə təşkilatlarında çalışmış uzun illər sosial sığorta stajına malik olan, lakin əməkhaqları aşağı olmuş, yaxud ölkədə məcburi dövlət sosial sığortası və fərdi uçot sisteminin qurulmasından əvvəlki dövrlərdə (1992-ci ildən əvvəlki dövrdə, yaxud 1992-2006-cı illərdə) işləmiş məsələn, 30-40 il, bəzən daha çox əmək stajlı geniş işçi sayı kontingenti ehtiva edən - elmi-pedaqoji, səhiyyə kimi sahələrdə işləyənlərin pensiyalarından dəfələrlə çox olması ilə müşayiət edilir.

Başqa bir misal olaraq, 2017-ci ildə baş vermiş həmin dəyişikliklərlə bəzi hüquq mühafizə orqanları ilə bağlı minimum xidmət illəri tələbi (məsələn, miqrasiya xidməti işçiləri) artırılmış, bununla yanaşı xüsusi əmək fəaliyyəti və mahiyyəti kəsb edən - dövlət qulluqçusu kateqoriyası üzrə əlillik hallarında xüsusi şərtlərlə (ən azı 5 və daha çox xidmət illərinə malik olma halında) pensiya təyinatına imkan verən güzəştli pensiya təminatı imkanları məhdudlaşdırılmış (həmin vaxt 2-ci və 3-cü qrup əlilliyə görə dövlət qulluğu pensiyaya çıxma hüququnun aradan qaldırılması və sonradan yalnız əmək qabiliyyətinin

itirilməsində dərəcəli yanaşmanın tətbiqilə onun tam itirilməsi halı üzrə hüququ saxlanılmaqla) və pensiya yaşına çatdıqda yalnız ən azı 15 il dövlət qulluğu stajı olan şəxslərə dövlət məvacibinin orta aylıq məbləğinin 50 faizi miqdarında, 15 ildən yuxarı stajı olan şəxsə isə qulluq stajının hər ili üçün dövlət məvacibinin orta aylıq məbləğinin 3 faizi miqdarında əlavə olunmaqla, lakin 80 faizi miqdarından çox olmamaqla dövlət qulluqçusu kimi pensiya təyin edilməsinə keçilmişdir ki, bu hal həmin dəyişikliklərə qədər qeyd edilən maksimum tələblərə yaxın şərtləri artıq doldurmuş, lakin tam şəkildə (bir neçə il, ay və s.) tamamlamış müəyyən qrup şəxslərin bu xüsusi şərtli hüquqdan məhrum olmasına gətirib çıxrarır ki, belə hallar da təbiidir ki, ilk növbədə subyektiv yanaşmada sosial müdafiənin əhatəliliyinin zəifləməsi xüsusiyyəti mahiyyətində də qəbul edilə bilir.

Digər bir nümunə olaraq, misal çəkmək olar ki, "Əmək pensiyaları haqqında" Az. Res. Qanununa 30 noyabr 2018-ci il tarixli Qanunla aparılmış dəyişikliklərə və sonrakı düzəlişlərlə 219-cu ilin 1 yanvar tarixindən etibarən əmək pensiyasının avtomatlaşdırılmış qaydada təyinatı zamanı 2006-cı il yanvarın 1-dək olan sığorta stajının hesablanması çərçivəsində 2019-2025-ci illərdə həmin Qanunun 7-ci maddəsi ilə müəyyən edilmiş yaş həddinə çatmış sığortaolunana (bu Qanunun 8-ci maddəsinin müddəaları nəzərə alınaraq həmin maddədə göstərilən şəxslər də daxil olmaqla) yaşa görə əmək pensiyası təyin edilərkən onun 2006-cı il yanvarın 1-dək olan sığorta stajının şərti olaraq 25 il, 2026-cı ildən etibarən isə hər təqvim ili üçün bir il azaldılmaqla hesablanmasına keçilməsi reallıqda bir çox hallarda fərdi uçot sisteminin qurulduğu 2006-cı ildən sonra cəmi 1 ay sığorta stajı olmuş və qeyd olunan qanunvericilik şərtinə uyğun gələn xeyli sayda sığortaolunanın ümumilikdə minimum pensiya kapitalını formalaşdırmayan həcmdə sığorta kapitalına malik olmasına baxmayaraq, minimum pensiya təyinatı hüququnu əldə etməsi ilə nəticələnmişdir ki, bu da onillərlə uzunmüddətli əmək stajı olan, lakin sığorta prinsiplərinin tətbiq edilmədiyi 1992-ci ilədək olan dövrdə əsasən çalışmaqla pensiya taəyinatı şərtlərindən irəli gəlməklə hazırda minimum pensiya məbləği ətrafında pensiya təyin olunmuş şəxslər tərəfindən qeyri-adekvat hal olaraq qarşılanılmaqdadır.

Sosial müdafiənin inkişafının iqtisadi nöqteyi-nəzərdən xüsusi əhəmiyyət kəsb edən məsələlərindən biri qismində qeyd edə bilərik ki, "Əmək pensiyaları haqqında" Az. Res. Qanununa 2017-2022-ci illərdə edilmiş dəyişikliklərə əsasən, əmək pensiyasının sığorta hissəsinin 1992-ci ilin yanvarın 1-dək qazanılmış pensiya kapitalına əsasən formalaşan məbləği, habelə bu Qanunun 20-ci maddəsində nəzərdə tutulan əlavələr, həmin əlavələrin indeksləşdirilməsi, habelə əmək pensiyaçılarına münasibətdə 2022-ci ildə müəyyən edilmiş və 2023-cü il yanvarın 1-dən onların əmək pensiyalarının tərkibinə daxil edilən maddi yardım və həmin maddi yardımın bu Qanunun 29.1-ci maddəsinə uyğun olaraq indeksləşdirilməsi nəticəsində yaranan xərclər dövlət büdcəsinin, digər bütün məbləğləri isə məcburi dövlət sosial sığortası vəsaitləri və sosial sığorta ehtiyatı hesabına maliyyələşdirilir. Qeyd olunan mənbələrin birində vəsait çatışmazlığı olduqda, müvafiq xərclər digər mənbə hesabına maliyyələşdirilir.

Eyni zamanda "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən, dövlət sosial müdafiə fondu dövlət büdcəsindən kənar müstəqil büdcəyə malik olan büdcədənkənar dövlət fondu hesab edilməklə, onun büdcəsi haqqında hər il üçün qəbul edilən qanunun gəlir istiqamətləri arasında həmin büdcə ilində dövlət sosial müdafiə fondunun büdcəsinin balanslaşdırılması məqsədilə dövlət büdcəsinin öhdəliklərinin maliyyələşdirilməsi üçün dövlət büdcəsindən illik ayrılacaq vəsait məbləği proqnozlaşdırılan konkret illik göstərici olaraq nəzərə alınır. Həmin vəsaitin il ərzində müvafiq qanunvericiliyin tələbinə uyğun olaraq müvafiq qaydada təsdiqlənən bölgü əsasında aylıq əsasda Fonda köçürülməklə vahid maliyyələşmə mənbəyi prinsipilə sözügedən qanunla nəzərdə tutulmuş xərc istiqamətləri üzrə maliyyələşdirilmələrin

(əsasən əhaliyə ödənişlərin) aparılması istiqamətində xərclənilməsi təmin edilir. Beləliklə, həmin vəsaitlər də nəticə etibarilə dövlət büdcəsindən maliyyələşmə və ya dövlət büdcəsindən ayrılan maliyyə yardımı mahiyyəti kəsb etməməkdədir.

"Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununda dövlət büdcəsindən fonda köçürülən vəsaitin təyinatının dövlət büdcəsinin vəsaiti hesabına ödənilməli olan xərclərin maliyyələşdirilməsi olmasına baxmayaraq, məlumatların təhlili həmin vəsaitin əvvəlki illərdə olduğu kimi, Fondun büdcəsinin balanslaşdırılması xarakteri daşıdığını göstərir. Büdcənin qeyd edilən qaydada formalaşdırmaqla icrasının həmin göstəricilər üzərindən həyata keçirilməsi, öz növbəsində, "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda əks etdirilmiş pensiya təminatı sistemində dövlət öhdəliyinin dəqiq çərçivəsinin müəyyənləşdirilməsi üzrə fəaliyyətin həyata keçirilməsinin sistemin dayanaqlılığının təmin edilməsi istiqamətində gözlənilən nəticəliliyində riskləri yaradır. Eyni zamanda belə yanaşma Fondun sığorta ehtiyatı formalaşdırmaq istiqamətində fəaliyyətinin də məhdudlaşmasına səbəb olur [10].

Qeyd edilən məqamlar da onu göstərməkdədir ki, Azərbaycanda sosial müdafiən əsas mexanizmi olaraq qəbul edilən – sığorta-pensiya sistemində maliyyə dayanıqlılığının təmin olunması, sığorta prinsipinin gücləndirilməsilə sosial müdafiədə hazırkı inkişaf mərhələsində mühüm olan - ümumilik (universallıq), sosial bərabərlik, sosial ədalət, şəffaflıq prinsiplərinin möhkəmləndirilməsi üçün toplanılan məcburi dövlət sosial sığorta haqlarından istifadədə (xərclənilmədə) sistemə ödənilən sığorta haqlarına adekvat şəkildə sistemdən ödənişlər alınmasının rəhbər tutulması məqsədilə təyinatlılığın və səmərələliliyin artırılması, həmçinin faktiki şəraitdə konkret olaraq dövlət büdcəsinin öhdəlikləri olaraq müəyyən edilmiş pensiya öhdəliklərinin sığorta haqlarından (sığorta ehtiyatından) deyil, bilavasitə dövlət büdcəsindən dövlət sosial müdafiə fondunun büdcəsinə köçürülən transfertlər hesabına tam maliyyələşdirilməsinin əhatə olunması təxirəsalınmaz əhəmiyyət kəsb edir ki, bu da ilk növbədə sığortaolunanların (gələcək pensiyaçıların) pensiya təyinatı zamanı onlar barəsində dəqiq uçot məlumatlarının olmasını tələb edir.

Qeyd etmək lazımdır ki, müasir mərhələdə isə bu, yalnız sosial müdafiə qərarları ilə bağlı zəruri hallarda əhatəli analitik nəticələrin əldə olunmasına imkan verəcək verilənlər bazası və texnoloji idarəetmə kompetensiyasına malik olmanı, eləcə də digər məlumatların (informasiyaların) qarşılaşdırılması və işlənilməsi üçün mövcud qanunvericilik şərtlərilə dəqiq uzlaşmaqla yaxşı alqoritmik səviyyədə qurulmuş və əlavə zəruri məlumat sahibləri hesab edilən digər müvafiq qurumlarla inteqrasiya edilmiş elektron informasiya-idarəetmə sistemlərinin mövcudluğu və operativ idarə olunmasını labüd edir.

Bu qəbildən nümunələr pensiya sistemi, eləcə də digər sahələri üzrə hallarda da sadalanıla bilər ki, bu halların ümumi cəhəti - bir çox sosial qrupların təminat şərtlərinin dəyişdirilmədən saxlanıldığı halda, bir növ, digər bəzi qrup istiqamətləri ilə bağlı şərtlərin yumşaldılması mühitinin yaranması kimi özünü biruzə vermə ilə bağlıdır. Yaxud ünvanlı dövlət sosial yardımı ilə təminat halında qeydiyyatlılıq və məlumat bazalarının inteqrasiyası, yoxlanılması, informasiya bazası çatışmazlığından irəli gələn identifikasiya boşluqları hesabına sosial vəziyyəti reallıqda çətin olan ailələrin yardımla əhatə oluna bilməməsi və ya əksinə, reallıqda kənar gəlirlərinin, bu və ya digər mənbələrdən maddi təminatı olan ailələrin gəlirlərinin müəyyən olunması mexanizmləri ilə bağlı boşluqlardan irəli gələrək gəlirlərin düzgün müəyyən edilməməsi, yaxud gizlədilməsi hesabına təyinat proseslərinin aparılması bilavasitə surətdə vəsaitlərin qeyri-adekvat və qeyri-səmərəli

şəkildə xərclənməsinə gətirib çıxarmaqla sosial müdafiədə bu halda eyni vaxtda həm ədalətlilik, həm də ünvanlılıq prinsipinin gözlənilməməsinə gətirib çıxarır.

Göründüyü kimi, eyni sosial müdafiə problemi zamanı qarşılıqlı əlaqədə bir neçə sosial müdafiə prinsipi ilə əlaqələndirilmə əhəmiyyət qazanır ki, bu da əyani nümunələr şəklində sosial müdafiə prinsiplərinin mahiyyət etibarilə bir-biri ilə əlaqəli və bağlı olmasının təzahürü olaraq özünü göstərir.

Sosial inkluzivlik mahiyyəti etibarilə Azərbaycanda sosial müdafiə proqramlarının tərkib elementi kimi bütün məsələlərdə, xüsusən yoxsulluğun azadılması, regionların sosial-iqtisdadi inkişafı və məşğulluq strategiyaları ilə bağlı 2003-2015-ci illərdə həyata keçirilmiş dövlət proqramlarının məqsədlərinə uyğun olmaqla bu və ya digər dərəcədə nəzərə alınmışdır. Birbaşa bu istiqamətdə xüsusi addım olaraq, qeyd edə bilərik.

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin Müşahidə Şurasının 2021-ci il 5 oktyabr tarixli 3 nömrəli Qərarı ilə yaradılmış "DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzi" MMC ölkədə şəhid ailəsi üzvlərinin, müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin və onların uşaqlarının, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların, aztəminatlı ailələrin və əlilliyi olan şəxslər sırasından istedadlı şəxslərin həmin mərkəzdə müvafiq istiqamətdə bacarıq və yaradıcılıq potensialının inkişaf etdirilməsi məqsədini daşılmaqla şəxslərin hüquq və azadlıqlarının qorunması, şərəf və ləyaqətinə hörmət, bərabərlik, humanizm və konfidensiallıq prinsipləri əsasında xidmətlərin göstərilməsini həyata keçirir [11].

Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi nümunəsində yuxarıda qeyd edilənləri sosial müdafiədə inkluzivliyin gücləndirilməsi istiqamətində mütərəqqi addım kimi qiymətləndirmək olar.

***Ключевые слова***: *пищевая промышленность, безопасность пищевых продуктов, продовольственный рынок, занятость, социально-экономическое развитие, социально-экономические проблемы*

doi.org/10.61764/lasr.1.2024.116-125

**UOT 33. 338**

**Aytəkin Məmmədova**
*Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası, **Azərbaycan***
*magisrtant*
*mamedovaytakinn@gmail.com*
**İnam Şirəli**
*Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC), **Azərbaycan***
*magistrant*
*shiraliinam08@gmail.com*

# BEYNƏLXALQ TURİST AXININ DAYANIQLI İQTİSADİ İNKİŞAFDA ROLU

***Xülasə***

*Məqalədə dünya ölkələrində beynəlxalq turist axınının mövcud vəziyyətinin təhlili təqdim olunur. Qeyd edilir ki, nəqliyyatın sürətli inkişafı və qloballaşma nəticəsində beynəlxalq turizm iqtisadi artımın və mədəni mübadilənin mühüm sürücüsünə çevrilmişdir. Əsas göstəriciləri və tendensiyaları araşdırmaqla, bu tədqiqat beynəlxalq turist axınına təsir göstərən qanuna-uyğunluqlar və amillər haqqında anlayışları təqdim etmək, siyasətçilərə və maraqlı tərəflərə məlumatlı qərarlar qəbul etməyə imkan vermək məqsədi daşıyır. Təhlil 2022-ci ilə qədər mövcud olan məlumatlara əsaslanır və qlobal turizm mənzərəsinin hərtərəfli icmalını təqdim edir.*

***Məqsəd*** – tədqiqatın məqsədi beynəlxalq turist axınının iqtisadi inkişafa olan təsirini və bu təsirin nələrə səbəb olduğunu, turizm sektorunun inkişaf potensialını və davamlılığını araşdırmaq, turizm sektorunun inkişafı üçün effektiv siyasət və strategiyaların təsirini müəyyən etmək və necə tətbiq edilməli olduğunu müəyyənləşdirməkdən ibarətdir. Bu tədqiqatın nəticələri, turizm sektorunun inkişafına yönəlmiş düzgün strategiya və siyasətin formalaşdırılmasında və turizm sektorunun davamlılığnın təmin edilməsində kənara çıxa bilər.

***Metodologiya*** **–** tədqiqat işində iqtisadi statistik və müqayisəli təhlil metodlarından istifadə edilmişdir, həmçinin, beynəlxalq turist axınının mövcud vəziyyətini təhlil etmək üçün kəmiyyət və keyfiyyət metodlarının birləşməsindən istifadə edilmişdir.

***Tədqiqatın nəticəsi*** – dünya ölkələrində Beynəlxalq turizm axınının mövcud vəziyyətinin hərtərəfli təhlili təqdim olunur. Turizmə təsir edən əsas göstəriciləri, meylləri və amilləri araşdıraraq bu araşdırma siyasətçilər, turizm sənayesi maraqlı tərəfləri və tədqiqatçılar üçün vacib məlumatlar təqdim edir. Beynəlxalq turizm axınının dinamikasını, eləcə də turizmin davamlı inkişafını təhlil etməklə qlobal əməkdaşlığın və mədəni mübadilənin təşviqi üçün çox vacib məlumatlar təqdim edilmişdir.

***Açar sözlər:*** *beynəlxalq turizm, turist axını, turist gəlişi, davamlılıq, təyinat yerinin rəqabət qabiliyyəti, dayanıqlı turizm*

## Giriş

Beynəlxalq turizm ölkələrin iqtisadi inkişafında, məşğulluğun, valyuta gəlirlərinin və mədəni anlaşmanın təşviqində mühüm rol oynayır. Beynəlxalq turist axınının dinamikasını başa düşmək siyasətçilər və turizm sənayesinin maraqlı tərəfləri üçün effektiv strategiya və siyasətlər hazırlamaq üçün çox vacibdir. Davamlı iqtisadi inkişafda beynəlxalq turist axınlarının rolu bütün dünyada turizmin artımı və effektivliyinin əhatə etdiyi mövzudur.

doi.org/10.61764/lasr.1.2024.116-125

Turizmin sürətli inkişafı müxtəlif ölkələrdə iqtisadi artım, iş yerlərinin yaradılması və sosial inkişaf üçün imkanlar yaradır. Beynəlxalq turizm axınları ölkənin turizm potensialının və cəlbediciliyinin göstəricisidir. Beynəlxalq turizm axınlarının davamlı iqtisadi inkişafda mühüm rolu onun ölkələr arasında iqtisadi əlaqələrə, ticarət və investisiya fəaliyyətlərinə, infrastrukturun inkişafına, iş yerlərinin yaradılmasına və müxtəlif sektorlarda artıma təsiri ilə bağlıdır. Turizm davamlı iqtisadi inkişafın əsas amillərindən biridir və ölkələr üçün bir çox imkanlar yaradır. Buraya turizm infrastrukturunun inkişafı, turistlərə xidmət göstərən sektorların gücləndirilməsi, yerli məhsul və xidmətlərin təşviqi, istehlakçıların artırılması və s. sahələrdə iş yerlərinin açılması ilə bağlıdır.

**Materiallar və metodlar**

Əsas məlumat mənbələrinə Ümumdünya Turizm Təşkilatı (UNWTO), milli turizm şuraları və statistik məlumat bazaları kimi nüfuzlu beynəlxalq təşkilatlar daxildir. Turistlərin gəlişi, daxilolmaları və orta qalma müddəti kimi əsas göstəricilər araşdırılır.

Turizm, hər il milyonlarla insanın istirahət, iş və digər məqsədlər üçün səyahət etdiyi qlobal iqtisadiyyatın mühüm sektorudur. Turist axınına müxtəlif amillər, o cümlədən siyasi sabitlik, təbii hadisələr, mədəni irs və iqtisadi şərait təsir göstərir. Beynəlxalq turist axınının dayanıqlı inkişafda məşğulluğa təsiri müasir qloballaşan dünyada mühüm əhəmiyyət kəsb edən mövzudur. Ölkələr iqtisadi artımı ətraf mühitin mühafizəsi və sosial ədalətlə balanslaşdırmağa çalışdıqca, turizmin dayanıqlı inkişafın təşviqində rolu müzakirələrin və tədqiqatların mərkəzinə çevrilib.

Turizm, mühüm iqtisadi güc olaraq, xüsusilə bu sənayedən çox asılı olan regionlarda iş yerlərinin yaradılmasına əhəmiyyətli töhfə vermək potensialına malikdir. Beynəlxalq turist axını ilə məşğulluq dinamikası arasında mürəkkəb qarşılıqlı əlaqə, sosial-iqtisadi mənzərəni formalaşdırır, təkcə yerli icmaların dolanışıq vasitələrinə deyil, həm də destinasiyaların ümumi davamlılığına təsir göstərir. [2,3]

**Müzakirə**

Müasir dövrün ən mühüm sosial və iqtisadi hadisələrindən biri də turizmdir hərəkətdir. Turizm 1900-cü illərin əvvəllərində elitanın iştirakı ilə baş verdi. Bu hərəkatların illər keçdikcə bu günə qədər getdikcə daha çox yayıldığı müşahidə edilmişdir. (Sharpley və Telfer, 2014, səh. 3). Keçmişdən bu günə turizm hərəkatının inkişafı şəkil 1 və şəkil 2-də ifadə edilmişdir.




**Şəkil 1. Keçmişdən İndiyə və Gələcəyə Turist hərəkəti**

*Mənbə:* [UNWTO, 2017: 14] əsasında verilmişdir

doi.org/10.61764/lasr.1.2024.116-125

Şəkil 1-də 1950-ci illərdən bu günə və 2030-cu ilə kimi bəzi turizm hərəkətləri göstərilir. Bəzi dövrlər istisna olmaqla turist hərəkətinin davamlı olaraq artdığını görmək mümkündür. “Turizm və Səyahətlər” Agentliyinin məlumatına əsasən 1980-ci illərdən bəri Amerikada, Yaxın Şərqdə, Afrika, Asiya və Sakit okean regionlarında artım müşahidə edilmişdir [9. Səh 24-27].

1950-ci ildən indiyədək beynəlxalq turizm hərəkətləri şəkildə göstərilir. İştirak edən turistlərin sayı ətraflı göstərilir. 1950-ci ildə 25 milyon nəfər turizm fəaliyyətlərində iştirak edərkən 1960-cı ildə 69 milyon, 1970-ci ildə 166 milyon, 1980-ci ildə 277 milyon, 1990-cı ildə isə 435 milyon insan turizm fəaliyyətində iştirak etmişdir. 2000-ci illərdə bu rəqəm 2012-ci ildə 669 milyon nəfərə çatmışdı, 2017-ci ildə beynəlxalq turizm hərəkatlarında iştirak edənlərin sayı 1 milyard nəfərə yüksəlib. Bu rəqəm 2019-cu ildə 1.5 milyard ( ötən dövrlər üzrə +4% artım), 2020-ci ildə bu rəqəm 381 milyon (-74% azlma) müşahidə edilmişdir. Bu azalmanın əsas səbəblərindən biri də COVİD-19 pandemiyası olmuşdur [10, 11, 12, 14, 16].




**Şəkil 2. Beynəlxalq Turizm Hərəkatları 1950-2030**
*Mənbə:* [10, 12] əsasında verilmişdir

Aşağıda son dörd ildə dünya ölkələri üzrə ən çox turist qəbul edən ölkələr göstərilmişdir (cədvəl 1).

**Cədvəl 1. Dünya ölkələri üzrə ən çox turist qəbul edən ölkələr, mln.nəfər**

| № | Ölkələr | Ölkəyə gələn beynəlxalq turistlərin sayı | | | | |
|---|---|---|---|---|---|---|
| | | 2019 | 2020 | 2021 | 2022 | 2019-cu ilə görə 2022-ci ildə artma və ya azalma,% |
| **1** | **2** | **3** | **4** | **5** | **6** | **7** |
| 1 | Fransa | 90.9 | 41.7 | 48.4 | 79.4 | -13,0 |
| 2 | İspaniya | 83.5 | 18.93 | 31.2 | 71.66 | -14,0 |
| 3 | ABŞ | 79.4 | 19.2 | 22.1 | 50.87 | -36,0 |
| 4 | Türkiyə | 51.2 | 15.9 | 29.9 | 50.45 | -1,5 |
| 5 | İtaliya | 64.5 | 25.2 | 26.9 | 49.81 | -21,8 |
| 6 | Meksika | 45 | 24.3 | 31.9 | 38.33 | -14,9 |
| 7 | Böyük Birtaniya | 39.4 | 10.7 | 6.3 | 30.74 | -22,0 |

| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 |
|---|---|---|---|---|---|---|
| 8 | Almaniya | 35.2 | 10.9 | 11.7 | 28.46 | -19,1 |
| 9 | Yunanıstan | 31.3 | 7.4 | 14.7 | 27.84 | -11,1 |
| 10 | Avstirya | 22.7 | 9.6 | 12.7 | 26.21 | +15,0 |
| 11 | BƏƏ | 21.56 | 7.17 | 11.5 | 22.65 | +5,1 |
| 12 | Portuqaliya | 24.6 | 6.5 | 9.6 | 22.25 | -9,96 |
| 13 | Səudiyyə Ərəbistanı | 17.53 | 4.14 | 3.48 | 16.64 | -5,1 |
| 14 | Niderland | 20.13 | 7.27 | 6.2 | 16.07 | -20,2 |
| 15 | Kanada | 22.15 | 2.96 | 3.06 | 12.82 | -42,1 |

*Mənbə:* [1, 10] əsasında müəllif tərəfindən tərtib edilmişdir

Qeyd edək ki, burada olan ölkələrin böyük əksəriyyətinin ən çox turist qəbul etdiyi il 2019-cu ildir. Sonrakı illərdə beynəlxalq turist axının azalması COVİD-19 pandemiyası səbəbindəndir. Pandemiyada dünya üzrə bir çox sektorlarla yanaşı, həmçinin, turizm sektoru da bu böyük təsirdən ən çox nəzarətə alınan sahələrdən biri oldu. Turizm sektoru müxtəlif subsektorları, daxili və beynəlxalq turizmi əhatə edir. COVID-19-un turizm sektoruna təsiri çox sağlam və təsirli olmuşdur.

Ölkələr üzrə turist axını turistlərin gəliş/gediş statistikasını müqayisə etməklə təhlil edilə bilər. Ümumdünya Turizm Təşkilatının məlumatına görə, beynəlxalq turizm üçün ilk üçlükdə Fransa, İspaniya və ABŞ, növbəti yerlərdə Çin, İtaliya, Türkiyə, Meksika, Almaniya, Tailand və Böyük Britaniya gəlir. Ancaq bir ölkəyə gələn turistlərin sayına siyasi sabitlik, təbii cazibədarlıqlar, mədəni irs və iqtisadi şərait kimi müxtəlif amillər təsir edir. Məsələn, Suriya və Əfqanıstan kimi siyasi qeyri-sabitliyi olan ölkələr təhlükəsizlik baxımından turist axınında azalma ilə üzləşib. Digər tərəfdən, Yeni Zelandiya və İslandiya kimi təbii görməli yerləri olan ölkələr öz mənzərəli gözəlliklərinə görə turist axınında artım müşahidə ediblər. Bundan əlavə, dayanıqlı turizmin yüksəlişi və texnologiyanın səyahət davranışına təsiri kimi turist axınında yaranan tendensiyalar turizm sektorunu formalaşdırır.

Ümumdünya Turizm Təşkilatının (UNWTO) 2022-ci il üçün turizm məlumatlarına diqqət yetirsək görə bilərik ki, 2022-ci ildə turizm 2019-cu illə müqayisədə 34% faiz geriləyib. Buna səbəb dünyada baş verən, sosial, ictimai, hərbi, siyasi və COVİD19 pandemiyası, daha sonra bu pandemiyanın mutasiyaya uğramış xəstəlikləri geriləmələrin ən əsas hissəsidir. Ümumdünya üzrə 2022-ci ildə 963 milyon insan səyahət edib və xərclərin ümumi məbləği 1 trilyon 12 milyard dollara çatıb. Adambaşına düşən orta xərc 1051 dollar olub. Qeyd etmək olar ki, ən çox səyahət edilən ölkələr müvafiq olaraq Fransa, İspaniya, ABŞ və Türkiyə olub. Bundan başqa, 2022-ci ildə Türkiyəni 50 milyon 450 min turistin ziyarət edib. Turistlərin 67 faizi Avropa, 16 faizi Amerika, 10 faizi Asiya, 7 faizi Yaxın Şərq və 5 faizi Afrikaya üstünlük verib [10, 16]

Qloballaşma dünyanın mədəni, iqtisadi, siyasi və dini inteqrasiya və birləşmə prosesidir. Müasir dünya iqtisadiyyatının digər sahələrində olduğu kimi, turizm biznesində də dövlətlərin və social təşkilatların iqtisadi, siyasi, mədəni və digər sahələrdə əməkdaşlığını əks etdirən qloballaşma tendensiyası yaranmışdır [7].

Bu gün turizm xidmətləri təklif edən ölkələr dünyanın müxtəlif bölgələrində yer alır və dünyanın 150-200-yə yaxın ölkəsi hər biri müxtəlif xüsusiyyətlərinə təklif etdiyi xidmətləri ilə fərqlənir. Turizmin səmərəli inkişafına beynəlxalq bazarın müxtəlif seqmentlərinin və maliyyə gəlirlərinin formalaşdırılması kömək edir. İstirahət sənayesi dünya iqtisadiyyatının aparıcı sahəsinə çevrilir. Aşağıda müxtəlif turizm xidməti təkliflərinə sahib olan bir neçə ölkə göstrilmişdir:

doi.org/10.61764/lasr.1.2024.116-125

1. **Fransa:** Paris şəhəri dünyanın ən çox turist cəlb edən şəhərlərindən biridir. Fransa, romantik məkanları, muzeyləri və məşhur mətbəxi ilə tanınır.
2. **İspaniya:** İspaniya, qədim tarixi və müasir mədəniyyəti ilə tanınan bir ölkədir. Barselona və Madrid kimi şəhərləri, çimərlikləri və əyləncə məkanları ilə tanınır.
3. **İtaliya:** İtaliya, incəsənət və memarlıq əsərləri, bənzərsiz məkanlar və mükəmməl mətbəxi ilə tanınan bir turistik məkan olaraq bilinir. Roma, Venesiya və Firenza kimi şəhərləri çox sayda turisti cəlb edir.
4. **Türkiyə:** Türkiyə, dini məkanları, tarixi abidələri və müasir şəhərləri ilə turistlər üçün bir çox imkanlar təklif edir. İstanbul, Kapadokya və Antalya turistlər arasında məşhur yerlərdən biridir.
5. **Yunanıstan:** Yunanıstan, antik tarixi abidələri, gözəl adaları və çimərlikləri, zeytun bağları ilə məşhurdur. Atina, Mykonos və Santorini kimi məkanlar turistlərin marağına səbəb olur.
6. **Böyük Britaniya:** London, bu ölkə ərazisində turistlər üçün ən çox məşhur olan şəhərdir. Tarixi yerlər, muzeylər və teatr məkanları turistlər üçün cəzbedici olur.
7. **Çin:** Qədim tarixi və möhtəşəm mədəniyyəti ilə tanınır. Şənjen, Pekin və Şanxay kimi böyük şəhərləri, Çin səddi və digər möhtəşəm tarixi abidələri ən çox cəlbedici turistik obyektlər arasındadır.
8. **BƏƏ:** Dubay, müasir dünyanın ən böyük göydələnləri, alış-veriş mərkəzləri və lüks otelləri ilə tanınır.

Qeyd edək ki, turizm sahəsində qloballaşma prosesinin səciyyəvi xüsusiyyəti şirkətlərin işinin təkmilləşdirilməsinə, müştərilərə xidmətin yaxşılaşdırılmasına, və ən yeni marketinq metodlarından, İKT-dən məharətlə istifadə, səmərəliliyin artırılmasının tədbiq edilməsidir. Qloballaşma prosesləri rəqabət mübarizəsinin artan sürətlə kəskinləşməsi, turizm şirkətlərinin satın almalarının artımı və nəhayət birləşməsi ilə müşayət olunur.

Qeyd etdiyimiz kimi, beynəlxalq turizm, ölkələr arasında turistlərin səyahətlərini təşkil edən və ölkələrin turizm sektorlarının inkişafına təkan verən bir elementdir. İndi isə beynəlxalq turizmi regional təhlil əsasında, yəni, turizm statistikalarının və məlumatlarının bölüşülərək bölgələr arasında müqayisə edilməsini və regionun turizm potensialını və inkişaf imkanlarını tədqiq edək. İstifadə olunan məlumatlar, turist gəlirləri, turist sayı, turistlərin gəlmə istiqamətləri, turizm infrastrukturunun və xidmətlərin keyfiyyəti, turizmlə bağlı iş yerləri və digər göstəricilər ola bilər.

Beynəlxalq turizm baxımından regionlar arasında fərqliliklər ola bilər və bu fərqliliklər müxtəlif səbəblərə bağlı ola bilər:

**1.** Coğrafi Faktorlar: Regionun coğrafi məkanı, ətraf mühit, mədəni və təbii atraksionlar, güclük və dəyərlər regionun turizm potensialını təyin edə bilər. Sahil xətləri, dağlar, meşələr, milli parklar, flora və fauna unikal mədəni məkanlar turistləri cəlb edə bilər.

**2.** İqtisadi Faktorlar: Regionun iqtisadi inkişafı, gelir səviyyəsi, iş fəaliyyətinin diversifikasiyası, turizm infrastrukturunun inkişafı, yatırımların dərəcəsi və turizm sektorunun təmsilçiləri ilə əlaqəli olaraq turizmə olan marağı təyin edə bilər. İqtisadi inkişaf, əmək haqqı səviyyələri və istehlak gücü turistlərin səyahət xərclərini təyin edə bilər.

**3.** Sosial və Mədəni Faktorlar: Regionun mədəni və sosial varlığı, turistlər üçün mədəni tədbirlər, turistik məkanlar, muzeylər, festival və tədbirlər təklif etməsi turistlərin marağını cəlb edə bilər. Mədəni miras, mədəni turizm, əhalinin misafirperlik mədəniyyəti və sosial tədbirlər turizmə təkan verə bilər.

**4.** Səyahət və ondan istifadə imkanları: Regionun səyahət və viza siyasəti, hava limanlarının və sərnişin nəqliyyatının keyfiyyəti, otel və qonaq evlərinin mövcudluğu,

turistlər üçün əlverişli və asanlıqla istifadə edilə bilən xidmətlər turist axınını təyin edə bilər.

**5.** Təhlükəsizlik və Stabillik: Regionun təhlükəsizliyi, sosial və siyasi stabilliyi turistlərin səyahət məsafəsinin seçilməsində önəmli bir faktor ola bilər. Turistlər təhlükəsiz və sülhvericidir regionları seçmBeynəlxalq turizm regional təhlilində, mövcud turizm məlumatları və istatistikaları əsasında müxtəlif regionların turizm performansı və potensialı qiymətləndirilir. Bu təhlil, həm turizm irəliləyişini ölçmək üçün istifadə oluna bilər, həm də turizm inkişafına dair strateji planlamalar və qərarlar üçün yön verici məlumatlar təmin edə bilər.

Regional təhlil, müxtəlif ölçülərə və göstəricilərə əsaslanır. Bəzi əsas göstəricilər aşağıdakıları əhatə edir:

**1.** Turistlərin sayı: Hər regionun qəbul etdiyi turist sayı və bu sayın zamanla dəyişimi ölçülür. Bu, bölgədəki turizm populyarlığını və turist axınını göstərir.

**2.** Turist gəlirləri: Turistlərin xaricdən gələn harcamaları ölçülərək regionun turizm sektorundan əldə etdiyi gəlir hesab edilir. Bu, regionun turizmə olan maddi təsirini göstərir.

**3.** Ortalama səyahət xərcləri: Bir turistin ortalama olaraq hər bir səyahətində xərclədiyi məbləğ hesab olunur. Bu, turistlərin xərclərinin ölçüsüdür və regionun turizm sektorundan əldə edilən gəlirin miqyası olaraq istifadə oluna bilər.

**4.** Səyahət məqsədi: Turistlərin ziyarət etdikləri yerlər və səyahət məqsədləri dəqiqləşdirilir. Bu, regionun turizm potensialını və tərəfdaşlıq imkanlarını anlamağa kömək edir.

**5.** Turizm infrastrukturu: Regionun turizm infrastrukturunun keyfiyyəti və inkişaf səviyyəsi qiymətləndirilir. Bu, otel və qonaq evlərinin sayı, turistik məkanların və atraksionların mövcudluğu, nəqliyyat və kommunikasiya infrastrukturları kimi faktorları əhatə edir.

**6.** Turizm sektoru təşkilatları və təşkilatçılar: Regionun turizm səktoru təşkilatları, turizm birlikləri və təşkilatçılarının fəaliyyəti və əməkdaşlıq səviyyəsi qiymətləndirilir. Bu, regionun turizm inkişafında səy göstərən struktur və təşkilatların rolunu göstərir.

Regional təhlil, turizm sektorunun güclü və zəif tərəflərini müəyyənləşdirərək inkişaf imkanlarını və təhlükələri qiymətləndirməyə kömək edir. Bu analiz nəticəsində, regionun turizm inkişafına yönələn siyasət və tədbirlər müəyyənləşdirilə bilər və optimallaşdırılaraq turizm sektorunun sürətli və davamlı inkişafı təmin edilə bilər [2, 3].

Əksər ölkələrdə turizm gəlirləri büdcənin əsas hissəsini təşkil edir. Ümumdünya Turizm Təşkilatının hesablamalarına görə, 2019-cu ildə ABŞ-ın beynəlxalq turizm gəliri 2010-cu illə müqayisədə 9,191 milyard ABŞ dollarına qədər artmışdır. Qeyd etmək lazımdır ki, ABŞ ÜDM-i qlobal məhsulların 3,2%-ni, əlaqəli sektorlar nəzərə alınarsa, qlobal ÜDM-in 9,4%-ni və dünya üzrə işləyən əhalinin 7,6%-ni təşkil edir [4, s. 75].

Beynəlxalq turist axınına təsir edən bir sıra amillər var. Turistlərin təyinat seçiminə təsir edən bu amillər çox vaxt mürəkkəb və bir-biri ilə sıx bağlıdır. Bu amillərə iqtisadi və siyasi sabitlik, təhlükəsizlik, marketinq və PR fəaliyyətləri, nəqliyyat və infrastrukturun inkişafı, viza siyasəti, iqlim və hava şəraiti və mədəni mübadilə proqramları daxil olmaqla beynəlxalq turist axınına təsir edən amillər göstərmək olar.[6]

Beynəlxalq turizmin davamlı iqtisadi inkişafda roluna ölkənin iqtisadi inkişafı, gəlirlərin yaradılması, iş yerlərinin yaradılması və sosial səviyyənin yüksəldilməsi kimi bir çox mühüm amillər daxildir. Bu mövzu çərçivəsində aşağıdakı mövzulardan bəziləri müzakirə olunur:

1. Gəlir yaratması: Beynəlxalq turizm, bir ölkəyə dəyərli valyuta gətirən bir sənayə olaraq xidmət edir. Turistlər ölkəyə gəldikdə xarici valyutalarını dəyişdirməklə, turizm məhsulları və xidmətləri almaqla ölkədəki ticarət və maliyyə sektorunda ciddi bir gelir

yaratma potensialı yaradır. Bu da ölkədəki büdcə daxilində dəyərli valyuta ehtiyatlarının artmasına və iqtisadi stabilliyin sağlanmasına kömək edir.

2. İş yaratması: Beynəlxalq turizm, bir ölkə üçün geniş iş yaratma potensialı da təqdim edir. Turizm sektoru, turistlərə xidmət göstərən otellər, restoranlar, tur şirkətləri, nəqliyyat təşkilatçıları, alış-veriş mərkəzləri və digər bir çox sahələrdə iş sahələri yaradır. Bu, işsizlik səviyyəsinin azalmasına, yerli iş gücünün artmasına və sosial səviyyənin yaxşılaşmasına kömək edir.

3. İnfrastruktur inkişafı: Beynəlxalq turizm, infrastruktur inkişafını da təmin edir. Turistlər ölkəyə gəldikdə, xarici investisiyaların cəlb edilməsi ilə əlaqədar olaraq, otellər, hava limanları, yollar, kanallar və digər infrastruktur layihələri üçün maliyyə təmin edir. Bu, ölkənin infrastrukturunun inkişafına və sürətlənməsinə kömək edir və digər sektorlara da təsir edir.

4. Mədəniyyət və sivilizasiya mübadiləsi: Beynəlxalq turist axını, xalqlararası mədəniyyət mübadiləsinin böyük bir vasitəsi kimi xidmət edir. Turistlər ölkələrə gəldikdə ölkənin mədəniyyətini, tarixini, məkanları və gələnək və adətlərini tanımaq imkanı əldə edirlər. Buna əlavə olaraq, yerli əhalinin fərqli mədəniyyətlərə açılması, dünya görüşünün genişlənməsi və tolerantlığın artması kimi sosial faydalar da əldə edilir.

5. Regional inkişaf: Beynəlxalq turizm, bəzi regionlarda inkişafı təşvik edir. Daha az inkişaf etmiş regionlar turist axını sayəsində iqtisadi inkişafa və sosial səviyyələrin yaxşılaşması üçün şərait yaradır. Bu, bölgələrdə yaşayan insanların yaşam keyfiyyətini və əhəmiyyətini artıraraq, onların daha yaxşı imkanlardan faydalanmasına və yaşam səviyyəsinin artmasına səbəb olur.  Bunu bəzi aşağıdakı statistik məlumatlar ilə təsdiq edə bilərik:

- 2023-cü ilin üçüncü rübündə səyahətdən əldə olunan gəlir 3,3 milyard dolardır. Bu miktar, 2019-cu ilin göstəricisini üstələyərək 1,447,121,966 ABŞ dolardan daha böyük oldu. Bu da 2019-cu ilin eyni rübünün gəlirinin %11,5 artımını göstərir.
- 2022-ci ilin ikinci rübü ilə müqayisədə beynəlxalq səyahətlərdən əldə olunan gəlirlər +260 291 106 (+34,8%) ABŞ dolardır. Bu miqdar, 2022-ci ilin ikinci rübünün gəlirinin %34,8 artmasını göstərir.
- Beynəlxalq turizmda 9 ayda gəlirinin %33,3-nın bundan başqa, dünyada bir çox ölkənin gəlirinin böyük hissəsini turizmdən gələn gəlirlər təşkil edir [13,15].

Beynəlxalq turist axının dayanıqlı iqtisadi inkişafda rolu böyük və çeşidli olur. Bura, gəlir yaratması, iş yaratması, infrastruktur inkişafını təmin etməsi, mədəniyyət və multikultural dəyərlərin mübadiləsinə imkan verəsi və regional inkişafı təşvik etməsi kimi bir çox faydaları özündə cəmləyir. Bu səbəblərə görə, bir çox ölkələr turizmi bir prioritet kimi qəbul edir və turizm sektorunu inkişaf etdirməyə çalışır. Bununla birlikdə davamlı və dayanıqlı bir turizm inkişafı strategiyası tələb olunur, ki bu, təbii resursların qorunması, yerli əhalinin məqsədləri və iqtisadi artım balansın saxlanılması, ətraf mühitə və mədəniyyətə hörmətə əsaslanmalıdır [5].

Davamlı və dayanıqlı turizmin inkişafının əhəmiyyəti və onun beynəlxalq turist axınına təsirinə diqqət yetirək. Beynəlxalq təşkilatlar, davamlı turizmi təşviq etmək və onun mənfi təsirlərini azaltmaq üçün ölkələr və təşkilatlar tərəfindən qəbul edilmiş təşəbbüsləri və ən yaxşı təcrübələri araşdırır. Davamlı və dayanıqlı turizmin beynəlxalq turist axınlarına təsiri uzunmüddətli dayanıqlı inkişaf məqsədlərinə uyğun olaraq müsbət ekoloji və sosial-iqtisadi nəticələr verə bilər. Bu cür turizm anlayışı turizm sənayesinin həm bu gün, həm də gələcəkdə cəmiyyətlərə və ətraf mühitə müsbət təsir göstərməsinə kömək edə bilər [8].

Qeyd edək ki, müasir dövrdə çağırışlar və gələcəyə baxış konsepsiyasında qlobal böhranların təsiri, iqlim dəyişikliyi, turizmdə həddindən artıq və dəyişən istehlakçı davranışları da daxil olmaqla beynəlxalq turist axınının üzləşdiyi çətinlikləri vurğulayır. O,

beynəlxalq turizmin gələcək perspektivləri, o cümlədən inkişaf etməkdə olan istiqamətlər, bazar dəyişiklikləri və sənayenin formalaşmasında texnologiyanın rolu haqqında məlumat verir [10].

**Tədqiqatın nəticəsi**

İkinci Dünya Müharibəsindən sonra informasiya-kommunikasiya texnologiyalarının inkişafı və qloballaşma fəaliyyəti, onun geniş tətbiqi ilə ölkələr ixraca əsaslanan artım hipotezini qəbul etməyə başlayıblar. Xüsusilə də xarici valyuta turizm sektoru gəlir təmin edərək ixracata qatqı təmin etdiyi üçün bu çərçivədə ön plana çəkilib. Bu gün turizm sektorunun bir çox makro və mikro aspektlərdə iqtisadiyyata töhfə verdiyi məlumdur. Turistləri cəlb edən bölgələr dünya üzrə homojen şəkildə paylanmayıb. Bəzi ölkələr turist cəlb etmək baxımından böyükdür. Bəzi ölkələrin mənfi cəhətləri olsa da, bəzi ölkələr üstünlüklü hesab olunur. Aralıq dənizinin təbii gözəllikləri və tarixi keçmişi ölkələrini ən tanınmış turizm mərkəzlərinə çevirmişdir. Ancaq son illərdə bu ölkələrdə baş verən siyasi hadisələr ölkələrin beynəlxalq turizm payını azaltmaq üçün müxtəlif hesabatlarda qeyri-sabitlik və terror hadisələri bildirilmişdir.müdafiə olunur. Bu araşdırmada OECD üzvü olan və Aralıq dənizi ölkələri arasında yer alan Fransa, Yunanıstan, İsrail, Fransa, Yunanıstan, İsrail, İtaliya, Sloveniya, İspaniya və Türkiyə üçün turizm və böyümə əlaqələri 1995-2020-ci illər arası məlumatlarla tədqiq edilmişdir.

Bu məqalədə dünya ölkələrində beynəlxalq turist axınının mövcud vəziyyətinin hərtərəfli təhlili verilmişdir. Əsas göstəriciləri, tendensiyaları və turizmə təsir edən amilləri araşdıraraq, bu araşdırma siyasətçilər, turizm sənayesində maraqlı olan tərəflər üçün və tədqiqatçılar üçün mühüm fikirlər təklif edilir. Beynəlxalq turist axınının dinamikası təhlil edilərək, turizmin davamlı və dayanıqlı inkişafı, həmçinin. qlobal əməkdaşlığın və mədəni mübadilənin təşviqi üçün çox vacib məlumatlar təqdim olunmuşdur.

**Ədəbiyyat**

1. Azərbaycanda turizm. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, Statistika məcmuəsi, Bakı, 2022.
2. Azərbaycan 2030: Sosial-iqtisadi inkişafın milli prioritetləri. Bakı, 2021.
3. Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi, Bakı, 2016.
4. Əlirzayev Ə.Q "Turizmin iqtisadiyyatı və idarə olunması", Bakı "İqtisad Universiteti" nəşriyyatı 2010, 529 səh
5. İsmayılov V.İ, Məmmədov M.Z, "Beynəlxalq turizmin coğrafiyası" Bakı 2021, SkyE, 264 səh
6. İsmayılov V.İ. Turizmin iqtisadiyyatı. Bakı: "İndiqo" Nəşriyyatı, 2018.- 315 səh.
7. Qafarov N.C. Turizmin iqtisadiyyatı. Ali məktəblər üçün dərslik. Düzəliş və əlavələr edilməklə II nəşr. Bakı-2019, "Kooperasiya" nəşriyyatı, 584 səh.
8. Richard W.Butler, David A. Harrison "Turizm və davamlı inkişaf: Üçüncü Dünyada yeni turizm"
9. "Turizm və qonaqpərvərlik tədqiqatları" beynəlxalq jurnal İl 6, Say 4, 2017 ISSN 2409-6032
10. UNWTO Global and regional tourism performance https://www.unwto.org/tourism-data/global-and-regional-tourism-performance
11. www.president.az/articles/50474
12. www.stat.gov.az/source/tourism
13. www.azculture.az
14. www.trade.gov/country-commercial-guides/azerbaijan-travel-and-tourism
15. www.https://tourism.gov.az
16. www.unwto.org/tourism-statistics

doi.org/10.61764/lasr.1.2024.116-125

**Aytakin Mammadova**
**Inam Shirali**

## THE ROLE OF INTERNATIONAL TOURIST FLOW IN SUSTAINABLE ECONOMIC DEVELOPMENT

***Summary***

*The article presents an analysis of the current situation of the international tourist flow in the countries of the world. It is noted that as a result of the rapid development of transportation and globalization, international tourism has become an important driver of economic growth and cultural exchange. By examining key indicators and trends, this study aims to provide insights into the patterns and factors influencing international tourist flows, enabling policymakers and stakeholders to make informed decisions. The analysis is based on data available up to 2022 and provides a comprehensive overview of the global tourism landscape.*

***The purpose –*** The objective of the study is to investigate the impact of international tourist flow on economic development and what causes this impact, to investigate the development potential and sustainability of the tourism sector, to determine the impact of effective policies and strategies for the development of the tourism sector, and to determine how they should be applied. The results of this study can be used in formulating the right strategy and policy aimed at the development of the tourism sector and ensuring the sustainability of the tourism sector.

***Methodology –*** Economic statistical and comparative analysis methods were used in the methodology-research work, and a combination of quantitative and qualitative methods was used to analyze the current situation of the international tourist flow.

***The results of the study –*** This article provides a comprehensive analysis of the current state of international tourist flow in the countries of the world. By examining key indicators, trends and factors influencing tourism, this study offers important insights for policy makers, tourism industry stakeholders and researchers. By analyzing the dynamics of the international tourist flow, sustainable and sustainable development of tourism, as well. Very important information was presented for the promotion of global cooperation and cultural exchange.

***Keywords*:** *international tourism, tourist flow, tourist arrival, sustainability, destination competitiveness, sustainable tourism*

**Айтакин Мамедова**
**Инам Ширали**

## РОЛЬ МЕЖДУНАРОДНОГО ТУРИСТИЧЕСКОГО ПОТОКА В УСТОЙЧИВОМ ЭКОНОМИЧЕСКОМ РАЗВИТИИ

***Резюме***

*В статье представлен анализ современной ситуации международного туристического потока в странах мира. Отмечается, что в результате стремительного развития транспорта и глобализации международный туризм стал важным драйвером экономического роста и культурного обмена. Путем изучения ключевых показателей и тенденций данное исследование призвано дать представление о закономерностях и факторах, влияющих на международные туристические потоки, что позволит политикам и заинтересованным сторонам принимать обоснованные решения. Анализ основан на данных, доступных до 2022 года, и дает всесторонний обзор мирового туристического ландшафта.*

***Цель –*** изучить влияние международного туристического потока на экономическое развитие и причины этого воздействия, изучить потенциал развития и устойчивости туристического сектора, определить влияние эффективной политики и стратегии развития

туризма. секторе и определить, как их следует применять. Результаты данного исследования могут быть использованы при формулировании правильной стратегии и политики, направленной на развитие туристического сектора и обеспечение устойчивости туристического сектора.

***Методология –*** исследовательской работе использовались методы экономико-статистического и сравнительного анализа, а для анализа текущей ситуации международного туристического потока использовано сочетание количественных и качественных методов.

***Результаты исследования –*** в статье представлен комплексный анализ современного состояния международного туристического потока в странах мира. Изучая ключевые показатели, тенденции и факторы, влияющие на туризм, это исследование предлагает важную информацию для политиков, заинтересованных сторон туристической индустрии и исследователей. Анализируя динамику международного туристического потока, можно также добиться устойчивого и устойчивого развития туризма. Была представлена очень важная информация для содействия глобальному сотрудничеству и культурному обмену.

***Ключевые слова:*** *международный туризм, туристический поток, туристическое прибытие, устойчивость, конкурентоспособность дестинации, устойчивый туризм*

doi.org/10.61764/lasr.1.2024.126-132

**UOT 336.201**

**Nəzrin Kərimova**
*Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası,* ***Azərbaycan***
*magistrant*
nazrinkerimova98@gmail.com

**Elmi rəhbər: Vüsalə Babayeva**
*Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası,* ***Azərbaycan***
*i.ü.f.d.*
vusalababayeva2212@gmail.com
*ORCİD: 0009-0006-3144-8686*

# GƏLİR VERGİ SİSTEMİNİN TƏŞKİLİNİN NƏZƏRİ ƏSASLARI

***Xülasə***

*Məqalədə Azərbaycan Respublikasında səmərəli gəlir vergi təşkilinin nəzəri məsələlərinə baxılmışdır. Cəmiyyətin iqtisadi inkişafında gəlir vergi sisteminin səmərəli təşkili çox böyük əhəmiyyətə malikdir. Xüsusilə də fiziki şəxslərin gəlir vergisi dövlət vergi mükəlləfiyyətləri içərisində ağırlıq təşkil edir. Məhz bu baxımdan da mütəmadi olaraq gəlir vergisi sistemində innovativ inkişaf nəzarətdə saxlanılmalıdır.*

*Bu istiqamətdə məqalədə vergi ödəyicisinin elektron hesablaşmaları, maliyyə (mühasibat) məlumatları və xüsusi proqram təminatı vasitəsilə vergi yoxlamalarının aparılması kimi iqtisadi məsələlər araşdırılmışdır, ölkədə səmərəli gəlir vergi təşkilinin nəzəri məsələlərinə baxılmışdır. Eyni zamanda ölkəmizdə vergi sisteminin formalaşmasında dövlət əhəmiyyəti kimi iqtisadi məsələlər təhlil edilmişdir. Müasir iqtisadi şəraitdə bazar islahatlarının həyata keçirilməsində səmərəli vergi tutma sistemi yaradılmasının zəruriliyi qeyd olunmuşdur.*

***Məqsəd*** – Azərbaycanda sahibkarlıq fəaliyyəti ilə məşğul olan müəssisələrdə gəlir vergisi sisteminin müasir vəziyyətinin öyrənilməsi və təkmilləşdirilməsi yollarının öyrənilməsindən ibarətdir.

***Metodologiya*** – tədqiqat işində istisadi, statistik və müqayisəli təhlil metodlarından istifadə edilmişdir.

***Tədqiqatın nəticələri*** – ölkədə sahibkarlıq fəaliyyəti ilə məşğul olan müəssisələrdə gəlir vergi sisteminin təkmilləşdirilməsi və səmərəliliyinin yüksəldilməsinə dair təkliflər verilmişdir.

***Açar sözlər:*** *gəlir vergisi, vergi sistemi, nəzəri əsaslar, iqtisadi inkişaf, sahibkarlıq fəaliyyəti, müəssisələr, islahatlar*

## Giriş

Azərbaycan Respublikasında səmərəli vergi sisteminin formalaşması dövlət əhəmiyyətli əsas iqtisadi məsələlərdən biridir. İqtisadiyyatda bazar islahatlarının həyata keçirilməsi səmərli vergi tutma sistemi yaratmadan qeyri mümkündür. Məlumdur ki, müasir dövrdə bütün dünyada, o cümlədən Azərbaycanda vergilər hesabına dövlət büdcəsi formalaşdırılır. Deyilən fikrə bir də onun əlavə edilməsi yerinə düşərdi ki, sosial yönümlü bazar iqtisadiyyatı ölkələrində vergi sistemi iqtisadiyyatın tənzimlənməsində, büdcə gəlirlərinin formalaşmasında, qiymət artımının nizamlanmasında, infilyasıyanın yüksəlməsinin qarşısının alınmasında həyata keçirilən tədbirlərdə mühüm yer tutur.

doi.org/10.61764/lasr.1.2024.126-132

Belə bir zəmində qeyd etmək lazımdır ki, maliyyə-iqtisadi sisteminin müasir vəziyyətində vergi gəlirlərinin toplanılmnası xüsusi aktuallıq qazanmaqdadır. Ümumiyyətlə, vergi daxil olmalarının müasir səviyyəsinin qiymətləndirilməsi və ölkə büdcəsinə vergi daxil olmalarının artırılması öz növbəsində xüsusi əhəmiyyət kəsb edir. Bu isə vergi potensialının dəqiq hesablanılmasını zəruri edir.

Göründüyü kimi, vergi istehsal münasibətlərinin spesifik forması kimi ictimai istehsalın əsas amillərinə təsir göstərir. Mərkəzləşdirilmiş qaydada pul fondunun toplanılması zamanı dövlət, təssərrüfat subyektləri və əhali arasında formalaşan münasibətlər vergi münsibətləri adlanır.

Azərbaycan Respublikasında vergi sistemini aşağıdakı kimi təsnifləşdirmək olar:

- dövlət vergisi;
- Muxtar Respublikanın vergisi;
- yerli vegrilər.

Dövlət vergisinin bütün Azəraycan ərazisində yığımı həyata keçirilir. Naxçıvan Muxtar Respublikasının vergiləri Naxçıvan Respublikasının qanunları ilə təsbit olunur və Muxtar Respublika ərazisində yığımı reallaşdırılır.

Yerli vergilər bələdiyyələr tərəfindən təsbit olunur və bələdiyyələrin ərazilərində yığımı təşkil olunur. Vergi məbləğlərinin aşağıdakı formada yığımı təşkil olunur:

1) vergilərdən birbaşa mənbədən toplanılması nəzərdə tutulur (mənfəət və ya gəlir əldə etməzdən öncə yığımı təşkil olunur);

2) Bəyannamələr əsasında ( vergilər mənfəət əldə edildikdən sonra toplanılır).

Azərbaycan Respublikasının Vergi Məcəlləsinə əsasən dövlət vergiləri (Azərbaycan Respublikasının bütün ərazisində ödənilməli olan vergilər nəzərdə tutulur) dedikdə aşağıdakı vergi növləri nəzərdə tutulur:

1. fiziki şəxslərin gəlir vergisi;
2. hüquqi şəxslərin mənfəət vergisi (bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatlardan başqa);
3. əlavə dəyər vergisi;
4. aksizlər;
5. hüquqi şəxslərin əmlak vergisi;
6. hüquqi şəxslərin torpaq vergisi;
7. yol vergisi;
8. mədən vergisi;
9. sadələşdirilmiş vergi .

Naxçıvan Muxtar Respublikasına Muxtar Respublika ərazisində yığılan dövlət vergiləri aid edilir.

Yerli vergi növləri aşağıdakılardır:

- fiziki şəxlərdən tutulan torpaq vergisi;
- fiziki şəxslərin əmlakından tutulan vergi;
- yerli təyinatlı tikinti işləri üçün nəzərdə tutulmuş mədən vergisi;
- bələdiyyənin ərazisində yerləşmiş müəssisələrdən alınan mənfəət vergisi.

**Müasir iqtisadi şəraitdə gəlir vergi sistemi**

Qeyd etmək lazımdır ki, gəlir vergi sistemini strukturuna görə aşağıdakı qrupa bölmək olar:

- Birinci qrupa ABŞ, Danimarka, Finlandiya, İsveç, Lüksemburq kimi ölkələr daxildir. Vətəndaşların və korporasiyalardan alınan gəlir vergisi ümumi vergi daxil olmalarında üstünlük təşkil edir;

doi.org/10.61764/lasr.1.2024.126-132

- İkinci qrupa daxil olan ölkələrdə əsasən sosial ödənişlər üstünlük təşkil edir. Bu qrupa Avstriya, Almaniya, Niderland, Franasa kimi ölkələri aid etmək olar.

- Üçüncü qrupa daxil olan ölkələrdə üstünlük əmtəə və xidmətlərdən alınan dolayısı vergilər təşkil edir. Həmin qrupa Yunanıstan, Portuqaliya , İslandiya kimi ölkələr daxildir.

- Dördünücü qrupa daxil olan ölkələrdə vergi ödənişlərinin hər hansı bir forması üstünlük təşkil etmir. Bu qrupa Belçika, İrlandiya, İtaliya, İspaniya, Norveç, Böyük Britaniya, İsveçrə kimi ölkələr daxildir.

Azərbaycan Respublikasında fiziki şəxslərin gəlir vergisi, əlavə dəyər vergisi, xarici iqtisadi fəaliyyələ bağlı vergilər bütünlükdə dövlət vergi mükəlləfiyyətləri içərisində ağırlıq təşkil edir. Müvafiq olaraq Azərbaycan Resublikasını vergi daxil olmalarının strukturuna görə birinci qrupa daxil olan ölkələr qrupuna aid etmək olar. Digər tərəfdən qeyd etmək lazımdır ki, 2021-ci ildə dövlət büdcəsinə vergi daxilolmaları üzrə 8.529,2 mln. manat vəsait daxil olub. Daxilolmaların həcmi proqnoza nisbətən 17,6 faiz, əvvəlki illə müqayisədə 15,5 faiz çox olub. Cəmi vergi daxilolmalarının cəmi büdcə gəlirlərində payı 2021-ci ildə 32,3 faiz təşkil edib. Bu göstərici 2020-ci ilin müvafiq göstəricisindən (29,9 faiz) 2,4 faiz çoxdur. Bu isə öz növbəsində son illərdə Azərbaycanda vergi sisteminin təkmilləşdirilməsi və müasirləşdirilməsi ilə əlaqədar xeyli işlər görülməsi ilə əlaqələndirilə bilər. Həyata keçirilən tədbirlər içərisində ilk diqqəti cəlb edən vergi ilk tədbir vergi menementi ilə əlaqədar müəyyən işlərin görülməsidir. Vergi menecmentinin Avropa standartlarının çatdırılması istiqamətində ciddi işlər görülmüşdür. Vergi orqanları və vergi ödəyiciləri arasında elektron əlaqələrin qurulması üçün müasir texnologiyalardan istifadə edilir.

Nəticədə Azərbaycan Respublikasında vergi sisteminin müasirləşdirilməsi, inzibati idarəetmə sisteminin keyfiyyətinin yüksəldilməsi son illərdə dövlət büdcəsinə vergilərdən vəsait daxil olmalarının səviyyəsinin yüksəlməsinə səbəb oldu. Burada əsas məqsəd iqtisadi sistemin tələblərinə cavab verən vergi inzibati sisteminin yaradılmasıdır. Azərbaycanda gəlir vergi sisteminin təkmilləşdirilməsi məsələsinə A.F.Musayevin [1,s. 237-240] çox saylı əsərləri həsr olunmuşdur.

Lakin yenədə nəzərə almaq lazımdır ki, müasir gəlir vergi sistemi modernləşdirmə tələb edir. Nanatexnologiyalarının tətbiqi vergi inzibatçılığının yeni mərhələyə qədəm qoymasına səbəb olmuşdur. Hər şeydən öncə vergi ödəyiciləri, vətəndaşlar və digər şəxslər subyektiv münasibətdən, neqativ hallardan tamamilə azad olur. Vergi orqanları ilə vergi ödəyiciləri arasında qarşılıqlı inam və işgüzar münasibətlər yaranır. Burada diqqəti cəlb edən məsələ elktron vergi inzibatçılığın respublika ərazisində bərqərar olmasıdır. Bu xüsusda e-audtitlə bağlı məsələlər diqqəti cəlb dir.

**Gəlir vergisi sistemində innovativ inkişaf**

Öncə qeyd etmək lazımdır ki, elektron audit vergi ödəyicisinin elektron formatda saxlanılan maliyyə (mühasibat) məlumatlarına xüsusi proqram təminatı vasitəsilə birbaşa və ya məsafədən çıxış imkanı yaradılmaqla aparılan vergi yoxlamasıdır [2, s. 27-40].

İnformasiya texnologiyaları dövründə e-auditin nəzarətedirici orqanlar tərəfindən tətbiqi qnunauyğun prosesdir. Vergi orqanları ilə vergi ödəyiciləri arasında vergi hesbat-larının təqdim olunmasınadn əvvəl və sonra informasiya əlaqəsi onların qarşılıqlı maraqlarına xidmət edir. Vergilərlə bağlı mübahisələrin yaranmasının qarşısının alınması və tez həll edilməsinə xidmət edir. Bütünlükdə vergi yoxlamaları tez bir zamanda həyata keçirilir. Bu isə öz növbəsində vergi ödəyicilərinin və vergi alanlarının ümumi məqsədidir.

Göründüyü kimi müasir dövrdə elektron vergi inzibatçılığı elə təşkil edilmişdir ki, vergi ödəyicilərinin bütün əməliyyatlarına, vergi ilə əlaqədar öhdəlikləriə real vaxt rejimində nəzarət etmək mümkündür. Müvafiq olartaq vergidən yayınma hallarını vaxtında

doi.org/10.61764/lasr.1.2024.126-132

aşkar etmək mümkündür, dövlət büdcəsinə ödəmələrin təmin olunmasına şərait yanır.

Daha sonra qeyd etmək lazımdır ki, Azərbaycanda elektron audit-twining in tətbiqinə 2011-ci ildən başlanılmışdır. Bu işdə Azərbaycan Vergilər Nazirliyinin məsləhətçisi Niderland Vergi Adminisrrasiyasıdır. Layihənin dəyəri 1 milyion avro dəyərindədir, Avropa Komissiyası tərəfindən maliyyələşdirilir.Twining Avropa İttifaqına üzv dövlətlərin institusional inkişaf və texniki əmədaşlıq sahəsində əməkdaşlıq formasıdır. Twining sözü ingilis sözü əkz mənasını daşıyır. Bərabər hüquqlu əməkdaşlığın təsvir edilməsi üçün istifaə edilir. Bir qədər kənara çıxaraq qeyd edilməsi yerinə düşərdi ki, Avropa Komissiyası tərəfindən twiningin reallaşdırılmasına 1998-ci ildən başlanılmışdır. Həmin layihə çərçivəsində problemlərin müştərək həllinə çalışılır. Twining layihəsinə 6 komponent daxildir:

- elektron auditin aparılması üçün hüquqi bazanın hazırlanması;
- proqram təminatının seçilməsi;
- elektron audit üçün məlumatlar bazasının yaradılması;
- metodologiyanın hazırlanması və e-auditorlar üçün treniqlərin keçirilməsi;
- elektron mühasibat praktikasının tətbiqinin inkişaf etdirilməsi;

Daha sonra Azərbaycanda 2020-ci ildə başlamış yeni Tvinninq layihəsinin icrası ilə bağlı bəzi faktlar diqqəti cəlb edir. Həmin layihə 2020-ci ilin iyun ayından başlanılmış və 3 komponentdən ibarət olan layihə 22 ay davam etməklə tam icra edilmişdir [3, s. 37-43]. Sözü gedən Tviniq layihəsiilə əlaqədar bir qədər ətraflı mühakimə yürüdək.

Vergilər Nazirliyi nəzarət sisteminin əsasını təşkil edən audit yoxlamalarının keyfiyyətinin artırılması və vergidən yayınma risklərinin azaldılması məqsədilə Avropa İttifaqının yardım aləti olan Tvininq proqramı çərçivəsində elektron audit sisteminin tətbiq edilməsi layihəsi üzrə prosesə başlanılmışdır. Belə ki, Avropa İttifaqlarının ekspertlərinin ölkəmizə səfərləri çərçivəsində artıq elektron audit sisteminin tətbiqinə dair Tvinninq Fişinin (layihə təfsiri sənədi) son layihəsi hazırlanmışdır. Layihənin icrasına 2010-cu ilin sonlarında başlanmasıdır.

Hesab edirik ki, layihənin həyata keçirilməsi ilə vergi xidmətinin olduqca mühüm bir texniki yardım alması mümükün olmuşdur. Bütün bunlar son nəticədə ölkəmizdə elektron audit sisteminin tətbiqinin sürətləndirilməsinə xidmət edir. Azərbaycanda elektron auditinin tətbiqi ilə əlaqədar hazırda bir çox inkişaf etmiş ölkələrin e-audit sahəsində təcrübəsi öyrənilir və bu sistemin tətbiqi üçün fəaliyyət planı hazırlanır [4, s. 7-11].

Elektron auditin tətbiqi üçün müvafiq hüquqi bazanın yaradılması məqsədi ilə 2013-cü il yanvarın 1-də Vergilər Məcəlləsinə e-audit proseslərinin hüquqi əsaslarını tənzimləyən 13 yeni maddə daxil edilib [7, s. 54-60].

Göründüyü kimi, son illərdə, daha doğrusu XXI əsrin ilk on illiklərindən başlayaraq Azərbayan Respubliksının vergi sistemində müasirləşmə və modernləşmə istiqamətində nəzərəçarpacaq irəliləyişlər əldə edilmişdir.

Lakin yuxarıda deyilənləri ümumiləşdirərək belə bir qənaətə gəlmək mümükünür ki, Azərbaycanda vergi sisteminin təkmilləşdirilməsi evolusiya yolu ilə həyata keçirilməlidir. Bunun üçün isə bir sıra məsələlərin həll edilməsi tələb olunur:

- Sabit, anlaşılan, rasional vergi sisteminin yaradılması istiqamətində işlər davam etdirilməsi;
- Vergi mexanizmləri rasional fəaliyyət göstərməli
- Vergi güzəştləri vəsanksiyalar optimallaşdırılmalı;
- Vergilərin həcmi müəyyənləşdirilərkən yerli sosial-iqtisadi şəraitin nəzərə alınmalı;
- Müəssisələrin vergi borcları və digər daxil olmalar haqqında qanunun işlənilib hazırlanmalı;
- Vergilərin yığılmasında Vergilər Nazirliyinin rolunun artırılmalı;

doi.org/10.61764/lasr.1.2024.126-132

- Ümumi vergi yükünün azaldılmalı.

Müvafiq olaraq vergi orqanlarının fəaliyyətinə daimi nəzarəti həyata keçirmək üçün audit, o cümlədən daxili audit sistemi gücləndirilməlidir. Nəticədə vergi sisteminin, vergi orqanlarının fəaliyyətinin səmərəliliyi xeyli yüksəlmiş olar [5, s. 13-34].

**Nəticə**

Müasir dövrdə gəlir vergi sisteminin təkmilləşdirilməsi üçün iki əsas yanaşma diqqəti cəlb edir. Bunlardan birincisi resurs yanşmasıdır ki, bu yanaşmada sosial iqtisadi nəticələrin sərf edilən resurslara nisbətinə əsasən müəyyənləşdirilir. İkinci yanaşma məqsədli yanaşma hesab edilir ki, bu yanaşma təsbit edilən hansı vergi prosedurlarının yerinə yetirilməsi müəyyən edilir [6, s 3]. Hesab edirik ki, Azərbaycan Respiublikasında gəlir vergi sisteminin səmərəliliyinin yüksəldilməsində birinci yanaşmanın müddəalarından istifadə edilməsi daha məqsədəuyğun olardı.

Ümumiyyətlə, gəlir vergi sisteminin səmərəli qurulması milli iqtisadiyyatın inkişafına əhəmiyyətli təsir edir. Gəlir vergi sisteminin səmərəliliyin yüksəldilməsi imkanları ilə birsıra vəzifələrin həll edilməsi arasında ciddi əlaqəvardır: Bunlar aşağıdakılardır:

- Gəlir vergi sisteminin vahidliyinin bərqərar olması;
- Gəlir vergisinin bütünelementlərinin əlaqəsinin vahid mexanizminin təşkili;
- Dövlətin və sahibkarlığn maraqlarının qorunması;
- hüquqpozmalara görə məsuliyyət sistemi mexanizminin təkmilləşdirilməsi.

Daha sonra nəzərə almaq lazımdır ki, Vergidən meydana gələn itirilmiş iqtisadi səmərə dövlət gəlirlərinin artdığı halda vergi ödəyicilərinin iqtisadi rifahının aşağı düşməsi deməkdir. Vergi qanunlarına əməl edilməsi itirilmiş iqtisadi səmərənin növlərindən biri hesab olunur. Vergi sisteminin inzibati yükü isə onun meydana gətirdiyi qeyri-səmərəliliyin bir hissəsidir.

## Ədəbiyyat


1. Məmmədov F.Ə., Musayev A.F., Sadıqov M.M., Kəlbiyev Y.A, Rzayev Z.H., Vergilər və vergitutma (dərslik), Bakı 2010, s. 4.
2. Мусаев, А.Ф., Формирование налоговой системы как основного инструмента модели экономического развития Азербайджана [Текст] /Мусаев Акиф Фархад оглы / Налоговые новости Азербайджана.-Баку. - № 9.-2011 г.-С.43-52
3. Мусаев, А.Ф. Особенности налоговой политики при стимулировании инновационной деятельности [Текст] // Мусаев Акиф Фархад оглы / Налоговые новости Азербайджана.-Баку.- № 1.-2012 г.- С.61-70
4. Ермоленко А. А., Зейналли Т. Э. Оглы Совершенствование налоговой системы Республики Азербайджан в современных условиях // Вісник економіки транспорту і промисловості. 2014. №45., с. 245-247
5. Алиева Р.О. Модернизация налоговой службы Азербайджанской Республики//ЭВД. 2018. №2 (52). URL: https://cyberleninka.ru/article/n/modernizatsiya-nalogovoy-sluzhby-azerbaydzhanskoy-respubliki (дата обращения: 27.09.2022).
6. Номика и Калинина О.В. Оценка эффективности российской налоговой системы//Финансы и кредит. 2011. №11 (443). URL: https://cyberleninka.ru/article/n/otsenka-effektivnosti-rossiyskoy-nalogovoy-sistemy (дата обращения: 27.09.2022).
7. http://anl.az/down/meqale/xalqqazeti/xalqqazeti_dekabr2009/100097
8. http://www.ictnews

doi.org/10.61764/lasr.1.2024.126-132

**Nazrin Karimova**
**Scientific supervisor: Vusala Babaeva**

# THEORETICAL FOUNDATIONS OF THE ORGANIZATION OF THE INCOME TAX SYSTEM

***Summary***

*Theoretical issues of the effective organization of income tax in the Republic of Azerbaijan are considered in the article. The effective organization of the income tax system is very important for the economic development of society. In particular, the income tax of individuals is a burden for state taxpayers. It is from this point of view that it is necessary to regularly monitor the innovative development of the income tax system.*

*In this direction, the article deals with such economic issues as conducting tax audits by means of electronic calculations of the taxpayer, financial (accounting) data and special software, as well as theoretical issues of the effective organization of income tax in the country. At the same time, such economic issues as the state's importance in the formation of the tax system in our country were analyzed. In modern economic conditions, the necessity of creating an effective system of tax collection during the implementation of market reforms is noted.*

***Purpose –*** Engaged in entrepreneurial activity in Azerbaijan from studying the modern state of the income tax system in enterprises and studying ways to improve it consists of.

***Methodology –*** economic, statistical and comparative analysis methods were used in the research work.

***The results of the study –*** with the activity of the entrepreneur in the country. Busy which is income tax system in enterprises on improvement and efficiency improvement suggestions have been made.

***Keywords:*** *income tax, tax system, theoretical foundations, economic development, entrepreneurial activity, enterprises, reforms*

**Назрин Каримова**
**Научный руководитель: Вусала Бабаева**

# ТЕОРЕТИЧЕСКИЕ ОСНОВЫ ОРГАНИЗАЦИИ СИСТЕМЫ ПОДОХОДНОГО НАЛОГА

***Резюме***

*В статье рассмотрены теоретические вопросы эффективной организации подоходного налога в Азербайджанской Республике. Эффективная организация системы подоходного налога очень важна для экономического развития общества. В частности, подоходный налог физических лиц является бременем для государственных налого-плательщиков. Именно с этой точки зрения необходимо регулярно отслеживать инновационное развитие системы подоходного налога.*

*В этом направлении в статье рассматриваются такие экономические вопросы, как проведение налоговых проверок посредством электронных расчетов налогоплательщика, финансовых (бухгалтерских) данных и специального программного обеспечения, а также теоретические вопросы эффективной организации подоходного налога в стране. При этом были проанализированы такие экономические вопросы, как государственное значение в формировании налоговой системы в нашей стране. В современных экономических условиях отмечена необходимость создания эффективной системы сбора налогов при реализации рыночных реформ.*

doi.org/10.61764/lasr.1.2024.126-132

***Цель*** **–** Занимается предпринимательской деятельностью в Азербайджане из изучения современного состояния системы подоходного налога на предприятиях и изучения путей ее совершенствования.

***Методология*** **–** в исследовательской работе использовались методы экономического, статистического и сравнительного анализа.

***Результаты исследования*** **–** деятельность предпринимателя в стране. Внесены предложения по усовершенствованию и повышению эффективности системы подоходного налога на предприятиях.

***Ключевые слова:*** *налог на прибыль, налоговая система, теоретические основы, экономическое развитие, предпринимательская деятельность, предприятия, реформы*

doi.org/10.61764/lasr.1.2024.133-139

**UOT 33.338**

**Nazənin Mustafayeva**
*Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası,* ***Azərbaycan***
*magistrant*
*nazamvva3202@gmail.com*

# XARİCİ ÖLKƏLƏRİN VERGİ SİSTEMLƏRİ

***Xülasə***

*Məqalədə xarici ölkələrin vergi sistemləri, vergi sistemlərindəki boşluqlar, vergi dərəcələri öz əksini tapmışdır. Xarici ölkələrin vergi sistemləri və vergi dərəcələri üzrə geniş icmal aparılmış, Azərbaycan Respublikasının vergi sistemi və vergi dərəcələri ilə müqayisəli təhlil olunmuşdur. Vergi sistemi dünya əhalisinin həyatının hər bir anına təsir göstərir. Nəinki keçmiş dövrdə, müasir dövrdə də vergilər insan həyatının ayrılmaz parçalarından biri olmuşdur. Vergi dərəcələrinin yüksək və ya aşağı olmasından asılı olmayaraq vergilər həm də ölkə əhalisinin, xalqın rifah halının yaxşılaşdırılmasına kömək edir. Bəzi dünya ölkələrində vergi dərəcələrinin yüksək olmasına baxmayaraq əhalinin rifahının yüksək olduğu barədə məlumat məqalədə xüsusi diqqət çəkən məqamlardan biridir. Dünya ölkələrində və respublikamızda müxtəlif vergi sistemlərinin mövcudluğu, vergi dərəcələrindəki fərqlər və tətbiq olunan vergi dərəcələri onların əhalinin rifahına olan təsiri bu məqalə üçün xas xüsusiyyətdir.*

***Məqsəd:*** məqalənin məqsədi xarici ölkələrin vergi sistemini tədqiq etmək, onların Azərbaycan Respublikasının vergi sistemi ilə müqayisəli təhlilini aparmaqdan ibarətdir.

***Metodologiya:*** tədqiqat işində induksiya, deduksiya, araşdırma və təhlil metodundan istifadə olunmuşdur.

***Tədqiqatın nəticəsi:*** nəticədə vergi sisteminin insan həyatında əhəmiyyətli rolu bir daha sübut olunmuşdur. Ölkə iqtisadiyyatının vəziyyəti nəzərə alınaraq, elmi konsepsiyalar əsasında düzgün işlənib hazırlanan vergi siyasəti xalqın rifahının yüksəldilməsinə xidmət edir. Vergi sistemi həm də əhalinin qanuni iqtisadi fəaliyyətlə məşğul olmalarına şərait yaradır.

***Açar sözlər:*** *vergi sistemi, vergi dərəcələri, iqtisadi səmərəlilik, yerli vergilər, gəlir vergisi*

## Giriş

Vergi dövlət və bələdiyyələrin maliyyə fəaliyyətinin təminatı məqsədilə vergi ödəyiciləri tərəfindən mülkiyyətlərində olan pul vəsaitlərinin özgəninkiləşdirmə şəklində məcburi, fərdi, əvəzsiz formada dövlət və bələdiyyə büdcələrinə ödədiyi ödəniş növüdür [1, maddə 11].

Tarix boyu dövlətlərin vergilərdən əldə etdiyi vəsaitlər onlar üçün müxtəlif funksiyaları daşıyırdı. Vergilərdən əldə olunan vəsaitlərin hesabına müharibə xərcləri ödənilir, qanun həyata keçirilir, mülki müdafiə və ictimai nizam intizam təmin olunur, ictimai işlər və sosial mühəndislik işləri görülür, dövlət saxlanılırdı. Dövlət vergiləri vasitəsilə həm də xalqın rifahının yüksəldilməsi və bir sıra ictimai xidmətlərin xərcləri ödənilməsi həyata keçirilir. Xidmətlərə təhsil, səhiyyə, pensiya və işsizlikdən maddi yardım, ictimai nəqliyyat həmçinin enerji, su təminatı kimi sahələr daxildir.

Dövlətlər müxtəlif vergi sistemləri və vergi səviyyələrindən istifadə edirlər. Vergilərin ağırlığı vergi qoyula bilən əhali qrupları arasında bölüşdürmə məqsədi daşıyır.

Tarixə nəzərən varlılar kasıblardan alınan vergilərin hesabına saxlanılırdı. Lakin müasir vergi sisteminə əsasən vergilər yoxsullara, aztəminatlı ailələrə, əlillərə kömək məqsədi daşıyır. Bütün bunlardan əlavə olaraq vergilər vasitəsilə xarici yardım və hərbi əməliyyatlar maliyyələşdirilir. Vergilər makroiqtisadi göstəricilər sisteminə təsir edir. Mükəmməl vergi sistemi yaratmaq üçün dövlətlər ilk növbədə vergi ağırlığı müəyyən olunmalıdır. Yəni kim nə qədər vergi ödəyəcək? Ödənilmiş vəsaitlər nəyə xərclənəcək? Demokratiya olan ölkələrdə vergi sistemini onu idarə edənlər müəyyən edir.

**Ölkələrin vergi sistemləri**

Vergi yığımlarının iqtisadi inkişafa təsir göstərməsi ölkələrin vergi sistemləri üçün ən əsas göstəricidir. İqtisadiyyatın müxtəlif sahələrinə dövlət müdaxiləsi inkişaf etmiş ölkələr üçün ən xarakterik cəhətdir. İqtisadiyyata dövlət müdaxiləsinin məqsədi onun tənzimlənməsi, iqtisadiyyatın tənzimlənməsinin başlıca məqsədləri isə qiymətlərin sabitliyini qorumaq, iqtisadi artıma nail olmaq, əmək qabiliyyətinə malik olan əhalinin məşğulluğuna tam nail olmaq, vətəndaşların sosial müdafiəsinin təminatıdır.

Dövlət tərəfindən tənzimlənmənin əsas vasitələri azad sahibkarlığa dəstək üçün maliyyə köməyinin göstərilməsi və vergi siyasətidir. Vergi siyasəti öz milli maraqlarını nəzərə almaqla müxtəlif ölkələr tərəfindən aparılır. Vergi siyasəti investisiyaları təşviq etməli, ölkədə əlverişli vergi mühiti yaradılmasına yönəlməlidir. Respublikamızda vergi tənzimlənməsi sahəsində yeritdiyi vergi siyasətinin başlıca məqsədləri sistemin beynəlxalq standartlar əsasında təkmilləşdirilməsi və standartlara uyğunlaşdırılması, sosial-iqtisadi inkişafına təkan verməkdən və s. ibarətdir.

Ölkədə səmərəli vergi sisteminin mövcudluğunun əsas şərtləri optimal olaraq formalaşdırılmış vergi dərəcələri və vergi yüküdür. Ölkənin vergi yükü yüksək olarsa bir sıra hallarda iqtisadi fəallıq aşağı düşür. Bununla yanaşı büdcə vəsaitlərinin hansı formada istifadə olunmasından asılı olaraq, vergi yükündəki artımların iqtisadi inkişafa təsirini müəyyən etmək olur. Misal olaraq İsveçdə vergi sistemi elə formalaşdırılmışdır ki, vergi ödəyicisi olan əhali öz gəlirlərinin 50% və hətta daha çox hissəsini dövlət büdcəsinə ödəyirlər. Lakin qeyd etməliyik ki, yüksək vergi yükü heç də onların istehsalının inkişafına olan marağını azaltmır. Vergi sisteminə əsasən bir çox iqtisadi göstəricilər (iqtisadi artım, ÜDM, məşğulluq, inflyasiya və s.) nizamlanır.

Avropa İttifaqına daxil olan ölkələrin yeritdiyi vergi siyasətinin 2 əsas başlıca strategiyası vardır:

1. İqtisadi səmərəlilik
2. Müdafiə və sosial bərabərlik.

Avropa İttifaqına daxil olan ölkələr iki əsas qrupa ayrılır. İlk qrupun əsasını İEÖ-lər təşkil edir. Bu ölkələrə Almaniya, Fransa, İngiltərə, Hollandiya, İspaniya, İtaliya, İsveç, Danimarka, Finlandiya və s. daxildir. İlk qrup ölkələrin yeritdiyi vergi siyasəti strategiyası ölkənin sosial bərabərlik prinsiplərinə əməl edilməsi və bununla yanaşı iqtisadi rəqabət qabiliyyətliyinin tam təmin edilməsi üçün əlverişli şəraitin yaradılmasıdır. Vergidən daxilolmaların böyük hissəsinin az təminatlı əhali qrupunun sosial müdafiəsi həmçinin insan kapitalının inkişafına təkan bu tip ölkələr üçün xas xüsusiyyətdir. İkinci qrupa Avropa İttifaqına yeni daxil olan və namizəd ölkələr qrupu (Şərqi Avropa və Baltikayanı ölkələr) daxildir. Ölkənin iqtisadi səmərəliliyinin artırılması və bununla yanaşı sosial müdafiə sahəsində görülən işlərin ölkənin iqtisadi imkanları əsasında həll edilməsi bu ölkələrin yeritdiyi vergi siyasətinin strateji prioritetidir. Əvvəllər Avropa İttifaqına daxil olan İEÖ-də, xüsusilə Skandinaviya ölkələrini qeyd etməliyik, ümumi daxili məhsulda vergi yükünün çəkisi ( 42-45%) yeni daxil olan ölkələrə nisbətən (30-32%) yüksəkdir. Bu da o deməkdir ki, həmin ölkələrdə daha yüksək vergi dərəcələri tətbiq olunur.

doi.org/10.61764/lasr.1.2024.133-139

Avropa İttifaqına daxil olan və digər ölkələrin vergi sistemlərini ümumi olaraq təhlil etdikdə belə bir nəticə ortaya çıxır; vergi sistemi 5 əsas kriteriyaya cavab verməlidir (cədvəl 1).

**Vergi dərəcələri yüksək olan ölkələr**

Qərbi Avropa ölkələri arasında ən yüksək vergi dərəcəsi ilə Belçika fərqlənir. Əhalinin gəlir vergisi dərəcəsi 54%-dir. Burada dolayı vergi dərəcələri də yüksək, ƏDV-nin dərəcəsi isə 21% təşkil edir. Məsələn yaşayış evlərinin tikintisi üçün 12% ƏDV mövcuddur. Bank, hüquqşünaslar, sığorta şirkətləri, müəllimlər, həkimlər, beynəlxalq yükdaşımalar ƏDV-dən azaddır. Tətbiq olunan yüksək vergi dərəcələrinə baxmayaraq, bu ölkənin iqtisadiyyatı heç də aşağı vəziyyətdə deyil. Belçika vergi qanunvericiliyinə görə Avropa İttifaqı xaricindən idxal əməliyyatları həyata keçirənlər, sahibkarlıqla məşğul olan hüquqi və həmçinin fərdi sahibkarlar ƏDV ödəyiciləridirlər.

Gəlir vergisinin son hədd dərəcəsi 46,6% olan Finlandiya da vergi dərəcələri ən yüksək tətbiq olunan ölkələr arasındadır. Vergi dərəcələrinin yüksək səviyyədə olduğuna baxmayaraq Finlandiyanın iqtisadiyyatı digər yüksək vergi dərəcələri tətbiq edilən ölkələrə nisbətən olduqca yaxşı inkişaf edib.

**Vergi dərəcələri yüksək olan ölkələr**

Qərbi Avropa ölkələri arasında ən yüksək vergi dərəcəsi ilə Belçika fərqlənir. Əhalinin gəlir vergisi dərəcəsi 54%-dir. Burada dolayı vergi dərəcələri də yüksək, ƏDV-nin dərəcəsi isə 21% təşkil edir. Məsələn yaşayış evlərinin tikintisi üçün 12% ƏDV mövcuddur. Bank, hüquqşünaslar, sığorta şirkətləri, müəllimlər, həkimlər, beynəlxalq yükdaşımalar ƏDV-dən azaddır. Tətbiq olunan yüksək vergi dərəcələrinə baxmayaraq, bu ölkənin iqtisadiyyatı heç də aşağı vəziyyətdə deyil. Belçika vergi qanunvericiliyinə görə Avropa İttifaqı xaricindən idxal əməliyyatları həyata keçirənlər, sahibkarlıqla məşğul olan hüquqi və həmçinin fərdi sahibkarlar ƏDV ödəyiciləridirlər.

Gəlir vergisinin son hədd dərəcəsi 46,6% olan Finlandiya da vergi dərəcələri ən yüksək tətbiq olunan ölkələr arasındadır. Vergi dərəcələrinin yüksək səviyyədə olduğuna baxmayaraq Finlandiyanın iqtisadiyyatı digər yüksək vergi dərəcələri tətbiq edilən ölkələrə nisbətən olduqca yaxşı inkişaf edib.

**Cədvəl 1. Vergi sisteminin kriteriyaları**

| Bərabərlik | Sadəlik | Kafilik | Səmərəlilik | Rəqabətlilik |
|---|---|---|---|---|
| Bütün vergi ödəyiciləri üçün vergi sistemi ədalətli və bərabər olmalıdır. | Vergilər kifayət qədər sadə və vergi ödəyiciləri tərəfin dən asan anlaşılan olsun. Bu zaman vergilər tam və vaxtında ödənilər. | Dövlət büdcəsi vergi sistemi tərəfindən kifayət qədər təmin olunmalıdır. | Vergi sistemi ölkə iqtisadiyyatının məhsul və xidmətlərinin artım tempini azaltmamalıdır və ya artımın qarşısını alma malıdır. | Milli vergi sistemi digər ölkələrin vergi sistemləri ilə rəqabət qabiliyyətli olmalıdır. |

*Mənbə:* [4] əsasında müəllif tərtib etmişdir

doi.org/10.61764/lasr.1.2024.133-139

Almaniya da vergi dərəcələri yuxarı olan ölkələr arasındadır. Burada gəlir vergisinin son həddi 42% olaraq müəyyən edilmişdir. Standart ƏDV dərəcəsi 16%, kitablar, jurnallar, ərzaq məhsulları üçün isə azaldılmış 7% dərəcə tətbiq olunur. Büdcə gəlirlərində 28% xüsusi çəkini ƏDV təşkil edir. Almaniyada mənfəət vergisinin dərəcəsi 15%-dir. Məhz yüksək vergi dərəcələrinin nəticəsidir ki, bu da ölkədən emiqrasiya edənlərin sayını artırır [2 s.176-178].

Danimarka 44% gəlir vergisi dərəcəsi ilə, ən yüksək vergi tətbiq olunan ölkələr sırasında 4-cü yeri tutur. Burada 25% standart dərəcəli ƏDV tətbiq olunur. Danimarkada yüksək vergi mükəlləfiyyətlərinin mövcud olduğuna baxmayaraq əhali bundan narazı deyil. Ölkə əhalisi olduqca optimistdir.

Gəlir vergisinin son həddi 39%, 27,5% mənfəət vergisi, 20% ƏDV dərəcəsinin tətbiq olunduğu ölkə İtaliyadır.

**Aşağı vergi dərəcələrinə sahib ölkələr**

Aşağı vergi dərəcələri ilə iqtisadi göstəriciləri yaxşı olan nadir ölkələrdən biri İsveçrədir. İsveçrədə gəlir vergisinin yüksək səviyyəsi 20% təşkil edir. Aşağı vergi siyasəti tətbiq edən ölkə rəhbərliyi bu strategiya ilə digər ölkələrdən varlı investorları İsveçrəyə cəlb edir.

Amerika Birləşmiş Ştatları (ABŞ) aşağı vergi mükəlləfiyyətlərinə sahib olan ölkələr sırasındadır. ABŞ-da gəlir vergisinin yüksək həddi 27% təşkil edir. Bu ölkədə bir sıra Avropa ölkələrinin əksinə ƏDV və ümumi satışdan vergi tətbiq olunmur. ABŞ ən böyük iqtisadi göstəricilərə malik olan, həm də insanın 1 saatlıq işinə görə ən yüksək əməkhaqqı verən ölkədir. Yüksək əməkhaqqının nəticəsidir ki, bu ölkəyə gələn immiqrantların sayı çoxdur.

Aşağı vergi mükəlləfiyyəti (31,5%) mövcud olan ölkələr arasına Avstraliya da daxildir.

Kanadada gəlir vergisinin yüksək həddi digər ölkələrə nisbətən çoxdur(31,2%). Vergitutması struktur nəzərdən ABŞ-la oxşardır. Buranın sosial dəstək və həmçinin səhiyyə sistemi olduqca inkişaf etmişdir.

Vergi öhdəlikləri aşağı olan ölkələr sırasına Yaponiya da daxildir. Baxmayaraq ki, ölkə güclü iqtisadi inkişafa malikdir lakin adambaşına düşən Gəlir vergisinin yüksək həddi 33%-dir.

Böyük Britaniya vergitutma nəzəriyyəsinin vətəni hesab edilir. Gəlir vergisinin dərəcəsi 33% təşkil edir. Qərbi Avropa ölkələri arasında nisbətən aşağı vergi dərəcələri ilə fərqlənir. İşsizlik səviyyəsi -7,8% faiz təşkil edir. Ölkədə fəaliyyət göstərən hər bir rezident və qeyri-rezident mənfəət vergisinin ödəyiciləridir. Böyük Britaniyada qanunvericilik hakimiyyəti parlamentin əlindədir. Parlamentin hər il vergi qanunvericiliyinə dəyişiklik etmək kimi səlahiyyəti vardır. Ölkədə ikisəviyyəli vergi sistemi mövcuddur [3 s.127-128].

**1. Ümumdövlət vergiləri.** Bura fiziki şəxslərin gəlir vergisi, kapitalın artımına vergi, korporativ vergi, miras vergisi və həmçinin ƏDV, aksizlər, rüsum və s. kimi dolayı vergilər daxildir.

**2. Yerli vergilər.** Bu vergilər büdcə gəlirlərinin 10%-ni təşkil edir və əmlak vergisindən ibarətdirlər.

**Azərbaycan Respublikasının vergi sistemi ilə digər ölkələrin vergi sisteminin müqayisəsi**

Azərbaycanın xarici ölkələrlə digər sahələrdə olduğu kimi vergi sahəsinin də müqayisəsi zamanı bir sıra oxşar və fərqli cəhətləri olduğu məlumdur. İlk olaraq qeyd edək ki, dövlətin quruluşu ölkənin vergi sisteminin müəyyən olunması üçün mühüm ünsürdür.

doi.org/10.61764/lasr.1.2024.133-139

Məsələn ölkənin quruluş forması federativdirsə, həmin ölkələrdə regional, yerli, federal vergi sistemi mövcuddur. Unitar quruluşlu ölkələrdə isə federal vergi sistemi mövcud deyildir.

Azərbaycan Respublikasının vergi sistemi aşağıdakı vergilərdən təşkil olunmuşdur [1, maddə 4]:

1. Dövlət vergiləri;
2. NMR vergiləri;
3. Yerli vergilər.

Vergi sisteminin tərkibi baxımından görünür ki, vergilər bir sıra ölkələrdən fərqlidir. Digər bir məqam vergi dərəcələrindəki fərqlərdir. Azərbaycan Respublikasında mövcud olan bir sıra vergi növlərinin dərəcələri göstərilmişdir (cədvəl 2)

Vergi dərəcələrinin 3 əsas növü beynəlxalq praktikada fərqləndirilir. Bunlar aşağıdakılardır:

1. Nominal vergi dərəcələri;
2. Effektiv vergi dərəcələri;
3. Marjinal vergi dərəcələri.

Vergi dərəcələrinin nominal növü bilavasitə vergi qanunvericiliyi ilə müəyyən olunur. Lakin proqressiv vergi şkalası tətbiq olunarsa, bu zaman real vergi dərəcələri və nominal vergi dərəcələri arasında ciddi fərqlər meydana gəlir. Bu o deməkdir ki, ödənilən faktiki vergi məbləğinin vergiyə cəlb olunan hissəsindəki pay da dəyişir.

Azərbaycan Respublikasının Vergi Məcəlləsinə uyğun olaraq respublikada aşağıdakı vergi rejimləri tətbiq olunur:

- xüsusi vergi rejimi;
- müvəqqəti vergi rejimi.

**Cədvəl 2. Vergi növləri və dərəcələri**

| Verginin növü | Vergi dərəcəsi |
|---|---|
| *Gəlir vergisi* | 2500 manatadək 14 faiz<br>2500 manatdan çox olduqda 350 manat + 2500 manatdan çox olan məbləğin 25 faizi |
| *Mənfəət vergisi* | 20% |
| *Əmlak vergisi* | Bakı 0.4%<br>Gəncə, Sumqayıt şəhərləri və Abşeron rayonu 0.3%<br>Digər şəhərlər, rayon mərkəzləri 0.2%<br>Rayon tabeliyində olan şəhərlərdə, qəsəbə və kəndlərdə 0.1% |
| *Mədən vergisi* | Xam neft 26%<br>Təbii qaz 20%<br>Filiz faydalı qazıntıları bütün növ metallar 3% |

*Mənbə:* [5] əsasında müəllif tərtib etmişdir.

Müəyyən dövr ərzində vergi ödənişlərinin hesablanması və ödənilməsinin xüsusi qaydası xüsusi vergi rejimi ilə müəyyən olunur.

İqtisadi şəraitin müəyyən səbəblərdən (epidemiya, epizootiya, təbii fəlakətlər, ekoloi qəzalar) ciddi şəkildə dəyişməsi nəticəsində bütöv formada və ya bir hissə sahibkarlıq subyektlərinə münasibətdə vergi ödənişlərinin hesablanmasının və ödənilməsinin xüsusi qaydası müvəqqəti vergi rejimi ilə müəyyən olunur.

doi.org/10.61764/lasr.1.2024.133-139

## Ədəbiyyat


1. Azərbaycan Respublikası Vergi Məcəlləsi. Bakı,2013-cü il
2. Kəlbiyev Y.A., Məhərrəmov R.B., Rzayev P.Q.(2011). Xarici ölkələrin vergi sistemi. Bakı, 2011- ci il,- s.554
3. Попова Л.В., Дрожжина И.А., Маслов Б.Г.(2008) Налоговые системы зарубежных стран. Москва, -2008г, 368 с.
4. https://www.muhasib.az/article.php?cat=3&n=104
5. https://www.taxes.gov.az/az


**Nazanin Mustafayeva**

## TAX SYSTEMS OF FOREIGN COUNTRIES

### *Summary*

*Tax systems of foreign countries, loopholes in tax systems, tax rates are reflected in the article. A wide review of the tax systems and tax rates of foreign countries was conducted, and a comparative analysis was made with the tax system and tax rates of the Republic of Azerbaijan. The tax system affects every moment of the world's population. Not only in the past, but also in modern times, taxes have been one of the integral parts of human life. Whether the tax rates are high or low, taxes also help to improve the welfare of the people of the country. Despite the high tax rates in some countries of the world, the information about the high welfare of the population is one of the points of special attention in the article. The existence of different tax systems in the countries of the world and in our republic, the different tax rates and the effect of the applied tax rates on the welfare of the population are the characteristic aspects of this article.*

***Purpose:*** The purpose of the article is to study the tax system of foreign countries and conduct a comparative analysis of them with the tax system of the Republic of Azerbaijan.

***Methodology:*** The method of induction, deduction, research and analysis was used in the research work.

***The result of the research:*** As a result, the important role of the tax system in human life has been proven once again. Taking into account the state of the country's economy, the tax policy, which is properly developed on the basis of scientific concepts, serves to improve the welfare of the people. The tax system also creates conditions for the population to engage in legal economic activity.

***Keywords:*** *tax system, tax rates, economic efficiency, local taxes, income tax*

**Назанин Мустафаева**

## НАЛОГОВЫЕ СИСТЕМЫ ЗАРУБЕЖНЫХ СТРАН

### *Резюме*

*В статье отражены налоговые системы зарубежных стран, лазейки в налоговых системах, налоговые ставки. Был проведен широкий обзор налоговых систем и налоговых ставок зарубежных стран, а также проведен сравнительный анализ с налоговой системой и налоговыми ставками Азербайджанской Республики. Налоговая система влияет на каждый момент жизни населения мира. Не только в прошлом, но и в современную эпоху налоги были одной из неотъемлемых частей жизни человека. Независимо от того, высоки или низки налоговые ставки, налоги также способствуют повышению благосостояния*

*населения страны. Информация о высоком благосостоянии населения, несмотря на высокие налоговые ставки в некоторых странах мира, является одним из пунктов особого внимания в статье. Характерной особенностью данной статьи является существование различных систем налогообложения в странах мира и в нашей республике, различия налоговых ставок и влияние применяемых налоговых ставок на благосостояние населения.*

***Цель:*** целью статьи является изучение налоговой системы зарубежных стран и проведение ее сравнительного анализа с налоговой системой Азербайджанской Республики.

***Методология:*** в исследовательской работе использовался метод индукции, дедукции, исследования и анализа.

***Результат исследования:*** в результате еще раз доказана важная роль налоговой системы в жизни человека. Учитывая состояние экономики страны, правильно разработанная на основе научных концепций налоговая политика служит повышению благосостояния народа. Налоговая система также создает условия для занятия населением легальной экономической деятельности.

***Ключевые слова:*** *налоговая система, налоговые ставки, экономическая эффективность, местные налоги, налог на прибыль*

doi.org/10.61764/lasr.1.2024.140-153

**UOT 33.379.85**

**Rövşən Xuduyev**
*Azərbaycan Dövlət İqtisad Universiteti, **Azərbaycan***
*magistrant*
*rovsen4803@gmail.com*

**Ramiz Isgandarov**
*Azərbaycan Texniki Universiteti, **Azərbaycan***
*i.e.d., professor*
*isgenderov_ramiz@mail.ru*

# ÖLKƏLƏR ARASINDA BEYNƏLXALQ MÜNASİBƏTLƏRİN GENİŞLƏNMƏSİNİN TURİST AKTİVLİYİ, MƏŞĞULLUQ VƏ ƏHALİNİN HƏYAT SƏVİYYƏSİNƏ TƏSİRİ

***Xülasə***

***Məqalənin məqsədi*** *– beynəlxalq münasibətlərin genişlənməsinin ölkələrin turist aktivliyi, məşğulluq və əhalinin həyat səviyyəsinə təsirini müəyyən etməkdən ibarətdir.*

*Məqalədə statistik məlumatların müqayisəli təhlili əsasında ölkələrin turist qəbulu aktivliyinə görə reytinq sıralanması, onun məşğulluğa və həyt səviyyəsinə təsiri* ***metodologiyası****, statistik təhlil və s. metodlardan istifadə edilmişdir.*

*Məqalədə beynəlxalq münasibətlərin genişlənməsinin turizmin aktivliyinə təsiri, turist qəbulunun aktivləşməsinin ölkəyə xarici valyuta gəlirləri, məşğulluq və əhalinin həyat səviyyəsinə təsiri araşdırılır. Ümumdünya Turizm Təşkilatının hesablamalarına görə qlobal böhranlar (iqtisadi) dünyadakı obyektiv çətinliklərin, dünya turizm mərkəzlərində qeyri-sabit siyasi vəziyyətin yaranmasına baxmayaraq, beynəlxalq əlaqələrin genişləndirilməsi nəticəsində turizm sənayesi stabilliyini qoruyub saxlaya bilmiş və ölkələrin iqtisadiyyatında yüksək gəlirli və dinamik inkişaf edən sahə kimi öz mövqeyini yaxşılaşdırmışdır. Məqalədə, Azərbaycanda beynəlxalq turistlərin ölkələr üzrə qəbulu (2017-2022-ci illər) göstəricilərinin müqayisəsi əsasında yüksək, orta və aşağı səviyyədə yer alan ölkələrdən qəbul edilən turistlərin sayının ümumi ölkəyə gələn turist sayına görə payları müəyyən edilmişdir. Qeyd edilən ölkələr sırasında Rusiya, Gürcüstan, Türkiyə, İran və BƏƏ ilk beşlikdə yer almışlar. İlk beşlikdə olan ölkələrdən qəbul edilmiş turistlərin ümumi turistlərin sayındakı payı 2017-ci ilə nisbətən 2022-ci ildə ən çox Gürcüstanda, ən az isə BƏƏ-də olmaqla (1,5-15,0%) hüdudunda azalmış, Türkiyədə isə müqayisə dövründə 8,4% artmışdır. Türkiyədən Azərbaycana gələn turist sayının qeyd edilən faiz qədər yüksəlməsinin əsas səbəbi qardaş ölkələr arasında beynəlxalq münasibətlərin genişlənməsi və bu münasibətlərin getdikcə daha da müsbət istiqamətə meyllənməsi ilə izahlandırıla bilər.*

*Ölkələr arasında beynəlxalq münasibətlərin daha da genişlənməsi həm sosial-iqtisadi, həm də mədəni-turisik münasibətlərin sürətlənməsinə təsir göstərir. Bu göstəricilər sırasında müxtəlif kütləvi yerləşdirmə vasitələrində (KYV) turistlərin gecələmələrinin sayı, onlara göstərilmiş mehmanxana xidmətinin dəyəri və s. turistləri qəbul edən ölkələrin iqtisadi inkişafına müsbət təsir edir. 2017-2022-ci illər üzrə mehmanxana xidmətlərinin dəyərinin müqayiisəli təhlili göstərir ki, Azərbaycanda qeyd edilən göstəricisi 2017-ci ilə nisbətən 2022-ci ildə 11% azalmışdır. Fikrimizcə, göstərilmiş mehmanxana xidmətlərinin dəyərinin azalmasını virusların ölkələrdə geniş yayılması nəticəsində hələ də quru əlaqələrin bərpa edilməməsi, beynəlxalq münasibətlərin nisbətən yavaşıması və s. ilə əlaqələndirmək mümkündür.*

***Nəticə*** *- dünya ölkələri arasında beynəlxalq münasibətlərin genişlənməsi, həmçinin dinamik inkişafın təminatı olan stabilliyin mövcudluğu və s. beynəlxalq turist qəbulunun sürətlənməsinə müsbət təsir edir. Ölkələr arasında beynəlxalq turist axınının sürətlənməsi ilk növbədə ölkənin iqtisadi artımına, əhalinin məşğulluq səviyyəsinə, son nəticədə ölkə əhalisinin həyat səviyyəsinin yüksəldilməsinə öz müsbət təsirini göstərir.*

***Açar sözlər:*** *dünya ölkələri, beynəlxalq münasibətlər, turizm aktivliyi, məşğulluq, həyat səviyyəsi*

## Giriş

XXI əsrin əvvəlləri beynəlxalq münasibətlər sistemində köklü dəyişikliklər ilə əlamətdar oldu. Bu sistemdəki proseslər hələ bitməyib və bir neşə şərtlərə əsaslanır:

- iki dünya sisteminin antaqonist bipolyarlığı 1980-ci illərin sonu və 1990-cı illərin əvvəllərində çökdü, dünyada yeni qüvvələr birliyinə və dövlətlər arasında qarşılıqlı münasibətlərin yeni prinsiplərinə keçidin başlanğıcı oldu;
- ABŞ-ın rəhbərlik etdiyi istək və əlaqə səyləri ilə qalib gələn qərb sisteminin tək liderliyini ilk növbədə NATO, Transatlant tərəfdaşlığının fərqli genişlənmə yolundan istifadə etməklə möhkəmləndirilməsi və s.

Yuxarıda göstərilən şərtlərdən əlavə, mənim fikrimcə, ən vacib olan digər şərtlər də vardır. Bunlara beynəlxalq və regional terrorizm, dini radikalizm və fundamentalizm, nüvə raket silahlarına sahib güclərin sayının genişlənməsi, kütləvi miqrasiya və s. daxildir [8, s. 6-19].

Son iyirmi beş ildə "yumşaq güc" konsepsiyası Qərbi Avropa ölkələrinin, ilk növbədə bu xarici siyasət mənbəyindən məqsədyönlü istifadənin banisi olan Amerika Birləşmiş Ştatlarının xarici siyasətində möhkəm yerləşmişdir.

"Yumşaq güc" anlayışı - "məcburiyyət və ya maliyyə mənbələri deyil, öz mədəniyyətinin, dəyərlərinin və xarici siyasətinin cəlbediciliyi ilə digər dövlətlərlə münasibətlərdə arzu olunan nəticələr əldə etmək bacarığıdır", ilk dəfə 1990-cı ildə amerikalı professor Cozef Nye tərəfindən hazırlanmış və nəşr edilmişdir [11, s. 114-126].

Ölkələr arasında tərəfdaşlıq tədricən beynəlxalq münasibətlərin formalaşdırılması və inkişaf etdirilməsində həlledici rol oynamışdır. Odur ki, məqalədə beynəlxalq münasibətləin genişləndirilməsinin turizmin aktivliyinə, məşğulluq ssəviyyəsini yüksəlməsinə və əhalinin həyat səviyyəsinə təsirinin araşdırılması probleminə təsir edən amillərin birgə aydınlaşdırılması vacib şərtlərdən biri hesab edilir.

Beynəlxalq münasibətlər dövlətlər və dövlətlər sistemləri arasında, dünyada fəaliyyət göstərən əsas siniflər, əsas sosial, iqtisadi, siyasi qüvvələr, təşkilatlar və ictimai hərəkatlar arasında, sözün ən geniş mənasında xalqlar arasında iqtisadi, siyasi, ideoloji, hüquqi, diplomatik və digər əlaqələrin və münasibətlərin məcmusudur. Beynəlxalq münasibətlərin insan fəaliyyətinin bütün sahələrinə təsiri ildən-ilə artır, bu da beynəlxalq turizm nümunəsində müşahidə edilə bilər [4, s.162-165].

Beynəlxalq münasibətlər müxtəlif fəaliyyət sahələrində münasibətlərin (iqtisadi, siyasi, hüquqi, ideoloji, diplomatik, hərbi, mədəni, habelə turizm və digər əlaqələr və münasibətlər) məcmusudur. Hər il beynəlxalq münasibətlərin onu təşkil edən fəaliyyət sahələrinin hər birinə, o cümlədən turizmə təsiri artır. Beynəlxalq turizm hazırda xarici iqtisadi fəaliyyətin ən dinamik inkişaf edən sahələrindən biridir. Turizmin həm bütövlükdə dünya iqtisadiyyatına, həm də ayrı-ayrı ölkələrin və bölgələrin iqtisadiyyatına təsirinin davamlı artması dünya iqtisadiyyatının formalaşması və inkişafı ilə müşayiət olunan ən əhəmiyyətli, davamlı və uzunmüddətli tendensiyalardan biridir. Eyni zamanda, turizm

bazarının istiqamətləri ölkələr arasındakı münasibətlərin inkişafından asılıdır. Beynəlxalq münasibətlərin dünya turizm bazarındakı vəziyyətə təsirinin bir neçə konkret nümunəsini nəzərdən keçirək.

Məsələn, 2014-cü ildə Krım yarımadasının Rusiyaya qəbul edilməsi haqqında müqavilənin ratifikasiyası haqqında qanun imzalandıqdan sonra bir çox xarici dövlət vətəndaşlarına bu yarımadanı ziyarət etməkdən imtina etmələrini tövsiyə etdi. O cümlədən, ABŞ Dövlət Departamenti 16 iyul 2014-cü ildə vətəndaşlara Krıma səfərlərini təxirə salmağı tövsiyə edən bir sərəncam verdi. Buna oxşar tövsiyə AB dövlətlərinin sakinlərinə və Yaponiya vətəndaşlarına da göndərildi. Bu cür hadisələr beynəlxalq siyasi münasibətlərin turizm bazarına təsirinin bariz nümunəsidir.

Qeyd edilənlərdən belə bir nəticəyə gəlmək olar ki, siyasi, iqtisadi sahələrdə beynəlxalq münasibətlər dünya turizm biznesinin vəziyyətinə birbaşa təsir göstərir. Odur ki, turistlərin hər hansı ölkını səyahət etmək üçün seçim üstünlükləri, müəyyən bir ölkəyə marağı və istirahət növünü seçmək imkanı ölkələr arasındakı münasibətlərin keyfiyyətindən asılıdır.

Müasir şəraitdə turizm sənayesi ölkələrin iqtisdi inkişaf prosesində mühüm rol oynayır. Həmçinin, turizm sferası ünya iqtisadiyyatında yüksək gəlirli və dinamik inkişaf edən sahələrdən biridir. Turizm sənayesi qlobal ÜMM və investisiyaların, iş yerləri və qlobal istehlak xərclərinin təxminən 10%-ni təşkil edir. Hər il təxminən 737 milyona yaxın insan müxtəlif ölkələrə turizm məqsədilə səyahət edir. Odur ki, son illərdə dünyada ÜMM istehsalı və məhsul ixracatında beynəlxalq turizmin gəlirlərinin artırılması istiqamətində mühüm addımlar atılır.

Turizm sənayesi digər iqtisadi sahələrdən bir şox fərqli xüsusiyyətləri ilə seçilir. Bu xüsusiyyətlər onun spesifik üstünlüklərini şərtləndirir: turizmin inkişfı və genişləndirilməsi məqsədilə ona yönəldilən vəsait qısa müddətdə öz bəhrəsini verir. Turizm tarixi abidələrin qorunmasını, şəhər və kəndlərin abadlaşdırılmasını, yolların bərpası və yenidən salınmasını, infrastruktur obyektlərinin bərba edilməsi, yeniləşdirilməsi və inkişafını mütəmadi olaraq həyata keçirməyi tələb edir. Turizmin inkişafı yeni iş yerlərinin yaradılmasına, o cümlədən məşğulluğun yüksəldilmməsinə, onunla əlaqəli iqtisadiyyatın müxtəlif sahələrinin inkişafına təkan verir və bu prosesi sürətləndirir [2,s.126-128].

Turizm sferasının cəlbediciliyi onun formalaşmasına və inkişafına yönəldilən vəsaitlərin qısa bir müddətdə özünü ödəməsi və gəlir əldə edilməsi ilə şərtləndirilir. Əsas xüsusiyyətlərinə görə turizm sferası iqtisadi fəaliyyətin digər formalarından fərqlənən bir sıra fundamental spesifik xüsusiyyətlərə malikdir. Nəzərə almaq lazımdır ki, bu spesifiklik turizm xidmətlərinin xüsusiyyətləri ilə birbaşa bağlı olmaqla onun qeyri-müəyyənliyi, keyfiyyətin qeyri-sabitliyi, saxlanılmasının mümkünsüzlüyü və resurs mənbələri ilə davamlılığında ifadə olunur. Turizm, insan ehtiyaclarını ödəmək üçün bir sıra turizm xidmətləri göstərən və turizm mallarının satışını təmin edən turizm müəssisələrinin fəaliyyətini əhatə edən iqtisadiyyatın müəyyən bir sahəsidir. Turizm sənayesi, öz növbəsində, turizm məhsulu istehsalının təşkili üçün hərtərəfli bir sistemdir. Turizm sənayesi sistemi, turizm şirkətləri, iaşə və yerləşmə, reklam, nəqliyyat, istirahət və əyləncə sahələri, təhsil müəssisələri, idarəetmə müəssisələri kimi iqtisadi kompleksin qarşılıqlı əlaqəli komponentləri də daxil olmaqla ixtisaslaşmış müəssisə, təşkilat və qurumların kifayət qədər çox növ və formasından ibarətdir [9, pp. 38-44].

**Turizmin sənayesinin iqtisadi xüsusiyyətləri**

Turizm xidmətlərinin, o cümlədən yeni turməhsulun işlənilib hazırlanması, həmçinin onun çeşidinin çoxaldılması nəticəsində təkcə sektorun özündə deyil, həmçinin onunla əlaqəli digər sahələrdə (ticarət, istehlak xidmətləri, ərzaq, nəqliyyat, rabitə, kənd

təsərrüfatı, istehlak mallarının istehsalı və s.) məşğulluğun təminatında həlledici təsirə malikdir. Odur ki, müasir inkişaf şəraitində turizm sferası məşğulluğun təminatında əlaqələndirici rol oynayır.

Turizm sənayesinin və onunla əlaqəli fəaliyyətin mühüm iqtisadi xüsusiyyəti bir sıra ölkələrdə (inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr) əsasən üç prioritet məqsədi əhatə edən mümkün nailiyyətin əldə edilməsinə istiqamətlənməklə onu təbliğ etməsidir:

- səmərəli inkişafın təminatı olan gəlirin əldə edilməsi;
- ölkədə əhalinin məşğulluğu və həyat səviyyəsi ilə əlaqəli problemlərin həll edilməsi;
- ölkənin valyuta fondunun formalaşmasına birbaşa təsir göstərilməsi [3, pp.20-24].

Odur ki, turizm sektoru istənilən turizm fəaliyyətli ölkələrdə iqtisadi inkişafın hərəkətverici qüvvəsi rolunu oynamaqla ölkələrin iqtisadi qüdrətlənməsinə, bu sferanın resurslarından səmərəli istifadə etməklə gələcək nəslə ötürülməsinə olan əhəmiyyəti danılmazdır. Turizm məhsulunun istehlakının mürəkkəbliyini nəzərə alaraq, onun iqtisadi təsiri, hər işdə sürətlənən inkişafın məqsədlərinə nail olmaq üçün digər sektorlarda geniş hiss olunur.

Müstəqilliyinin bərpasından sonra yeni sosial-iqtisadi inkişafa doğru irəliləyən Azərbaycan açıq bazar iqtisadiyyatı sisteminin beynəlxalq arenaya olan tələbləri əsasında inkişaf edərək beynəlxalq inteqrasiya prosesləri çərçivəsində dünya ölkələri ilə iqtisadi münasibətlərini inkişaf etdirir. Ölkəmizdə bu münasibətlərin bir hissəsi olan Beynəlxalq Turizm münasibətlərinin inkişafı istiqamətində təqdirəlayiq işlər görülmüşdür [6, s. 80-82].

Azərbaycanda turizmin strateji planının həyata keçirilməsi üzrə görülmüş işlər haqqında məlumatda regionlarda yeni turizm infrastrukturunun yaradılması, regionlara inteqrasiya çərçivəsində yerli və xarici investorların cəlb edilməsi, yeni turizm müəssisələrinin yaradılması yolu ilə əhalinin məşğulluğunun təmin edilməsi istiqamətində nəzərdə tutulmuş məqsədlərin yerinə yetirilməsi üzrə işlərin görüldüyü əks etdirilir.

Bu məqsədlə Azərbaycan Dövlət Turizm Agentliyi müxtəlif turizm növlərinin yaradılması üçün ərazilərin və sxematik xəritələrin öyrənilməsi üzərində işləyir. Bu məqsədlə regionları əhatə edən 30 perspektivli rayon və şəhərlərdə turizm sferasının inkişafı üçün yüksək təcrübəyə malik olan əməkdaşlar və mütəxəssislər cəlb edilmişdir [13].

Regionların sosial-iqtisadi inkişafının sürətləndirilməsində əsas məqamlardan biri turizm sektorunda fəaliyyət göstərən sahibkarların təklif etdikləri turizm infrastrukturu layihələrinin maliyyələşdirilməsinə üstünlük verilməsidir. Fikrimizcə, müvafiq qurumlar tərəfindən bu cür layihələrin maliyyələşdirilməsinin dəstəklənməsi regionlarda turizm axınına təsir göstərə biləcək, turizm xidmətlərinin yaradılmasına və inkişafına, bölgələrdə məşğulluğun və əhalinin həyat səviyyəsinin yüksəlməsinə maksimum töhfə verə biləcəkdir.

Belə ki, ölkəmizdə turizmin inkişafı üçün böyük perspektivlər vardır. Bu perspektivlərdə işğaldan azad edilmiş ərazilərin resurs potensialı da nəzərə alındıqda ölkənin turizm sferasının daha da yüksək potensiala malik olduğunu aydın təsəvvür etmək olar. "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" konsepsiya çərçivəsində 2030-ci ilə qədər ölkəmizdə işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonunun turizm potensialları da daxil olmaqla turizm infrastrukturunun yenidən modernləşdirilməsini nəzərdə tutur. İnfrastrukturun modernləşməsi turizm xidmətləri spektrinin genişləndirilərək təkmilləşdirilməsi, beynəlxalq standartlara cavab verən xidmətlərin artırılması, sektorun rəqabət qabiliyyətinin yüksəldilməsi və digər məsələlərin qısa zaman kəsiyində icra edilməsini özündə cəmləşdirir [1].

Qeyd edək ki, işğaldan azad edilmiş ərazilərə “Böyük Qayıdış” Proqramı çərçivəsində ərazilərin tədricən minalardan təmizlənməsi, müxtəlif infrastruktur sisteminin

yenidən qurulması, ağıllı şəhər və kənd layihələrinin həyata keçirilməsi, əhalinin Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonunda ata-baba yurdlarına pillələrlə qayıdışının icra edilməsinə artıq başlanılmışdır.

Müstəqillikdən sonrakı dövrdə əldə edilmiş uğurlu sosial-iqtisadi və siyasi nailiyyətlər, milli və multikultural dəyərlər gələcəkdə Şərqlə Qərbin qovşağında yerləşən Azərbaycanın iqtisadi inkişafının daha da artacağına, həmçinin onun qüdrətinin yüksələcəyinə və son nəticədə əhlinin sosial vəziyyətinin yaxşılaşdırılmasına əlverişli şərait yaradacaqdır. Bu imkanlar 2030-cu ilə qədər nəzərdə tutulmuş mərhələdə Azərbaycanın iqtisadi suverenliyinin möhkəmləndirilməsinə və müasir həyat standartlarına əsaslanan yüksək sosial rifah cəmiyyətinə malik qüdrətli dövlətə çevrilməsinə zəmanət verir. Azərbaycan dövləti ölkədə əhalinin rifahının daha da artırılması üçün sosial yönümlü bazar iqtisadiyyatının inkişaf etdirilməsi yolunu seçmişdir. Bu məqsədlə də hər il ölkədə davamlı inkişfın təmin edilməsi çərçivəsində dövlət tərəfindən sillsilə tədbirlər həyata keçirilir. Bu prioritet tədbirlər sırasında yeni işğaldan azad edilən, tədricən minalardan təmizlənmə işləri başa çatan ərazilərdə lazımi işlərin yerinə yetirilməsi durur. Məsələn, Fizuli və Zəngilan şəhərlərində Beynəlxalq hava limanlarının artıq tikilib istifadəyə verilməsi, Laçında bu tip hava limanının tikilişinə başlanması, Zəngilanda "ağıllı" şəhər layihəsi əsasında "Dost" kampusunun açılışının edilməsi və s.

**Turizmin inkişafında investisiyalar vacib amil kimi**

Turizm sənayesində investisiya layihələrinin hazırlanmasında və həyata keçirilməsində ən vacib amil infrastrukturun-yolların, qaz və su təchizatı, çirkab suların təmizlənməsi və enerji təchizatı sistemlərinin inkişafıdır. Bütün bunlar olmadan turizm sənayesinin yeni inşası və inkişafı ümumiyyətlə mümkün deyildir.

Təcrübə göstərir ki, investisiyalar turizm sənayesinin inkişafı üçün vacib şərtlərdən biridir. Turizm sənayesinin inkişafını əks etdirən aşağıdakı amillər investisiyanın həcmi və quruluşundan asılıdır:

- turizm sənayesinin uzunmüddətli inkişaf dinamikası;
- turizm sənayesinin əsas maliyyə-iqtisadi göstəriciləri;
- gələcəkdə turizm obyektləri və təşkilatlarının kəmiyyət və keyfiyyət xüsusiyyətləri (yaşayış yerlərinin tutumu, istehsal gücü və turizm obyektlərinin tutumu daxil olmaqla);
- turizm sənayesinin inkişaf quruluşundakı nisbətlərə uyğunluq (turizm axınlarının həcminə və turizm tələbinin quruluşuna uyğun olaraq otellərin, nəqliyyat vasitələrinin, iaşə şəbəkələrinin, rabitə, əyləncə və infrastrukturun bir-biri ilə əlaqəli inkişafı);
- ərazi və regional aspektlərdə turistik tələb və təklifinin inkişafı, həmçinin rəqabət mühitinin yaradılması [10, pp.105-113].

İnvestisiya fəaliyyətini gücləndirmək üçün onun təhlilində və müxtəlif vəziyyətlərdə proqnozlaşdırılmasında inteqrasiya olunmuş yanaşmaların şərtləri nəzərə alınmalıdır:

➢ turizmin maddi-texnoloji bazasının formalaşdırılması üçün tədbirlər hazırlayarkən;
➢ turizm obyektlərinin yerləşdirilməsi və inkişafı sxemlərində;
➢ turizm investisiya layihələrinin məlumat bankının formalaşdırılmasında;
➢ turizm məhsulunun standartlaşdırılması, sertifikatlaşdırılması üçün tədbirlər keçirdikdə;
➢ vergi proqnozu zamanı;
➢ məşğulluq və gəlirlərin planlaşdırılmasında, infrastrukturun inkişafında və s.

Turizm sənayesinə özəl, o cümlədən xarici investisiyaların cəlb edilməsi üçün aşağıda qeyd etdiyimiz zəruri bəndlərə riayət edilməsi və həyata keçirilməsi çox vacib şərtlərdəndir [10, s.105-113]:

- reklam və informasiya fəaliyyəti sahəsində yerli hakimiyyət orqanlarının fəaliyyəti kifayət qədər yüksək səviyyədə olmalıdır (turizm destinasiyalarının turizm və istirahət potensialının işıqlandırılması, onların brend turməhsul və ya markalarının yaradılması, reklamı və s.);
- turizm təşkilatları arasında sağlam rəqabət mühitinin qorunmasına yönəlmiş yerli hakimiyyət orqanlarının təsirli inhisar və cinayət əleyhinə siyasəti və s.

Qeyd etmək lazımdır ki, Azərbaycanda da turizm sferasının inkişaf etdirilməsi istiqamətində müəyyən addımlar atılmış və yenə də davam etdirilir. Məsələn, Azərbaycanda 2006-cı ildə tikintisi planlaşdırılmış Şahdağ Qış-Yay Turizm Kompleksi dünyada tikilib istifadəyə verilmiş bu tipli komplekslərdən nadirliyinə və universallığına görə fərqlənir. Kompleksin tikintisini həyata keçirmək məqsədilə həmin ildə keçirilən tenderdə dünyanın aparıcı şirkətləri iştirak edərək qalib gəlmişlər. Qeyd edək ki, Şahdağ Qış-Yay Turizm Kompleksi Qusar şəhərindən 32 kilometr aralıda olan Şahdağ Milli Parkının ərazisi daxilində yerləşir. Dövlət başçısının tapşırığı əsasında bu kompleksin istifadəsi üçün çəkilən avtomobil yolu genişləndirilmiş, körpülər salınmış, torpaq sürüşmələrinin qarşısının alınması üçün mühafizə tədbirləri həyata keçirilmiş və digər müvafiq işlər görülmüş və görülməkdə davam etdirilir. Kompleksin yerləşdiyi ərazi ekoloji təmizliyinə, flora və faunasının zənginliyinə görə çox seçilən məkandır. Şahdağ Qış-Yay Turizm Kompleksi ərazisinə görə (2058 ha) və digər vacib aspektlərinə görə Azərbaycanda və ümumiyyətlə dünyada analoqu çox nadir ola biləcək mükəmməl layihələrdən biridir. Həmçinin, turizm kompleksi oxşar istirahət mərkəzlərindən bənzərsizliyi ilə fərqlənməklə bütün il boyu fəaliyyət göstərir. Qeyd edilən kompleksin fəaliyyətə başlaması Azərbaycanda bir çox idman növlərinin (dağ-xizək və digər qış idman növləri) inkişafı üçün olduqca əlverişli və geniş imkanlar açır. Kompleksdə istirahətə gələn beynəlxalq və yerli turistlər yay mövsümündə də olduqca mənalı istirahət etməklə öz yaşayış yerlərinə yüksək əhval-ruhiyyə və təəssüratlarla qayıdırlar. Azərbaycanda iqtisadi sahələrin (turizm, aqrar və s.) inkişaf etdirilməsi məqsədilə dövlət tərəfindən mütəmadi olaraq lazımi tədbirlər həyata keçirilir. Bundan əlavə ölkə iqtisadiyyatına kifayət həcmdə beynəlxalq və yerli investorlar tərəfindən investisiyalar yatırılır ki, bu da iqtisadi sferaların inkişafında olduqca əhəmiyyətlidir. Ölkəmizdə yay-qış turizm bazasının istifadəyə verilməsi, mövsümlük anlayışını aradan qaldırmış, turizmin davamlı inkişfına nail olmaq üçün əlverişli şərait yaratmışdır. Azərbaycan, isti iqlim qurşağında yerləşməsinə baxmayaraq, o, ən yüksək dünya standartlarına cavab verən nəhəng qış turizm infrastrukturu və kompleksləri yaradılan nadir ölkələrdən biri sayılır. Belə ki, ölkədə məqsədli və planlaşdırılmış layihələrin həyata keçirilməsi qış turizminin daha geniş inkişafına həlledici təkan verir. İl boyu idman və istirahətin təşkil edilməsi məqsədilə çox əlverişli iqlimə malik olan Şahdağın soyuq qışı (-20°C) və isti yay axşamları (+20°C) ən böyük xizək kurortuna malik olan, dünyanın ən böyük milli parklarından birinin məkanında yerləşən region kompleksinin formalaşması və genişlənməsində həlledici rol oynayır [14].

Azərbaycanda turizmin inkişaf etdirilməsi məqsədilə iqtisadiyyata yönəldilmiş investisiya həcminin təhlili göstərir ki, 2000-ci ildə ölkə üzrə cəmi 1441, 4 milyon ABŞ dolları həcmində investisiya qoyulmuş, onun tərkibində xarici investisiyaların xüsusi çəkisi 64,3%, daxili investisiyaların xüsusi çəkisi 35,7% və ya 514,4 milyon ABŞ dolları həcmində olmuşdur. 2010-cu ildə bu göstərici 1561,8 milyon ABŞ dolları, 2015-ci ildə 19547,2 milyon ABŞ dolları, 2020-ci ildə 13225,9 milyon ABŞ dolları, 2021-ci ildə 14890,4 milyon ABŞ dolları və 2022-ci ildə 17138,3 milyon ABŞ dolları həcmində təşkil etmişdir. Müqyisə dövründə ən çox investisiya həcmi 2015-ci və 2022-ci illərdə olmuş, ən az investisiya həcmi isə 2000-ci və 2010-cu illərdə olmaqla müvafiq olaraq 1441,4 milyon ABŞ dolları və 1561,8 milyon ABŞ dolları həcmində təşkil etmişdir. 2000-ci ilə nisbətən

doi.org/10.61764/lasr.1.2024.140-153

investisiya həcmində 2022-ci ildə 11,89 dəfə artım olmuşdur. Fikrimizcə, bu artımın kifayət həcmdə olması müqayisə dövrünün ilk illərində Azərbaycanın yeni müstəqillik əldə etməsi, iqtisadiyyatın yetərincə dağınıq olması və yeni müharibədən çıxmış bir dövlətin bu istiqamətdə həm maddi imkanının olmaması, həm də həmin dövrdə iqtisadi inkişafın həddən artıq zəif olması səbəbi ilə izahlandırıla bilər.

Qeyd edək ki, 2022-ci ildə iqtisadiyyata yönəldilmiş investisiyanın (17138,3 milyon ABŞ dolları) tərkibində xarici investisiyanın xüsusi çəkisi 51,06%, daxili investisiyanın xüsusi çəkisi isə 48,94% olmaqla müvafiq olaraq 8752,5 milyon ABŞ dolları və 8385,8 milyon ABŞ dolları həcmində təşkil etmişdir. Onu da qeyd etmək lazımdır ki, 2000-2022-ci illərdə ölkə iqtisadiyyatına yönəldilmiş investisiyanın ümumi həcmində 11,89 dəfə artımın olmasına baxmayaraq xarici investisiyanın həcmi 2000-ci ildə 1,8 dəfə çox olduğu halda 2022-ci ildə bu göstərici 1,04 dəfəyə qədər azalmışdır [12]. Bu onu göstərir ki, artıq Azərbaycan daxili investisiya hesabına iqtisadi inkişafı təmin edə biləcək bir ölkə kimi öz problemlərini gələcəkdə də həlli edə biləcəkdir.

**Beynəlxalq münasibətlərin turist aktivliyi, məşğulluq və əhalinin həyat səviyyəsinə təsiri**

Turizm sferasının inkişafına təsir göstərən amillərdən biri də beynəlxalq turist axını hesab edilir. Bu istiqamətdə aparılmış tədqiqatlar göstərir ki, sosial və iqtisadi, siyasi, maddi və s. kimi beynəlxalq turizmin inkişafına təsir edən əsas amillərin müəyyənləşdirilməsinin nəticələri beynəlxalq turizmin inkişafına kömək edən bir sıra funksiyalara onun sahib olduğunu göstərməyə nail ola bilmişdir. Turizmin inkişafına təsir edən amillər müxtəlifliyi və çoxşaxəliyi ilə fərqlənir. Turizmin inkişafına təsir edən əlverişli amillərin olması ayrı-ayrı bölgələrin və ölkələrin dünya turizmində liderliyinə səbəb olur. Bu da həmin ölkədə istər turizmin inkişfına, istərsə də bütövlükdə iqtisadiyyatın inkişafına kifayət səviyyədə təsir etməyə imkan verir. Bəzən də bu amillər turizmin inkişafına mənfi təsir göstərir, onlar arzuolunmaz amil qrupuna aid edilməklə turizm axınını zəiflətməkdə həlledici rol oynayırlar [5, pp. 238-240].

Turizmin inkişafına təsir edən əsas amilləri iki qrupa bölmək olar: statistik və dinamik.

Statistik amillər zamanla dəyişməyəcək bir dəyərə malikdir. Bu qrupa iqlim, coğrafi, mədəni və tarixi amillər daxildir.

Dinamik amillərə aşağıdakılar daxildir:

- demoqrafik;
- sosial;
- iqtisadi;
- mədəni;
- elmi və texnoloji tərəqqi;
- beynəlxalq amillər.

Qeyd edilən amillərin beynəlxalq turist axınına təsirini təhlil etmək məqsədilə Az.RDSK-nin məlumatlarına istinad edək (cədvəl 1).

Cədvəl məlumatlarından göründüyü kimi, Azərbaycanın qəbul etdiyi turistlərin sayına görə Rusiya, Gürcüstan, Türkiyə, İran və BƏƏ ilk beşlikdə yerləşmişlər. 2017-ci ildə ölkə üzrə qəbul edilmiş xarici turistlərin sayına görə ölkələrin reytinq sırası müəyyən edilmişdir. Reytinq sırasında ilk sırada yer alan Rusiyadan-854,331 min nəfər, sonuncu beşlikdə yer alan BƏƏ-dən-102,498 min nəfər turist qeydə alınmışdır. Həmçinin, 2022-ci ildə qəbul edilmiş turist sayında Rusiya, Türkiyə, İran, Gürcüstan və Hindistan ilk beşlikdə yerləşmiş, BƏƏ-dən gələnlərin sayı 41,085 min nəfər olmaqla o altıncı sırada yerləşmişdir. Qeyd edək ki, 2017-ci illə müqayisədə 2022-ci ildə gələn turist sayında yalnız Tükiyədən

**Cədvəl 1**

**2017-2022-ci illərdə Azərbaycanın qəbul etdiyi beynəlxalq turist sayına görə ilk sıralarda yer almış ölkələr**

| Ölkələr | 2017-ci ildə qəbul edilmiş beynəlxalq turistlərin sayı, min nəfər | 2018-ci ildə qəbul edilmiş beynəlxalq turistlərin sayı, min nəfər | 2019-cu ildə qəbul edilmiş beynəlxalq turistlərin sayı, min nəfər | 2020-ci ildə qəbul edilmiş beynəlxalq turistlərin sayı, min nəfər | 2021-ci ildə qəbul edilmiş beynəlxalq turistlərin sayı, min nəfər | 2022-ci ildə qəbul edilmiş beynəlxalq turistlərin sayı, min nəfər |
|---|---|---|---|---|---|---|
| Cəmi | 2696,745 | 2849,592 | 3170,373 | 795,722 | 791,751 | 1602,279 |
| Rusiya | 854,331 | 880,029 | 932,984 | 225,201 | 258,315 | 446,712 |
| Gürcüstan | 538,213 | 610,556 | 725,465 | 184,229 | 62,666 | 82,206 |
| İran | 363,528 | 241,124 | 255,628 | 72,783 | 125,358 | 170,450 |
| Türkiyə | 301,934 | 291,499 | 316,628 | 160,504 | 197,907 | 311,804 |
| BƏƏ | 102,498 | 94,031 | 68,346 | 7,951 | 17,320 | 41,085 |
| Belarus | 13,119 | 13,024 | 14,844 | 6,036 | 5,730 | 18,652 |
| İtalyia | 10,133 | 11,035 | 12,259 | 2,820 | 3,498 | 6,215 |
| ABŞ | 15,178 | 17,516 | 18,787 | 2,604 | 4,409 | 12,305 |
| Hindistan | 14,244 | 39,051 | 65,118 | 12,769 | 5,705 | 60,731 |
| Almaniya | 16,319 | 17,200 | 20,509 | 3,531 | 5,922 | 14,427 |
| Kanada | 3,190 | 4,108 | 4,643 | 0,624 | 0,824 | 2,751 |
| Polşa | 4,683 | 5,049 | 6,617 | 0,664 | 0,723 | 4,125 |
| Koreya Respublikası | 4,642 | 7,854 | 9,415 | 0,681 | 0,413 | 2,345 |
| Suriya | 1,625 | 4,811 | 4,389 | 0,534 | 0,944 | 3,702 |
| Niderland | 4,703 | 5,892 | 6,104 | 1,143 | 1,741 | 2,751 |

*Mənbə:* [12, s.22-24] əsasında müəllif tərtib etmişdir

gələnlərdə 9,87 min nəfər və Hindistandan gələn turitlərin sayında 46,487 min nəfər artım olmuşdur. Müqayisə dövründə digər beş dövlətdə Gürcüstanda 456,007 min nəfər,

Rusiyada 407,619 min nəfər, İranda 193,078 min nəfər, BƏƏ-də 61,413 min nəfər bu göstəricidə azalma olmuşdur. Müqayisə edilən ölkələrdən qəbul edilmiş turist axınının ümumi ölkəmizə gələn turist sayında xüsusi çəkisinin müqayisəsi göstərir ki, 2017-2022-ci illərdə stabil olaraq Rusiya vətəndaşlarının payı 27,8-32,6% hüdudunda dəyişikliklə nəticələnmişdir. Digər ölkələrdə bu göstəricinin müqayisə dövründə payı Gürcüstanda 5,0-23,0% arasında, Türkiyədə 10,0-25,0% hüdudunda, İranda 8,0-16,0% hüdudunda və BƏƏ-də 0,9-4,0% hüdudunda olmuşdur. Qeyd edək ki, müqayisə dövründə 2017-ci illə nisbətən 2020-ci ildə ən çox turist axını olan Rusiya ilə ən az turist axını olan BƏƏ-i arasında qəbul edilmiş turist sayında 217,25 min nəfər fərq olmuşdur. Bu ölkələrin xüsusi çəkisində də 27,4% fərqin olduğunu (Rusiyda 28,3% və BƏƏ-də 0,9%) görə bilirik. Virus infeksiyasının dünyada yayılmasından əvvəlki 2019-cu ildə Azərbaycana beynəlxalq turist axını artmış və rekord miqdarda turist sayı 3170,373 min nəfər qəbul edilmişdir. Belə ki, 2019-cu ildə Rusiyadan gələn turistlərin sayının ölkə üzrə qəbul edilmiş ümumi turistlərin sayında xüsusi çəkisi 29,4%, Gürcüstan üzrə 23,0%, Türkiyə üzrə 10,0%, İran üzrə 8,0% və BƏƏ üzrə 2,15% olmuşdur [12, s.22-24].

Təhlil göstərir ki, 2020-ci ildən sonra ölkəmizdə turist qəbulunda kifayət sayda turist axını azalmışdır. Bu azalmanı ölkələr arasında quru sərhədlərinin bağlı olması nəticəsində turistlərin yalnız bir nəqliyyat növü olan hava yollarından istifdə etməsi ilə əsaslandırmaq olar.

Turizm sferasının inkişaf göstəriciləri sırasında beynəlxalq turistlərin kütləvi yerləşdirmə vasitələrində gecələmələrinin sayı da xüsusi əhəmiyyətli göstəricilərdən hesab edilir (cədvəl 2).

doi.org/10.61764/lasr.1.2024.140-153

**Cədvəl 2**

**Ölkələr üzrə turistlərin kütləvi yerləşdirmə vasitələrində gecələmələrinin sayı**

| Ölkələr | 2017-ci ildə əcnəbilər üzrə gecələ-mələrin sayı, min nəfər | 2018-ci ildə əcnəbilər üzrə gecələ-mələrin sayı, min nəfər | 2019-cu ildə əcnəbilər üzrə gecələ-mələrin sayı, min nəfər | 2020-ci ildə əcnəbilər üzrə gecələ-mələrin sayı, min nəfər | 2021-ci ildə əcnəbilər üzrə gecələ-mələrin sayı, min nəfər | 2022-ci ildə əcnəbilər üzrə gecələ-mələrin sayı, min nəfər | 2017 -ci illə müqa-yisədə 2022-ci ildə gecələmə lərin sayının artma və ya azalması,(+) və (-), % |
|---|---|---|---|---|---|---|---|
| Cəmi | 1704,454 | 2050,010 | 2240,873 | 416,729 | 414,404 | 1394,115 | -22,2 |
| Rusiya | 261,123 | 631,767 | 243,904 | 59,858 | 45,520 | 175,128 | -32,9 |
| Səudiyyə Ərəbistan | - | 180,378 | 309,278 | 38,424 | 14,530 | 230,557 | - |
| BƏƏ | - | 281,992 | 263,129 | 38,292 | 40,777 | 146,532 | - |
| Türkiyə | 118,157 | 87,744 | 111,612 | 36,284 | 64,238 | 119,223 | +0,9 |
| Böyük Britaniya | 122,040 | 54,161 | 68,588 | 27,235 | 33,533 | 41,501 | -65,9 |
| - | - | - | - | - | - | - | - |
| Niderland | 11,795 | 5,864 | 6,619 | 2,893 | 5,715 | 7,697 | -34,7 |
| Norveç | 10,727 | 5,750 | 9,582 | 2,527 | 3,292 | 4,173 | -61,0 |
| Özbəkistan | 12,985 | 13,836 | 15,129 | 2,302 | 1,837 | 18,471 | +42,2 |
| İspaniya | 17,069 | 6,315 | 6,902 | 1,284 | 2,169 | 4,495 | -73,6 |
| Fransa | 16,222 | 12,113 | 14,456 | 2,666 | 4,021 | 7,452 | -54,0 |
| - | - | - | - | - | - | - | - |
| Çexiya Respublikası | 3,674 | 2,637 | 3,572 | 1,126 | 1,159 | 1,438 | -60,8 |
| Yaponiya | 4,361 | 5,829 | 6,422 | 0,826 | 1,769 | 2,080 | -52,2 |
| Ruminya | 2,623 | 3,083 | 4,175 | 1,271 | 0,987 | 1,645 | -37,2 |
| İsveç | 3,410 | 2,962 | 3,642 | 0,586 | 1,043 | 1,515 | -55,5 |
| Tacikistan | 1,935 | 1,615 | 1,151 | 0,127 | 0,114 | 1,030 | -46,7 |

*Mənbə:* [12,s.24-25] əsasında müəllif tərtib etmişdir

Aparılmış təhlil göstərir ki, müxtəlif ölkələr üzrə qəbul edilmiş turistlərin kütləvi yerləşdirmə vasitələrindəki gecələmələrin sayı müqayisə dövründə bəzi ölkələrdə azalmış, bəzilərində isə artımla nəticələnmişdir. Belə ki, Azərbaycan Respublikası üzrə qeyd edilmiş ölkələrdən qəbul eilmiş turistlərin otel, mehmanxana və s. yerləşərək gecəmələrinin sayına görə 2017-ci illə müqayisədə 2018-2019-cu illərdə 1,2-1,32 dəfə artım olmuşdur. Müqayisə dövründə 2017-ci ildə qəbul edilmiş turist gecələmələri üzrə 2020-2022-ci illlərdə müvafiq olaraq 1287,725 min nəfər, 1290,05 min nəfər və 310,339 min nəfər azalma müşahidə eilmişdir. Qeyd edilən ölkələr içərisində müqayisə illərində gecələmələrin sayında yalnız Türkiyədə (1,066 min nəfər) və Özbəkistanda (5,486 min nəfər) artım olmuş, digər 13 ölkədə bu göstərici azalmışdır ki, bu azalma da ən az Rusiyada (-32,9%), ən çox azalma isə İspaniyada (-73,6%), Böyük Britaniyada (-65,9%) və Norveçdə (-61,0%) təşkil etmişdır Onu da qeyd edək ki, Azərbaycan Respulikasında qəbul edilmiş turist gecələmələrinin qeyd edilmiş ölkələr üzrə cəmində də bu göstəricidə 310,339 min nəfər və ya 22,2% azalma olmuşdur. Fikrimizcə, bu göstəricidə azalmanın baş verməsi məlum 2020-2022-ci illərdə hələ də dalğası geniş yayılan virusla xəstələnmələrin olması ilə əsaslandırıla bilər. Bu da ölkələr arasında quru əlaqələrinin açılmaması, turistlərin kifayət sayda ölkələrə səyahət etməsində çoxlu problemlərlə (nəqliyyat çətinliyi, xərclərin çoxalması və s.) üzləşməsi ilə izahlandırıla bilər.

Təhlil göstərir ki, mehmanxanalarda yerləşdirilmiş beynəlxalq turistlərin sayında da müqayisə dövründə azalma olmuşdur (cədvəl 3).

Belə ki, cəmi Azərbaycan Respublikası üzrə mehmanxanalarda yerləşdirilmiş əcnəbilərin sayında 2017-ci ilə nisbətən 2018-2019-cu illərdə müvafiq olaraq 253,16 min nəfər və 335,507 min nəfər artım olmuşdur.Lakin 2020-2022-ci illərdə mövcud pandemiya ilə əlaqəli turist axınında azalma müşahidə edilmişdir. Belə ki, 2020-ci ildə bu göstəricidə 72,7%, 2021-ci ildə 72,3% və 2022-ci ildə isə 7,5% azalma olduğunu görə bilirik. Təhlildən belə bir nəticəyə gəlmək olar ki, dünya ölkələri arasında beynəlxalq münasibətlərin inkişafına təsir edən turizm sənayesində də bu göstəricinin ümumi ölkələr üzrə zəifləməsindən yaranmış təsir Azərbaycandan da yan ötməmişdir. Bu həm qeyd edilən ölkələr arası əlaqələrin həmin dövrdə zəifləməsinə, ölkələrin iqtisadi inkişafına, o cümlədən turizmin inkişafına də mənfi təsir göstərmişdir.

Qeyd edək ki, turizm sferasının davamlı inkişafına təsir göstərən mühüm amillərdən biri də qəbul edilmiş turistlərə göstərilən xidmətlərin cəmi məbləği hesab edilir (cədvəl 4).

**Cədvəl 3**

**2017-2022-ci illərdə mehmanxanalarda yerləşdirilmiş ölkələr üzrə turistlərin sayı**

| Ölkələr | 2017-ci ildə meh-manxana-larda yer-ləşdirilmiş əcnəbilərin sayı, min nəfər | 2018-ci ildə meh-manxana-larda yer-ləşdirilmiş əcnəbilərin sayı, min nəfər | 2019-cu ildə meh-manxana-larda yer-ləşdirilmiş əcnəbilərin sayı, min nəfər | 2020-ci ildə meh-manxana-larda yer-ləşdirilmiş əcnəbilərin sayı, min nəfər nəfər | 2021-ci ildə meh-manxana-larda yer-ləşdirilmiş əcnəbilərin sayı, min nəfər nəfər | 2022-ci ildə meh-manxana-larda yer-ləşdirilmiş əcnəbilərin sayı, min nəfər | 2017 -ci illə müqayisədə 2022-ci ildə mehmanxa-nalarda yer-ləşdirilmiş əcnəbilərin sayının art-ma və ya azalması,(+) və (-), % |
|---|---|---|---|---|---|---|---|
| Cəmi | 981,232 | 1234,392 | 1316,739 | 267,383 | 271,563 | 907,953 | -7,5 |
| Rusiya | 141,041 | 121,665 | 136,897 | 34,484 | 28,983 | 110,534 | -21,6 |
| Səudiyyə Ərəbistan | - | 109,405 | 173,225 | 22,065 | 8,426 | 140,155 | - |
| Türkiyə | 71,478 | 60,765 | 74,709 | 24,591 | 42,237 | 79,418 | +11,1 |
| BƏƏ | - | 13,128 | 142,876 | 19,351 | 20,374 | 89,498 | - |
| Böyük Britaniya | 79,496 | 41,409 | 49,865 | 22,577 | 23,799 | 33,195 | -58,2 |
| - | - | - | - | - | - | - | - |
| Qazaxistan | 14,569 | 13,905 | 14,638 | 2,574 | 2,929 | 13,689 | -6,0 |
| Gürcüstan | 14,576 | 9,837 | 14,377 | 2,753 | 3,063 | 12,971 | -11,0 |
| İtalya | 17,603 | 11,501 | 16,274 | 7,170 | 8,738 | 12,255 | -36,7 |
| İspaniya | 8,520 | 5,280 | 4,839 | 1,044 | 1,686 | 3,405 | -60,0 |
| Niderland | 8,381 | 4,404 | 4,595 | 2,705 | 4,641 | 6,737 | -19,6 |
| - | - | - | - | - | - | - | - |
| Yaponiya | 2,958 | 4,513 | 3,555 | 0,573 | 1,280 | 1,577 | -53,3 |
| Ruminya | 1,717 | 1,906 | 2,873 | 1,120 | 0,660 | 1,255 | -30,0 |
| Latviya | 1,680 | 1,394 | 1,732 | 0,425 | 0,516 | 0,812 | -58,7 |
| Polşa | 4,686 | 2,904 | 4,594 | 0,968 | 1,597 | 3,478 | -25,7 |
| Bolqaristan | 1,790 | 1,623 | 2,110 | 0,495 | 0,323 | 0,836 | -53,2 |

*Mənbə:* [12,s.24-25] əsasında müəllif tərtib etmişdir

Azərbaycan Respublikasında 2017-2022-ci illər üzrə qəbul edilmiş turistlərə göstərilən xidmətlərin cəmi məbləğinin təhlili göstərir ki, müqayisə illərində mehmanxalarda turistlərə göstərilmiş xidmətlərin cəmi məbləği 2017-ci illə müqayisədə 2022-ci ildə 17063,5 min manat (10025,5 ABŞ min dollar) və ya 10,9% azalmışdır. Müqayisə dövründəki bu azalmanın əsas səbəbi qəbul edilmiş və kütləvi yerləşdirmə vasitələrində gecələmiş turistlərin sayının az olması ilə əsaslandırıla bilər. Qeyd edək ki, müqayisə illərində ilk beşlikdə yer alan ölkələr üzrə qəbul edilmiş turist sayı (Türkiyə

doi.org/10.61764/lasr.1.2024.140-153

Cümhuriyyəti istisna olmaqla) və mehmanxalarda onlara göstərilən xidmətlərin məbləği də azalmışdır. Bu göstərici üzrə azalma ən çox İranda (-90,1%), Yaponiyada (-71,9%) və Böyük Britaniyada (-56,3%) təşkil etmişdir. Türkiyədən qəbul ediilmiş turistlərə mehmanxalarda göstərilən xidmətlərin məbləğində 12,6% artım olduğu müşahidə olunur. Qeyd edilən göstərici üzrə ən çox artım İsraildə (2,24 dəfə) və Hindistanda (1,72 dəfə) təşkil etmişdir [12,s.25-33]. Fikrimizcə, bir sıra ölkələrdən qəbul edilmiş turistlərin sayının azalması müqayisə dövründə son illərdə xidmətin dəyərinin 2017-ci ilə nisbətən artmasına təsir göstərmişdir ki, bu da əsas şərt kimi izahlandırıla bilər.

Beynəlxalq münasibətlərin genişlənməsi ölkələrə turist axınının sürətlənməsinə müsbət təsir göstərir. Belə ki, turizm və onunla əlaqəli digər sahələrdə yeni iş yerlərinin yaranması təmin edilir. Bu isə əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsində əsas faktor rolunu oynayır. Azərbaycanın regionlarında sosial-iqtisadi inkişaf bütün iqtisadi sahələrin, o cümlədən turizm sferasının da inkişafına həlledici təsir göstərir. Regionlarda turizm sferası müəssisələri və onunla əlaqəli sahələrdə yeni münasibətlərin formalaşması prosesi həmin regionda məskunlaşmış əhalinin həm məşğulluq səviyyəsinin yüksəlməsinə, həm də əhalinin həyat səviyyəsinin yaxşıladırılmasına birbaşa təsir göstərir. Beynəlxalq münasibətlərin genişlənməsinin turist axınını sürətləndirməsi ilk növbədə ölkələrdə iqtisadiyyatın inkişafına, o cümlədən turizm sferasının və regionların davamlı inkişafına,

**Cədvəl 4**

**Bir sıra ölkələrlər üzrə qəbul edilmiş turistlərə mehmanxanaların göstərdikləri xidmətlərin məbləği**

| Ölkələr | 2017-ci ildə əcnəbi-lərə meh-manxana-larda gös-tərilmiş xidmətlə-rin məb-ləği, min manat | 2018-ci il-də əcnəbi-lərə meh-manxanalar-da göstə-rilmiş xid-mətlərin məbləği, min manat | 2019-cu il-də əcnəbi-lərə meh-manxanalar-da göstə-rilmiş xid-mətlərin məbləği, min manat | 2020-ci il-də əcnəbi-lərə meh-manxanalar-da göstə-rilmiş xid-mətlərin məbləği, min manat | 2021-ci il-də əcnəbi-lərə meh-manxanalar-da göstə-rilmiş xid-mətlərin məbləği, min manat | 2022-ci il-də əcnəbi-lərə meh-manxanalar-da göstə-rilmiş xid-mətlərin məbləği, min manat | 2017 -ci illə müqayisədə 2022-ci ildə əcnəbilərə mehmanxa-nalarda göstərilmiş xidmətlərin məbləğinin artma və ya azalması,(+) və (-), % |
|---|---|---|---|---|---|---|---|
| Cəmi | 155830,1 | 200221,8 | 249351,9 | 35733,1 | 47342,1 | 138766,6 | -10,9 |
| Rusiya | 22462,6 | 24792,6 | 28889,1 | 5252,2 | 5416,2 | 19915,2 | -11,3 |
| Böyük Britaniya | 14530,3 | 7061,2 | 14306,0 | 2637,0 | 5518,4 | 6343,1 | -56,3 |
| Türkiyə | 10786,2 | 8117,1 | 12214,0 | 3282,8 | 7928,9 | 12146,3 | +12,6 |
| İran | 10492,9 | 6989,1 | 6481,3 | 568,8 | 346,4 | 1035,0 | -90,1 |
| BƏƏ | - | 26986,4 | 24776,9 | 3040,2 | 3941,3 | 14012,7 | - |
| - | - | - | - | - | - | - | - |
| Almaniya | 3967,4 | 2887,6 | 4376,4 | 854,6 | 1415,5 | 2418,4 | -39,0 |
| Hindistan | 2408,1 | 7742,6 | 14172,4 | 1670,6 | 689,3 | 6560,4 | +1,72 dəfə |
| ABŞ | 6370,0 | 7077,6 | 7313,7 | 1086,9 | 1535,4 | 5196,6 | -18,4 |
| İsrail | 2210,9 | 6521,0 | 14259,8 | 1548,1 | 1825,8 | 4962,6 | +2,24 dəfə |
| Səudiyyə Ərəbistan | - | 15698,3 | 26284,3 | 2522,4 | 1141,9 | 19189,2 | - |
| - | - | - | - | - | - | - | - |
| Yaponiya | 3207,5 | 2371,7 | 2898,1 | 505,1 | 687,5 | 902,4 | -71,9 |
| Ruminya | 2048,5 | 3604,0 | 3456,6 | 503,7 | 556,1 | 2398,2 | +17,0 |
| Latviya | 1595,1 | 867,0 | 961,8 | 150,3 | 367,4 | 1035,0 | -35,1 |
| Polşa | 2204,0 | 1526,5 | 2187,5 | 335,5 | 397,7 | 1859,3 | -15,0 |
| Bolqaristan | 1799,4 | 1567,5 | 2088,2 | 293,7 | 774,0 | 1029,8 | -42,7 |

*Mənbə:* [12,s.25-33] əsasında müəllif tərtib etmişdir

doi.org/10.61764/lasr.1.2024.140-153

bu da son nəticədə ölkə əhalinin sosial-iqtisadi həyat səviyyəsinin yüksəlməsinə birbaşa təsir görtərir. Bu isə turizmin multiplikasiya effektini və səmərəliliyini yüksəldir.

**Nəticə**

Beləliklə qeyd etmək olar ki, siyasi, iqtisadi sahələrdə beynəlxalq münasibətlər dünya turizm biznesinin vəziyyətinə birbaşa təsir göstərir. Odur ki, turistlərin üstünlükləri, müəyyən bir ölkəyə marağı və istirahət növünü seçmək imkanı ölkələr arasındakı münasibətlərin keyfiyyətindən asılıdır.

Qeyd edək ki, turizm sferasının dayanıqlı inkişafının təmin edilməsində beynəlxalq turist axınının təsiri danılmazdır. Belə ki, istənilən ölkəyə turist axını sürətləndikcə ilk növbədə iqtisadi inkişafa, o cümlədən turizm sferasının davamlı inkişafına, ölkə regionlarının dgər turizmlə əlaqəli iqtisadi sahələrinin inkişafına, son nəticədə ölkə əhalinin sosial-iqtisadi həyat səviyyəsinin yüksəlməsinə birbaşa təsir görtərməklə turizmin multiplikasiya effektini və səmərəliliyini artırır. Fikrimizcə, ölkədə turizm sektorunun inkişafına birbaşa təsir edən amillərin rolu danılmazdır ki, bunlara da bu sferaya yönəldilmiş ümumi investisiyanın həcmini, beynəlxalq turist axınını, mehmanxanalarda və digər yerləşdirmə vasitələrində onların gecələmə sayını, göstərilən xidmətlərin məbləğini, məşğulluq səviyyəsini  və s. aid etmək olar.

## Ədəbiyyat

1. Azərbaycan 30: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər.  Azərbaycan Respublikası Prezidentinin 2 fevral 2021-ci il tarixli Sərəncamı
2. Aliyeva N.R. “Travel companies of Azerbaijan on the way to innovative development” abstracts of the 2nd International Scientific and Practical Conference / Scientific Innovation Center of ANAS. Baku: Elm Publishing House. 2008. pp. 126-128.
3. Andrianova Y.V., Filatov V.V. Priority areas for the development of tourism in Russia //Y.Andrianova, V.Filatov. İnnovative economy: information, analysis, prognoses. 2022,-№2, -pp.20-24
4. Brevnova Y. A. The influence of international relation on the change of tourist orientation // Urfu Electronic scientific archive. 2017, - 162-165
5. Vorobyeva E.A.Factors ınfluencıng the development of tourısm ın modern condıtıons. Collection of materials of the 9th International Conference. Simferopol. 2022, -p.238-240
6. İsmayılov Ç.N.,Zeynalova K.Z. Klaster konsepsiyası və onun regional inkişafda əhəmiyyəti . “H.Əliyev və Azərbaycanda coğrafiyanın inkişafı”beynəlxalq konfransın materialları. Bakı, -2013, s. 80-82
7. Kropinova E. G.Tourısm as a prıorıty of regıonal development //Bulletin of the I. Kant Russian State University. 2009. Issue 3. pp. 92-99.
8. Plyas Y.A. The New World and the New International // Bulletin of the Financial University. -2016, -№1, -pp. 6-19
9. Çekuşev A.A. The specıfics of tourısm as a branch of the economy. Collection of materials of the XXXIII International Scientific and Practical Conference. -2017, -pp.38-44
10. Chernenko V.A., Fedorova C.B., Fedosov V.A. The role of ınvestment ın tourısm development // Theory and practice of the service:economy, social sphere, technology. Saint Petersburg, pp. 105-113
11. Pentagayeva A.V. The concept of "Soft power" in the foreign policy of countries // Central Russian Bulletin of Social Sciences. 2019, -№ 2, -pp.114-126
12. Statistical Committee of the Republic of Azerbaijan. Finance and banks. Baku. -2023, -708 p.
13. https://sia.az/az/news/tourism/789683.html  (15 oktyabr 2022-ci ildə müraciət edilmişdir)
14. https://www.yeniazerbaycan.com/Gundem_e9288_az.html (28.09.2022-ci ildə müraciət edilmişdir)

doi.org/10.61764/lasr.1.2024.140-153

15. https://www.stat.gov.az/( 28.09.2022-ci ildə müraciət edilmişdir)

**Rovshan Khuduyev**
**Ramiz Isgandarov**

## THE IMPACT OF THE EXPANSION OF INTERNATIONAL RELATIONS BETWEEN COUNTRIES ON TOURISM ACTIVITY, EMPLOYMENT AND LIVING STANDARDS OF THE POPULATION

***Summary***

***The purpose of the article*** *is to determine the impact of accelerating the reception of tourists on the development of the country's economy.*

*The article used comparative analysis,* ***the methodology*** *of conditional ranking of countries based on statistical data, etc.*

*The article examines the impact of the expansion of international relations on tourism activity, the impact of increased tourist reception on the country's foreign exchange earnings, employment and standard of living of the population. According to the calculations of the World Tourism Organization, despite the emergence of global crises (economic) objective difficulties in the world, the unstable political situation in world tourist centers, as a result of the expansion of international relations, the tourism industry has managed to maintain stability and improve its position in the economies of countries as a highly profitable and rapidly developing industry. The article, based on a comparison of the reception rates of international tourists in Azerbaijan by country (2017-2022), determines the proportion of the number of tourists accepted from high, medium and low-level countries in relation to the total number of tourists arriving in the country. The top five included Russia, Georgia, Turkey, Iran and the UAE. The share of tourists accepted from the top five countries in the total number of tourists decreased in the range of 1.5-15.0% in 2022 compared to 2017, the most in Georgia and the least in the UAE, and in Turkey increased by 8.4% over the comparative period. The main reason for the increase in the number of tourists arriving in Azerbaijan from Turkey to this percentage can be explained by the expansion of international relations between the fraternal countries and the trend of these relations in an increasingly positive direction.*

*The further expansion of international relations between the countries affects the acceleration of both socio-economic and cultural-tourist relations. Among these indicators are the number of nights of tourists in various mass accommodation facilities, the cost of hotel services provided to them, etc. It has a positive effect on the economic development of countries hosting tourists. A comparative analysis of the cost of hotel services for 2017-2022 shows that in Azerbaijan this indicator decreased by 11% in 2022 compared to 2017. In our opinion, the decrease in the cost of hotel services provided can be explained by the fact that as a result of the widespread spread of viruses in countries, land ties have not yet been restored, international relations have slowed down relatively, etc.*

***Conclusion****-the expansion of international relations between the countries of the world, as well as the presence of stability, which is a guarantee of dynamic development, etc., has a positive effect on accelerating the international reception of tourists. The acceleration of the International tourist flow between the countries primarily has a positive impact on the economic growth of the country, the level of employment of the population, and ultimately on improving the standard of living of the country's population.*

***Keywords:*** *countries of the world, international relations, tourism activity, employment, standard of living*

doi.org/10.61764/lasr.1.2024.140-153

**Ровшан Худуев**
**Рамиз Искендеров**

# ВЛИЯНИЕ РАСШИРЕНИЯ МЕЖДУНАРОДНЫХ ОТНОШЕНИЙ МЕЖДУ СТРАНАМИ НА ТУРИСТИЧЕСКУЮ АКТИВНОСТЬ, ЗАНЯТОСТЬ И УРОВЕНЬ ЖИЗНИ НАСЕЛЕНИЯ

***Резюме***

***Целью статьи*** *– является выявление влияния экспансии международных отношений на туристическую активность стран, занятость и уровень жизни населения.*

*В статье представлен рейтинг стран по активности туристского приема, на основе сравнительного анализа были использованы методы анализа статистических данных, статистический анализ и др.,* ***методология*** *его влияния на занятость и уровень жизни населения.*

*В статье рассматривается влияние экспансии международных отношений на активность туризма, влияние активизации туристского приема на валютные доходы страны, занятость и уровень жизни населения. По расчетам Всемирной Туристской Организации, несмотря на возникновение глобальных кризисов (экономических) объективных трудностей в мире, нестабильную политическую ситуацию в мировых туристских центрах, в результате расширения международных связей туристская индустрия сумела сохранить стабильность и улучшить свои позиции в экономике стран как высокодоходная и быстро развивающаяся отрасль. В статье, на основе сравнения показателей приема международных туристов в Азербайджане по странам (2017-2022 годы), определены доли количества туристов, принятых из стран с высоким, средним и низким уровнем, по отношению к общему количеству туристов, прибывающих в страну. В первую пятерку вошли Россия, Грузия, Турция, Иран и ОАЭ. Доля туристов, принятых из стран первой пятерки в общем количестве туристов, по сравнению с 2017 годом в 2022 году снизилась в пределах 1,5-15,0%, больше всего в Грузии и меньше всего в ОАЭ, а в Турции за сравнительный период увеличилась на 8,4%. Основная причина роста числа туристов, прибывающих в Азербайджан из Турции, до указанного процента может быть объяснена расширением международных отношений между братскими странами и тенденцией этих отношений во все более позитивном направлении.*

*Дальнейшее расширение международных отношений между странами влияет на ускорение как социально-экономических, так и культурно-туристических отношений. Среди этих показателей-количество ночей туристов в различных средствах массового размещения (СМР), стоимость предоставляемых им гостиничных услуг и т.д. положительно влияет на экономическое развитие стран, принимающих туристов. Сравнительный анализ стоимости гостиничных услуг за 2017-2022 годы показывает, что в Азербайджане данный показатель снизился на 11% в 2022 году по сравнению с 2017 годом. На наш взгляд, снижение стоимости предоставляемых гостиничных услуг можно объяснить тем, что в результате широкого распространения вирусов в странах еще не восстановились сухопутные связи, сравнительно замедлились международные отношения и т.д.*

***Заключение*** *– расширение международных отношений между странами мира, а также наличие стабильности, которая является гарантией динамичного развития и т.д. положительно влияет на ускорение международного приема туристов. Ускорение Международного туристского потока между странами в первую очередь оказывает свое положительное влияние на экономический рост страны, уровень занятости населения, в конечном итоге-на повышение уровня жизни населения страны.*

***Ключевые слова:*** *страны мира, международные отношения, туристическая активность, занятость, уровень жизни*

doi.org/10.61764/lasr.1.2024.154-164

**UOT 338.48**

**Pünhan Hüseynov**
*Azərbaycan Dövlət İqtisad Universiteti, **Azərbaycan***
*doktorant*
*huseynovpunhan@gmail.com*

# AZƏRBAYCANDA DAYANIQLI İNKİŞAFA NEFT GƏLİRLƏRİNİN TƏSİRİ VƏ QEYRİ-NEFT SAHƏLƏRİNİN DİVERSİFİKASİYASI

***Xülasə***

*Məqalədə neft gəlirlərinin Azərbaycanda dayanıqlı inkişafın təmin olunmasında xərclənməsinin əsas istiqamətləri araşdırılır. Azərbaycanda neft gəlirlərindən dövlət büdcəsinə transfertlər, fondun idarə olunması xərcləri, gənclərin xaricdə təhsili, kənd təsərrüfatı və sənayenin müxtəlif sahələrində infrastruktur layihələrinin icra olunması ilə bağlı xəcrlərin maliyyələşdirilməsi üçün istifadə edilməsi nəticəsində dayanıqlı iqtisadi inkişaf keyfiyyətcə yeni bir mərhələyə keçirmişdir. Qeyri-neft sektorunun dinamik və sürətli inkişafı buna bariz nümunədir.*

*O cümlədən məqalədə Azərbaycanda dayanıqlı inkişaf perspektivlərinin müəyyən edilməsi və neft gəlirlərinin gələcəkdə xərclənməsinin prioritet istiqamətləri göstərilir.*

***Məqsəd*** – Azərbaycanda dayanıqlı inkişafın təmin olunmasına neft gəlirlərinin təsiri və xərclərin əsas istiqamətləri və xüsusiyyətlərini tədqiq etməkdir.

***Metodologiya*** – məqalənin yazılması zamanı statistik və müqayisəli təhlil metodlarından istifadə edilmişdir.

***Tədqiqatın nəticələri*** – təbii ehtiyatlardan, xüsusi ilə də neft ehtiyatlarından səmərəli və düzgün istifadə, neft gəlirlərinin qeyri-neft sektoruna və ümumilikdə dayanıqlı inkişafın əsas sahələrinə xərclənməsi milli iqtisadiyyatın möhkəmləndirilməsi üçün xüsusi əhəmiyyət daşıyır. Bu baxımdan məqalədə dayanıqlı inkişafın əsas istiqamətlərinə diqqət yönəldilir və qeyri-neft sektorunun inkişafının əhəmiyyəti vurğulanır.

***Açar sözlər***: *neft, neft sektoru, qeyri-neft sektoru, neft gəlirləri, dayanıqlı inkişaf, diversifikasiya*

## Giriş

Dayanıqlı inkişafın təmin edilməsi əsasən təbii ehtiyatların effektiv istifadəsi və onların gələcək nəsilələrə etibarlı şəkildə çatdırılması ilə bağlıdır. Təbii ehtiyatların effektiv şəkildə istifadə deyildikdə, istifadə olunan resursların müəyyən standartlarda istifadəsi və ətraf mühitə minimal mənfi təsirlər göstərməsi başa düşülməlidir. Dayanıqlı inkişafı təmin etmək üçün, təbii, maliyyə və insan ehtiyatlarının birləşmiş şəkildə həyata keçirilməsi vacibdir.

Sənaye inqilabı və ETT-nin tətbiq edilməsindən öncə milli iqtisadiyyatın inkişaf mərhələsində dövlətlərin öz fokusunu dəyişdirmədən əvvəl, iqtisadi inkişafın əsasında dövlətlərin təbii ehtiyatları və ətraf mühitin mənimsənilmə dərəcəsi dururdu. Təbii ehtiyatların əsası olan resurslar, xarici iqtisadiyyatlara bağlı deyil və ölkədə valyuta itkisinə səbəb olan məhsulların idxalı ilə bağlı məsələlərlə üzləşmirlər. Əksinə, təbii ehtiyatların zəngin resursları olan ölkələr, bu ehtiyatların ixracı ilə ölkəyə xarici valyutanın gətirilməsini təmin edirlər. Bunun birlikdə, ehtiyatların səmərəli və davamlı şəkildə

istifadəsi üçün qısamüddətli dövrdə yüksək istismar, əsasən gəlirin qazanılması üçün dayanıqlı iqtisadi inkişaf modelinin prinsiplərinə ziddir.

Azərbaycan Respublikasının inkişafında və milli iqtisadiyyatının qurulmasında təbii ehtiyatların əhəmiyyəti vacibdir. Ölkə, neft-qaz ehtiyatları, dəmir, alüminium, mis, polimetal, mineral sular, balneoloji ehtiyatlar kimi təbii ehtiyatlar baxımından güclü bir təminata malikdir.. 1994-cü ildə Heydər Əliyev rəhbərliyi ilə "Əsrin müqaviləsi"nin imzalanması ilə milli iqtisadiyyat inkişafda dayanıqlı bir yol tutulmuşdur. Sonrakı tədbirlər, neft-qaz ehtiyatlarının nəqlinə dair boru kəmərlərinin qurulması və ölkənin tranzit potensialının artırılması milli iqtisadi inkişafın sürətini artırmışdır. Azərbaycanın rəsmi olaraq sahib olduğu qeyri-neft sektorundakı ehtiyatlarının səmərəli istifadəsi və balneoloji ehtiyatların iqtisadiyyata qazanc mənbələri kimi istifadəsi, hazırda əsas prioritetlərdən biridir. Qeyri-neft sektorundakı ehtiyatların və turizm potensialının səmərəli istifadəsi, regionların sosial-iqtisadi inkişafına dair qəbul edilmiş proqramlar və milli iqtisadiyyatın inkişafına dair strateji yol xəritələrində öz əksini tapmışdır [2].

İqtisadi inkişafın sürətli şəkildə davam etdirilməsində əsas rol oynayan ehtiyatlar arasında maliyyə ehtiyatlarının da xüsusi önəmi var. Maliyyə ehtiyatlarının əsas məqsədi, ölkə iqtisadiyyatını gözlənilməz hallara qarşı sığortalaşdırmaq, iqtisadiyyatın dayanıqlılığını təmin etmək, beynəlxalq iqtisadi qurumlar tərəfindən verilən reytinq səviyyəsinin yüksəlməsi, monetar siyasətin effektivliyinin artırılması, və dövlətin investisiya siyasətində çeviklik təmin etməkdir. Rəsmi maliyyə ehtiyatlarına daxil olanlar arasında strateji valyuta ehtiyatları, Mərkəzi Bankın valyuta və qızıl rezervləri, büdcəyə daxil olan ehtiyat fondları və büdcədənkənar fondların ehtiyatları sayılmaqdadır. Rəsmi valyuta ehtiyatlarının mövcudluğu dövlət tərəfindən maliyyə dayanıqlılığının təminatı üçün əhəmiyyətli bir vasitədir və çətin zamanlar və iqtisadi böhranlar zamanında iqtisadi sabitliyin təmin edilməsi üçün istifadə edilir [1, s. 267, 274].

**Proqnozlar**

2022-ci ildə dövlət büdcəsinin gəlirləri 30 660,6 milyon manat təşkil etmiş və bunun 7 923,0 milyon manatı və yaxud 25,8 %-i ARDNF tərəfindən transfert edilmişdir. Eyni zamanda, transfert dövlət büdcəsi xərclərinin (32 008,3 milyon manat) 24,7 %-ni təşkil etmişdir. 2022-ci il ərzində xam neftin və qazın qiymətlərinin dövlət büdcəsində nəzərdə tutulan baza qiymətindən yüksək olması ilə əlaqədar dövlət büdcəsinə neft və qaz vergiləri üzrə büdcədə nəzərdə tutulandan daha çox vəsait daxil olmuşdur ki, bu da öz növbəsində dövlət büdcəsinin mühüm daxilolma mənbəyi olan ARDNF-dən dövlət büdcəsinə transfertin məbləğində azalmaya şərait yaratmışdır. Belə ki, 2022-ci ildə dövlət büdcəsinə nəzərdə tutulan transfertin yuxarı həddi 11 517,5 milyon manat olsa da, bu rəqəm 68,8% səviyyəsində icra edilmişdir.

ARDNF-nin idarə edilməsi ilə bağlı xərclərin 2022-ci il üçün təsdiq edilmiş smeta xərclərinə (33,99 milyon manat) qarşı 27,9 milyon manat və ya 82,1% səviyyəsində icrası təmin edilmişdir. Hesabat ilində smeta xərcləri 2021-ci ilə nisbətən 24,1% çox olmuşdur. Xərclər smetasının tərkibində əməyin ödənişi ilə bağlı xərc maddəsi 10 724,5 min manat icra edilərək proqnoza qarşı 69,9% səviyyəsində olmuşdur. Malların (işlərin və xidmətlərin) satın alınması ilə bağlı xərc maddəsi 13 262,5 min manat və ya 87% səviyyəsində icra edilmişdir. Sosial ödənişlər 74,7 min manat və ya təsdiq edilmiş məbləğə qarşı 23% çox icra edilmişdir. Qeyri-maliyyə aktivlərinin alınması ilə bağlı xərc maddəsi 3 834,0 min manat və ya 114,9% səviyyəsində icra edilmişdir [5].

doi.org/10.61764/lasr.1.2024.154-164

**Cədvəl 1. Neft gəlirlərinin xərclənməsi istiqamətləri**

| Xərclərin istiqaməti və adı | Milyon AZN | Faiz |
|---|---|---|
| Qaçqın və məcburi köçkünlərin sosial-məişət vəziyyətinin yaxşılaşdırılması və məskunlaşdırılması (ARDNF tərəfindən layihənin maliyyələşdirilməsi davam edir) | 2702,7 | 1,72 |
| Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri (Layihənin maliyyələşdirilməsi 2006-cı ildə başa çatmışdır) | 297,9 | 0,19 |
| Oğuz-Qəbələ-Bakı su kəməri layihəsi (Layihənin maliyyələşdirilməsi 2011-ci ildə başa çatmışdır) | 779,6 | 0,50 |
| Samur-Abşeron suvarma sisteminin yenidən qurulması (ARDNF tərəfindən layihənin maliyyələşdirilməsi başa çatmışdır) | 1469,6 | 0,94 |
| Dövlət büdcəsinə transfertlər | 143150,9 | 91,33 |
| Dövlət İnvestisiya Şirkətinin nizamnamə kapitalının maliyyələşdirilməsi (Layihənin maliyyələşdirilməsi 2006-cı ildə başa çatmışdır) | 90 | 0,06 |
| Bakı-Tbilisi-Qars yeni dəmir yolu layihəsi (ARDNF tərəfindən layihənin maliyyələşdirilməsi başa çatmışdır) | 748,6 | 0,48 |
| Xaricdə təhsil üzrə Dövlət Proqramı (ARDNF tərəfindən layihənin maliyyələşdirilməsi başa çatmışdır) | 212,7 | 0,14 |
| “Star” neft emalı kompleksinin tikintisi (ARDNF tərəfindən layihənin maliyyələşdirilməsi başa çatmışdır) | 1663,3 | 1,06 |
| AÇG layihəsində ARDNŞ-nin iştirak payının maliyyələşdirilməsi (Layihənin maliyyələşdirilməsi 2007-ci ildə başa çatmışdır) | 87,6 | 0,06 |
| Cənub Qaz Dəhlizi (ARDNF tərəfindən layihənin maliyyələşdirilməsi başa çatmışdır) | 1530,3 | 0,98 |
| Azərbaycan Respublikasının Mərkəzi Bankına transfert | 3949,5 | 2,52 |
| 2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyin artırılması üzrə Dövlət Proqramı | 64,4 | 0,04 |
| **Cəmi** | **156747,1** | **100,00** |

*Mənbə:* [5] əsasında tərtib edilmişdir

## Materiallar və metod

Neft gəlirlərinin istifadəsi və paylanmasının mərkəzləşdirilmiş mexanizmlərlə tənzimlənməsi Azərbaycan üçün ən vacib məsələlərdən biridir. Bu, neftdən əldə edilən gəlirlərin digər iqtisadi sahələrə yönləndirilməsi, qeyri-neft sektorunda yeni istehsal obyektlərinin yaradılması və yeni iş yerlərinin açılması, əhalinin sosial müdafiəsinin gücləndirilməsi ilə əlaqəlidir. Neft hasilatı, Azərbaycan üçün yalnız son məqsəd deyil, əksinə, iqtisadiyyatın inkişafı üçün bir vasitədir.

Regionların sosial-iqtisadi inkişaf Dövlət Proqramlarında neftdən əldə edilən gəlirlərin milli iqtisadiyyatın inkişafına səmərəli şəkildə istifadə edilməsi məsələsinə xüsusi diqqət yetirilmişdir. Bu fərmanlar, sahibkarlığın inkişafını sürətləndirmək, əmək ehtiyatları və təbii resurslardan səmərəli şəkildə istifadə edərək yeni iş yerlərinin

doi.org/10.61764/lasr.1.2024.154-164

yaradılmasını və yoxsulluğun azaldılmasını təmin etmək məqsədilə imzalanmışdır. Bu fərmanlarla birlikdə, bürokratik proseslərin sərbəstləşdirilməsi və iş adamlarının fəaliyyətlərinə mane ola biləcək məsələlərin aradan qaldırılması da təmin edilməklə, qısa müddət ərzində 75 mindən çox yeni iş yeri açılması və işsizlər sayının 44% azalması kimi uğurlar qeydə alınmışdır.

Əhalinin sosial müdafiəsinin gücləndirilməsi və iqtisadiyyatın inkişafı üçün neft gəlirlərinin səmərəli şəkildə istifadə edilməsi, idarə olunması və ehtiyatlarının təkrar istehsal olunması problemləri ilə bağlı tədbirlərin həyata keçirilməsi vacibdir. Bu məqsədlə, mərkəzləşdirilmiş mexanizmlər və qaydaların təyin edilməsi, neft gəlirlərinin qeyri-neft sahələrinin inkişafına, sosial sahələrə və digər iqtisadi sahələrə effektiv şəkildə yönəldilməsinin təmin edilməsi vacibdir.

Neft gəlirləri ölkənin iqtisadiyyatında yaranan problemlərin həllinə yönəldilməlidir. Ölkə, məhdud təbii ehtiyatlarına baxmayaraq, dövlət himayəçilik siyasəti sayəsində iqtisadi yüksəlişə nail olmağa çalışır. Dövlətin tənzimləyici rolu ilə birlikdə yüksək inkişaf tempinə çatmaq özünəməxsus bir imkan yaradır. Bu, strateji məsələlərin effektiv şəkildə həllinə zəmin yaradır. Dövlət Neft Fondu vasitəsilə dövlətə daxil olan vəsait axımı, zəmanətsiz pul emissiyasına imkan verərək, ölkə iqtisadiyyatına xarici investisiyalar və yeni maliyyə mənbələri axtarmağı tələb etmədən, iqtisadiyyatın prioritet sahələrinin inkişafı və zəruri vəsaitlərin ayrılması məsələlərinin həllinə imkan yaradır. Bu, ölkənin sürətli iqtisadi inkişafını və möhkəmlənməsini təmin edən bir mexanizm yaradır.

Neft gəlirləri, potensial imkanların strateji rolu ilə qiymətləndirilir. Bu, neft gəlirlərinin sahə, ərazi və funksional məqsədlərə görə bölünməsi ilə əlaqəlidir. Bu bölünmələr respublika iqtisadiyyatının makroiqtisadi proqnozlarının səmərəli təşkili və bu proqnozların reallaşmasında neft gəlirlərindən maksimum istifadə olunması ilə mümkündür.

Həmçinin, neft gəlirlərinin rifah və tələbatın ödənilməsi dərəcəsinin maksimallaşdırılması üçün atılan addımlar ilə ölçülür. Bu, gəlirlərin inteqral səmərə gətirməsi qabiliyyətinin qiymətləndirilməsini əhatə edir.

Digər tərəfdən, gəlirlərin fərqli sahibkarlıq növləri və məhsul və xidmət növlərinin dəyişmə meyli ilə bağlı olaraq ayrı-ayrı kontingentlər və bazar subyektləri üçün də qiymətləndirilir. Bu, gəlirlərin diferensial səmərəsini qiymətləndirməkdə istifadə olunan bir qiymətləndirilmə metodikasıdır.

Neft gəlirləri Azərbaycan iqtisadiyyatının müxtəlif sahələrinə məqsədli kapital qoyuluşları, qlobal inkişaf meyilləri və bazarın qorunması konsepsiyası ilə bağlıdır. Bu səbəbdən neft gəlirlərindən səmərəli istifadə olunması perspektiv imkanları artırır.

Neft sektorunun rolu, dövlətin və əhalinin gəlirlərinin formalaşmasında əsaslı bölgü və yenidən bölgüsü mexanizmlərinin vasitəsiylə formalaşır və dərinləşir. Neft gəlirləri istehlak və yığım məqsədiylə bölündükdə təkrar istehsal prinsipi həyata keçirilir. Hazırda mövcud olan istehlak ilə perspektiv gəlirlər arasında keçidin forması və məzmunu, onun bölgü və yenidən bölgü mexanizmlərinin effektini göstərir. Neft sənayesi heç də hamını ələbaxımlığa çevirməməlidir. O, yalnız perspektiv gəlirlərin formalaşması üçün ilkin kapital rolu oynamalıdır.

Əgər Azərbaycan iqtisadiyyatında istehlak sahəsində neft gəlirlərindən istifadə olunsa, onda perspektiv gəlirlərin mənbəyi azala bilər. Buna görə də neft gəlirlərinin səmərəliliyi, onun perspektiv gəlirlərlə olan rolu ilə ölçülür. Xarici və daxili investisiyaların dəyişmə meyli gəlirlərin bölgüsünün xarakterini müəyyənləşdirir.

Neft gəlirlərinin istifadə olunmasından əvvəl onun həcmi və artımını nəzərə almaq, daha səmərəli variantların tərtib edilməsi üçün vacibdir. Neft gəlirləri, ölkə iqtisadiyyatının kompleks inkişafı və strateji məqsədləri əsasında özünün spesifik xüsusiyyətlərini göstərir. Bu gəlirlərin həcmi və istifadəsi ölkənin artım tempinə uyğun olmalıdır və istifadə tempini

artırmalıdır.

Neft gəlirlərinin məqsədli istifadə olunması, ölkənin dünya bazarlarında sürətli bir artım qazanması ilə əlaqələndirilir. Bugünkü şəraitdə, bu gəlirlərin kredit resursu kimi istifadəsi mümkündür, amma bazar münasibətlərinin qarışıqlığı və qərarlaşmamışlığı səbəbindən bu, riskli addım olaraq görünür. Bu səbəbdən neftin ilkin amili onun istehsal həcmini maksimumlaşdırmaqdır.

Neft gəlirləri, dövlət gəlirlərinin önəmli bir hissəsidir və onların formalaşması və istifadəsi, dövlətin sosial ədalət və iqtisadiyyatın inkişafı ilə perspektiv tələblər arasında optimal nisbətlərin qurulmasını tələb edir. Neft gəlirləri, ölkə iqtisadiyyatının sahə quruluşunda əhəmiyyətli bir rol oynayır və ölkənin maliyyə potensialının formalaşmasının əsasını təşkil edir.

Bu gəlirlər, dövlət büdcəsinin tərkib hissəsidir və vergi, sosial ödəmələr və əməkhaqqı kimi mexanizmlər vasitəsilə bölgü və yenidən bölgü sistemində iştirak edir. Neft sahəsinin vergi gəlirləri, dövlət büdcəsinin mərkəzləşdirilmiş gəlirlərinin əsas hissəsini təşkil edir. Həmçinin, Dövlət Neft Fondunun idarə olunması, neft gəlirlərinin potensial istifadə imkanlarını yaradır.

Neft gəlirlərinin bir hissəsi əməkhaqqı sistemində işləyənlərə verilir. Xarici firmalarda yerli əhalinin iş qüvvəsindən istifadə edilməsi, bu gəlirlərin əhalinin maliyyə balansına daxil olmasını təmin edir. Bu nəticədə, neft gəlirlərinin ölçüsü, dövlətin alıcılıq qabiliyyəti və onların respublikada xərclənən hissəsi ilə ölçülür.

Bütün bu proseslər, neft gəlirlərinin dövlət və iqtisadiyyat üçün kritik önəmə malik olduğunu və onların səmərəli şəkildə idarə olunması və istifadə olunması üçün effektiv strukturların qurulmasının əhəmiyyətini göstərir.

Neft gəlirlərinin sosial mahiyyəti, xüsusilə işləyənlərin həyat səviyyəsi və adambaşına neft gəlirlərinin miqdarı ilə müqayisədə qeydə alınır. Bu, sosial müdafiə proqramlarının təşkili, əmək haqqı və sosial ödənişlər kimi formalar üzrə neft gəlirlərinin məbləği ilə əlaqələndirilir.

Bununla birlikdə, neft gəlirlərinin istifadəsində optimal nisbətlərin təmin edilməsi vacibdir. Yəni, neft gəlirlərinin yığılması və istehlakı arasında dəqiqlik və balans qurulmalıdır. Əgər neft gəlirləri investisiya məqsədi ilə istifadə olunursa, bu, iqtisadi artımı təmin etməlidir. Bu məqsədə nail olmaq üçün, neft gəlirlərinin səmərəli investisiya istiqamətlərinə yönləndirilməsi vacibdir.

Neft gəlirlərinin sosial infrastruktur layihələrinə kapital qoyuluşu ilə əlaqələndirilməsi də önəmli bir yoldur. Bu, sosial müdafiə, tibbi infrastruktur, təhsil və digər sosial layihələrin inkişafına investisiya edilməsi deməkdir. Bundan başqa, əhalinin minimum yaşayış səviyyəsinin artırılması üçün neft gəlirlərinin istifadəsi də vacibdir. Bu, sosial təminat proqramları və yoxsulluğun azaldılması üçün lazımi tədbirlərin həyata keçirilməsi deməkdir.

Bütün bu addımlar, neft gəlirlərinin səmərəli şəkildə idarə olunması və ölkənin sosial və iqtisadi inkişafına effektiv şəkildə kömək etməsi üçün vacibdir.

Neft gəlirləri, Azərbaycan Respublikası iqtisadiyyatında müxtəlif sahələrin inkişafına və sosial müdafiə tədbirlərinə böyük ölçüdə təkan verir. Bu gəlirlər, neft istehsal sahəsində, neft məhsullarının reallaşmasında və neft sektorunda fəaliyyət göstərən şirkətlərin ödəmələri və iştirakı vasitəsilə əldə olunur.

**Müzakirə**

Neft sahəsi Azərbaycan iqtisadiyyatında aparıcı rola malikdir və ölkənin makroiqtisadi artım tempini, tarazlı inkişaf dinamikasını və sosial müdafiə tədbirlərini dəstəkləyir. Bu gəlirlər, ölkədə islahatlar proqramının həyata keçirilməsi, yoxsulluğun ləğvi,

iqtisadi inkişaf proqramları və regionların sosial-iqtisadi inkişafı dövlət proqramı kimi strateji planlar çərçivəsində fəaliyyət göstərir.

Ümumi daxili məhsulun sahə strukturunun dəyişməsi, sahələrin istehsal həcminin artımı və bu sahələrə qoyulan faktiki kapital qoyuluşunun artımı da neft gəlirlərinin ölçüsüdür.

Neft gəlirlərinin makroiqtisadi tələb, tarazlı inkişaf vəziyyətinin möhkəmləndirilməsi ilə əlaqəlidir. Bu, infrastrukturun genişləndirilməsi, yeni iş yerlərinin açılması, işləyənlərin əməkhaqlarının və sosial müdafiəsinin gücləndirilməsi kimi tədbirləri əhatə edir. Bu yolla, neft gəlirləri Azərbaycan iqtisadiyyatının inkişafına və sosial sahələrin gücləndirilməsinə dəstək olur.

Makroiqtisadi tarazlığın təmin edilməsi məqsədilə ölkədə büdcə gəlirlərinin və Dövlət Neft Fondunun əlaqələrinin qurulması, neft gəlirlərinin bölgüsü ilə büdcə xərclərinin təkrar istehsalı, texnoloji quruluş və sahələr üzrə təsnifatın tətbiqi kimi mexanizmlər öhdəliklərin yerinə yetirilməsinə kömək edir. Bu mexanizmlərin seçilməsi və idarə edilməsi qlobal inkişaf strategiyasına uyğun olmalıdır.

Dövlət Neft Fondunun büdcə vasitəsi ilə istifadəsi müəyyən risklərlə əlaqədar ola bilər. Bu səbəbdən, onun büdcə daxilolmalarının təsdiqi və nəzarəti mühüm rol oynayır. Dövlət Neft Fondundan büdcəyə vəsait ayrılması, bu fondun gəlir və xərclərinin dövlət büdcəsinin prioritet istiqamətlərinə uyğun olmasını təmin edir. Bu ayırma prosesi, büdcənin şəffaflığı və real sektor ilə əlaqəli olması ilə də müəyyən olunur.

Neft gəlirlərinin saxlanması və Dövlət Neft Fondu vasitəsilə idarə olunması, Azərbaycanın iqtisadi transformasiya və restrukturizasiya istiqamətlərinə uyğun olaraq prioritetlərin müəyyən edilməsində əhəmiyyətli bir rol oynayır. Dövlət Neft Fondu bu istiqamətlərə uyğun olaraq müxtəlif variantlarda istifadə edilə bilər.

Dövlət Neft Fondu vasitəsilə əldə edilən vəsaitlərin istifadəsi mövcud risklərlə bağlıdır. Əgər riskləri yüksək olan sahələrə bu vəsaitlər cəlb olunarsa, onun sosial-iqtisadi effekti tam şəkildə reallaşa bilməz. Bu səbəbdən, Dövlət Neft Fondu vəsaitlərinin istifadəsində sosial müdafiə tədbirləri və digər birbaşa ayırmalar üzrə vəsaitlərin xüsusi öhdəliklərə əsaslanaraq, sosial normativlərə uyğun şəkildə idarə olunur.

Azərbaycanda Dövlət Neft Fondu gəlirləri və xərcləri, büdcə vasitəsi ilə və Prezidentin yanında yaradılan Şura tərəfindən idarə olunur. Bu idarəetmə nəzarəti altında, neft gəlirlərinin istifadəsi və xərclərin müəyyən edilməsi məqsədi ilə vəsaitlərin effektiv şəkildə istifadə edilməsi təmin edilir.

Neft gəlirlərinin artması, ölkə üçün ticarət və xidmət sahələrinin inkişafı üçün əsas mənbə olaraq qarşımıza çıxır. Bu artım beynəlxalq ticarəti, turizmi və dövlət lizinq şirkətlərini də dəstəkləyə bilər.

Dünya iqtisadiyyatının inkişafı ölkələr arasında ticarət əlaqələrinin inkişafından asılıdır. Ölkələr arasında hərtərəfli əməkdaşlığın yaranması, dünya iqtisadiyyatının genişlənməsi üçün vacibdir. Ticarət, yeni texnika, texnologiyalar, elmi kəşflər və qabaqcıl təcrübələrin paylaşılmasında əhəmiyyətli bir rol oynayır.

Azərbaycan dünya ölkələri ilə sərbəst ticarət əməkdaşlığı imkanlarına malikdir. İqtisadi islahatlar, neft sənayesinin inkişafı və infrastrukturdakı təkmilləşmələr Azərbaycanı dünya ticarət dövriyyəsində daha cəzbedici edir.

Son illərdə Azərbaycanın ticarət dövriyyəsi artmaqdadır. Neft sənayesinin inkişafı ilə əlaqədar olaraq, ABŞ, İngiltərə, Fransa, Rusiya, Almaniya və digər Avropa ölkələri ilə ticarət əməkdaşlığı artmışdır. Bu, Azərbaycanın ixracının artmasına və digər ölkələrdən malların idxalına da imkan verir.

Azərbaycanın coğrafi mövqeyi, təbii ehtiyatları, müasir infrastrukturu və iqtisadi inkişafı, xarici şirkətlərin ölkəyə marağını artırır. Azərbaycanın regionda və dünya

